Təbrik edirik!



Akademik Ziyad Səmədzadə

Hörmətli oxucular!

*25 iyun 2025-ci il tarixdə görkəmli ictimai-siyasi xadim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, iqtisad elmləri doktoru, professor, bir sıra nüfuzlu xarici elmi qurumlarda ölkəmizi şərəflə təmsil edən Azərbaycan İqtisadçılar İttifaqının sədri, jurnalımızın redaksiya heyətinin fəal üzvlərindən biri **Ziyad Əliabbas oğlu Səmədzadənin** anadan olmasının 85 ili tamam olmuşdur.*

Bu münasibətlə 23 iyun 2025-ci il tarixində AMEA-nın Rəyasət Heyətinin təşkilatçılığı ilə respublikanın elmi ictimaiyyətinin nümayəndələrinin, tanınmış ziyalıların iştirakı ilə Akademiyanın Mərkəzi Elmi Kitabxanasının "Şuşa" zalında təntənəli yubiley tədbiri keçirilmişdir.

Jurnalımızın redaksiya heyəti üzvləri, universitetimizin professor-müəllim heyəti, çoxminli tələbələri adından yubilyarı ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yeni-yeni uğurlar diləyirik!

Akademik Ziyad Səmədzadənin elmi əsərləri



“Kooperasiya” elmi-praktiki jurnal

Научно-практический журнал “Кооперация”

Scientific-practical journal “Cooperation”

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 2 (77)-2025

TƏSİSÇİ: AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

Redaksiya heyəti:

i.e.d., prof. Eldar QULİYEV **(baş redaktor)**
i.e.d., prof., Əməkdar elm xadimi, Bəyalı ATAŞOV
(baş redaktorun müavini)
i.e.n., dos. Samirə MƏMMƏDOVA **(məsul redaktor)**
i.e.d., prof. AMEA-nın həqiqi üzvü Ziyad SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü Əli NURİYEV
i.e.d., prof. Eldar İBRAHİMOV
i.e.d., prof. Vüsal QASIMLI
i.e.d., prof. Zahid MƏMMƏDOV
i.e.d., prof. Rəsul BALAYEV
i.e.d., prof. Aygün QULİYEVA
i.e.d., prof. İslam İBRAHİMOV
i.e.d., prof. Şəfa ƏLİYEV
i.e.d. Murad Tağıyev
f.e.d. Müslüm Nəzərov
i.e.d., dos. Rəsmiyyə ABDULLAYEVA
i.e.d., dos. Möhübbət HÜSEYNOV
i.e.n., dos. Tahir ŞÜKÜROV
i.e.d., prof. Müslüm İbrahimov
(Almaniya Federativ Respublikası)
i.e.d., prof. Aleksandr Tkaç
(Rusiya Federasiyası)
Dr. Mustafa Emek
(Türkiyə Cümhuriyyəti)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.

2023-cü ilin 4-cü nömrəsindən başlayaraq jurnala Rəqəmsal Obyekt İdentifikatoru (DOİ) verilmişdir.

Redaksiyanın ünvanı:
AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: aku1964@mail.ru
info@aku.edu.az
web: www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.
Tirajı 300 ədəd

Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU
Kompüter və dizayn: Hacı İSMAYILOV

MÜNDƏRİCAT

Eldar Rza oğlu İBRAHİMOV, Eldar Allahyar oğlu QULİYEV
Akademik Ziyad Əliabbas oğlu Səmədzadə - 85: Vətənə xidmətdə keçən ömür 7

I BÖLMƏ.
AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BƏRPA İŞLƏRİ VƏ YAŞIL İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ

Fuad Məmməd oğlu BƏDİROV
Yaşıl iqtisadiyyatın inkişafında innovasiyaların rolu və əsas göstəricilərinin qiymətləndirilməsi 12
https://doi.org/10.30546/4.71.73001.2025.002.05

Səmanur Asif qızı KƏRİMOVA, Tərlan Növrəs oğlu NÖVRƏSLİ
Azad olunmuş ərazilərdə iqtisadiyyatın və biomüxtəlifliyin bərpası yolları.....21
https://doi.org/10.30546/4.71.73001.2025.002.014

Rəvan Malik oğlu PAŞAZADƏ
İşğaldan azad edilmiş ərazilərdə (İAEƏ-də) infrastruktur sisteminin inkişaf etdirilməsinin prioritetləri 28
https://doi.org/10.30546/4.71.73001.2025.002.021

Paşa Allahverdi oğlu MAHMUDOV
Azad olunmuş ərazilərdə yaşıl enerji sahəsindəki investisiyaların təhlili və onların inkişaf potensialı.....36
https://doi.org/10.30546/4.71.73001.2025.002.029

Nahid Nazim oğlu ALMASOV
Təbiət və iqtisadiyyatın qarşılıqlı əlaqəsi çərçivəsində Qarabağın yaşıl inkişaf imkanları.....46
https://doi.org/10.30546/4.71.73001.2025.002.039

II BÖLMƏ.
MİLLİ İQTİSADİYYATIN VƏ YÜNGÜL SƏNAYENİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

Mübariz Məmmədhüseyn oğlu BAĞIROV, Nurlan İlham oğlu ABDULLAZADƏ
Milli iqtisadiyyatın strukturunun əsas xüsusiyyətləri.....54
https://doi.org/10.30546/4.71.73001.2025.002.047

Nərminə Allahverdi qızı QULİYEVA
Müasir iqtisadiyyatda istehsalın təşkili və idarə edilməsi: yanaşmalar və perspektivlər 62
https://doi.org/10.30546/4.71.73001.2025.002.055

Günay Qnyaz qızı HƏŞİMOVA
Azərbaycanda yüngül sənaye sahəsinin inkişaf etdirilməsi istiqamətləri.....70
https://doi.org/10.30546/4.71.73001.2025.002.063

III BÖLMƏ.
AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI

Səmayə Oqtay qızı BABAYEVA
Aqrar iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin sahənin dayanıqlı inkişafına təsiri.....79
https://doi.org/10.30546/4.71.73001.2025.002.072

Anar Vidadi oğlu BAYRAMOV
Kənd təsərrüfatı məhsullarının tədarük zəncirində rəqabət intensivliyinin dəyərləndirilməsi.....87
https://doi.org/10.30546/4.71.73001.2025.002.080

Mübariz Məmmədhüseyn oğlu BAĞIROV, Əli Rasim oğlu ABDULLAZADƏ
Qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsinin dünya təcrübəsi.....96
https://doi.org/10.30546/4.71.73001.2025.002.089

Aina Vaxub qızı ZEİNALOVA, Azər Balabəy oğlu MAZANOV
Şərabçılıq sənayesinin inkişafı və maliyyə hesabatlılığının təşkili problemlərinin nəzəri-metodoloji əsasları.....104
https://doi.org/10.30546/4.71.73001.2025.002.097

Əli Rasim oğlu ABDULLAZADƏ
Müəssisələrdə dayanıqlı inkişafın təmin edilməsinin nəzəri məsələləri.....114
https://doi.org/10.30546/4.71.73001.2025.002.0107

IV BÖLMƏ.
BANK FƏALİYYƏTİ, MÜHASİBAT UÇOTU VƏ LİZİNQ İNKİŞAFI

Şəbnəm Ceyhun qızı NƏSİROVA, Nurəngiz Yanvar qızı MİKAYILOVA
Bank fəaliyyətinin hüquqi və praktiki aspektlərinin təkmilləşdirilməsi.....123
https://doi.org/10.30546/4.71.73001.2025.002.0116

Günay Vahid qızı İSMAYILOVA, Nərgiz Şamil qızı XALIQOVA
Banklarda etik davranışın icra mexanizminin mövcud vəziyyətinin təhlili 132
https://doi.org/10.30546/4.71.73001.2025.002.0126

Vüsalə Musa qızı BABAYEVA, Fərid Şahbaz oğlu ƏZİMLİ
Xidmət sektorunda fəaliyyət göstərən müəssisələrdə mühasibat uçotu və hesabatın təşkili problemlərinin tədqiqi 139
https://doi.org/10.30546/4.71.73001.2025.002.0133

Leyla Feyzulla qızı SADIXOVA, Firuzə Nəcəf qızı ƏLİYEVA
Lizinq şirkətlərində investisiya risklərinin idarə edilməsi sisteminin qurulması metodları.....148
https://doi.org/10.30546/4.71.73001.2025.002.0142

Эльчин Ровшан оглы БАБАЕВ
Перспективы развития лизинга в Азербайджане посредством сравнительного анализа Международных Стандартов Финансовой Отчетности 16 и Международных Стандартов Финансовой Отчетности 20 для Малым и Средним Предприятиям 155
https://doi.org/10.30546/4.71.73001.2025.002.0149

V BÖLMƏ.
İSTEHLAKÇILARIN DAVRANIŞ XÜSUSİYYƏTLƏRİ MARKETİNQ, İNFORMASİYA TEXNOLOGİYALARI

Fikrət Vəli oğlu QULİYEV
Azərbaycan istehlakçılarının davranış xüsusiyyətləri 162
https://doi.org/10.30546/4.71.73001.2025.002.0156

Mehriban Hamiz qızı DƏRZİYEVA, Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA
Şirkətlərin marketinq kommunikasiyalarının təkmilləşdirilməsi istiqamətləri 172
https://doi.org/10.30546/4.71.73001.2025.002.0166

Simarə Ramazan qızı ƏHMƏDOVA, Pərviz Əhməd oğlu QURBANOV
İnformasiya müdafiəsi texnologiyası.....182
https://doi.org/10.30546/4.71.73001.2025.002.0176

Elvin Vugar ALIZADA
Evaluating the benefits, challenges, and risks of digital platforms in the transportation industry 190
https://doi.org/10.30546/4.71.73001.2025.002.0184

VI BÖLMƏ.
XARİCİ İQTİSADİ ƏLAQƏLƏR VƏ AZƏRBAYCANIN NƏQLİYYAT-LOGİSTİKA POTENSİALI, BƏLƏDİYYƏ ORQANLARININ TƏŞKİLİ

Ümmühəbibə Məmmədtağı qızı QƏLƏNDƏROVA
Azərbaycanın xarici iqtisadi əlaqələrinin mahiyyəti və onun prioritetləri 198
https://doi.org/10.30546/4.71.73001.2025.002.0192

Murad Rahim oğlu MƏMMƏDOV
Azərbaycanın nəqliyyat – logistika potensialının qiymətləndirilməsi.....206
https://doi.org/10.30546/4.71.73001.2025.002.0200

Cəmilə Elçin qızı QULİYEVA
Nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi 214
https://doi.org/10.30546/4.71.73001.2025.002.0208

Kubra Muxtar qızı QULUZADƏ, Firuzə Nəcəf qızı ƏLİYEVA
Bələdiyyələrin fəaliyyətinin normativ əsasları və bələdiyyə orqanlarının təşkili qaydaları.....222
https://doi.org/10.30546/4.71.73001.2025.002.0216

Eldar Rza oğlu İBRAHİMOV
Azərbaycan Respublikası Milli Məclisinin
İntizam Komissiyasının sədri,
iqtisad elmləri doktoru, professor

Eldar Allahyar oğlu QULİYEV
Milli Məclisinin Hesablayıcı Komissiyasının sədri,
Azərbaycan Kooperasiya Universitetinin rektoru,
iqtisad elmləri doktoru, professor

Akademik Ziyad Əliabbas oğlu Səmədzadə – 85

VƏTƏNƏ XİDMƏTDƏ KEÇƏN ÖMÜR

Çağdaş Azərbaycan iqtisad elminin korifeylərindən biri kimi tarixə öz adını həkk edən Ziyad müəllim tükənməz enerjiyə malik, əhatəli və səmərəli işgüzarlığa və sistemli elmi təhlilin incəliklərinə mükəmməl bələd olan bir tədqiqatçı və yüksək təşkilatçılıq qabiliyyəti olan alimdir. Onu başqalarından fərqləndirən əsas cəhətlərdən biri apardığı elmi tədqiqatların daha konkret olması, əldə etdiyi nəticələrin yüksək səmərəliliyi və hazırladığı tövsiyələrin praktikada tətbiqi üçün icra mexanizminin mövcudluğudur. O, keçən əsrin 70-ci illərində ilk dəfə olaraq respublika sənayesinin demək olar ki, bütün sahələrini əhatə edən çox böyük həcmdə statistik informasiya və konkret müəssisələr üzrə məlumatlar əsasında istehsalın səmərəlilik göstəricilərini xalis məhsula görə hesablamış, iqtisadi artım, struktur problemlərinə dair sanballı elmi nəticələr əldə etmişdir. Qeyd etmək lazımdır ki, həmin dövrdə SSRİ-də iqtisadi artım xarici ölkələrdə olduğu kimi xalis məhsula (ümumi daxili məhsula) görə hesablanmırdı və bu ittifaqda yenilik idi. Məhz buna görə gərgin zəhmət bahasına görülmüş bu iş ittifaq alimləri və respublikamızın Dövlət Plan Komitəsi tərəfindən yüksək qiymətləndirilmişdi.

Ziyad müəllim həm də böyük vətənpərvər alimdir. Belə ki, 80-ci illərin ortalarında SSRİ Elmlər Akademiyası nəzdində xalqımızın yaddaşında qatı düsmən kimi qalan Aqanbekyanın sədrliyi ilə “Kaspiyskoye more” proqramının islənilməsi nəzərdə tutulmusdu. Tərtib edilmiş proqramda Xəzərin təbii sərvətlərindən istifadəsi ilə bağlı çox böyük islər müəyyənləsdirilsə də bu proqramda heç bir əsas olmadan Azərbaycana müqayisəedilməz dərəcədə çox az yer verilmisdi. SSRİ Elmlər Akademiyasının prezidenti, akademik Marçukun sədrliyi ilə Moskvada keçirilən Xəzər problemlərinə həsr edilən sessiyada Z.Səmədzadə bu məsələyə etirazını bildirmiş və çıxışında Xəzərin sərvətlərinin mənimsənilməsində Azərbaycanın müstəsna rola malik olduğunu faktlarla əsaslandırmısdır. Yaxşı oldu ki, həmin proqramın həyata keçməsi baş tutmadı.

Z.Səmədzadə öz həmkarları ilə birlikdə bütövlükdə SSRİ və ayrı-ayrı müttəfiq respublikalar üzrə külli miqdarda materiallar əsasında müqayisələr və mürəkkəb elmi hesablamalar apararaq sübut etdi ki, İttifaqda uzun müddət tətbiq olunan mərkəzləsdirilmiş plan-maliyyə sisteminə xas olan çox ciddi qüsurlar mövcuddur və respublikamızın ərazisində yaradılan Milli gəlirdən özünün istifadə hüquqları yolverilməz dərəcədə məhdudlasdırılr. Belə ki, bəzi müttəfiq respublikalar (o cümlədən Ermənistan) İttifaqa az məhsul verib çox alırsa, Azərbaycan çox verib az alır. Bununla da o, elmi cəhətdən əsaslandırılmış belə bir nəticəyə gəldi ki, Azərbaycan Respublikası digər ölkələrdən asılı olmadan müstəqil dövlət kimi fəaliyyət göstərmək iqtidarındadır. Bu tədqiqatın nəticələrinə əsasən 1989-cu ildə İttifaqda ilk dəfə olaraq akademikin elmi rəhbərliyi ilə regional təsərrüfat hesabı və Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinə həsr olunmuş respublika

miqyaslı böyük bir elmi-praktik konfrans keçirildi. Konfransda hazırlanan tövsiyələr Azərbaycanın iqtisadi müstəqilliyi haqqında qanun layihəsi üçün əsas oldu. Alim təkidlə sübut edirdi ki, yeni iqtisadi sistem qurmaq və iqtisadiyyatı dirçəltmək üçün iqtisadiyyatın dövlət tənzimləməsi lazımdır. Çünki risklərin və təhdidlərin artdığı bir şəraitdə hər şeyi bazar münasibətlərinin öhdəsinə buraxıb bazarı fetişləşdirmək olmaz. Yeri gəlmiskən qeyd etmək lazımdır ki, akademik bu məsələdə bu gün də çox prinsipial və aydın mövqe tutur və onun bu mövqeyi dünyanın bir sıra keyfiyyətlə inkişaf edən ölkələrinin, o cümlədən respublikamızın təcrübəsində öz təsdiqini tapır. Onun elmi tədqiqatları sübut edir ki, Ziyad Səmədzadə geniş elmi potensiala malik, uzaqgörən, dərin və sistemli elmi təhlillər aparan və əsaslandırılmış nəticələr əldə etməyi bacaran yüksək intellektli tədqiqatçı alimdir.

1991-1992-ci illərdə Azərbaycan SSR Ali Soveti sədrinin birinci müavini işlədiyi dövrdə Ziyad müəllimin çoxdankı arzusunun çin olması üçün şərait yaranmış və Ali Sovetin onun sədrliyi ilə keçən iclasında Azərbaycan Respublikasının müstəqillik aktı qəbul edilmisdir.

80-ci illərin sonu və 90-cı illərin əvvəlində müstəqilliyə keçid dövründə partiya, sovet və təsərrüfat (Dövlət Plan İqtisad Komitəsinin sədri, Baş nazirin birinci müavini) orqanlarında rəhbər vəzifələrdə qazandığı təcrübə Z.Səmədzadənin yüksək təşkilatçılıq bacarığının formalasmasına təsirsiz ötüsməmisdir. O, son 25 ildə iqtisadiyyatın bir çox istiqamətləri üzrə çoxsaylı disputlar, seminarlar, “dəyirmi masa” yığıncaqları, elmi konfranslar keçirilməsinə təşkilati rəhbərlik etmiş və bu tədbirlərdə fəal istirak etmisdir.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş “Böyük yolun mərhələləri: Azərbaycan iqtisadiyyatı yarım əsrdə, onun yeni reallıqları və perspektivləri” adlı 932 səhifəlik monoqrafiya (rus dilində, 2004-cü il) öz elmi tutumu, məntiqi və şərhi üslubuna görə fərqlənməklə Ziyad Səmədzadə yaradıcılığının şah əsəri hesab olunur. Bu kitab Avropa Elmlər Akademiyasının qızıl diplomuna layiq görülmüşdür. Bakıda doğulub boya-başa çatan, Azərbaycan neft sənayesinə yaxından bələd olan keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri N.Baybakov bu kitabın qeyri-adi əsər olduğunu qeyd edir, onu Azərbaycanın iqtisadi keçmişinə və bu gününə analitik ekskursiya adlandırmaqla kitabda gələcəyə baxısların yer aldığını da vurğulayır. O, yazır : “Ziyad Səmədzadənin kitabı rəhmətlik Heydər Əliyevə həsr olunub və bu çox fərəhlidir. Birbaşa deyirəm-müəllif qarşıya qoyulan məqsədə çatıb. Bu geniş miqyaslı əsərdə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin son on ildə Azərbaycanın iqtisadi və sosial inkişafında, onun milli mənafelərinin müdafiəsində, iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində rolu əsərdə çox dərindən və obyektiv olaraq göstərilib. Heydər Əliyevin möhtəşəm fəaliyyəti sayəsində Azərbaycan bu gün dinamik inkişaf edən dövlətdir”.

Həmyerlimiz Nikolay Baybakov Ziyad Səmədzadənin elm sahəsində işləmək, MK-nın İqtisadiyyat şöbəsinə və Ali Sovetin Plan-büdcə komissiyasına başçılıq etmək, Respublika Dövlət Plan Komitəsinə rəhbərlik etməklə böyük yol keçdiyini və bu təcrübənin ona həmin dövrün qlobal iqtisadi problemlərini düzgün seçməsinə imkan verdiyini qeyd edir. O, eyni zamanda Ziyad Səmədzadə ilə həmsöhbət olmağın xoş təəssürat yaratdığını və bir çox məsələlərdə eyni fikirdə olmalarını qeyd edir.

Həqiqətən də kitabda olan informasiyalar, fikirlər və nəticələrin əsaslandırılması baxımından onu Azərbaycanın keçdiyi yarım əsrlik iqtisadi inkişafın problemləri üzrə əsl ensiklopediya əsəri hesab etmək olar. Müəllif iqtisadiyyatın ən aktual problemləri üzrə mövcud reallıqları təhlil etmiş, Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün strateji əhəmiyyət daşıyan yoxsulluğun ləğv edilməsi, regionların sürətli inkişafı, yeni iş yerlərinin açılması üzrə qəbul edilmis proqramların uğurla yerinə yetirilməsini ön plana keçirmisdir.

Akademik Z.Səmədzadənin elmi ictimaiyyət və genis oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanan “Dünya iqtisadiyyatı: Çinin “iqtisadi möcüzəsi” (2001) və “Çin qlobal dünya iqtisadiyyatında” (2009), “Kitay v qlobalğnoy mirovoy gkonomike” (2010) kitabları Azərbaycanın nəinki iqtisad elminə, həm də bütövlükdə milli elminə çox sanballı bir töhfədir. Bu monoqrafiyaya yüksək qiymət verən məşhur iqtisadçı –professorlar Vladimir Papaya və Teymuraz Beridze öz rəylərində

yazırlar "Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Ziyad Səmədzadənin oxuculara təqdim etdiyi kitab, sözsüz ki, son onilliklərin fenomeninin tədqiqatına – Çin Xalq Respublikasının iqtisadiyyatına həsr edilmiş ədəbiyyat külliyatında görkəmli yer tutacaqdır. O, həm keçid dövrünü yaşayan ölkələrin iqtisadiyyatı ilə maraqlanan alim – iqtisadçı, həm də perspektiv inkişafla məşqul olan alimlər üçün çox faydalı olacaq".

O, eyni zamanda qloballaşan dünyada Almaniyanın sosial-iqtisadi dirçəliş konsepsiyası, yapon "iqtisadi möcüzəsi", Cənubi Koreyanın iqtisadi sıçrayışının əsasları, iqtisadi inkişafın Malayziya modeli, iqtisadiyyata sistemli yanasmanın "Leontyev modeli" kimi tədqiqat materiallarına da yer vermisdir. Müəllif Çində iqtisadi təhlükəsizlik və onun tərkib hissəsi olan ərzaq və ekoloji təhlükəsizlik, regionların tarazlı inkişafı, məhsuldar qüvvələrin yerləsdirilməsi, urbanizasiya, demoqrafiya və issizlik məsələləri və digər aktual məsələlərə xüsusi diqqət verildiyini qeyd edir. O, aparılan arasdırmalar və elmi tədqiqatlar nəticəsində Çin iqtisadiyyatını fərqləndirən əsas iqtisadi yanaşma, iqtisadi mexanizmlərdən respublikamızda istifadə imkanlarını müəyyən etmisdir. Təklif olunur ki, ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün azad ticarət zonalarının yaradılması, texnoparkların və aqroparkların genisləndirilməsi, ÜTT-yə üzv prosesində tələskənliyə yol verməməklə ölkəmiz üçün daha əlverisli şərtlərin əldə edilməsi, dövlətin iqtisadiyyata optimal səviyyədə müdaxiləsinin vacibliyi və digər aktual məsələlərə dair Çin iqtisadiyyatının uğurlarından faydalanmaq vacibdir.

Beynəlxalq iqtisadçılar Birliyinin prezidenti, professor Q.Popov və akademik L.Abalkin Z.Səmədzadəni yeni iqtisadi fikrin, yeni ideya və yanasmaların fəal və yorulmaz təbliğatçısı adlandırmıslar. Bu həqiqətən də belədir.

Məhz onun təşəbbüsü və elmi təskilatçılığı ilə 1997 və 1998-ci illərdə Bakıda "Azərbaycan XXI əsrin astanasında" devizi altında iki beynəlxalq konfransın keçirilməsini onun geniş əhatəli elmi təskilatçılıq fəaliyyətinin zirvəsi hesab etmək olar. Belə ki, bu konfransların materialları əsasında nəşr edilən 2500 səhifəlik 3 cildliyə daxil edilmiş 500 müəllifin elmi düşüncələri mahiyyət etibarilə XXI əsrin mürəkkəb iqtisadi problemlərinin həllində Azərbaycan elminin istirakına yönəlmiş ilk cəhddir. Bu cəhdə rəhbərliyi isə akademik Z.Səmədzadə etmisdir.

Z.Səmədzadə həmin konfranslarda öz aktuallığını və əhəmiyyətini bu gün də saxlayan "Azərbaycan iqtisadiyyatı XX əsrdə: inkişaf mərhələləri, XXI əsrin birinci onilliyində iqtisadi inkişaf konsepsiyası haqqında düşüncələr" və "Ümumbəşəri problemlər və Azərbaycan" mövzularında məruzələrlə çıxış etmisdir. Onun bu məruzələrini öz mahiyyəti və məzmunu etibarilə Azərbaycan Respublikasının XXI əsrin ilk onilliklərində sosial-iqtisadi inkişafının "yol xəritəsi" hesab etmək olar. Z.Səmədzadə birinci konfransda XXI əsrin birinci onilliyində Azərbaycanın iqtisadi inkişaf konsepsiyası haqqında düşüncələrində qeyd etmisdir ki, bizim məqsədimiz insan cəmiyyətinin inkişafında mühüm rol oynayan, Şərqin və Avropanın ən əlverisli mövqelərindən birində yerləşən Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin ümumi meyllərini askar etmək, XXI əsrin başlanğıcında və XXI əsrin birinci onilliyində inkişaf strategiyası ilə bağlı bəzi fikirləri açıqlamaqdan ibarətdir. Müəllif Azərbaycan iqtisadiyyatının XX əsrdə inkişaf mərhələlərini təhlil edərək belə bir qəti fikir bildirir ki, 70-ci illər iqtisadi inkişaf sürəti, sənayedə struktur dəyişiklikləri, iqtisadiyyata əsaslı vəsait qoyuluşunun həcmi istiqamətləri baxımından XX əsrin ən məhsuldar illəri olmusdur. Həmin dövrdə respublikamızda Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində böyük elmi-texniki və istehsal potensialı yaradılmısdır. İndi bazar münasibətləri bu möhkəm təməl üzərində qurulur və Azərbaycan elə bir inkişaf strategiyası seçməlidir ki, onun reallasması XXI əsrin birinci iki onilliyində respublikada keyfiyyətli həyat səviyyəsini xarakterizə edən göstəricilərə nail olmağa imkan versin. Biz indi fəxrlə deyə bilərik ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi strategiya bu çağırışa tam cavab verir və respublikamızın dinamik inkişafını təmin edir.

2002-ci ildə nəfis tərtibatla 400 səh. həcmində çap olunmuş və Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə hədiyə edilmiş "İqtisadi tərəqqiyə həsr edilən ömürlər" kitabında Ziyad müəllim böyük zəhmət hesabına Azərbaycan iqtisadçı alimləri – Milli Elmlər

Akademiyasının həqiqi və müxbir üzvləri, professorlar, iqtisad elmləri doktorunun (123 nəfər) həyat və elmi yaradıcılığı barədə geniş biblioqrafik materiallar vermişdir. Kitaba verdiyi “Azərbaycan iqtisad elminin dünəni, bu günü, sabahı barədə düşüncələr” adlı giriş məqaləsində hörmətli müəllif uzaqgörənliklə yazmışdır: “Respublikamızın inkişaf imkanları, perspektivləri isə çox böyükdür. Mən bir iqtisadçı kimi tam əminəm ki, XXI əsrdə Azərbaycan dinamik və keyfiyyətli iqtisadi inkişafı təmin edə bilən müstəqil bir dövlət kimi fəaliyyət göstərəkdir. İqtisad elmi də bu müqəddəs vəzifəyə xidmət etməlidir”.

Akademikin “Azərbaycan iqtisadiyyatı Böyük Vətən müharibəsi illərində” mövzusu ilə əlaqədar apardığı sanballı tədqiqatlar da diqqətəlayiqdir. Tarixi faktlarla zəngin olan bu kitablarda müəllif qürurla qeyd edir: “Bakı nefti olmasaydı, faşızm üzərində qələbə olmazdı”.

Z.Səmədzadə hesab edir ki, XXI əsrin ən böyük xüsusiyyətlərindən biri ondan ibarət olacaqdır ki, insan amili və intellektual potensial sosial-iqtisadi tərəqqinin və yüksək həyat səviyyəsinin təmin edilməsinin baslıca amilinə çevriləcəkdir. O, təklif edir ki, Azərbaycan öz milli dövlət mənafelərini qorumaqla yanaşı dünya iqtisadiyyatında baş verən proseslərdən kənar dura bilməz. Respublikamızın dünya ticarət təskilatına üzv olmasının süni yollarla tələsdirilməsi məqsədəuyğun deyildir. Bu proses ilk növbədə daxildə istehsalın nəticə göstəricilərinin yaxşılasması, rəqabətə davamlı məhsul istehsalının artması, vətən əmtəə istehsalçılarının qorunması prosesi ilə müşayiət edilməlidir.

TACİC və TRACECA proqramı üzrə Azərbaycanın Milli Koordinatoru olmuş akademik Ziyad Səmədzadəni daim düşündürən və narahat edən problemlərdən biri də ölkəmizin nəqliyyat strategiyasının təkmilləşdirilməsi olmuşdur. “Qloballaşan dünyada hər hansı ölkənin nəqliyyat sisteminin uğurlu inkişafı region ölkələrinə inteqrasiya olunmasında əsas şərtlərdən biridir” ifadəsini tez-tez vurğulayan alim XXI əsrdə Azərbaycan nəqliyyatının daha qlobal xarakter alacağına əminlik ifadə edirdi. Həqiqətən də, XXI əsrin başlanğıcında onun qeyd etdiyi kimi, Avropa-Qafqaz-Asiya nəqliyyat sisteminin, “Transqafqaz”, “Transxəzər”, qədim “İpək yolu”nun, Bakı-Tbilisi-Ceyhan, Bskı-Novorossiysk-Supsa, Bakı-Ərzurum, Bakı-Tbilisi-Qars iri miqyaslı nəqliyyat layihələrinin reallaşması Azərbaycanın nəqliyyat sisteminin beynəlxalq miqyaslı rolunu və əhəmiyyətini artırdı. Azərbaycanın enerji resurslarının Avropanın region ölkələrinə ixrac olunmasında qlobal layihələrdən olan TANAP və TAP layihəsinin reallaşması alimin dediklərinin sübutudur.

Akademik Z.Səmədzadə artıq 60 ilə yaxındır ki, Azərbaycanı bir çox beynəlxalq simpozium və konqreslərdə layiqincə təmsil edir. O, dünyanın əsas elm mərkəzlərində keçirilən iri forum, konfrans, elmi seminarlarında çıxıs edərək geniş elmi diapazona malik olduğunu nümayiş etdirir, Azərbaycanın müasir iqtisadiyyat elmi üzrə özünün ideya və baxıslarını bəyan edir.

Cəsarətli qələm sahibi olan Ziyad müəllimin respublikamızda gənc elmi nəslin formalaşmasındakı xidmətləri də xüsusi qeyd edilməlidir. 25 yaşında namizədlik, 31 yaşında doktorluq dissertasiyaları müdafiə etmiş akademik özünün elmi məktəbini yaratmış, onun bilavasitə rəhbərliyi altında 60-dan çox doktorant və dissertant müvafiq elmi dərəcələrə yiyələnməklə hazırda müxtəlif elm ocaqlarında uğurla fəaliyyət göstərirlər. Uzun müddətdir ki, Z.Səmədzadə ixtisaslaşdırılmış müdafiə şuralarına bacarıqla sədrlik edir. 1995-2001-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü olmuşdur.

Akademikin 1999-cu ildə təsis etdiyi və müntəzən nəşr olunan “İqtisadiyyat” qəzeti respublika iqtisadçılarının maraqlı informasiya mənbəyinə, canlı diskussiyalar, elmi axtarışlar və güclü ideya-siyasi təbliğat məkanına çevrilmişdir.

Ziyad müəllim elmi fəaliyyəti və bir sıra ictimai islərlə yanaşı 2005-ci ildən 2020-ci ilə kimi üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı və İqtisadi siyasət komitəsinin sədri olmuş və hazırda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin VI çağırış deputatı kimi fəaliyyətini davam etdirir. O, deputat və komitə sədri kimi bu illər ərzində Milli Məclisdə iqtisadi və digər məsələlərə dair qəbul edilən qanunların hazırlanmasında və müzakirələrində həmişə fəal istirak edir, qanunların təkmilləsdirilməsi üçün çox dəyərli təkliflər verir. Geniş və dərin elmi potensialından istifadə edərək hər il qəbul edilən Azərbaycan Respublikasının büdcəsi haqqında qanunun əhatəli, şəffaf, xərclərin ilk növbədə ölkənin sosial-iqtisadi inkişafını təmin

edən fundamental və aktual problemlərə yönəldilməsi, pul, maliyyə-kredit sisteminin qanunvericilik bazasının daim təkmilləsməsi üçün var qüvvəsi ilə çalışır.

Fenomen biliklərə malik akademik Ziyad Səmədzadə bu gün də ona məxsus olan gənclik enerjisi və həvəsi ilə yüksək isgüzarlıq və əzmkarlıq göstərir. Ziyad müəllimin təşəbbüsü və bilavasitə elmi rəhbərliyi ilə yeddi cildlik “Böyük İqtisadi Ensiklopediya”nın 2012 və 2015-ci illərdə nəşr edilməsi dediklərimizin əyani sübutudur. Onu da bildiririk ki, belə əhatəli, cədvəl, şəkil və sxemlərlə müşayiət olunan ən müasir terminlərin geniş şərhini verən ikinci bir ensiklopediya hələ işıq üzü görməyib. Böyük zəhmət hesabına akademikin 2021-2022-ci illərdə ərsəyə gətirdiyi 5 cildlik “Azərbaycan iqtisadiyyatı 100 ildə” (o cümlədən “Qarabağ iqtisadiyyatı 100 ildə”) əsərləri isə gənc alimlərin və tədqiqatçıların masaüstü kitabına çevrilmişdir. Bu da onu göstərir ki, Azərbaycanın dünya səviyyəsində iqtisad elmi və güclü elmi potensiala malik alimləri var.

Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti Ziyad Səmədzadənin çoxşaxəli ömür çalarlarını, əlbəttə ki, bir yazıda əhatə etmək mümkün deyil. Lakin böyük məmnunluq hissi ilə qeyd edə bilərik ki, onun ictimai və elmi fəaliyyətinin əsas məqsədi doğma Azərbaycanımızın iqtisadi, siyasi və beynəlxalq qüdrətinin günbəgün artması olmuşdur.

Hörmətli akademikimizin təxminən 60 illik elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti həm ölkəmizin, həm də xarici dövlətlərin rəhbər orqanları və elmi qurumları tərəfindən həmişə yüksək qiymətə layiq görülmüşdür. Müxtəlif illərdə ayrı-ayrı nailiyyətlərə görə ona verilmiş təşəkkür məktublarının, diplomların, sertifikatların, döş nişanlarının, Fəxri Fərmanların, orden və medalların bolluğu bizi həmişə ürəkdən sevindirmişdir. Bunların içərisində Azərbaycanımızın ən yüksək dövlət təltifləri olan Qırmızı Əmək Bayrağı (1986), “Şöhrət” (2010), “Şərəf” (2015), 1-ci dərəcəli “Vətənə xidmətə görə” (2020) ordenləri yubilarımızın sinəsini bəzəməkdədir.

Biz ömrünün müdrik çağlarını yaşayan hörmətli həmkarımız və dostumuz, görkəmli elm və dövlət xadimi, əsl ziyalı, xalqının və ölkəsinin başını həmişə uca edən Ziyad müəllimi anadan olmasının 85 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, elmi yaradıcılığında, ictimai-siyasi və pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzu edirik.

I BÖLMƏ.
AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BƏRPA İŞLƏRİ VƏ YAŞIL İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ

UOT 338

Fuad Məmməd oglu BƏDİROV
“BM GROUP “ MMC-nin direktoru
iqtisad üzrə fəlsəfə doktoru
fuad652@rambler.ru
https://doi.org/10.30546/4.71.73001.2025.002.05

YAŞIL İQTİSADİYYATIN İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU VƏ ƏSAS GÖSTƏRİCİLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi yaşıl iqtisadiyyatın inkişafı və yaşıl iqtisadi artımın əsas elementlərinin və innovasiyalara elmi yanaşmaların ətraflı olaraq tədqiq olunması istiqamətində araşdırma aparmaq.

Tədqiqatın metodologiyası. Elmi araşdırma aparıldığı müddətdə istifadə olunan üsullar,o cümlədən müşahidə, müqayisəli, analitik təhlil və sistemli yanaşma metodlarından istifadə olunmuşdur. Tədqiqatın əsas metodologiyasını isə Azərbaycan dövlətinin yaşıl iqtisadiyyatla baglı siyasəti təşkil edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki,yaşıl iqtisadiyyatın inkişaf etdirilməsində innovasiyaların rolunun artırılması istiqamətində layihələrin hazırlanmasında əhəmiyyətli ola bilər.

Tədqiqatın nəticələrinə uyğun olaraq onu demək olar ki, yaşıl iqtisadi artımın və innovasiyaların müasir iqtisadi şəraitdə əsas istiqamətləri ümumiləşdirilmiş və göstərilmişdir.Məqalədə istehsalın moderinləşdirilməsinin əsas faktoru kimi innovasiyaların mahiyyətinə olan yanaşmalar tədqiq olunur,dayanıqlı yaşıl iqtisadi artım strategiyasında innovasiya mexanizmindən istifadənin zəruriliyi əsaslandırılır, eyni zamanda innovasiya strategiyasının həyata kecirilməsinin əsas prinsipləri müəyyənləşdirilir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Yasıl iqtisadiyyatın inkişafında innovasiyaların rolu və əsas göstəricilərinin qiymətləndirilməsinə elmi yanaşmalar məqalədə yer almışdır.

Açar sözlər: dayanıqlı iqtisadi artım, yaşıl iqtisadiyyat, innovasiya, innovasiya iqtisadiyyatı, innovasiyalı inkişaf strategiyası, elmtutumlu məhsullar, dövlətin rolu.

Giriş

Son dövrlər bütün qlobal aləmdə müşhadə olunan iqtisadi proseslər birbaşa hər bir ölkənin iqtisadiyyatının inkişafına təsir etməklə yanaşı, həmin ölkələrin ekoloji mühitinə və iqlim dəyişikliklərinə bu və ya digər səbəblərdən təsir edir. Artıq bu gün müasir dünyamızda müşhaidə olunan qloballaşma prosesləri hər bir ölkənin öz milli iqtisadiyyatı qarşısında daha kəskin cagırışlar səsləndirməyə səbəb olmuşdur.Belə cagırışlara vaxtında adekvat reaksiya verən milli iqtisadi sistem öz milli iqtisadi sisteminin özəyini formalaşdırır. Yeni dövrdə ölkə iqtisadiyyatının əsas ümdə probleminin, yəni ekoloji xammal və təbii resurslardan asılılığın aradan qaldırılması onun innovasiya yönümlü iqtisadiyyatla əvəz olunması ilə mümkündür. Ölkənin ekoloji xammal və təbii resursları özünün yaşıl iqtisadiyyatının təməlini və əsasını təşkil edir. Deyə bilərik ki, ölkəmizdə yaşıl iqtisadiyyatın inkişafı ücün güclü potensial imkanlar və tərəflər vardır. Lakin buna baxmayaraq zəif tərəflər və təhlükələr yaşıl iqtisadiyyatın inkişafını müəyyən mənada məhdudlaşdırır.

Bu gün ekologiya və iqtisadi inkişaf bir-birini istisna etmir, əksinə, onu deməyə əsas verir ki, ekologiya və iqtisadiyyat bir-birindən asılı vəziyyətdədir. Müasir dünyada keyfiyyətlı və yaşıl iqtisadi artım, ölkə vətəndaşlarının həyat keyfiyyətinin yüksəldilməsi ön plana cıxır ki,bunun da həlli innovasiya tipli yaşıl iqtisadiyyata kecidi zəruri edir. Deməli, yaşıl iqtisadiyyat və innovasiyalı iqtisadiyyat çərcivəsində əhalinin həyat səviyyəsinin və orta ömür müddətinin yüksəldilməsinə, bütövlükdə milli iqtisadiyyatın xammal resurslarının dünya qiymət konyunkturasından asılılığının və artan ekoloji gərginliyin və s.aradan qaldırılmasına nail olmaq mümkündür.

Yaşıl iqtisadiyyatın inkişafında müasir innovasiyaların rolu

Yaşıl iqtisadiyyat su, hava və torpaqla baglı ətraf mühitə dəyən zərərin qiymətləndirilməsinə, qarşısının alınmasına, məhdudlaşdırılmasına, minimumlaşdırılmasına və aradan qaldırılmasına, habelə tullantıların, səs-küyün və ekosistemin problemlərinin (İƏİT,1999.S.9) həllinə yönəlmiş xalis texnologiyaların,mal və xidmətlərin istehsal üzrə bütün fəaliyyətlərindən ibarətdir [2, s.80].

Yaşıl iqtisadiyyat özündə ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsini ön plana çıxaran, iqtisadi inkişaf ilə resurslardan istifadə arasındakı balansı bərabər səviyyədə saxlayan konsepsiyadır. Yaşıl iqtisadiyyat geniş bir anlayışdır və onu daha mükəmməl başa düşmək ücün konkret bir sahə üzrə yaşıl iqtisadiyyatın tətbiqini, onun faydalarını nəzərdən keçirmək daha məqsədəuyğun olacaqdır. Məlum olduğu kimi dünyada əhalinin sayı getdikcə artmaqda davam edir və bu şəkildə davam edərsə qarşıdakı son 25 ildə dünyada yaşayan əhalinin sayı 9 milyarda yaxınlaşacaqdır. Belə olan halda müasir dünyamızda əhalinin məskunlaşması, işsizlik, artan qida tələbatı və s. bir çox problemlər yaranacaqdır Artan əhalinin qida məhsullarına olan tələbatını ödəmək ücün istehsal prosesini minimum 70% artırmaq lazımdır ki,burada da əsas başlıca sahə aqrar sektordur. Bu problemin qarşısını almaq ücün kənd təsərrüfatında istehsalın artırılması və məhsul itkisinin azaldılması ənənəvi üsullarla mümkün deyil və buna görə də kənd təsərrüfatında yaşıl inkişafla bağlı innovativ yanaşmadan istifadə mütləqdir. Kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi ekoloji fayda verməklə yanaşı,sosial və iqtisadi faydalar da gətirir. Ekoloji cəhətdən ətraf mühiti daha az cirkləndirir,torpaq erroziyasını azaldır və istehsal ətraf mühitə uygun şəkildə həyata keçirilir. Sosial cəhətdən isə həyat tərzi yaxşılaşmış olur, əhalinin kənddən şəhərə axınının qarşısı alınmış olur, əmək şəraiti də təkmilləşmış olur. [8,s.33].

Dünyada təbii ehtiyatların azalması, ətraf mühitin çirklənməsi, atmosferdə çirkliliyin çoxalması ilə baglı yeni texnogen iqtisadi inkişaf növü yaranır. Məhz buna görə də ekoloji mühitə təsir etmədən əhalinin rifahını yaxşılaşdırmağa nail olmaq üçün yeni və müasir texnoloji inkişafa keçid edilməlidir. İqtisadiyyatın yaşıllaşdırılması, “ekoloji təmiz mühit”, istehsalın və innovasiyanın inkişafı üçün bütün iqtisadi alətlərin dəstəklənməsi ön plana çıxarılmalıdır. Məhz bu baxımdan da ölkəmizdə yaşıl iqtisadiyyatla baglı bir sıra dövlət proqramları vardır.”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı sənəddə ölkəmizdə “yaşıl iqtisadiyyat”ın inkişafı mühüm məsələ kimi önə çəkilir. Milli Prioritetlərdə novbəti onilliklərdə ölkənin sosial-iqtisadi inkişafının beş milli prioritet üzrə reallaşdırılması hədəflənir.

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat
2. Dinamik inküliziv və sosial ədalətə əsaslanan cəmiyyət
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı
4. İşgaldan azad olunmuş ərazilərə böyük qayıdış
5. Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi

Ölkəmiz davamlı inkişafın digər sahələrilə yanaşı yaşıl iqtisadiyyatın da qurulması istiqamətində ugurlu siyasət yürüdür. Bu baxımdan ölkədə 2010-cu il ekologiya ili elan olunmuş və bu sahədə müxtəlif işlər görülmüşdür.

Azərbaycan dövlətinin əsas inkişaf hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır. Biomüxtəlifliyin qorunması, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, dənizin və onun akvatoriyasının çirklənməsinin aradan qaldırılması və qorunması, yaşıl ərazilərin bərpası və mövcud resursların səmərəli mühafizəsi istiqamətində zəruri tədbirlər gələcəkdə də davam etdiriləcəkdir.

Meşəsalma və bərpa işləri nəticəsində meşə sahələrinin ümumi torpaq sahələrinə nisbəti artacaq, yolkənarı ərazilərdə atmosfer havasının çirklənmədən qorunması, eləcə də nəqliyyatın hərəkətindən yaranan səs-küyün azaldılması məqsədi ilə yolqoruyucu yaşıllıqlar salınacaqdır. Atmosfer havasına atılan zərərli maddələrə dair Avropa standartlarına uyğun milli standartlar hazırlanaraq tətbiq ediləcəkdir. [10]

Azərbaycanda “yaşıl iqtisadiyyat”ın inkişafı istiqamətində ardıcıl olaraq mərhələli şəkildə fəaliyyət davam edir və bu sahədəki maneələrin aradan qaldırılması ilə bağlı tədbirlər görülür. Buna misal olaraq qeyd edə bilərik ki, BMT-nin İqlim Dəyişmələri üzrə Cərcivə Konvensiyasına təqdim edilmiş “Azərbaycan üzrə 4-cü milli məlumatlar” sənədinə əsasən 2016-cı ildə Azərbaycan 1990-cı illə müqayisədə tullantıların 31.6% azalmasına nail olub və bu proses davam edir [5, s.149]. “Yaşıl iqtisadiyyat”a keçid baxımından Azərbaycanın 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40%-dək azaldılmasını və işgaldan azad edilmiş ərazilərdə “netto sıfır emissiya” zonasının yaradılmasını hədəfləməsi də müstəsna əhəmiyyətə malikdir.

Yaşıl iqtisadiyyata töhfə verən ölkələrlə yanaşı bizim dövlətimiz bu sahədə öndə gedən ölkələrdəndir. Ölkəmizdə keçirilən “COP 29 “ İqlim dəyişikliyi tərəfdaşlıq konfransı, Azərbaycan dövlətinin “yaşıl iqtisadiyyat”a verdiyi ən gözəl nümunələrdəndir.Təkcə onu deyə bilərik ki,bu konfransda iştirak edən 100-dən cox ölkənin nümayəndələri və dövlət başçıları, ümumilikdə 10 minlərlə xarici qonaqlar ölkəmizin bu sahədə yürütdüyü”yaşıl iqtisadiyyat”a dəstəyin bariz nümunəsini yerindəcə izləmiş oldular.

Ölkədə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi,qeyri-neft sektorunun, o cümlədən “yaşıl iqtisadiyyat“ın inkişafı,əhalinin bu sahədə məşğulluğunun artırılması, Bakı şəhəri və şəhərətrafı qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 1947 nömrəli Sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılmışdır. Burada yaradılmış innovativ texnologiyanın tətbiqi sahəsində təkrar emal biznesini qurmaq və “yaşıl” istehsalla məşgul olmaq üçün münbit şərait formalaşdırılmışdır. Balaxanı Sənaye Parkında müasir,texnoloji yeniliklər tətbiq edilməklə dayanıqlı inkişaf prinsiplərinə və ətraf mühit mühafizəsi standartlarına uygun fəaliyyət göstərən istehsal sahibləri bir çox üstünlüklərdən yararlana bilirlər.

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli 637 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında Bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər ücün Milli Strategiya” təsdiq edilmiş ,ölkədə bərk məişət tullantılarının idarə edilməsi işinin təkmilləşdirilməsi ilə baglı istiqamətlər müəyyən edilmişdir. Hal-hazırda təbiətdə ekoloji tarazlıgın qorunması, istehsal və məişət tullantılarının ətraf mühitə mənfi təsirinin qarşısının alınması istiqamətində və belə tullantıların təkrar xammal mənbələri kimi təkrar təsərrüfat dövriyyəsinə cəlb edilməsi məqsədilə tullantıların idarə edilməsi sahəsində dövlət siyasəti Azərbaycan Respublikasının” İstehsal və məişət tullantıları haqqında “ 1998-ci il 30 iyun tarixli 514-IQ nömrəli Qanunu ilə tənzimlənir.[1,s.306]

Son illər ölkədə bu istiqamətdə, o cümlədən ətraf mühitin qorunması, təbii resurslardan səmərəli istifadə, tullantıların utilizasiyası, təkrar emalı, təkrar istifadəsi,az tullantı və ya tullantısız texnologiyaların tətbiqi hədəflərinə nail olmaq istiqamətində bir çox məqsədyönlü işlər görülmüşdür.

Son dövrlərdə dünyada baş verən iqlim dəyişikliklərinin qarşısının alınmasında daha az enerjidən istifadə edilməsi, həmçinin həmin enerjinin daha təbii üsullardan istifadə olunmaqla alınması qlobal məqsəd kimi müəyyən olunmuşdur. Ölkəmizdə də yaradılan müasir tipli sənaye mərhələləri, istehsal parkları və digər tipli müəssisələr innovativ tətbiqlər sahəsində, ekoloji mühitin zərər görməməsinə yönəldilmiş bu kimi istehsal sahələridir. Bu, həm də davamlı inkişaf və ekoloji innovasiyaya keçidin vacib şərtidir.

İnnovasiyalı inkişaf ictimai inkişafa kömək edən sosial-iqtisadi inkişafı nəzərdə tutur. İnkişafın innovasiyalı yolunun seçilməsi bir çox əsaslandırılmış amillərlə izah olunur. Bu amilləri aşağıdakı kimi sadalamaq olar.

- İnnovasiya dayanıqlı yaşıl iqtisadi artımın əsasıdır;
- İnnovasiya yaşıl iqtisadiyyatın və bir neçə sahənin rəqabətqabiliyyətliliyinə təsir edən mühüm amildir;
- İnnovasiya elmtutumlu məhsullar bazasında yeni yaşıl iqtisadi tələbatların və bütövlükdə bazar sisteminin hərəkətverici qüvvəsidir [12, s255].

Yaşıl iqtisadiyyat ümumiyyətlə öz təbii resurslarından, iqlim dəyişikliyindən asılı olan sistemdir. O, öz formasını dəyişir, özünün bazisini yaradır, bu tələbatların ödənilməsinin əsasını inkişaf etdirir. Tələbatların kəmiyyət artımı təbii resurslar,ərazilər,keyfiyyət artımı isə texnoloji bazisin müvafiq keyfiyyət dəyişikliyi əsasında mümkündür.

Tədqiqatçılar ölkənin dayanıqlı yaşıl iqtisadiyyatın inkişaf ilə innovasiya amilinin harmonik əlaqəsinin mühüm oldugunu qeyd edirlər. Xüsusilə təbii resursların tükənməsi şəraitində, sahənin iqlim dəyişikliklərinə adaptasiya olunması və bu sahədə səmərəliliyin yüksəldilməsi üçün yeni texnologiyaların yaradılması, mənimsənilməsi və tətbiqi əhəmiyyətlidir. Burada söhbət yüksək məhsuldarlıqlı kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, iqlim dəyişikliklərinin dəyərləndirilməsi, bu dəyişikliklərin mənfi təsirlərinin minimumlaşdırılması sisteminin hazırlanmasından gedir.

Təcrübə göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində müxtəlif təbii amillər və komponentlərdə innovasiyadan istifadənin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Həqiqətən də innovasiyanın başqa bir xüsusiyyəti ondan ibarətdir ki, onun məhsulları bazarda üstünlük qazanır və çəki artımına zəmanət vermir. Beləliklə, bazar təklifi tələbi üstələdikdə, innovasiya qiymətləri aşağı salır və keyfiyyəti yaxşılaşdırır, bununla da rəqabət qabiliyyətini artırır. Məlum olduğu kimi, kənd təsərrüfatı təbii bioloji və ekoloji amillərdən asılıdır. Bu məqsədlə innovativ inkişafı bu istiqamətə yönəltmək üçün innovativ fəaliyyətlərə ənənəvi istehsal-texnoloji və təşkilati idarəetmə aspektlərilə yanaşı selektiv-genetik və iqtisadi-sosial-ekoloji sahələr də daxil edilməlidir. Bu baxımdan, ölkədə kənd təsərrufatı istehsalının innovativ inkişafını təmin etmək, texnika və texnologiyanı modernləşdirmək, resurslara qənaət etmək,istehsal olunan məhsulların keyfiyyətini artırmaq və kənd təsərrüfatı məhsullarının ekologiyasını yaxşılaşdırmaq lazımdır.[4,s.149-150] Müasir texnologiyalar əsaslı kənd təsərrüfatlı məhsulları istehsalının təşkili ilə bərabər, yerli ərzaq sistemlərinin çevik hala gətirilməsi gələcək dövrlərdə böyük miqyaslı ərzaq qıtlığının qarşısının alınmasında və hər bir nəfər sivilizasiya sakininin ərzaq əlçatanlığı, keyfiyyətli qidalanma ilə təmin olunmasında həlledici rol oynaya bilər. [3, s.80].

Dünyanın inkişaf etmiş ölkələrində keyfiyyət dəyişikliyinin əlamətləri ötən əsrin ikinci yarısından başlayaraq özünü göstərmişdir.1959-cu ildə D.Bell “postsənaye cəmiyyəti”anlayışını işlətmişdir. [6, s. 57]. Həmin dövrdə artıq sənaye sektoru öz yerini və inkişafı yeni biliyi və informasiyanı ortalıga çıxarmağa qadir olan elmə verir. Əsasında elmi bilik və informasiya duran böyük texnoloji irəliləyişlər nəticəsində müasir cəmiyyətin köklü dəyişikliyi diqqətdən kənar qalmamışdır. Yeni tip iqtisadiyyatın formalaşması öz ifadəsini qeyri-maddi aktivlərə investisiya tempinin sürətləndirilməsində və biliyin daim təkrar istehsalına şəraitin yaradılmasında, həmçinin onların yeni yüksək texnoloji məhsullarda və xidmətlərdə təcəssüm etməsində göstərir.Yaşıl iqtisadiyyatın inkişafına istiqamətlənən ölkələrdə biliyin yayılması və istifadə edilməsi üçün institusional struktur və mexanizmlərin məcmusu kimi başa düşülən milli innovasiya sistemi formalaşmışdır və yaxud formalaşdırılır.

İndiki dövrdə öndə gedən aparıcı ölkələrin innovasiya proseslərinin fəallaşdırılmasını təmin edən təhsilin, sənayenin, elmin, biznesin, dövlət sturukturlarının inteqrasiyası inkişaf edir və koordinasiyası güclənir. Məsələn ABŞ-da yeni iqtisadiyyat anlayışı rəsmi sənədlərdə təsbit olunmuşdur. Belə ki, ABŞ-da yeni iqtisadiyyatda əldə edilən yüksək fayda,o cümlədən texnologiyada, iqtisadi siyasətdə və biznes təcrübəsində sinergetik əlaqənin üstünlüyünün nəticələri olan mülayim inflyasiya, işsizliyin aşagı səviyyəsi, gəlirlərin, məhsuldarlıgın yüksək artımı kimi təsnifatlaşdırılır. [7, s.11]. Yeni texnologiyaların, biznesdə həyata keçirilən dəyişikliklərin, iqtisadiyyatın dövlət tərəfindən idarə edilməsində hansısa tədbirlərin mövcudluğu hələ yaşıl iqtisadiyyatın təşkili demək

deyildir. Əgər yeni texnologiyanın tətbiqi və tədqiqat nailiyyətləri yaşıl iqtisadiyyatda köklü dəyişikliyə gətirib çıxarmayıbsa onun əhəmiyyəti olmur. Dəyişiklik yalnız istifadə edilən texnologiyaların deyil, həm də istehsalın təşkili səviyyəsində baş verir: heyətin ətraf mühitə və idarəedilməsinə yanaşma dəyişir, tədarükçülərlə, mal və xidmətlərin istehlakçıları ilə münasibətlərin yeni növü yaranır, yeni biznes strategiyaları ortaya çıxır, əməkhaqqının və maliyyə münasibətlərinin xarakterində ciddi dəyişikliklər baş verir.

Son dövrlərdə “yaşıl iqtisadiyyat” anlayışı tədricən “innovasiyalı yaşıl iqtisadiyyat” anlayışına transformasiya olunmaqdadır. İnnovasiyalı yaşıl iqtisadiyyatı innovasiya axınına,daimi texnoloji təkmilləşdirməyə, əlavə dəyərli yüksək texnoloji məhsulların və texnologiyaların istehsalı və ixracına əsaslanır. İnnovasiya axınının olması və onun gücü mövcud texnologiyalar sistemində milli üstünlüyün, həmin texnoloji sistemdən işçilərin səmərəli istifadəetmə qabiliyyətinin (insan kapitalının keyfiyyəti), həmçinin texnoloji və sosial sistemin inkişafına dayanıqlılıq və keyfiyyət verən institutlar sisteminin sinergetik əlaqəsinin xarakteri ilə müəyyən edilir. İnnovasiya axını öz növbəsində məhsul və prosesli innovasiyadan ibarətdir. Məhsul innovasiyası özündə istehsalda texnoloji baxımdan yeni və əhəmiyyətli şəkildə təkmilləşdirilmiş məhsulların işlənib hazırlanmasını və tətbiqini ehtiva edir. Prosesli innovasiyaya məhsulların ötürülməsi metodları (maddi-texniki təchizatın istehsal metodları, mal və xidmətlərin,həmcinin köməkçi fəaliyyət növləri) da daxil olmaqla texnoloji baxımdan yeni və əhəmiyyətli şəkildə təkmilləşdirilmiş istehsal metodlarının işlənib hazırlanması və tətbiqi daxildir. [9].

Müasir innovasiyaların yaşıl iqtisadi sahələr üzrə tətbiqinin əsas istiqamətləri.

Bildiyimiz kimi, innovasiyalı yaşıl iqtisadiyyatın əsasında texnoloji innovasiyanın ugurları, biznesin təşkilindəki dəyişikliklər və dövlətin iqtisadi siyasəti durur.Texnoloji innovasiya dedikdə ilk növbədə informasiya texnologiyaları başa düşülür ki, bu sahadə qazanılan uğurlar istehlakçı davranışlarının miqyaslı transformasiyasına gətirib çıxarmışdır. Yeni yaşıl iqtisadiyyat texnoloji innovasiyaların sinergetik səmərəsi nəticəsində yaranmışdır.

Günümüzün bu günkü reallıqları onu deməyə əsas verir ki,bazara yeni məhsullar çıxartmaqla və yeni texnologiyalardan daha səmərəli istifadə etməklə sərt rəqabət şərtlərində bazarda özünü qoruyub saxlaya bilərsən.

Bu yeni texnologiyaların tətbiqi sahəsində formalaşan vençur fondları, biznesin istənilən sahəsinə dəstək verən kampaniyaları, innovasiya texnologiyalarının müəyyən hissəsinin mənimsənilməsi risklərini öz üzərinə götürməyə hazır olan özəl kampaniyalar kimi institutlarla işləmək bacarığı və istəyidir. Böyük həcmdə informasiya kütləsinin işlənməsi üzrə informasiya texnologiyalarının verdiyi imkanlar müvafiq texniki vasitələri və proqram təminatını tələb edir. Bir texnologiyada uğurlar labud olaraq müəyyən sahədə də nailiyyətə gətirib çıxarır. İnformasiya texnologiyaları yeni bazar yaradaraq, yaxud artıq mövcud olanları əsasən dəyişərək innovasiya yaradır. Yeni texnologiyalar məlumat axınını birbaşa istehsal prosesinə yönəltməyə imkan verir. İşçilərin bu məlumat axınına əlçatanlığı cari vəziyyətdən asılı olaraq istehsal prosesini tənzimləyə bilər. Bu, istehsal xərclərinin aşağı salınması fonunda məhsulun keyfiyyətini və əməyin məhsuldarlığını əhəmiyyətli şəkildə yüksəldir. İnformasiya texnologiyaları bir tərəfdən işçilərin məsuliyyətini yüksəltməyə imkan verir, digər tərəfdən bunu sadəcə zəruri edir. Deməli, biznes mühitin simasını dəyişmədən yeni yaşıl iqtisadiyyatı yaratmaq olmaz.

Bu dəyişiklik tranzaksiya xərcləri kontekstində izah edilir. Qloballaşma informasiya axınları, stimullaşdırmanın yeni xarakteri, bazar dəyişikliyinin monitorinqi və qiymətləndirilməsi xərcləri ilə əlaqədar yeni növ tranzaksiya xərcləri ortaya çıxarır. Deməli, firmanın sərhəddi daxili və xarici tranzaksiya xərclərinin nisbəti ilə müəyyən edilir. İnformasiya texnologiyaları tranzaksiya xərclərini azaldır və nəticədə biznesin şaquli inteqrasiyasına stimulu azaldır. Doğrudur ki, belə texnologiya firmadaxili fəaliyyətin əlaqələndirilməsi xərclərini azaldır və bu da öz növbəsində inteqrasiya proseslərinə müsbət təsir göstərir. Bundan başqa, informasiya texnologiyaları firmanın üfüqi sərhəddinin genişlənməsinə kömək edir. Müxtəlif ölkələrdə istehsalçı kompaniyalar arasında yaxşı kommunikasiya qlobal bazarda özlərinin rəqabət üstünlüklərindən səmərəli istifadə etməyə imkan

verir. Qeyd edilənlərdən o nəticəyə gəlmək olar ki, informasiya texnologiyalarından fəal istifadə edən firmalar ikili üstünlüyə - həm daxili, həm də xarici **tranzaksiya** xərclərinin azalması - malik olurlar.

Dünya təcrübəsi dövlətin fəal iştirakı olmadan innovasiyalı yaşıl iqtisadiyyatın yaradılmasının qeyri-mümkün olduğunu göstərir. Bununla belə bu iştirakın formaları haqqında məsələ geniş müzakirə predmetidir. Mahiyyət etibarilə müzakirə iki əsas mövqe üzərində cəmləşir. Bunlara aiddir:

- dövlətin özü innovasiyalı yaşıl iqtisadiyyatını qurmalıdır;
- dövlət fəaliyyəti rezidentlər tərəfindən müstəqil olaraq innovasiyalı yaşıl iqtisadiyyatın qurulmasına əlverişli şərait yaratması ilə məhdudlanmalıdır.

Deməli, biliyə əsaslanan iqtisadiyyatda innovasiya proseslərinin hərəkətverici qüvvəsi yalnız bazar mexanizmi deyil, həm də məqsədəuyğun dövlət siyasətidir.Dövlət milli innovasiya sisteminin bütün ünsürlərinin formalaşmasında fəal iştirak edir. Ümumiyyətlə, innovasiya proseslərinin inkişafında və ona əlverişli şəraitin yaradılmasında dövlətin iştirakı özünə aşağıdakı ünsürləri daxil edir:

- milli maraqlar və prioritetlərlə, qlobal problemlərlə, idarəetmə qərarlarının və yeni texnologiyaların tətbiqinin nəticələrinin uzunmüddətli proqnozlaşdırılması ilə bağlı tədqiqatlara məqsədli dəstəyin artırılması;
- dövlətin milli təhlükəsizliyinin təmin edilməsinin mühüm prioritetləri sisteminə innovasiya və elmi-texniki fəaliyyət sferalarının daxil edilməsi;
- innovasiyadan geniş istifadə edən və elmin inkişafına investisiya yönəldən özəl sektor üçün güzəştlərin və imtiyazların tətbiqi vasitəsilə innovasiya proseslərinə və elmi-texniki inkişafa köməyin genişləndirilməsi;
- elmi və innovasiya fəaliyyəti subyektləri arasındakı kooperasiyanın stimullaşdırılması, elmi-texniki və innovasiya sferaları iştirakçıları arasındakı əməkdaşlıq münasibətlərinin formalaşdırılmasına kömək göstərilməsi;
- elmi-texniki və innovvasiya sferalarının səmərəli inkişafı üçün institusional təminatın və şəraitin inkişaf etdirilməsi [11, s.471];
- dövlətin məqsədləri sistemində innovasiya istiqamətlərinin formalaşdırılması.

Beləliklə, araşdırma göstərir ki, milli iqtisadiyyatın modernləşdirilməsinin, dayanıqlı iqtisadi artımın təmin edilməsinin və dünya bazarında ölkənin rəqabətqabiliyyətliliyinin artırılmasının mühüm amili innovasiya fəaliyyətinin intensivləşdirilməsidir. Bu qeyd edilənlərlə və ölkənin uzunmüddətli inkişaf strategiyaına uyğun olaraq aşağıdakı nəticələri formalaşdırmaq olar.

Nəticə

İnnovasiyalı yaşıl iqtisadiyyatın formalaşdırılmasının nəzəri və praktiki aspektlərinə aid müxtəlif tədqiqatların araşdırılması müasir dövrdə istehsalın modernləşdirilməsinin əsas keyfiyyətmütərəqqi amili kimi innovasiya prosesinin olduğunu göstərir. Müasir iqtisadi vəziyyət dayanıqlı yaşıl iqtisadi artım strategiyasında innovasiya mexanizmindən istifadə edilməsini zəruri edir.

Statistik qiymətləndirmələrə görə dünyanın inkişaf etmiş ölkələrində ÜDM artımının təxminən 70-80%-i innovasiya fəaliyyətinin və texnoloji tərəqqinin nəticələrinə əsaslanır. Ölkədə ÜDM artımı xammal resurslarının qiyməti və valyuta siyasəti ilə müəyyən olunur. Onu da qeyd edək ki, xarici bazarda elmtutumlu məhsulların və texnologiyaların illik dövriyyəsi xammal bazarının illik dövriyyəsini bir neçə dəfə qabaqlayır. Formalaşmış vəziyyətin keyfiyyətcə dəyişməsi dövlət tərəfindən səmərəli, sistemli və əlaqələndirilmiş yaşıl iqtisadi tədbirlərin işlənib hazırlanmasını tələb edir. Belə yanaşma orta və uzunmüddətli perspektivdə innovasiya sferasında yaşıl uğurlu fəaliyyətin həyata keçirilməsinin əsasını təşkil etməlidir.

Ölkənin gələcəyə baxış inkişaf konsepsiyasında dayanıqlı yaşıl iqtisadi artımla birbaşa bağlı miqyaslı sosial-iqtisadi vəzifələr qarşıya qoyulmuşdur. Deməli, dövlət səviyyəsində innovasiya fəaliyyəti iqtisadi artımın səviyyəsinə birbaşa təsir edən prioritet inkişaf istiqaməti kimi təsdiq

edilmişdir. Bu o deməkdir ki, dayanıqlı yaşıl iqtisadi artım innovasiya məhsulları hesabına intensiv təkrar istehsal prosesi ilə sıx bağlıdır.

Sənaye istehsalı sektoru ölkə iqtisadiyyatının əsas sahələrindədir. Başqa sözlə desək, yaşıl iqtisadi artımın ümumi göstəricilərinin həcmi sənayenin, xüsusilə emal sənayesi məhsulunun dinamikasından və keyfiyyətindən asılıdır. Milli iqtisadiyyatın dayanıqlığı hər bir səviyyədə həyata keçirilən sənaye siyasəti və onun ayrılmaz hissəsi olan yaşıl innovasiya siyasəti ilə bağlıdır. Ümumi qəbul edilmiş dünya meyillərinə uyğun olaraq sənayedə, o cümlədən emal sənayesində yaşıl innovasiya fəallığının artırılması və onun tətbiqi, kommersiyalaşdırılması əlavə dəyərin və ÜDM artımına gətirib çıxaran texnoloji innovasiyanın hərəkətverici qüvvəsidir. Ona görə də innovasiyalı inkişafın amilləri ilə sənaye sektorunun əlavə dəyərinin artımı arasındakı əlaqənin statistik qiymətləndirilməsi innovasiya əsasında etibarlı və keyfiyyətli sənaye siyasətinin formalaşdırılmasına imkan verir.

Statistik tədqiqatın mövcud aparatına əsaslanaraq belə yanaşma ümumi əlavə edilmiş dəyərin artımına təsir edən əsas innovasiya amillərini müəyyənləşdirməyə imkan verir. Qurulmuş reqressiya modellərindən dövlətin strateji planlaşdırılmasında, büdcə planlaşdırılmasında, innovasiya və sənaye siyasətində və s. istifadə edilə bilər. Araşdırma göstərir ki, innovasiya işləmələrinə material xərclərinin və elmi kadr potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi ölkədə innovasiyalı fəaliyyətin uğurlu inkişafının mühüm aspektidir.

İnnovasiyalı yaşıl iqtisadiyyatın yaradılması sahəsində dövlətin siyasəti minimum üç qrup vəzifənin - maliyyə intizamının dəstəklənməsi, insan kapitalı və texnologiyaya investisiyanın həyata keçirilməsi və xarici bazara açıqlığın daxili mübarizəsinin yaradılması - həll edilməsini nəzərdə tutmalıdır. İnnovasiyalı yaşıl iqtisadiyyatın yaradılmasında dövlətin rolu vacibdir və onun yaradılmasının müxtəlif mərhələlərində fərqlənir. Dövlət innovasiyalı yaşıl iqtisadiyyatının formalaşma mərhələsində yaradıcı - mühafizəçi, inkişaf mərhələsində isə dəstəkləyici-mühafizəçi rolunda çıxış edir.

Ölkədə innovasiyalı yaşıl iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinin əsas prinsiplərinə sahibkarlıq fəallığı kifayətləndirici olmayan sferalarda problemlərin və innovasiya vasitələri dəstindən istifadə etməklə onların həll edilməsi yollarının aşkar edilməsini, həm texnoloji inkişafın prioritet istiqamətlərini müəyyən edərkən, həm də onların həyata keçirilməsi prosesində dövlət, biznes və elm sferalarının sıx qarşılıqlı fəaliyyətini, yaşıl innovasiya fəaliyyəti ilə məşğul olan firmaların səmərəliliyinin yüksəldilməsi əsasında texnoloji modernləşdirmə üçün stimul və şəraitin yaradılmasını, yaşıl innovasiya fəallığının investisiya və kadr cəlbediciliyinin təmin edilməsi, yaşıl innovasiya fəaliyyətinin dəstəklənməsinə xərclənən vəsaitlərin şəffaf olmasını, elm və təhsil təşkilatlarının, innovasiya biznesinin və infrastrukturunun səmərəliliyini qiymətləndirərkən beynəlxalq standartlardan istifadə edilməsini, innovasiya davranışı üçün mühüm motivasiya kimi rəqabətin stimullaşdırılmasını, nəhayət, yaşıl innovasiyalı inkişafın mühüm vəzifələrinin həll edilməsinin zəruri şərti kimi sosial - iqtisadi siyasətin ayrı-ayrı istiqamətlərinin koordinasiyasını və qarşılıqlı əlaqəsini aid etmək olar.

Ölkə regionlarında innovasiyaların idarə edilməsi sisteminin təhlili göstərir ki, onlar üçün mövcud olan əsas ənənəvi problem regional innovasiya potensialının reallaşdırılması üçün zəruri olan dəqiq müəyyənləşdirilmiş yaşıl innovasiya strategiyasının yoxlugudur. Apardığımız geniş tədqiqatlar nəticəsində ölkə regionları üçün regional planlaşdırmanın analtik metodlarından, eləcə də Avropanın TACİS EES ekspert xidmətinin tədqiqat qrupu tərəfindən işlənib hazırlanmış metodikalardan istifadə etməklə yaşıl innovasiya strategiyasının layihələndirilməsi məqsədəuyğun hesab olunur.

ƏDƏBİYYAT

1. İlham Əliyevin ekoloji siyasəti.Dayanıqlı inkişaf və yaşıl dünya.(2003-2023) II-cild. Bakı, 2025.səh.306.
2. S.H.Qurbanov .Yaşıl iqtisadiyyat, Bakı 2024.səh.80.

3. E.Quliyev. Qlobal ərzaq təhlükəsizliyi: Bakı-2018.s.271
4. M.Hüseynov. Aqrar sferanın innovativ inkişafı problemləri. Monoqrafiya. Bakı, 2023,s.149-150.
5. V.Ə.Qasımlı,R.Z.Hüseyn,R.F.Hüseynov,R.B.Həsənov,C.R.Cəfərov,A.B.Bayramova. "Yaşıl iqtisadiyyat". Monoqrafiya. Bakı, 2022,s.149
6. Маевский В.И. Корнаи, Щумпетер и экономическая теория //Вопросы экономики. Москва; Академия, N 8, 2012,57 с.
7. Стартегии инновационного развитя Российской Федерации на период до 2020 года, 2011, 11 с.
8. Ə.Muradov, Y.Kəlbiyev, A.Hüseynli. Yaşıl iqtisadiyyat və Dayanıqlı inkişaf. Bakı. 2024. səh.33.
9. Дежина И., Салтыков Б. Становление российской национальной инновационной системы и развитие малого бизнеса //Проблемы прогнозирования .Москва; N 2,2005,27с.
10. Azərbaycan 2020:strateji baxış və əsas prioritetlər.
11. Методологические пояснения. Российский статистическтй ежогодник.Москва: 2012,471 с.
12. Портер.М.Международная конкуренция.конкурентные преимушуестве стран. пр.с. англ. Москва.Наука,1993,255с.
13. (https://azertag.az/xeber/Iqlim191728).
14. .(http://e-qanun az/framework/25029):
15. (www.ict.az.)

Фуад Мамед оглы Бадиров
Директор "BM GROUP" MMC
Доктор философии по экономике
fuad652@rambler.ru

Оценка роли инноваций в развития зеленой экономики и ее основных показателей.

Резюме

Цель исследование является проведение ислодованийв направлении развитя зеленой экономики и основных элементов роста зеленой экономики и научных подходов инновациям.

Методика исследования. В ходе научного исследования исползовались методы, включая наблюдение,сравнительный,аналтический анализ и методы системного подхода. Основной методологией исслодования является политика Азербайджанского государства, связанная с зеленой экономикой.

Прикладная значимость исследования заключается в том, что оно может иметь значение при подготовке проектов в направлении повышения роли инноваций в развитии зеленой экономики.

По результатам исслодования можна сказат что обобщены и обазначены основные направления зеленого экономического роста и инноваций в современных экономических условиях. В статье рассмотрены подход к сущности инноваций кака основного фактора модернизации производства.Обоснована необходимость исползования инновационног механизма в стратегии устройчивого зеленого экономического роста и одновременно определеные принципы реализации инновационной стратеги.

Оригинальность и научная новизна исследований. В статье раскрыта роль инноваций в развитии зеленой экономики и научные подходы к оценке ее основных показателей.

Ключевые слова: устойчивый экономический рост,зеленая экономика, инновации, инновационная экономика, стратегия инновационного развития, наукоемкая продукция, роль государства.

Fuad Mammad Badirov
Director of “BM GROUP” LLC
Condidate of Economic Sciences
fuad652@rambler.ru

Evaluation of the role of innovations and key indicators in the development of the green economy

Summary

The purpose of the stude is to conduct research in the direction of the develovent of the green economy and the main elements of green economic growth and scientific approaches to innovation.

The methodology of the research. The methods used during the scientific research,including observation,compartive,analytical analysis and systematic approach metods were used.The main methodology of the researchis the policy of the Azerbaijan state related to the green economy.

The appilied importance of the research is that it can de important in the prepartion of projects in the direction of increasing the role of innovations in the development of the green economy.

According to the results of the research,it can be said that the main directions of green economic growth and innovation in modern economic conditions have been summarized and indicated.The article examines the approaches to the essence of innovation as the main factor of production modernization,the innovation mechanism in the strategy of sustainable green economic growth is justified,and at the same time innovation the main principles of strategy implementation are determined.

Originality and scientific innovation of research. The role of innovations in the development of the green economy and scientific approaches to evaluating its main indicators are included in the article.

Key words. Sustainable economic growth,green economy, innovation,innovation economy, innovative development strategy, science-intensive products, role of the state.

UOT 338

Səmanur Asif qızı KƏRİMOVA
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
karimovasemanur@mail.ru

Tərlan Növrəs oğlu NÖVRƏSLİ
Azərbaycan Turizm və Menecment Universiteti
"Turizm biznesi" kafedrasının dosenti
Novrasli22@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.014

AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İQTİSADİYYATIN VƏ BİOMÜXTƏLİFLİYİN BƏRPASI YOLLARI

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycanın azad olunmuş ərazilərində iqtisadiyyatın və biomüxtəlifliyin bərpasının yollarını araşdırmaqdır. 2020-ci il Vətən müharibəsindən sonra bu ərazilərin bərpası həm iqtisadi, həm də ekoloji baxımdan böyük əhəmiyyət kəsb edir.

Tədqiqatın metodologiyası – Məqalə hazırlanarkən müəlliflər elmi tədqiqat üsullarından, o cümlədən müşahidə, müqayisə, məntiqi ümumiləşdirmə, induksiya və deduksiya metodlarından faydalanmışdır. Həmçinin azad olunmuş ərazilərdə Azərbaycan dövlətinin iqtisadiyyatın formalaşdırılması siyasətinə strateji yanaşması tədqiqatın metodoloji əsasını təşkil edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın və biomüxtəlifliyin bərpasına, ölkəmizdə ayrı-ayrı sahələrin daha da inkişaf etdirilməsi istiqamətində turizm sənayesinə verilən töhfələr, irəli sürülən təklif və tövsiyələr hazırlanaraq Qarabağ iqtisadi rayonunun bərpasına təkan verəcəkdir.

Tədqiqatın nəticələrinə dair onu qeyd etmək olar ki, Qarabağ iqtisadi rayonunda turizm sənayesi iqtisadi siyasətin prioritet sahələrindən biri kimi qəbul edilir, çünki turizm sahəsinin inkişafı və onun dayanıqlı fəaliyyət göstərməsi üçün regionun əlverişli təbii-coğrafi şəraiti vardır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Azərbaycanın bir sıra ərazilərinin uzun müddət işğal altında olması və 4 ildir ki, azad edilməsi səbəbilə bu mövzunun araşdırılması elmi yenilik hesab olunur.

Açar sözlər: Qarabağ, turizm, biomüxtəliflik, iqtisadiyyat, bərpa.

Giriş

İqtisadiyyatın aparıcı və ən dinamik sahələrindən biri olan turizm həm də sürətli inkişaf tempinə görə əsrin iqtisadi fenomeni hesab olunur. Bu gün turizmin davamlı inkişafını təmin etmək, müasir turist tələbatını ödəyə biləcək turizm məhsulunu formalaşdırmaq asudə vaxtın təşkilində göstərilən xidmətlərin keyfiyyətinin daimi olaraq artırılması şərti ilə mümkündür. Turmalın keyfiyyətinin yüksək səviyyədə olması turizm biznesinin inkişafı üçün lazım olan zəruri şərtdir.

Turizmin prioritet sahələri onunla əlaqəli bir çox sektorların mövcudluğuna görə dinamik və mürəkkəbdir. Bu amillər və sektorlar turizm təcrübəsinin təmin edilməsi və turizm bazarından gəlir əldə edilməsi ilə bağlıdır. Azad olunmuş ərazilərdə iqtisadiyyatın və biomüxtəlifliyin bərpası, regionun inkişafı və rəqabətqabiliyyətli turmalın istehsalı, dayanıqlı olması üçün kritik əhəmiyyət kəsb edir. Azad edilmiş Qarabağ torpaqları bütün imkanları ilə Azərbaycanın ən vacib regionlarından biridir.

Tarixə nəzər salsaq görərik ki, Qarabağ problemi təxminən iki əsr öncə Rusiya İmperiyası tərəfindən geostrateji səbəblərlə yaradılmışdır. 19-cu əsrin əvvəllərində indiki Ermənistan ərazisi və Qarabağa uyğun gələn torpaqlarda əsasən azərbaycanlılar olmaqla türk etnik qruplar üstünlük

təşkil edirdi. Erməni əhalisi isə azlıq təşkil edirdi. Erməni əhalinin böyük bir hissəsi Osmanlı İmperiyası və İran ərazilərində yaşayırdı. Qarabağ isə azərbaycanlıların qurduğu Qarabağ xanlığı idi. Rusiya İmperiyası Qafqazı işğal etdikdən sonra, bu ərazini idarə etməyi asanlaşdırmaq məqsədilə erməni əhalisinin artırılması siyasətini həyata keçirmişdir. Bu məqsədlə xüsusilə İran və Osmanlı İmperiyasının şərq bölgələrində yaşayan ermənilər Qafqaza köçürülmüşdür. Erməni əhalisinin bu bölgələrə yerləşdirilməsi ilə Qarabağdan müsəlman əhalinin bir hissəsi Azərbaycanın digər bölgələrinə və Osmanlı torpaqlarına köç etmişdir. Beləliklə, Rusiyanın Qafqaza erməni yerləşdirmə siyasəti bölgədə, xüsusilə Qarabağda etnik tərkibdə dəyişiklik yaratmışdır. Xüsusilə Balkan müharibələrindən sonra və Birinci Dünya müharibəsi zamanı Anadolu ermənilərinin təxminən 420.000 nəfəri Qafqaza köçürülmüşdür. Bu proses indiki Ermənistan ərazisində ermənilərin çoxluq təşkil etməsinə səbəb olmuşdur. Qarabağa ermənilərin köçürülməsi XX əsrin əvvəllərindən bu günə qədər Ermənistan və Azərbaycan arasında bəzən silahlı münaqişəyə qədər gedib çıxan dərin anlaşılmazlıq yaratmışdır. [6, səh.116-118]

Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağın turizm potensialı kifayət qədər genişdir. Burada turizmin bir çox növləri – ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar mövcuddur. Bu proses işğaldan azad olunmuş torpaqlarımızın, müharibədən sonrakı bərpa dövründə milli rifahı artırmaqla yanaşı, təbii və antropogen resursların qorunması və biomüxtəlifliyin zənginləşdirilməsi məqsədini güdür. İqtisadiyyatın inkişafı üçün kənd təsərrüfatı, turizm və sənaye sahələrinin müasir standartlara uyğun bərpa etdirilməsi vacibdir. Eyni zamanda, ekosistemlərin bərpası, qorunması regionun ekologiyasının sağlamlığını təmin edəcək. Bu yanaşmalar iqtisadi inkişafla ekoloji dayanıqlılığı birləşdirərək, azad olunmuş ərazilərin uzunmüddətli inkişafına zəmin yaradır. Beləliklə, iqtisadiyyatın bərpası biomüxtəlifliyin artırılması ilə paralel şəkildə həyata keçirilməlidir. Bu bölgələrdə problemlərdən söhbət açsaq görərik ki, infrastrukturun bərpası müasir Azərbaycanın üzləşdiyi ən mühüm problemlərdən biridir. Bu ərazilər 30 il ərzində işğal altında qalmış, iqtisadi və sosial infrastruktur tamamilə məhv edilmiş və ciddi ziyan görmüşdür. 8 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuz Şuşanı işğaldan azad edərək xalqımızı və bəşəriyyəti erməni faşizmindən xilas etdi. 8 noyabr ölkəmizdə “Zəfər günü” kimi təntənəylə qeyd edilir [1, səh.14].

İqtisadi qeyri-sabitliyə baxmayaraq, turizm sektoru cari tələb və təklif ehtiyaclarını effektiv şəkildə qarşılayaraq inkişaf etməyə davam edir. Turizmin planlaşdırılması bu elementləri tarazlaşdırmaq üçün bir mexanizm rolunu oynayır, bazar xüsusiyyətləri və tendensiyaları, eləcə də bazar tələblərinə cavab vermək üçün lazım olan planlaşdırma prosesləri haqqında anlayışımızı artırır. Qarabağ iqtisadi regionunda əsas prioritet sahələr turizmin inkişafını stimullaşdırmaq üçün əhəmiyyətli potensiala malikdir. Azərbaycanın qarşısında duran əsas məsələ bu ərazilərdə həyatı yenidən canlandırmaq və məcburi köçkünləri doğma yurdlarına qaytarmaqdır. Lakin bu proses bir sıra problemlər və təsirlərlə müşayiət olunur.

Kənd Təsərrüfatı Sektoruna Təsir. Turizmin inkişafı ilə paralel olaraq turizmin gəlir effektinin artması aqrar sektorda istehsalın keyfiyyətinin artmasına, standartlaşmanın təmin edilməsinə və ən əsası keyfiyyətli malların dəyərləndirilməsinə səbəb olur. Bundan əlavə, kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olanların alternativ yolları dəyərləndirərək turizmdən gəlir əldə etməsi mümkündür.

Yerli əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbi ilə yanaşı, daxili və xarici turizmin yaratdığı əlavə tələb və turizm mövsümündə qısamüddətli regional qiymət artımları kənd təsərrüfatı sektorunun ümumi gəlirlərini artırır. Turizmdə iaşə müəssisələrinin inkişafı, kənd təsərrüfatı məhsullarına olan tələbatı və aqrar sektorun ümumi gəlirlərini artırır. Kənd təsərrüfatı məhsullarına olan tələb birbaşa turizm malına olan xərclər ilə yanaşı, turizmdən gəlir əldə edənlərə dolayı yolla gəlir effekti yaradır [8]. Milli kənd təsərrüfatı məhsulları bazarında tələbin dəyişməsi müəyyən dərəcədə turizm tələbi ilə kompensasiya olunduğundan gəlir effekti gözləniləndən çox olur. Turistlərə istirahət imkanı yaradan yaşıl turizmdən gəlir əldə etmək üçün turizm bölgələrində

torpaq sahəsi olan bir çox fermerlər yay aylarında karvan və düşərgə əraziləri kimi boş torpaqlarını, yaylaqlarını və otlaqlarını turizmə açır. Bu sahələrin icarəyə verilməsi fermerə daha az xərc çəkərək ən gəlirli kənd təsərrüfatı istehsalından daha çox gəlir əldə etməyə imkan verir. Digər gəlir imkanı isə ferma turizminə tələbatın artması ilə təmin edilir. Köhnə və kənd tipli evlərin bir çox otağı turisti qonaqlamaq üçün imkan yaradır. Kənd ərazisinin bəsit yaşayış şəraiti və az bir məbləğ ilə turistin ehtiyaclarını qarşılaya bilmək üçün kənd evlərinin otaqlarının turist üçün qonaq otağına çevrilməsi həm kənd təsərrüfatının, həm də turistin cazibəsini və cəlbediciliyini artırır.

Turizmin yaratdığı məşğulluq imkanları ilə aqrar sektorda və ümumilikdə mövsümlərdən asılı olaraq istehsalda işçi qüvvəsinin zəif hərəkətliliyi nəticəsində yaranan mövsümi işsizliyi və boş işləmə qabiliyyətini azaltmaq mümkündür. Turizm mövsümündə yerli əhaliyə məşğulluq imkanlarının yaradılması mövsümi işsizliyi azaldır, kənd təsərrüfatı sahələrində ferma turizmi və düşərgələrində çalışanlara turizm xidmətlərinin göstərilməsi əlavə gəlir imkanı yaradır.

Turizmin kənd təsərrüfatı sektorunda verdiyi faydalarla yanaşı, müəyyən problemlər yaratdığı da görünür. Məsələn, kənd təsərrüfatı torpaqlarında daimi düşərgə və karvan obyektlərinin yaradılması becərilən torpaqların həcminin azalmasına, fermerlərin belə obyektlərin yaradılmasına sərmayə qoyması isə lazım olan alət, avadanlıq və avadanlıqlara ayırdıqları vəsaitin həcminin azalmasına səbəb olur. Lakin marjinal kənd təsərrüfatı sahələrinin turizm və rekreasiya üçün açılması faydalıdır, çünki bu ərazilərdə məhsuldar kənd təsərrüfatı fəaliyyəti həyata keçirmək mümkün deyil. Göstərilən hallar istisna olmaqla, turistlərin və rekreasiya iştirakçılarının kənd təsərrüfatı torpaqlarına faktiki tələbləri demək olar ki, yoxdur. Bu təcrübələrə baxmayaraq, iqtisadi səbəblərdən torpaqlarını turizmə açanların sayı çox azdır. Bu, turizm və kənd təsərrüfatının harmoniyada inkişaf etdirilməsinin və xüsusiyyətlərinə görə tarazlı inkişafın əldə edilməsinin çətinliyi ilə bağlıdır.

Sənaye sektoruna təsir. Turizm sektorunun sənaye sektoruna təsirini sənaye sektorunu üç qrupa bölmək yolu ilə araşdırmaq olar:

1 – Turizmin istehlak malları istehsal edən sənayelərə yüksək təsir göstərdiyi görülür. Qida və içki sənayesində istehsal olunan malların turistik ehtiyaclardan irəli gələn tələbata uyğunlaşması üçün turizm standartlarına uyğun olması üçün səylər göstərilsə də, istehsalın yalnız turistik istehlak üçün edildiyi çox vaxt müşahidə olunur. Eyni vəziyyət tütün məmulatları sənayesinə də aiddir. Toxuculuq və tikiş sənayesində ölkənin xüsusiyyətlərini əks etdirən və turistlərin diqqətini cəlb edən ixracyönümlü istehsal həyata keçirilir.

2 – Turizmin ara malı istehsal edən sənayelərə, xüsusən də dəri və dəri məmulatlarına və keramika sənayesinə təsir etdiyi görülür. Dəri və dəri məmulatları ixrac mənbəyi olduğu kimi, dəri tikiş məmulatlarının turistlərə satışı da əlavə ixracı artırmaq xüsusiyyətinə malikdir. Turizm obyektlərinə investisiyalarda keramika, şüşə, santexnika, dəmir-polad sənayesinə əlavə tələbat var.

3 – Turizm sənayesinin turmal istehsal edən sahələr üzərində təsiri kifayət qədər yüksəkdir. Yalnız nəqliyyat vasitələri istehsal edən sənayelərdə turizmin tələb etdiyi bəzi dəyişikliklər tətbiq edilə bilər. Məsələn, kruiz turizmində istifadə olunacaq gəminin inşasında və ya turlarda istifadə olunacaq yol nəqliyyat vasitələrinin tikintisində turist istehlakının xüsusiyyətlərinə uyğun olaraq dəyişikliklər edilir. Turizmin inkişafı ilə paralel olaraq turizm investisiyalarının artırılması həm tikinti materialları sənayesində canlanmaya, həm də bu tikintilərdə çalışan kadrların gəlirlərinin artmasına səbəb olardı. Gəlirlərin yenidən xərclənməsi ilə yaranacaq əlavə tələbatın bir hissəsi sənaye sektorunda öz əksini tapacaq.

Sənaye sektorunda işçi qüvvəsindən asılı olduğuna görə sənaye inkişafı təkcə resurslar və istehsal amillərində rəqabəti artırmır, həm də turizm bölgələrində sənaye sektoru ilə turizm arasında hərəkətliliyi artırır. Sektorlar arasında birbaşa və dolayı əlaqələr mövcuddur, məsələn, sənaye inkişafının yaratdığı tələbatın artması bəzi sektorlarda əlavə məşğulluğun yaranmasına səbəb olur. Eyni zamanda, əlavə məşğulluq daha yüksək xərcləmə qabiliyyətini təmin edir ki, bu da turizm fəaliyyətlərini əks etdirir [7].

Sənayeləşmənin bəzi növləri turistlər üçün cəlbedicidir. Məsələn, Kornuoll və Devondakı

balıqçılıq çoxdan turistləri cəlb edir və 1970-ci ildə bir milyarddan çox insan Anqlesiyə Wylfa nüvə enerjisi mərkəzini görmək üçün gəldi və Beaumaris qəsrini görməkdən on dəfə çox tələbat yaratdı. Bundan əlavə, bir çox köhnə sənaye sahələri turistlərin diqqətini cəlb edir.

Turizmin sənaye sektoruna başqa bir təsiri də sənaye təşkilatlarının ətraf mühitin çirklənməsinin qarşısını almaq və təbii görünüşü korlamamaq üçün bəzi tədbirlər görməyə məcbur olmasıdır. Bu məqsədlə sənaye işlətmələrinin görünməz yerlərdə biznes qurmaq, enerjiötürücü xətlərini yerin altından keçirmək, yanacaq çənlərini yerə basdırmaq və meşə salmaqla obyektləri gizlətmək kimi təcrübələrinə tez-tez rast gəlinir. Ümumiyyətlə, turizm və sənaye sektorlarının bir-birinə təsir etməsi nəticəsində yaranan müsbət və mənfi nəticələr qiymətləndirilərkən subyektiv qiymətləndirmələr aparılır.

Böyük miqyaslı sənaye layihələrinin təsirlərinin hesablanması zamanı fayda-xərc təhlili əsasən istifadə olunur. Bir sənaye obyektinin təmin etdiyi sosial faydalar və onun bölgəyə gətirdiyi sosial xərclər araşdırılır və turizm baxımından nəticələr qiymətləndirilir. Ancaq fayda-xərc təhlilləri çox baha başa gəldiyi və vaxt itkisinə səbəb olduğu üçün ətraflı araşdırma aparıldığını söyləmək olmaz.

Xidmət sektoruna təsir. Turizmin inkişafı, bir bölgədə turistik fəaliyyət və investisiyaların artması, xidmət sektorunun əhəmiyyət qazanmasına və inkişafına səbəb olur [6, səh 232].

Xidmət istehsalının müəyyən meyar və xüsusiyyətləri ilə yanaşı, turistik xidmətlərdə axtarılan xüsusiyyətlər üçüncü istehsal sektorunda diferensiallaşmaya səbəb olur. Xidmət istehsalı olan turizmin inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafı reallaşdıran amillərdən biri kimi qəbul edilməsi onun xidmət sektoruna təsir etdiyini sübut edir. Bundan əlavə, işsizliyin qarşısını almaq və ya azaltmaq məqsədi daşıyan iqtisadi siyasətlər ümumiyyətlə əməktutumlu istehsal üsullarını qəbul etdiyi üçün turizm xüsusi əhəmiyyət kəsb edir.

Turizm hərəkətləri bazar funksiyasını təkmilləşdirdiyindən, turizmin inkişafı və artan investisiyalar üçüncü istehsal sektoru üçün hərəkətverici funksiyaya nail olur. Beləliklə, üçüncü istehsal kompleksində ticarət, incəsənət və xidmət müəssisələrində keyfiyyət və kəmiyyət artımı bu müəssisələrin optimal ölçülərə çatmasına imkan verəcəkdir.

Bazar funksiyasını aktivləşdirərək turizmin üçüncü istehsal sektoruna təsirlərini aşağıdakı kimi sıralamaq olar:

1 – Cari istehlakla bağlı üçüncü istehsal sektorunu inkişaf etdirir (Çörək, ət, tərəvəz məhsulları, ərzaq məhsulları kimi);

2 – Avadanlıq sənəti ilə əlaqəli üçüncü istehsal sektorunu inkişaf etdirir (elektrik, rəssam, dəmirçi, inşaat işçisi kimi);

3 – Rahatlıqla bağlı üçüncü istehsal sektorunu inkişaf etdirir (moda evləri, idman ləvazimatları, parfümeriya, jurnalistlər, çiçəkçilər, şirniyyat mağazaları, çayxanalar kimi);

4 – Yardım və təhlükəsizlik xidmətləri ilə bağlı üçüncü istehsal sektorunu inkişaf etdirir. (Səhiyyə müəssisələri, banklar, sığorta, polis kimi);

5 – Lüks xidmətlərlə bağlı üçüncü istehsal sektorunu inkişaf etdirir (Zərgər, gecə klubları, sauna, bələdçi, monitorlar, antikvar mağazaları kimi).

Turizm sektorunda çalışan kadrlar peşəkar formalaşmalı olduğundan, sektorda işə götürüləcək kadrlara müəyyən bacarıq və təcrübənin verilməsi də xidmət sektorunda keyfiyyətin yüksəldilməsində rol oynayacaq. İşin xarakterindən asılı olaraq ixtisaslı, yarıixtisaslı və keyfiyyətsiz kadrların işə götürülməsi turizmin xüsusiyyətlərinə görə təlim fəaliyyətinə önəm verilməsini tələb edir. Müəyyən ixtisaslara malik kadrların məşğulluğunun artırılması xidmət sektorunun ümumi milli məhsula töhfəsini də artıracaq.

Məşğulluq və təhsil imkanları. Yerli əhalinin yenidən cəmiyyətə inteqrasiyası üçün iş imkanları və təhsil mühüm əhəmiyyət daşıyır. Məcburi köçkünlərin doğma yurdlarına qayıtdıqdan sonra dayanıqlı məşğulluq imkanları ilə təmin olunması onların iqtisadi və sosial həyatda iştirakını artıracaq. Yeni iş yerlərinin yaradılması, xüsusilə infrastruktur və kənd təsərrüfatı sektorlarında genişmiqyaslı məşğulluq imkanlarının təmin edilməsi insanların reinteqrasiyasını asanlaşdıracaq. Bundan əlavə, gənclərin təhsil imkanlarına çıxışı təmin edilməli və onların gələcək əmək bazarına

daxil olmasına şərait yaradılmalıdır.

Hökumət və beynəlxalq dəstək. Reinteqrasiya prosesinin uğurla həyata keçirilməsi üçün hökumət səyləri, beynəlxalq təşkilatların və donorların dəstəyi çox önəmlidir. Bu çərçivədə genişmiqyaslı layihələrin həyata keçirilməsi, maliyyə və texniki yardımın göstərilməsi lazımdır. BMT, Dünya Bankı və digər beynəlxalq qurumlar bu prosesdə mühüm rol oynaya bilərlər.

Mədəni irsin və milli kimliyin bərpası. İşğal dövründə dağıdılmış mədəni irs obyektlərinin bərpası da reinteqrasiya prosesinin bir hissəsidir. Bu ərazilərdəki məscidlər, muzeylər, tarixi abidələr və digər mədəni obyektlərin bərpası yalnız turizmi inkişaf etdirmək üçün deyil, həm də yerli əhalinin milli kimliyini və mədəni əlaqələrini yenidən qurmaq üçün vacibdir. Bu bərpa işləri, həmçinin mədəni və dini dəyərlərin dirçəlməsinə və birgəyaşayışın təşviqinə kömək edəcək

Nəticə

Dövlət və beynəlxalq təşkilatlarla birgə bərpa layihələrinin, biomüxtəlifliyin qorunması üçün ekosistemin bərpası proqramları, ekoloji tədbirlərin keçirilməsi, yerli əhalinin təhsil səviyyəsinin artırılması və mütəxəssislərin yetişdirilməsi, yeni kadr hazırlığı**,** iqtisadiyyatın bərpası üçün maliyyə dəstəyi və COP29 kimi tədbirlər də işğaldan azad edilmiş ərazilərdə biomüxtəlifliyin və iqtisadiyyatın bərpasına təkan verəcəkdir. Qarabağ iqtisadi rayonunda turizm sənayesi iqtisadi siyasətin prioritet sahələrindən biri kimi qəbul edilir. Çünki turizm sahəsinin inkişafı və onun dayanıqlı fəaliyyət göstərməsi üçün regionun əlverişli təbii-coğrafi şəraiti vardır. Buna görə də Qarabağ iqtisadi rayonunda prioritet turizm növləri tədqiq edilməli və turizm sənayesinin inkişafına təkan verən prioritetli, lakin ənənəvi turizm xidməti növlərinə qonaqpərvərlik, müalicə sağlamlıq turizmi və speleoturizmi, yeni və müasir turizm xidməti növlərinə animasiyalar və SMART turizmi bu regionda inkişaf etdirilməlidir. Bu platformada dövlət, özəl sektor və alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı işlənib hazırlanmalı, təbii və antropogen turizm resursları nəzərdən keçirilməlidir. Gələcəkdə bu sahələrin inkişafı turizm xidmətinin davamlı təminatçısı qismində çıxış edəcək. İşğaldan azad olunmuş ərazilərimizə yeni nəfəs, yeni həyat qayıdır. Vahid Azərbaycan dövləti inamla inkişaf edir və bərpa-quruculuq işləri həyata keçirilir.

ƏDƏBİYYAT

1. Aliyev, R. (2022). İqtisadi İslahatlar və İnkişaf. Bakı: Elm və Təhsil.
2. Huseynov, A. (2023).Ekoturizm və İqtisadiyyat.
3. Xalq qəzeti. (2020). İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri
4. Növrəsli T.N. Azərbaycan turizm potensialının iqtisadi inkişaf üçün töhfələri. "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi analitik jurnalı, Bakı 2013
5. Növrəsli T.N. Qarabağ iqtisadi rayonunda turizmin inkişafına təkan verən prioritetli sahələr. Elmi Tədqiqat beynəlxalq elmi jurnal. Cild: 2 Sayı: 4 "Azərbaycan" Nəşriyyatı. Bakı, 2022
6. Növresli, T. (2020) "Azerbaycan Turizm Potansiyelinin Kalkınma Amaçlı Değerlendirilmesi". Doktora Tezi. İzmir, "YÖK"
7. Timur, A. (1998) Turizm Ekonomisi. Ders Notu, İzmir
8. https://ourworldindata.org/biodiversity
9. https://physiology.az/az/news/613
10. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=15287

Саманур Асиф кызы Керимова
Азербайджанский Университет Туризма и Менеджмента
Магистрант
karimovasemanur@mail.ru

Тарлан Новрас оглу Новрасли
Азербайджанский Университет Туризма и Менеджмента
доцент кафедры “Туристического бизнеса”
Novrasli22@gmail.com

Пути восстановления экономики и биоразнообразия на освобожденных территориях

Резюме

Цель исследования. Основной целью данного исследования является изучение путей восстановления экономики и биоразнообразия на освобожденных территориях Азербайджана. Восстановление этих территорий после Отечественной войны 2020 года имеет большое значение как с экономической, так и с экологической точки зрения.

Методика исследования. При подготовке статьи авторы использовали методы научного исследования, в том числе наблюдение, сравнение, логическое обобщение, методы индукции и дедукции. Также методологической основой исследования является стратегический подход к политике формирования экономики Азербайджанского государства на освобожденных территориях.

Прикладное значение исследования заключается в том, что будет подготовлен вклад в сферу туризма в направлении дальнейшего развития отдельных направлений по восстановлению экономики и биоразнообразия на территориях, освобожденных от оккупации, предложения и рекомендации, которые будут стимулировать восстановление Карабахского экономического района.

Относительно результатов исследования можно отметить, что туристическая отрасль в Карабахском экономическом районе рассматривается как одно из приоритетных направлений экономической политики, поскольку в регионе имеются благоприятные природно-географические условия для развития туристической сферы и его устойчивая работа.

Оригинальность и научная новизна исследований. В связи с тем, что некоторые территории Азербайджана долгое время находились под оккупацией и были освобождены в течение 4 лет, исследование этой темы считается научной инновацией.

Ключевые слова: Карабах, туризм, биоразнообразие, экономика, восстановление.

Samanur Asif Karimova
Azerbaijan Tourism and Management University
Graduate student
karimovasemanur@mail.ru

Tarlan Novras Novrasli
Azerbaijan Tourism and Management University
Associate Professor of Tourism Business Department
Novrasli22@gmail.com

Economic and biodiversity recovery pathways in liberated areas

Summary

The purpose of the research is to investigate ways of restoring the economy and biodiversity in the liberated areas of Azerbaijan. After the 2020 Patriotic War, the restoration of these areas is

of great importance, both economically and ecologically.

Research methodology. While preparing the article, the authors benefited from scientific research methods, including observation, comparison, logical generalization, induction and deduction methods. Also, the strategic approach to the policy of the formation of the economy of the Azerbaijan state in the liberated territories forms the methodological basis of the research.

The applied importance of the research is that the contributions made to the tourism industry in the direction of the further development of individual areas in the restoration of the economy and biodiversity in the territories freed from occupation, proposals and recommendations will be prepared and will stimulate the restoration of the Karabakh economic region.

Regarding the ***results of the research,*** it can be noted that the tourism industry in the Karabakh economic region is considered as one of the priority areas of the economic policy, because the region has suitable natural and geographical conditions for the development of the tourism sector and its sustainable operation.

Originality and scientific novelty of the research. Due to the fact that some territories of Azerbaijan have been under occupation for a long time and have been liberated for 4 years, the investigation of this topic is considered a scientific innovation.

Key words: Karabakh, tourism, biodiversity, economy, restoration

UOT 338.40

Rəvan Malik oğlu PAŞAZADƏ
Doktorant, Bakı Biznes Universiteti
Bakı şəh., H. Zərdabi küç. 88a
revan_pashazade@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.002.021

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İNFRASTRUKTUR SİSTEMİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN PRİORİTETLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - İAEƏ-də infrastruktur sisteminin inkişaf etdirilməsinin zəruriliyinin əsaslandırılması və infrastruktur sisteminin inkişafının iqtisadi inkişafın stimullaşdırılmasına təsiri ilə bağlı araşdırmaların aparılmasından ibarətdir.

Tədqiqatın metodologiyası - Tədqiqat işində təhlil,ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - İAEƏ-də infrastruktur sisteminin inkişaf etdirilməsinin iqtisadi inkişafın stimullaşdırılmasına təsirinin əsaslandırılması, dayanıqlı inkişafın təmin edilməsinə təsiri və həmin ərazilərdə iqtisadiyyatın şaxələndirilməsinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlıdır.

Tədqiqatın nəticələri - İAEƏ-də infrastruktur sisteminin inkişaf etdirilməsinin qeyri-neft sektorunun inkişafına təsiri və həmin ərazilərdə istehsal edilən məhsulların xarici bazara çıxış imkanlarının genişləndirilməsi ilə bağlı tövsiyələrin hazırlanmasından ibarətdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - İAEƏ-də infrastrukturun prioritet istiqamətlərinin müəyyənləşdirilməsi zamanı prosesə təsir edən zərərli amillərin aşkara çıxarılması və aradan qaldırılması, eyni zamanda infrastruktur sisteminin inkişafı ilə bağlı problemlərin müəyyənləşdirilməsi və onların həlli yolları ilə bağlı mexanizmlərin müəyyənləşdirilməsindən ibarətdir.

Açar sözlər - İAEƏ, infrastruktur sistemləri, bazar infrastrukturları, nəqliyyat və rabitə sistemləri, telekommunikasiya və informasiya texnologiyaları, nəqliyyat dəhlizləri, iqtisadi inkişaf, İAEƏ-nin investisiya cəlbediciyi.

Giriş

İşğaldan azad edilmiş ərazilərdə (İAEƏ-də) infrastruktur sisteminin inkişaf etdirilməsi ölkənin ümumi iqtisadi və sosial inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Bu ərazilər uzun illər ərzində davam edən müharibə nəticəsində ciddi infrastruktur və sosial ziyanlara məruz qalmışdır. Ərazinin bərpası və inkişafı üçün həyata keçiriləcək infrastruktur layihələri yalnız əhalinin geri qayıdışı və gündəlik həyatın bərpası ilə məhdudlaşmır, həm də bu bölgələrin ümumi iqtisadi potensialının artırılması, regional təhlükəsizliyin gücləndirilməsi və uzunmüddətli sosial sabitliyin təmin edilməsi məqsədini güdür. İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun inkişafı, həmçinin Azərbaycanın strateji maraqları ilə birbaşa əlaqəlidir. Bu ərazilərdəki müasir infrastruktur sistemlərinin qurulması, yerli əhalinin həyat səviyyəsinin yüksəldilməsi, iqtisadi fəaliyyətin stimullaşdırılması və beynəlxalq əlaqələrin inkişafı baxımından çox vacibdir. Ərazilərin bərpası və infrastrukturun inkişaf etdirilməsi prosesində sosial, iqtisadi və ətraf mühitin qorunması kimi müxtəlif sahələrdə kompleks yanaşmaların tətbiqi zəruridir. Postkonflikt ərazilərinin inkişaf təcrübəsi göstərir ki, həmin ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi və dayanıqlı məskunlaşmanın təmin edilməsi infrastruktur sisteminin sürətli inkişaf etdirilməsindən bilavasitə asılıdır. İAEƏ-də infrastruktur sisteminin inkişaf etdirilməsi əhalinin zəruri ehtiyaclara olan tələbatının səmərəli şəkildə qarşılanmasında da əhəmiyyətli rola malikdir. Bu baxımdan istehsal, bazar və sosial infrastrukturların formalaşdırılması ilə bağlı işlək mexanizmlərin yaradılması, elecə də həmin infrastruktur sistemləri vasitəsi ilə əhalinin tələbatının ödənilməsi, məhsul və xidmətlərin daxili və dünya bazarlarına

çıxarılması mühüm əhəmiyyət kəsb edir. İAEƏ-nin nəinki ölkə iqtisadiyyatına və eləcə də qloballaşan dünya iqtisadiyyatına və qlobal məkana inteqrasiya etdirilməsi bu sahədə zəruri çağırışların nəzərə alınmasını tələb edir. Hesab edirik ki, İAEƏ-də infrastruktur sisteminin qurulması ilə bağlı müasir standartlar nəzərə alınmalı və bu baxımdan qlobal çağırışlar, o cümlədən postsənaye infrastrukturlarının yaradılması vacib məsələlərdən biridir. Nəzərə alınmalıdır ki, təxminən 30 ilə qədər bir zaman kəsiyində həmin ərazilərdən məcburi şəkildə köçmüş insanlar ölkənin müxtəlif ərazilərinə səpələnmişdir və bu zaman kəsiyində insanlar öz ənənəvi vərdişlərindən, eləcə də ixtisaslaşma istiqamətlərindən kifayət qədər kənarlaşmışlar. Bundan əlavə, xüsusilə ölkənin mərkəzi şəhərlərində və nəqliyyat infrastrukturları yerləşən ərazilərdə, biznes mərkəzlərində yerləşmiş əhali mövcud dövrün tələblərinə daha çox inteqrasiya olunmuş və həmin prosesləri özündə əxz etdirə bilmişdir. Bu baxımdan İAEƏ-də infrastruktur sistemlərinin müasir formalarının inkişaf etdirilməsi, onların dünya standartlarına və qlobal məkana çıxışı ilə bağlı infrastruktur sistemləri inkişaf etdirilməlidir və bütün bunlar isə dövlət tərəfindən zəruri investisiya qoyuluşlarının həyata keçirilməsini və bu investisiya qoyuluşları hesabına müasir tələblərə uyğun infrastruktur sisteminin yaranmasını tələb edir. Məhz belə bir şəraitdə həmin ərazilərdə davamlı məskunlaşma proseslərini təmin etmək mümkündür. Bu isə İAEƏ-nin nəinki ölkə iqtisadiyyatına, eləcə də dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının formalaşdırılmasına əlverişli şərait yarada bilər. İAEƏ-də dayanıqlı məskunlaşmanın təmin edilməsi üçün ən mühüm şərtlərdən biri infrastruktur sistemlərinin inkişaf etdirilməsidir. Məhz infrastruktur sistemlərinin təkmil şəkildə inkişaf etdirilməsi və eləcə də əhali məşğulluğunun təmin edilməsinin zəruri mexanizmlərinin formalaşdırılması hesabına dayanıqlı məskunlaşmanı təmin etmək, insanların həmin ərazilərə qayıdışını həyata keçirmək mümkün ola bilər.

İAEƏ-də infrastruktur sistemlərinin inkişaf etdirilməsi biznes və rəqabət mühitinin dəstəklənməsinin ən mühüm prioritetlərindən birini təşkil edir. Bütün bunlar isə iqtisadi azadlıqların təmin edilməsini və bu ərazilərdə yaşayan insanların informasiya və maliyyə resursları bazarına sərbəst çıxışlarını özündə əks etdirir. Beləliklə, yuxarda qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, İAEƏ-də beynəlxalq standartlara cavab verən infrastruktur sisteminin təmin edilməsi nəticəsində həm əraziyə böyük qayıdışın təmin edilməsi mümkün ola bilər və həm də ərazidə yerləşən və mühüm strateji əhəmiyyətə malik olan nəqliyyat dəhlizləri vasitəsi ilə məhsulların və xidmətlərin xarici bazarlara çıxışını stimullaşdırmaq mümkündür.

İAEƏ-də infrastruktur sisteminin inkişaf etdirilməsinin zəruriliyi və onu şərtləndirən amillər. İşğaldan azad edilmiş ərazilərdə (İAEƏ-də) infrastruktur sisteminin inkişaf etdirilməsi Azərbaycanın ümumi inkişaf strategiyasının ayrılmaz bir hissəsidir. Bu ərazilərin uzun illər müharibə şəraitində qalmış olması, infrastrukturun ciddi şəkildə zəifləməsi və yerli əhalinin təxminən iki onillik müddət ərzində bu ərazilərdən uzaq qalması böyük sosial və iqtisadi problemlərin yaranmasına səbəb olub. Bu səbəbdən, infrastrukturun sürətli və effektiv şəkildə bərpası və inkişafı bu ərazilərin həyat keyfiyyətinin yaxşılaşdırılması və regional iqtisadiyyatın gücləndirilməsi üçün həyati əhəmiyyət kəsb edir.

İAEƏ-də infrastrukturun inkişafı yalnız fiziki obyektlərin bərpası ilə məhdudlaşmır. Eyni zamanda, sosial xidmətlərin, iqtisadi imkanların və kommunikasiyaların təmin edilməsi əhalinin bu ərazilərə geri qayıtması və davamlı inkişafın təmin olunması üçün əsas amillərdən biridir. Bu ərazilərin bərpası və infrastrukturunun inkişafı həmçinin, Azərbaycanın dövlət maraqları ilə sıx bağlıdır, çünki burada atılacaq hər bir addım yalnız ərazinin sosial rifahını deyil, həm də ümumi iqtisadi və strateji məqsədləri güdür.

İAEƏ-də infrastruktur sistemlərinin inkişaf etdirilməsi mühüm strateji əhəmiyyəti ilə səciyyələnir. Bu ilk növbədə əhalinin qayıdışının təmin edilməsinə və ərazinin abadlaşdırılmasına istiqamətlənməlidir. İnfrastruktur sisteminin qurulması respublikadakı mövcud infrastruktur sistemləri ilə müqayisədə nəinki aşağı səviyyədə olmamalı, eləcə də dünya standartlarına cavab verən bir səviyyəni təmin etməlidir.

İAEƏ-də infrastruktur sisteminin formalaşdırılması aşağıdakı infrastruktur sahələrinin yaradılmasını özündə ehtiva etməlidir:

- nəqliyyat infrastrukturları;
- istehsal infrastrukturları;
- biznes infrastrukturları;
- sosial infrastrukturlar;
- iqtisadi infrastrukturlar.

Adı çəkilən infrastruktur elementlərinin formalaşdırılması İAEƏ-də məhsulların daşınmasına və logistika proseslərinin gerçəkləşdirilməsinə, həmin ərazidə daimi məskunlaşma proseslərinin genişlənməsinə əlverişli şərait yaradacaqdır. Nəqliyyat infrastrukturlarının yaradılması əraziyə insanların sərbəst gəliş-gedişinin təmin edilməsinə və məhsulların daşınmasına imkan verəcəkdir. Zəngəzur dəhlizinin inşa etdirilməsi Naxçıvana birbaşa keçidin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etməklə yanaşı, eyni zamanda Azərbaycan Respublikasının dünyaya coğrafi açılımına da əlverişli şərait yaradacaqdır. 30 illik zaman kəsiyində işğal edilmiş ərazilərdə bütün infrastruktur sistemləri dağıdılmış, nəqliyyat infrastrukturları isə yararsız hala salınmışdır. Həmin ərazilərdə uzun illər hərbi proseslərin baş verməsi, yolların və bütün ərazilərin hərbi texnika altında qalması yeni torpaq əmələgəlmə proseslərini formalaşdırmışdır. Bu baxımdan nəqliyyat sisteminin yenidən qurulması kimi mürəkkəb proseslərin gerçəkləşdirilməsi həmin ərazilərin ölkənin milli iqtisadiyyatına reinteqrasiyasında əhəmiyyətli məqamlardan biri sayılmalıdır.

İAEƏ-də infrastruktur sisteminin inkişaf etdirilməsinin zəruriliyi aşağıdakı amillərlə səciyyələnir:

- əhalinin həmin ərazilərə böyük qayıdışının təmin edilməsi;
- ərazidə iqtisadi inkişafın formalaşdırılması;
- biznes və bazar infrastrukturlarının iqtisadi inkişafın stimullaşdırılmasında rolunun müəyyənləşdirilməsi;
- makroiqtisadi baxımdan ölkənin əraziləri ilə inteqrasiyanın və eləcə də dünyaya coğrafi açılımın həyata keçirilməsi.

Artıq İAEƏ-nin Fizuli və Zəngilan rayonlarında beynəlxalq hava limanı tikilib istifadəyə verilmişdir. Bu baxımdan Z.Ə.Səmədzadənin belə bir fikri ilə razılaşırıq ki, işğaldan azad edilmiş ərazilərdə hava limanlarının tikintisi ilk növbədə bu ərazinin infrastrukturunun daha sürətlə inkişafına, yaşayış məntəqələrinin dirçəldilməsinə və onların genişlənməsinə kömək edəcək.

Bununla yanaşı, Qarabağın işğaldan azad edilməsindən sonra sürətlə aparılan bu infrastruktur layihələri geosiyasi və geoiqtisadi baxımdan Azərbaycanın nüfuzunu artırmaqdadır. Buna görə də postkonflikt dövründə bu limanların rolu çox böyük olacaq. Bütövlükdə isə iqtisadi qiymətləndirmələr göstərir ki, işğaldan azad olunmuş ərazilərdə 3 hava limanının fəaliyyət göstərməsi iqtisadi baxımdan səmərəli olacaq. Ən başlıcası isə nəqliyyat və logistika baxımından bu limanlar strateji əhəmiyyət daşıyırlar, eyni zamanda onlar turizmin, aqrobiznesin, kənd təsərrüfatının inkişafına müsbət təsirini göstərəcək. [1, 605]. Müəllifin fikirlərinə onu da əlavə etməyi vacib hesab edirik ki, İAEƏ-də 3 hava limanının tikilməsi eyni zamanda həmin ərazilərin turizm potensialının reallaşdırılmasına da əlverişli şərait yaradacaqdır. Belə ki, xüsusilə həm daxili və həm də xarici turistlərin əraziyə gəlişi zamanı daha çox hava limanlarının xidmətlərindən istifadə edilməsi şübhəsizdir. İqtisadçı alimlər N.Müzəffərli və E.İbrahimov hələ 2010-cu ildə qeyd edirdilər ki, Azərbaycanda bilavəsitə yol tikinti sahəsində də ciddi təcrübə toplanmışdır. Ölkənin bir sıra dövlət müəssisələri və özəl şirkətləri bu işlə - bir çox hallarda xarici firmaları və mütəxəssisləri də cəlb etməklə yetərincə yüksək peşəkarlıq səviyyəsində məşğul olur. Uzunmüddətli perspektiv baxımından bu amil işğaldan azad edilmiş ərazilərin dirçədilib həyata qaytarılmasında mühüm rol oynayacaqdır, çünki yüksək keyfiyyətli və geniş saxəli avtomobil yollarının mövcudluğu regionda turizmin inkişafı üçün icbari şərtlərdən biridir. Turizm isə bu araşdırmada ölkənin potensial rəqabət üstünlüyü sahələrinə aid edilir. [2. səh.143].

Doğrudan da avtomobil yollarının və dəmir yollarının tikintisi sahəsində Azərbaycanda kifayət

qədər böyük təcrübə toplanmışdır. Akademik Z.Ə.Səmədzadə xüsusi ilə qeyd edir ki, görülmüş tədbirlər nəticəsində bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir. Bunu həm Azərbaycan vətəndaşları görürlər, eyni zamanda Azərbaycan beynəlxalq təşkilatların reytinqlərində daim yüksək yerlər tutur. Təkcə DAVOS ümumdünya iqtisadi forumunun hesabatına baxmaq kifayətdir ki, hər kəs görsün ki, bu sahədə çox ciddi islahatlar aparılır və Azərbaycan reytinqinə görə dünya miqyasında qabaqcıl yerlərdədir. Avtomobil yollarının keyfiyyətinə görə dünyada 24-27-ci yerləri bölüşürük, dəmir yollarının səmərəliliyinə görə dünyada 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə 12-ci yerdəyik. [1, səh. 587]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı qeyd etməyi vacib hesab edirik ki, nəqliyyat sistemlərinin beynəlxalq standartlara uyğun olaraq formalaşdırılması iqtisadiyyatın biznes və investisiya cəlbediciliyinin yüksəldilməsində də əhəmiyyətli amillərdən biridir. Məhz məhsulların nəqliyyat sistemləri vasitəsi ilə səmərəli şəkildə daşınması uğurlu geniş təkrar istehsal prosesinin gerçəkləşdirilməsinə əlverişli şərait yaradır.

İ.e.d., professor E.A.Quliyev qeyd edir ki, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan geniş miqyaslı quruculuq və bərpa işləri, müxtəlif təyinatlı sosial infrastruktur layihələri, yeni yaşayış massivlərinin salınması dövlət başçısının bu sahədə imzaladığı tarixi fərman və sərəncamların yerinə yetirilməsi hesabına sürətlənməkdədir. Həmin fərman və sərəncamlar Azərbaycanın iqtisadi rayonlarının, xüsusi ilə Qarabağ və Şərqi Zəngəzurda bərpa və inkişaf istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasına öz töhfələrini verir. Qeyd edək ki, neftin qiyməti dünya bazarında qalxdıqca dövlət büdcəsinə müəyyən dəyişikliklər edilir ki, bu, həmin iqtisadi rayonlarda reallaşdırılan quruculuq və bərpa işlərinin sürətlənməsinə real imkanlar yaradır. Xatırladaq ki, bu ərazilərin bərpası və quruculuq işlərinə 2021-2022-ci illər ərzində dövlət büdcəsindən 4,4 milyard manat vəsait ayrılıb. Büdcəyə son dəyişikliklər nəticəsində həmin vəsaitin həcmi 470 milyon manat artırılaraq, 4,7 milyard manata çatdırılıb. [3., səh. 179]

Müəllfin fikirləri ilə razılaşmaqla yanaşı, əlavə etmək istərdik ki, İAEƏ-də infrastruktur sistemlərinin inkişaf etdirilməsinə dövlət büdcəsindən ayrılan vəsaitin həcminin ilbəil artırılması prinsip etibarı ilə həmin ərazilərdə dövlətin strateji maraqlarının qorunub saxlanması istiqamətində yetərli iqtisadi baza yaradır. Bütün bunlar isə eyni zamanda əraziyə xarici investisiyaların cəlb edilməsi ilə bağlı da mühüm istiqamət ola bilər. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci ildə dərc etdirdiyi “Azərbaycanın statistik göstəriciləri” statistik məcmuəsində qeyd edilir ki, 2021-ci ildə Azərbaycanda əsas kapitala 16815459,0 min manat dəyərində investisiya yönəldilib ki, bunun da 1342032,7 min manatı və ya 8 %-i Qarabağ, 862228,9 min manatı və 5,1% isə Şərqi Zəngəzura yönəldilmişdir. [4.)]Qarabağda bu investitsiyaların əsas hissəsi, yəni 47,7%-i Fizuli şəhərinə yönəldilmişdir. Şərqi Zəngəzurda isə əsasən 26% olmaqla Cəbrayıl rayonuna yönəldilib. [3, səh. 179]

Göründüyü kimi, infrastruktur sisteminin inkişaf etdirilməsi istiqamətində zəruri tədbirlər İAEƏ-nin ixtisaslaşma istiqamətinə uyğun olaraq zəruri sahələrin inkişaf etdirilməsinə də əlverişli şərait yaratmaq iqtidarındadır. İAEƏ-nin ixtisaslaşma istiqamətini ənənəvi olaraq kənd təsərrüfatı və emal sənayesi, eləcə də qeyri-ənənəvi kənd təsərrüfatı və turizm sektoru təşkil edir. Bu baxımdan ərazidə bazar infrastrukturlarının formalaşdırılması həm logistik baxımdan, həm də kənd təsərrüfatı və ərzaq məhsullarının satış bazarlarına çatdırılması baxımından mühüm əhəmiyyətə malik ola bilərdi.

İAEƏ-də biznes infrastrukturlarının formalaşdırılmasının prioritetləri. Bazar iqtisadiyyatı şəraitində infrastruktur sistemi nəinki xidmət funksiyalarını yerinə yetirir, eyni zamanda geniş təkrar istehsal prosesinin reallaşdırılması ilə bağlı proseslərdə, eləcə də məhsulların daşınması, saxlanması və qablaşdırılması ilə bağlı vasitəçilik funksiyalarını da özündə əks etdirir. Bazar infrastrukturları muasir iqtisadiyyatın ən mühüm inkişaf istiqamətlərindən biri hesab edilir və çoxfunksiyalı xarakterə malikdir.

Bazar iqtisadiyyatı şəraitində biznes infrastrukturları bazar subyektlərinin fasiləsiz fəaliyyətinin həyata keçirilməsinə əlverişli şərait yaratmaqla yanaşı eləcə də məhsulların dəyərinin artırılmasında önəmli rola malikdir. Bu baxımdan İAEƏ-də biznes və bazar infrastrukturlarının səmərəli

şəkildə qurulması geniş təkrar istehsalı prosesinin gerçəkləşdirilməsinə əlverişli şərait yaratmaqla məhsulun istehsalçıdan iştehlakçıya çatdırılmasında önəmli funksiyalar yerinə yetirir.

Bazar və biznes infrastrukturları iqtisadiyyatın sahələri üzrə özünəməxsus xarakterik xüsusiyyətlərə malikdir. Bu baxımdan azad edilmiş ərazilərdə həm də kənd təsərrüfatı, maldarlıq və bitkiçilik üçün iqlim və təbii şərait var. Biz əlbəttə maksimum dərəcədə bundan səmələri istifadə etməliyik. Eyni zamanda ərzaq təhlükəsizliyi ilə bağlı mövcud olan məsələlər bu günün məsələləri deyil. Sadəcə olaraq Rusiya-Ukrayna müharibəsi nəticəsində bu məsələlər daha da kəskinləşib. Əlbəttə, torpaqlarımız işğalçılardan azad olunandan sonra biz vaxt itirmədən bu torpaqlarda əkinbiçinlə məşğul olmalıyıq. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatdırılmaq üzrədir. Düzdür, məhsuldarlıq çox aşağıdır. Bu da təbiidir, çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmiyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə də hektardan orta məhsuldarlıq təqribən 1 tondan aşağıdır, ancaq növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq. Azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektar dövriyyəyə buraxılacaqdır. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 12 avqust 2022-ci il tarixində İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan televiziyasına verdiyi müsahibədə qeyd etmişdir. [5].

Fikrimizcə, cəmiyyətdə məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə infrastruktur sisteminin müasir növmüxtəlifliklərı də formalaşır və həmin növmüxtəlifliklərinin məhz İAEƏ-də qurulması həm istehsalçıların tələbatlarının ödənilməsinə, həm də iqtisadiyyatın davamlı inkişafının təmin edilməsinə əlverişli şərait yarada bilər. Bu baxımdan İAEƏ-nin ixtisaslaşma istiqamətlərində kənd təsərrüfatı və ərzaq məhsullarının, eləcə də emal sənayesinin inkişaf yönümünü nəzərə alaraq həmin ərazidə aqrar ərzaq bazarlarının infrastrukturlarının formalaşdırılmasına daha çox ehtiyac vardır. İqtisadçılar hesab edirlər ki, aqrar ərzaq bazarlarının infrastrukturlarının özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır ki, bu xüsusiyyətlərə də aşağıdakıları şamil etmək olar:

- infrastrukturda müxtəlif formatlı obyektlərin (ixtisaslaşmış kənd təsərrüfatı bazarları, topdansatış, kənd təsərrüfatı ərzaq bazarları, kənd təsərrüfatı kooperativ bazarları, yarmarkalar) olması səbəbindən müxtəlif gəlir səviyyələrinə malik müştəriləri məmnun etmək imkanları;
- əmtəə istehsalçılarına qısa müddətdə məhsul satmasına imkan verən zəmanətli satış bazarlarının olması;
- yarmarkaların, ixtisaslaşmış kənd təsərrüfatı bazarlarının olmaması səbəbindən kənd təsərrüfatı və ərzaq məhsullarının aşağı qiymətlərlə satışının mümkünlüyü;
- innovativ və informasiya texnologiyalarının mövcudluğu, kənd təsərrüfatı məhsullarının istehsalı və satışında yeni formaların tətbiqi və logistika mərkəzləri;
- kənd təsərrüfatı məhsullarının bölüşdürülməsi prosesini, onun xüsusiyyətlərini nəzərə alaraq idarə edən ixtisaslı kadrların çatışmazlığı.[6 s. 35].

Fikrimizcə, perspektiv dövrdə İAEƏ-də turizmin inkişaf imkanlarını nəzərə alaraq aqrar bazar infrastrukturlarının formalaşdırılmasına daha çox ehtiyac duyulur. Bu proses məhsulların daşınması və tez xarab olmadan istehlakçılara və bazarlara çatdırılması prosesini özündə əks etdirirsə, məhz aqrar bazar infrastrukturlarının ilk növbədə bölüşdürmə funksiyalarının yerinə yetirilməsi həmin ərazilərdə çoxsaylı turizm müəssisələrinin yaradılacağını nəzərə alsaq, kənd təsərrüfatı və ərzaq məhsullarının məhz uzaqdan gətirilməsi daha çox xərc tələb etdiyindən bu sahədə bazar infrastrukturlarının inkişaf etdirilməsinə daha çox ehtiyac duyulur.

İ.e.d. Anar Əzizovun belə bir fikri ilə razılaşırıq ki, turizm sahibkarlığında infrastruktur təminatı bazarın tələblərinə tam mənası ilə cavab verməli və eyni zamanda turizm sferasında biznesin kompleks təminatını özündə əks etdirməlidir. Müəllif haqlı olaraq qeyd edir ki, müasir şəraitdə turizmdə sahibkarlıq fəaliyyətinin optimal şəkildə inkişafını şərtləndirən zəruri amillər ilk növbədə infrastrukturun səmərəli şəkildə formalaşdırılmasından və istehlakçılar üçün zəruri xidmətlər göstərilməsindən bilavasitə asılıdır ki, bu da turizm infrastrukturlarının fəaliyyəti ilə bilavasitə bağlıdır. [7. s. 260.]

Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı əlavə etmək istərdik ki, ərazidə turizm potensialının

mövcudluğu baxımından istər yol-nəqliyyat infrastrukturlarının, istərsə də logistik, istehsal, biznes və turizm infrastrukturlarının müasir tələblərə cavab verməsi həm daxili və həm də xarici turistlərin İAEƏ-yə cəlb edilməsində əhəmiyyətli vasitələrdən biri kimi çıxış edə bilər.

Aparılan araşdırmalar göstərir ki, İAEƏ-də rəqəmsallaşmanın həyata keçirilməsi postsənaye cəmiyyətinin inkişafı baxımından da mühüm əhəmiyyətə malikdir və bu həm turizmin inkişafına və həm də iqtisadiyyatın digər sahələrinin inkişafına əlverişli şərait yarada bilər. Bu baxımdan i.e.d., professor, əməkdar kənd təsərrüfatı işçisi İslam İbrahimovun belə bir fikri ilə razılaşırıq ki, rəqəmsallaşmanın əmək bazarında yeni kompetensiyalar, bacarıqlar tələb etdiyi şəraitdə sahibkar istehsalın yüksək səmərəliliyini və gəlirlərini təmin edə bilən aşağıdakı əsas məqsədlərin yerinə yetirilməsinə nail olmalıdır:

- kifayət qədər yüksək əmək məhsuldarlığını təmin edə bilən mütərəqqi texnika və texnologiyaların tətbiqi;
- müasir idarəetmə sistemlərinin, yəni istehsalın və əməyin təşkilinin səmərəli formalarının tətbiqi;
- istehsal olunmuş son məhsul və xidmətlərin istehsalçılara çatdırılması;
- məhsul satışı üzrə marketinqin təşkili və s. [8.s. 72]

Postsənaye cəmiyyətinin inkişafı fonunda müəllifin qeyd etdiyi amillər bütövlükdə həm turizm cəlbediciliyinin, həm də ərazidə biznes cəlbediciliyinin yüksəldilməsinə əlverişli şərait yaratmaq iqtidarındadır. Hesab edirik ki, İAEƏ-də infrastruktur sisteminin inkişafının əsas prioritetlərini aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- İAEƏ-də nəqliyyat infrastrukturlarının formalaşdırılması (bütün bunlar həm əhalinin qayıdışının təmin edilməsinə və həm də əhalinin yaşayış imkanlarının yaxşılaşdırılmasına əlverişli şərait yarada bilər);
- İAEƏ-də logistik infrastruktur sistemlərinin inkişaf etdirilməsi. Adı çəkilən infrastruktur sistemləri iqtisadi inkişafın sürətləndirilməsində və iqtisadi artımın təmin edilməsində əhəmiyyətli vasitələrdən biri hesab oluna bilər;
- İAEƏ-də biznes infrastrukturlarının yaradılması. Adı çəkilən infrastruktur sistemləri həmin ərazinin ixtisaslaşma istiqamətinə uyğun olaraq məhsulların istehlakçılara çatdırılmasında və eləcə də çoxsaylı bazarlar şəbəkəsinə çatdırılmasında mühüm rol oynaya bilər. Bundan başqa, İAEƏ-nin iqtisadiyyatının ixtisaslaşma istiqamətinin kənd təsərrüfatı və ərzaq məhsulları, eləcə də yeyinti sənayesi məhsullarının istehsalı təşkil edəcəyini nəzərə alaraq xüsusilə ərzaq məhsullarının daşınmaya adekvat reaksiya göstərilməməsi amili nəzərə alınmaqla məhsulların saxlanması ilə bağlı soyuducu anbarların yaradılması məqsədəuyğun olardı.
- turizm infrastrukturlarının inkişaf etdirilməsi. Bu sahə İAEƏ-nin prespektivlərinin daha geniş şəkildə həyata keçirilməsinə imkan verə bilər və eyni zamanda daha çox xarici turizm cəlbediciliyinə malik olan Qarabağ və Şərqi Zəngəzur ərazilərinin brendinin daha də yüksəlməsinə gətirib çıxara bilər;
- İAEƏ-də rəqəmsal iqtisadiyyatın formalaşdırılması və eləcə də rəqəmsal iqtisadiyyatın və postsənaye cəmiyyətinin infrastruktur sistemlərinin yaradılması. Bu isə informasiya-kommunikasiya texnologiyalarının mütərəqqi metodlarının tətbiq edilməsini nəzərdə tutur.

ƏDƏBİYYAT

1. Z.Ə.Səmədzadə, Qarabağ iqtisadiyyatı 100 ildə, V cild, Bakı 2022, 856 səh., səh. 604
2. N. Müzəffərli, E.İsmayılov, Azərbaycanın postkonflikt ərazilərinin bərpası: Konseptual əsaslar, Bakı, 2010, Bakı, 270 s
3. E.A.Quliyev, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu, monoqrafiya, Bakı 2023, 320 səh
4. Azərbaycanın statistik göstəriciləri, statistik məcmuə, Bakı 2022, 748 səh.
5. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 avqust 2022-ci il tarixində İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan televiziyasına verdiyi müsahibə

6. Васильева Е.В., Горбунов С. И., Ткачев И.В., Барковская Н.А., Казакова Л.В., Пшенцова А.И., Минеева Л.Н., Тенденции развития инфраструктуры агропродовольственного в условиях импортозамщения., Монография – Саратов: ООО «Амирит», 2016
7. А.А.Азизов, Пути эффективного развития предпринимательства в сфере туризме Азербайджана, Баку, 2018, 320 с.,
8. İ.H.İbrahimov, Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri, Monoqrafiya, Bakı 2022. 240 s.

Раван Малик Пашазаде
аспирант
Бакинский Бизнес Университет
Город Баку, улица Х.Зардаби. 88а
revan_pashazade@mail.ru

Приоритеты развития инфраструктурной системы на освобожденных территориях

Резюме

Цель исследования – Он заключается в обосновании необходимости развития инфраструктурной системы в ЕАЭС и проведении исследований влияния развития инфраструктурной системы на стимулирование экономического развития.

Методология исследования - в исследовательской работе использовались методы обобщения анализа.

Значимость внедрения исследования: Это связано с обоснованием влияния развития инфраструктурной системы в ЕАЭС на стимулирование экономического развития, ее влияния на обеспечение устойчивого развития, а также определением приоритетных направлений диверсификации экономики по этим направлениям.

Результаты исследования: Разработаны рекомендации и предложения в сфере устранения факторов, негативно влияющих на инвестиции в развитие предпринимательства в ЕАЭС, а также разработки стимулирующих механизмов, связанных с привлечением инвестиций.

Оригинальность и научная новизна исследования – Он заключается в подготовке рекомендаций по влиянию развития инфраструктуры в ЕАЭС на развитие несырьевого сектора и расширение доступа на внешние рынки продукции, производимой в этих сферах..

Ключевые слова: ЕАЭС, инфраструктурные системы, рыночные инфраструктуры, транспортно-коммуникационные системы, телекоммуникации и информационные технологии, транспортные коридоры, экономическое развитие, инвестиционная привлекательность ЕАЭС.

Ravan Malik Pashazade
PhD student
Baku Business University
Baku city, H. Zardabi street. 88a
revan_pashazade@mail.ru

Priorities for the development of the infrastructure system in the liberated territories

Summary

The purpose of the study – It consists of justifying the need for developing the infrastructure system in the EAEU and conducting research on the impact of infrastructure system development on stimulating economic development.

Methodology of the research -in the research work, methods of generalization of analysis were used.

Importance of integration of research - It is related to the justification of the impact of developing the infrastructure system in the EAEU on stimulating economic development, its impact on ensuring sustainable development, and the identification of priority areas for economic diversification in these areas.

Results of the research – recommendations and proposals in the field of elimination of factors negatively affecting investment in the development of entrepreneurship in the EAEU, as well as the development of stimulating mechanisms related to attracting investments have been developed.

Originality and scientific innovation of the research – It consists of preparing recommendations on the impact of infrastructure development in the EAEU on the development of the non-oil sector and expanding access to foreign markets for products produced in those areas.

Keywords: EAEU, infrastructure systems, market infrastructures, transport and communication systems, telecommunications and information technologies, transport corridors, economic development, investment attractiveness of EAEU.

UOT 338

Paşa Allahverdi oğlu MAHMUDOV
Azərbaycan Kooperasiya Universiteti,
doktorant
https://doi.org/10.30546/4.71.73001.2025.002.029

AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ YAŞIL ENERJİ SAHƏSİNDƏKİ İNVESTİSİYALARIN TƏHLİLİ VƏ ONLARIN İNKİŞAF POTENSİALI

Xülasə

Tədqiqatın məqsədi – Azad olunmuş ərazilərdə yaşıl enerji sahəsindəki investisiyaların təhlili və qiymətləndirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası – sistemli yanaşma, müqayisəli təhlil, statistik faktların qruplaşdırılması.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Azad olunmuş ərazilərdə yaşıl enerji ilə bağlı tədqiqatlarda elmi resurs kimi istifadənin mümkünlüyü.

Tədqiqatın nəticələri – Azad olunmuş ərazilərdə yaşıl enerji ilə bağlı investisiya potensialı müəyyən olunmuşdur.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Azad olunmuş ərazilərdə yaşıl enerji ilə bağlı investisiya potensialının istifadə istiqamətlərinin müəyyən edilməsi və elmi cəhətdən əsaslandırılması.

Açar sözlər: enerji siyasəti,bərpa olunan enerji,karbon emissiyalari, Paris sazişi, ekoloji transformasiya.

Giriş

Azad edilmiş ərazilərdə alternativ və bərpa olunan enerji növlərinin istehsal edilməsi imkanı mövcuddur. Buna görə də, Azərbaycan Respublikasının Prezidenti 3 may 2021-ci il tarixində həmin ərazilərdə "Yaşıl Enerji" zonasının yaradılması ilə bağlı sərəncam imzalayıb. İlk qiymətləndirmələrə görə, bu ərazilərin günəş enerjisi potensialı 4000 MBт-dan, külək enerjisi potensialı isə 500 MBт-dan artıqdır. Azərbaycan Energetika Nazirliyinin məlumatlarına görə, günəş enerjisi potensialına Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlının rayonları, külək enerjisi potensialına isə Laçın və Kəlbəcər dağ əraziləri malikdir.

Yenidən azad edilmiş ərazilərdə tikinti işləri sürətlə davam edir, bu zaman müasir idarəetmə sistemi yaradılıb. Ölkənin iqtisadi rayonlarının bölgüsü yenilənib və indi onların sayı 12-dən 14-ə çatıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Yeni iqtisadi zonaların əsas strateji məqsədləri mövcud resursların səmərəli istifadəsi, insanların doğma torpaqlara qayıtma prosesinin sürətləndirilməsi və iqtisadi tikintinin dəstəklənməsidir.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı ilə bağlı tarixi tapşırıqların həyata keçirilməsi üzrə əhəmiyyətli tədbirlər görülür. İqtisadi infrastrukturun yaradılması üçün material-texniki bazanın formalaşdırılması, sosial və istehsal sahələri, yerli, respublika, regional və beynəlxalq səviyyələrdə layihələrin həyata keçirilməsi, müxtəlif nəqliyyat növləri ilə yanaşı, dəmir yolu şəbəkəsinin bərpası prosesləri azad edilmiş ərazilərdə sıx şəkildə həyata keçirilir. Füzuli beynəlxalq aeroportu istifadəyə verilib, Zəngilanda eyni tipli aeroport açılıb, Laçın beynəlxalq aeroportunda isə aktiv işlər davam edir. Bütün bu miqyaslı işlər külli miqdarda investisiyalar tələb edir. İlk öncə, investisiyalar azad olunmuş torpaqlarda enerji infrastrukturuna yönəlməlidir və bu baxımdan Qarabağ və Şərqi Zənqəzur iqtisadi rayonlarının “yaşıl enerji” potensialı kifayət qədər böyükdür.Bu potensialın investisiyaların cəlb edilməsində əsas istiqamətlərinə aşağıda daha ətraflı baxacağıq.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının müasir alternativ enerji infrastrukturlarına investisiyaların müasir strukturu

Azərbaycanın “Paris Sazişi” çərçivəsində götürdüyü öhdəliklər 1990-cı il səviyyəsinə nisbətən

2030-cu ilədək istixana qazlarının emissiyalarını 35% azaldılmasını nəzərdə tutur. Bu tədbirlər ölkədə karbon qazı olmayan enerji sektorunun formalaşması üçün şərait yaradıb (bax Cədvəl 1).

Cədvəl 1

Azərbaycanda CO2 emissiyalarının dinamikası

İllər	İstixana qazlarının emissiyası, mln ton CO_2 ekv. /il	İstixana qazlarının emissiyası hər nəfər üzrə, ton CO_2 ekv. / nəfər /il	İstixana qazlarının emissiyası ÜDM üzrə PPP, ton CO_2 ekv. / ABŞ dolları /il	Əhali, mln nəfər
1990	69,808	9,638	1,277	7,243
2005	46,459	5,441	0,779	8,539
2015	58,032	6,034	0,405	9,617
2022	68,877	6,718	0,45	10,252
2023	62.550	6.061	0.29	10.320

Mənbə: Müəllif tərəfindən GHG Emissions of All World Countries məlumatları əsasında tərtib olunub [16].

Enerji sektoru bu gün ölkədə istixana qazlarının əsas mənbəyi kimi çıxış edir (bax Cədvəl 2).

Cədvəl 2

Azərbaycanda enerji sektorundan CO2 emissiyalarının dinamikası (mln t) və ümumi istixana qazlarının həcmi (mln t CO2 ekv.)

Göstə-rici	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023	Dünya tullantıların-da xüsusi çəkisi
CO2	30,2	30,7	31,4	33,9	33,4	32,4	33,8	34,4	35,2	37,6	37,5	42,4	0,1%
İstixana qazları	40,8	41,1	41,4	43,4	42,7	41,3	43,3	44,1	44,2	47,1	47,4	54,3	0,1%

Mənbə: Müəllif tərəfindən Statistical Review of World Energy 2023 məlumatları əsasında tərtib olunub [10].

Azərbaycanda ekoloji siyasətin transformasiyası qlobal və regional amillərin kompleksi ilə şərtlənir, bunların arasında yalnız beynəlxalq iqlim razılaşmaları deyil, həm də milli miqyasda kritik ekoloji çağırışlar mövcuddur. Uzunmüddətli quraqlıq dövrlərinin artması, təmiz su resurslarının tükənməsi və Xəzər dənizinin ekosistemində baş verən mənfi dəyişikliklər xüsusilə narahatlıq doğurur. Ekoloji risklər dövlət institutlarından təcili və sistemli reaksiya tələb edir.

Dövlətin enerji siyasətinin strateji istiqamətləri müasir qlobal tendensiyaları nəzərə alaraq formalaşdırılıb və enerji sektorunun kompleks modernizasiyasını əhatə edir. Əsas diqqət alternativ enerjinin inkişafına, karbohidrogen kompleksinin ardıcıl dekarbonizasiyasına və istehsal proseslərinin enerji səmərəliliyinin köklü artırılmasına yönəldilmişdir.

Eyni zamanda Azərbaycan hökuməti Qarabağda azad edilmiş ərazilərdə unikal ekoloji cəhətdən təmiz enerji klasterinin formalaşması ilə bağlı genişmiqyaslı qərar qəbul edib. Layihə yeni nəsil ağıllı yaşayış məskənlərinin yaradılmasını, qabaqcıl enerji qənaəti texnologiyalarının tətbiqini, kənd təsərrüfatı su istifadəsinin kompleks modernizasiyasını, innovativ kiçik hidroelektrik stansiyaların inşasını və meşə ekosistemlərinin bərpası üzrə sistemli proqramın həyata keçirilməsini nəzərdə tutur.

2021-ci ildə iqlim dəyişikliyi ilə bağlı beynəlxalq konfransda Azərbaycan ekoloji transformasiyanın tamamilə yeni, ambisiyalı planlarını təqdim etdi. Əsas məqsədlər 2050-ci ilədək karbon emissiyalarını 40% azaltmaq və tamamilə sıfır karbon izinə malik ərazinin formalaşdırılmasıdır [2]. Bu təşəbbüslər ölkənin qlobal ekoloji proseslərdə məsuliyyətli iştirakçı kimi beynəlxalq

imicini gücləndirməyə yönəlmişdir.

Energetika sahəsində ixtisaslaşmış nazirliyin rəsmi məlumatları bərpa olunan enerjinin nəhəng potensialını - 290-dan artıq qiqavatt quru və dəniz güclərini nümayiş etdirir. Müstəqil beynəlxalq ekspertlər alternativ enerjinin, o cümlədən günəş, külək, bioenergetika və hidroenergetika sahələrində 27 qiqavatt həcmində inkişaf etdirilməsinin iqtisadi səmərəliliyini təsdiq edirlər [3].

Hazırda ekoloji cəhətdən təmiz enerji mənbələrinin milli enerji balansındakı payı 17%-ə çatır, bunun da 2030-cu ilədək 30%-ə qədər artırılması planlaşdırılır [7].

Külək və günəş enerjisi istehsalı sahəsində 700 megavattlıq genişmiqyaslı investisiya layihələrinin həyata keçirilməsi üçün aparıcı beynəlxalq enerji korporasiyaları ilə aktiv müzakirələr aparılır. Hökumət həmçinin ekoloji modernizasiya proseslərini sürətləndirmək məqsədilə dövlət-özəl tərəfdaşlıq mexanizmlərini nəzərdən keçirir.

Azərbaycanın enerji mənzərəsi dinamik transformasiyalar keçirir, elektrik istehsalı və beynəlxalq enerji əməkdaşlığı sahəsində əhəmiyyətli potensial nümayiş etdirir. 2022-ci ildə ölkə yalnız daxili enerji balansını tam təmin etməklə qalmadı, eyni zamanda 27 milyard kilovat-saat istehsal edərək elektrik enerjisi üzrə net-ixracatçı oldu və 1,6 milyard kilovat-saat ixrac etdi.

Azərbaycanın strateji tərəfdaşları - Türkiyə, Rusiya, Gürcüstan və İran - enerji qarşılıqlı əlaqələrinin genişlənməsinə davamlı maraq göstərirlər. 2023-cü ilin açar hadisəsi Bakıda baş tutan ABŞ-Azərbaycan Yaşıl Enerji Forumu oldu, burada alternativ enerjinin inkişafında innovativ yanaşmalar müzakirə edildi.

Doqquz amerikalı şirkət enerji mənbələrinin diversifikasiyası və bərpa olunan potensialın maksimum istifadəsi üzərində fokuslanaraq Azərbaycanın enerji sektorunun transformasiyasını dəstəkləməyə hazır olduqlarını bildirdilər. 2040-cı ilədək proqnozlaşdırılan enerji gücləri respublikanın daxili tələblərini əhəmiyyətli dərəcədə üstələyir.

İnfrastruktur layihələrinin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycanın, Naxçıvanın, Türkiyənin və İranın birləşdiriləcəyi prinsipcə yeni elektrik magistralının yaradılması planlaşdırılır ki, bu da regional enerji mübadiləsi üçün əlavə imkanlar açacaq.

Günəş enerjisinin texniki potensialı 115200 megavatt dəyərləndirilir, lakin bunun reallaşması əhəmiyyətli investisiya qoyuluşları tələb edəcək [6]. Sumqayıt Texnoparkında artıq illik gücü 50 megavat olan günəş panellərinin istehsalı fəaliyyət göstərir.

Külək energetikası üçün ən perspektivli ərazilər Abşeron yarımadası, Xəzərin sahil zonaları və şimal-qərb adaları hesab olunur. 2036-cı ilə qədər Xəzər dənizinin 7,2 qiqavattlıq külək energetikası potensialının öyrənilməsi üçün genişmiqyaslı proqram planlaşdırılır [14]. Strateji inkişafı müəyyənləşdirən əsas sənəd "Alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi üzrə Dövlət Proqramı"dır ki, bu da 2004-cü ildən qəbul olunub.

Qlobal iqlim çağırışları kontekstində Azərbaycan enerji transformasiyasına kompleks yanaşma nümayiş etdirir. Ölkə yaşıl texnologiyalara fəal investisiya yatıraraq, yalnız enerji təhlükəsizliyini təmin etmir, eyni zamanda regionun davamlı inkişafına da töhfə verir. Beynəlxalq ekspertlər Azərbaycanın alternativ enerji sahəsindəki potensialını və strateji təşəbbüslərini yüksək qiymətləndirirlər.

Respublika hökuməti enerji sektorunun rəqəmsallaşması üçün intellektual idarəetmə sistemlərinin, müasir monitorinq və enerji rejimlərinin proqnozlaşdırılması texnologiyalarının tətbiqini nəzərdə tutan kompleks proqram hazırlamışdır. Enerji istehlakını optimallaşdırmağa və paylama şəbəkələrinin səmərəliliyini artırmağa imkan verən Smart Grid texnologiyalarının inkişafına xüsusi diqqət yetirilir.

Enerji strategiyasının vacib aspektlərindən biri ekoloji tərkibdir. Azərbaycan ardıcıl olaraq karbon izini azaldır, karbonun ələ keçirilməsi və saxlanılması sahəsində innovativ həllər tətbiq edir və təbii ekosistemlərin bərpası üzrə layihələr inkişaf etdirir. Belə kompleks yanaşma ölkəyə yalnız enerji sektorunu modernizə etməyə deyil, həm də qlobal iqlim gündəliyinə əhəmiyyətli dərəcədə töhfə verməyə imkan tanıyır.

Azərbaycanda yaşıl istehsalın əsas hissəsi hidroenergetikaya düşür. Son onillikdə su-elektrik

stansiyalarında elektrik enerjisinin istehsal həcmləri bir qədər azalmışdır, bu da qismən yuxarı axın ölkələrinin sərhəd su resurslarının aktiv istismarı ilə əlaqədardır [14].

İlk “bərpa olunan” kilovatlar külək və günəş elektrik stansiyalarında 2013-cü ildən istehsal edilməyə başlanmışdır (bax: Cədvəl 3).

Cədvəl 3

Azərbaycanın elektrik enerjisi istehsalında növlər üzrə 2012–2024-ci illərdəki göstəriciləri

İllər	Elektrik enerjisinin buraxılışı, mln Kvt/saat	Elektrik stansiyalarının növünə görə, mln Kvt/saat				
		İstilik elektrostansiyaları üzrə	Su-elektrik stansiyaları üzrə	Külək elektrostan-siyaları üzrə	Günəş elektrik stansiyaları üzrə	Tullantıların yandırılma-sından alınan elektrik enerjisi
2012	22 988.0	19 537,0	1 821,0	-	-	-
2013	23 354.4	20065,6	1 489,1	0.8	0.8	134.1
2014	24 727.7	21 401,2	1 299,7	2.3	2.9	173.5
2015	24 688.4	20 904,6	1 637,5	4,6	4.6	181,8
2016	24 952.9	20 699.0	1 959,3	22,8	35.3	174,5
2017	24 320.9	20 445,4	1 746,4	22,1	37,2	170,3
2018	25 229.2	21 242,9	1 768,0	82,7	39,3	162,2
2019	26 072,9	22 289,7	1 564,8	105.4	44,2	195.9
2020	25 839.1	22 471,3	1069,5	96,1	47,0	200.6
2021	27 887.8	24 308,8	1 277.3	91,4	55,2	193.2
2022	29 039.8	25 137,4	1 595,7	83,3	60,9	205.3
2023	29 305,9	25 237,9	1 763,4	55,4	80,7	

Mənbə: Müəllif tərəfindən Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunub [17].

2010-cu ildən bərpa olunan enerji istehsalında əsas artım külək və günəş elektrik stansiyaları hesabına əldə olunmuşdur. IRENA-nın məlumatlarına əsasən, son on ildən artıq dövrdə bərpa olunan enerji (HES-lər daxil olmaqla) quraşdırılmış gücü 19% artmış və 1339 MBт-a çatmışdır. Eyni zamanda, bərpa olunan enerji mənbələrinin elektrik istehsalındakı payı 5,5–8,8% arasında dəyişmişdir (bax: Cədvəl 4).

Cədvəl 4

2013–2022-ci illər ərzində Azərbaycanda bərpa olunan enerji mənbələri üzrə fəaliyyət göstərən elektrik stansiyalarının quraşdırılmış gücü

Elektrik stansiyaları-nın növləri	İllər üzrə elektrik stansiyalarının cəmi quraşdırılmış gücü, MVт.										
	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023
Su-elektrik stansiyaları	1084	1078	1103	1105	1106	1131	1145	1149	1157	1177	1180
Külək elektrik stansiyaları	3	3	8	16	16	66	66	66	66	66	65
Günəş elektrik stansiyaları	1	2	5	25	28	35	33	35	48	51	55
Tullantıların yandırılmasından alınan elektrik enerjisi stansiyaları	37	37	37	37	42	44	44	44	44	44	44
Bioqazdan elektrik enerjisi alan stansiyalar	45	45	45	45	45	45	45	45	45	45	38

Mənbə: Müəllif tərəfindən IRENA Renewable Energy Statistics 2024 məlumatları əsasında tərtib olunub [8].

Yaşıl enerji mənbələrinə keçidin əsas istiqamətləri "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" strategiyasında əks olunmuşdur [4], burada bərpa olunan enerji mənbələrinin elektrik istehsalındakı payının 2026-cı ilədək 24%-ə, 2030-cu ilədək isə 30%-ə qədər artırılması planlaşdırılır. AR Energetika Nazirliyinin məlumatlarına görə, bərpa olunan enerji istehsal güclərinin artırılması nəzərdə tutulur: 2020-2022-ci illərdə 440 MBт, 2023–2025-ci illərdə 460 MBт, 2026–2030-cu illərdə isə 600 MBт [12]. Azərbaycanın karbonu azaldan enerji seqmentinin inkişaf ssenariləri, müstəqillik qazandıqdan sonra neft-qaz kompleksinin bərpası ilə paralellər göstərir. "Enerji irəliləyişi" əsasən, xarici şirkətlərin cəlb edilməsi ilə bərpa olunan enerji mənbələri əsasında iri dövlət elektrik stansiyalarının inşasına, birbaşa xarici investisiyaların daxil olmasına və müasir texnologiyaların tətbiqinə dayanır. Respublikada genişmiqyaslı infrastruktur təşəbbüslərinin həyata keçirilməsi ilə ekoloji enerji sahəsində əhəmiyyətli irəliləyişlər əldə olunur. Enerji kompleksinin transformasiyasının əsas istiqaməti 245 megavatlıq quraşdırılmış gücə malik "Xızı-Abşeron" külək energetikası klasteridir ki, bu da beynəlxalq enerji konsorsiumu ACWA Power (Səudiyyə Ərəbistanı Krallığı) ilə yaradılmışdır.

Eyni zamanda, Liman yaşayış məntəqəsinin yaxınlığında 235 megavat gücə malik fotoelektrik kompleksi müvəffəqiyyətlə inkişaf etdirilir. Bu layihə dövlət energetika inkişafı korporasiyası, MASDAR (Birləşmiş Ərəb Əmirlikləri) sərmayə qrupu, Beynəlxalq Valyuta Fondu, Avropa İqtisadiyyatı Yenidənqurma Bankı, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Təşkilatı və Abu-Dabi İnvestisiya İnkişaf Fondunun birgə səyləri ilə reallaşdırılmışdır.

Göstərilən elektrik istehsal kompleksi 230 milyon ABŞ dolları dəyərindədir və cari ilin dördüncü rübündə istismara verilmişdir. Bu, Qafqaz regionunun coğrafi sərhədləri daxilində ən böyük enerji obyektidir. Bu layihə, müvafiq inkişaf institutları vasitəsilə uzunmüddətli beynəlxalq maliyyələşdirmə mexanizmini təqdim edərək milli enerji sistemində prinsipcə yeni bir yanaşmadır [9].

2023-cü ildə imzalanmış razılaşmalara uyğun olaraq, Azərbaycanın ACWA Power şirkəti ilə gələcək əməkdaşlığı 2,5 GBт ümumi gücə malik külək elektrik stansiyalarının və enerji saxlama sistemlərinin yaradılmasını nəzərdə tutur. 2022-ci ildə SOCAR və Masdar arasında imzalanmış beynəlxalq razılaşmalar 2 GBт gücündə onşor külək elektrik stansiyalarının və qısa müddətdə 4 GBт, uzunmüddətli əməkdaşlıq çərçivəsində isə 10 GBт gücündə günəş fotoelektrik stansiyalarının inşasına yönəlib. Masdar şirkəti ilə birgə 2 GBт gücündə yaşıl hidrogen istehsalı layihələri də xüsusi maraq doğurur. Qeyd etmək lazımdır ki, aşağı karbon izi ilə hidrogen istehsalının artırılması Azərbaycanın ixrac potensialını əhəmiyyətli dərəcədə artırmaq və enerji resurslarının Avropa bazarına tədarükünü diversifikasiya etmək imkanı verə bilər. Bu kontekstdə, AR Energetika Nazirliyi ilə Avstraliyanın Fortescue Future Industries (FFI) şirkəti arasında 2022-ci ildə imzalanmış yaşıl hidrogen və bərpa olunan enerji layihələrinin araşdırılması və inkişafı üzrə əməkdaşlıq çərçivəsində imzalanmış razılaşma Azərbaycanda 12 GBт gücünə qədər layihələrin potensialını ortaya qoyur [5].

Azərbaycanda yaşıl hidrogen istehsalına dair digər bir layihə, 2022-ci ilin noyabrında Bakı şəhərinin Qaradağ rayonunda külək elektrik stansiyasının inşası üzrə imzalanmış Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir. Bu memorandum Azərbaycanın investisiya şirkəti, hidrogen texnologiyalarının inkişafı ilə məşğul olan Caspian Hydrogen Development Group (CHDG) və bərpa olunan enerji mənbələrinə ixtisaslaşmış İspaniyanın Elecnor şirkəti ilə imzalanmışdır [1].

Bu zaman "hidrogen" teması qaz infrastruktur layihələri ilə sıx bağlıdır. 2022-ci ildən başlayaraq, Cənub Qaz Dəhlizinin bir hissəsi olan Transadriatik qaz boru kəməri (TAP) vasitəsilə hidrogenin nəql perspektivləri müzakirə olunur [11].

Təmiz hidrogenin nəqli əhəmiyyətli dərəcədə qaz kəmərinin avadanlığının modernləşdirilməsini tələb edir və uzunmüddətli perspektivdə müzakirə mövzusudur. Hazırda boru kəmərində təmiz təbii qazın metan-hidrogen qarışığı ilə əvəz olunmasını düşünmək mümkündür ki, bu da onun yandırılmasında CO2 emissiyalarını 10–12% azaldacaq [13]. Azərbaycanda bərpa olunan enerji inkişafının innovativ metodları karbon izi olmayan klasterlərin formalaşmasını əhatə edən

kompleks yanaşmanın tətbiqini nəzərdə tutur. "Yaşıl" enerji zonalarının yaradılması təşəbbüsü Qarabağ və Şərqi Zəngəzurda azad edilmiş ərazilərdən başlayıb. Prezident İlham Əliyev 2021-ci ilin mayında Qarabağda ekoloji cəhətdən təmiz enerji klasterlərinin yaradılması proqramını təsdiq etdi. 2022-ci ilin iyununda hökumət bu ərazilərdə "yaşıl" enerjinin inkişafı üçün 2026-cı ilədək detallı plan təqdim etdi. Yaponiyanın TEPSCO şirkətinin iştirak etdiyi konsepsiya bərpa olunan enerji mənbələri əsasında elektrik stansiyalarının inşasını, enerji səmərəli texnologiyaların və innovasiyaların kənd təsərrüfatında tətbiqini nəzərdə tutur. Azərbaycanın Energetika Nazirliyinin məlumatlarına görə, Qarabağ və Şərqi Zəngəzur günəş enerjisi (4 GBt-dan çox) və külək enerjisi (500 MBt-a qədər) baxımından əhəmiyyətli potensiala malikdir. Region həmçinin su resursları ilə zəngindir, ildə təxminən 2,56 milyard kubmetr su istehsal edir və Kəlbəcər və Şuşa rayonlarında geotermal enerji potensialı vardır. 2021-ci ilin iyununda Zəngilan və Cəbrayıl rayonlarında günəş elektrik stansiyasının inşası üçün BP şirkəti ilə 200 milyon ABŞ dolları dəyərində investisiya razılaşması imzalanmışdır.

2021-2023-cü illər ərzində Qarabağ və Şərqi Zəngəzurda Tərtər, Bazarçay, Həkəri və digər çayların hidroenerji potensialından istifadə edən 170 MBt gücündə su-elektrik stansiyaları istifadəyə verilmişdir. 2024-cü ilin sonuna qədər HES-lərin ümumi gücünün 270 MBt-a, daha sonra isə 500 MBt-a qədər artırılması planlaşdırılır.

Bərpa olunan enerji sektorunun inkişafını sürətləndirmək və beynəlxalq tərəfdaşlığı genişləndirmək məqsədilə Azərbaycan beynəlxalq şirkətləri, xüsusilə Qarabağ və Şərqi Zəngəzur sahələrində genişmiqyaslı layihələrə cəlb etmək üçün fəal çalışır. Dünyanın müxtəlif ölkələrindən enerji sektorunun aparıcı nümayəndələri əməkdaşlığa hazır olduqlarını bildiriblər. Onlar arasında Türkiyənin Best Brands “Energy Group”, “Exim Holding”, “Renevo Energy”, “Solar APEX”, “Zorlu Enerji”, “Black Pen” və “Voltan” şirkətləri, habelə İslandiyadan olan “Arctic Green Energy Gorp”, “Mannvit”, “Efla”, “Noblica”, və “Verkis”, İsrailin “Telemenia”, İtaliyanın “Technimont”, Koreyanın “Securo”, Qətərin “Nebras Power”, Çinin “Gezhouba Group International” və başqaları var.

Bu layihələrin maliyyələşdirilməsi Qarabağın Dirçəliş Fondu tərəfindən dəstəklənir ki, bu da bu təşəbbüslərin regionun iqtisadi bərpası üçün əhəmiyyətini vurğulayır.

Bu səylərə əlavə olaraq, Naxçıvan Muxtar Respublikası (NMR) Azərbaycanda "yaşıl" energetika mərkəzlərindən biri olmağa hazırlaşır. NMR-də bərpa olunan enerji mənbələrinin ümumi potensialı 5 GBt qiymətləndirilir ki, bu da inkişaf üçün geniş perspektivlər açır. Azərbaycanın Energetika Nazirliyi Naxçıvanda "yaşıl" enerji zonasının yaradılması konsepsiyasını hazırlayır ki, bu da Azərbaycanın, Türkiyənin və Avropa ölkələrinin enerji dəhlizindən ekoloji cəhətdən təmiz enerjinin ixracını nəzərdə tutur.

Azərbaycanın "yaşıl" enerjinin inkişafına dair ambisiyalı planları kontekstində, aparıcı beynəlxalq oyunçuları cəlb etməyə xüsusi diqqət yetirilir. Xüsusilə, Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək layihələr çərçivəsində TotalEnergies, “Nobel Energy”, “Masdar”, “Czech Engineering” və “Notus” kimi tanınmış şirkətlərin fəal iştirakı planlaşdırılır. TotalEnergies və Nobel Energy ilə strateji tərəfdaşlıq 650 MBt gücündə günəş elektrik stansiyalarının inşasını nəzərdə tutur ki, bu da ekoloji cəhətdən təmiz elektrik enerjisinin Türkiyəyə ixracına imkan verəcəkdir və regionda enerji əlaqələrini gücləndirəcəkdir.

Layihənin ilkin mərhələsində “Nobel Energy” şirkəti 100 MBt ümumi gücə malik iki günəş elektrik stansiyasının inşasına başlayacaq ki, bu da regionun enerji infrastrukturuna əhəmiyyətli töhfə verəcək. Paralel olaraq, Masdar şirkəti 150 MBt gücündə günəş elektrik stansiyasının inşasını həyata keçirəcək, bu da ekoloji cəhətdən təmiz enerjinin istehsalını artırmağa mühüm dəstək olacaq.

Sonrakı mərhələlərdə “Czech Engineering” ilə əməkdaşlığın genişləndirilməsi planlaşdırılır. Bu, yeni günəş elektrik stansiyalarının inşasını və strateji əhəmiyyətə malik Sədərək rayonunda əlavə elektrik xətlərinin yaradılmasını əhatə edəcək. Bundan əlavə, Naxçıvanın şimal-qərbində 70 MBt gücündə günəş elektrik stansiyasının inşası üzrə Almaniyanın Notus şirkəti ilə birgə işlərin aparılması da nəzərdə tutulur. Bu layihələr Azərbaycanın enerji mənbələrinin diversifikasiyası,

enerji təhlükəsizliyinin artırılması və qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək məqsədini nümayiş etdirir.

Bizim fikrimizcə, Azərbaycanın strateji hədəfi karbon izindən azad enerji sektorunun transformasiyasıdır. Bu, "yaşıl" enerjinin ixracı üçün müasir transsərhəd enerji infrastrukturu yaratmağı tələb edir və regionda davamlı inkişafı, eləcə də enerji təhlükəsizliyini təmin edir.

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən inşa olunmuş 230 MVt gücündə günəş elektrik stansiyasının 2023-cü il 26 oktyabr tarixində açılış mərasimi olmuşdur. Layihə çərçivəsində müvafiq yolların çəkilməsi başa çatdırılmış, günəş panellərinin quraşdırılacağı ərazi düzləşdirilmiş və kilometrlərlə ərazi hasarlanmışdır. Layihə ərazisində hər iki üzü elektrik enerjisi istehsal edə bilən və hər birinin gücü 545-550 Vt olan 500 mindən çox günəş paneli quraşdırılmış, panellərin təmizlənməsi üçün avtomatlaşdırılmış qurğular sınaqdan keçirilmişdir. Stansiyanın şəbəkəyə qoşulması üçün 330 kV-luq yarımstansiya inşa olunmuşdur. “ACWA Power” şirkəti tərəfindən icra olunan 240 MVt gücündə "Xızı-Abşeron" KES layihəsi üzrə geotexniki tədqiqatlar bitmiş və “Xızı-Abşeron” KES-in 2025-ci ildə istismara verilməsi qrafikinə uyğun işlər davam etdirilməkdədir [15].

4 iyun 2022-ci il tarixində Energetika Nazirliyi və BƏƏ-nin “Masdar” şirkəti arasında imzalanmış “Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi” çərçivəsində külək və günəş enerji potensiallı müvafiq ərazilər seçilmiş və aidiyyəti qurumlarla razılaşdırılmışdır. “Meqa” layihənin birinci fazasında külək enerjisi üzrə Abşeron, Qaradağ və Qobustan rayonlarında, günəş enerjisi üzrə isə Biləsuvar və Neftçala rayonlarında müvafiq ərazilər seçilmişdir. 2023-cü il 26 oktyabr tarixində Azərbaycan Hökuməti və BƏƏ-nin “Masdar” şirkəti arasında ümumi gücü 1000 MVt olan “yaşıl enerji” layihələri üzrə üç investisiya müqaviləsi imzalanmışdır. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 8 445 MVt gücündə, Neftçala rayonunun Bankə qəsəbəsində 315 MVt gücündə günəş elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur. Hazırda həmin ərazilərin “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Qanunun 6.6-cı bəndinə uyğun olaraq bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi üzrə işlər davam etdirilir. 2023-cü ilin 3 fevral tarixində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti arasında “Dənizdə 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi”, “Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair İcra Müqaviləsi” və “Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu” imzalanıb. 2023-cü il 1 iyul tarixində Energetika Nazirliyi ilə Çinin “China Gezhouba Group Overseas Investment” şirkəti arasında Azərbaycanda 2 QVt gücündə bərpa olunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumu imzalanmışdır [15].

Memorandum Azərbaycanda sənaye miqyaslı günəş enerjisi, quruda və dənizdə külək enerjisi, enerji saxlama və inteqrasiya olunmuş ağıllı enerji sistemləri, həmçinin yaşıl hidrogen istehsalı layihələrinə investisiya qoyuluşu üçün potensialın qiymətləndirilməsi üzrə əməkdaşlığı ehtiva edir. Sənəd, həmçinin şirkət tərəfindən layihələrin şəbəkəyə qoşulma imkanlarının tədqiqi, ətraf mühitə təsirin qiymətləndirilməsi, geoloji və topoqrafik tədqiqatların aparılmasını nəzərdə tutur. 2023-cü il 3 iyun tarixində “Bakı Enerji Həftəsi”nin Naxçıvan Muxtar Respublikasında “Naxçıvan və Şərqi Zəngəzurun yaşıl enerji potensialı” mövzusunda keçirilmiş xüsusi sessiyası çərçivəsində “Nobel Energy Management” şirkəti ilə Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. Anlaşma Memorandumunun icrası çərçivəsində Naxçıvan şəhərində 400 MVt GES-in tikintisi üçün 688 hektar, Cəbrayıl rayonu ərazisində 100 MVt GES-in tikintisi üçün 229 ha ərazi müəyyən olunmuş və razılaşdırılması üçün aidiyyəti qurumlara təqdim olunmuşdur. 2023-cü il 3 iyun tarixində Naxçıvan Muxtar Respublikasında “Total Energies” şirkəti ilə 250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respubli-

kasında 250 MVt gücündə günəş elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. Anlaşma Memorandumunun icrası çərçivəsində 250 MVt gücündə quruda külək layihəsi üçün Qaradağ rayonu ərazisində 7 ərazi müəyyən olunmuş və aidiyyəti qurumlardan müvafiq rəylər alınmışdır [15].

Energetika Nazirliyi ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlıq çərçivəsində "Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım dəstəyi" çərçivəsində Böyükşor gölündə ümumi gücü 100 kVt (95 kVt suda, 5 kVt quruda) pilot layihəsi üzrə stansiya quraşdırılmış, şəbəkəyə qoşulması istiqamətində işlər davam etdirilmişdir. Avropa Yenidənqurma və İnkişaf Bankının texniki yardımı ilə "Azərbaycanda bərpa olunan enerji üzrə hərracların keçirilməsinə dəstək" layihəsi çərçivəsində Qaradağ rayonu ərazisində yerləşən 300.77 ha torpaq sahəsinin aidiyyəti dövlət qurumları ilə razılaşdırılması başa çatdırılmış, sözügedən ərazinin yerquruluşu planı hazırlanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 dekabr 2023-cü il tarixli 470 nömrəli Qərarı ilə Qaradağ rayonu Pirsaat qəsəbəsi ərazisində yerləşən 300.77 hektar torpaq sahəsi GES tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmişdir [15].

Naxçıvanda həyata keçirilən layihələr, regional inkişafın gücləndirilməsinə əlavə olaraq, yerli əhalinin rifahını artırmağa yönəlib. Bu layihələr çərçivəsində dayanıqlı iş yerlərinin yaradılması, sosial-iqtisadi inkişafın dəstəklənməsi və ekoloji tarazlığın qorunması nəzərdə tutulur. Eyni zamanda, bu layihələr yerli cəmiyyətin enerji istehlakı vərdişlərini dəyişdirərək, insanların ekoloji cəhətdən təmiz enerji mənbələrinə daha çox yönəlməsinə səbəb olacaq.

Gələcəkdə Azərbaycanda bərpa olunan enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi, yeni investisiyaların cəlb edilməsi, innovativ texnologiyaların tətbiqi və yerli mütəxəssislərin hazırlanması üçün əlverişli mühit yaradılacaq. Bu, yalnız enerji istehsalı ilə bağlı deyil, həm də müstəqil enerji istehsalçıları üçün bazar imkanlarının genişlənməsi baxımından əhəmiyyətlidir.

Azərbaycanda həyata keçirilən enerji transformasiyaları, uzunmüddətli perspektivdə ölkənin iqtisadiyyatında müsbət təsir yaradacaq. Bu, həmçinin Azərbaycanın beynəlxalq arenada enerji təhlükəsizliyini artırmasına, qlobal enerji bazarındakı rolunu gücləndirməsinə və ekoloji standartların yüksəldilməsinə xidmət edəcəkdir.

Nəticə

Beləliklə, Azərbaycanın yaşıl enerji strategiyası yalnız enerji istehsalını deyil, eyni zamanda ölkənin sosial-iqtisadi inkişafını əhatə edən bütünlüklü bir yanaşma olaraq ön plana çıxır.

Bütün bu proseslər Azərbaycanın daha yaşıl, daha dayanıqlı və ədalətli bir gələcəyə doğru irəliləməsinin əhəmiyyətli bir hissəsini təşkil edir. Yaşıl enerji yanaşmasının tətbiqi Azərbaycanın ekoloji tarazlığını qorumaqla yanaşı, dünya miqyasında iqlim dəyişikliyi ilə mübarizədə də öz rolunu oynamağa imkan tanıyır. Bu çərçivədə, Azərbaycanın beynəlxalq əməkdaşlığa açıq olması, qlobal enerji transformasiyasında müsbət bir nümunə yaratmağa kömək edir.

Nəticə olaraq, Azərbaycanın enerji strategiyası yalnız daxili tələbləri qarşılamaqla kifayətlənmir, eyni zamanda qlobal enerji bazarına inteqrasiyanı da nəzərdə tutur. Bu, ölkənin gələcəkdə daha güclü bir enerji mərkəzi olmasına zəmin yaradır. Eyni zamanda, ekoloji cəhətdən təmiz enerji istehsalı Azərbaycanın 2050-ci ilədək sıfır karbon izinə nail olma hədəfini dəstəkləyir. Bu proses Azərbaycanı regional və qlobal miqyasda daha önəmli bir oyunçu halına gətirməklə yanaşı, müasir enerji dövrünün tələblərinə uyğun bir ölkə olmasına kömək edir.

ƏDƏBİYYAT

1. Axundova M. Bakı şəhərinin Qaradağ rayonunda külək elektrik stansiyasının inşası üzrə memorandum imzalanıb. "Trend" Beynəlxalq İnformasiya Agentliyi. 2022, 4 noyabr. URL: https://www.trend.az/business/3665466.html (müraciət tarixi: 10.04.2024
2. Azerbaijan COP 26 Statement. 2021. High-level segment statement COP 26, November 10.

UNFCCC. https://unfccc.int/sites/default/files/resource/AZERBAIJAN_cop26cmp16cma3_HLS_EN.pdf
3. Azərbaycan – yaşıl enerji keçidində regionda liderdir. Azərbaycan Dövlət İnformasiya Agentliyi "Azərtac". 2024. 13 yanvar. URL: https://azertag.az/ru/xeber/azerbaidzhan___lider_v_regione_po_perehodu_na_zelenuyu_energiyu-2882779 (müraciət tarixi: 03.05.2024
4. Azərbaycan Respublikasının Prezidentinin 2 fevral 2021-ci il tarixli "Sosial-iqtisadi inkişafın milli prioritetləri: Azərbaycan 2030" təsdiqinə dair sərəncamı. Azərbaycan Dövlət İnformasiya Agentliyi "Azərtac". URL: https://azertag.az/ru/xeber/Rasporyazhenie_Prezidenta_Azerbaidzhanskoi_Respubliki_Ob_utverzhdenii__quotNacionalnyh_prioritetov_socialno_ekonomicheskogo_razvitiya_Azerbaidzhan_2030_quot-1703259 (müraciət tarixi: 22.04.2024)
5. Fortescue Future Industries and the Ministry of Energy Partner to Pursue Green Hydrogen Projects in Azerbaijan. FMG Fortescue. 15 dekabr 2022. URL: https://www.fmgl.com.au/in-the-news/media-releases/2022/12/15/fortescue-future-industries-and-the-ministry-of-energy-partner-to-pursue-green-hydrogen-projects-in-azerbaijan (müraciət tarixi: 25.04.2024)
6. Gulaliyev M.G., Mustafayev E.R. and Mehdiyeva G.Y. 2020. Assessment of Solar Energy Potential and its Ecological-Economic Efficiency: Azerbaijan Case. Sustainability. 12(3). P. 1116. DOI: 10.3390/su12031116
7. Prospects for Azerbaijan's participation in the diversification of energy sources and reducing the risks of energy supple to Europe / E. Gasumov [et al.] // The Fifth Eurasian Conference: «Innovations in minimizing natural and technological risks». «Reliability: Theory Applications». – 2023. – V. 18. – No 5(75). – P. 195–205.
8. Renewable Energy Statistics 2024, International Renewable Energy Agency. IRENA. Abu Dhabi, 2023. 440 s. URL: https://www.irena.org/-/media/Files /IRENA /Agency /Publication/2024/Jul/IRENA_Renewable_Energy_Statistics_2024.pdf (müraciət tarixi: 20.03.2025).
9. Salaev E. 2023. Qaradağ Günəş Elektrik Stansiyası. İnfoqrafika. "Sputnik Azərbaycan" xəbər Agentliyi. 28 oktyabr. URL: https://az.sputniknews.ru/20231028/garadagskaya-solnechnaya-elektrostantsiya-460021932.html (müraciət tarixi: 03.05.2024)
10. Statistical Review of World Energy 2023. 72nd edition. BP Energy Institute, 2023. URL: https://www.energyinst.org/statistical-review/resources-and-data-downloads (accessed 28.04.2024)
11. TAP hidrogenin nəqlinə potensial təqdim edir. TurckiWorld portalı. 4 fevral. 2022. URL: https://turkic.world/ru/articles/energy/30701 (müraciət tarixi: 30.04.2024)
12. The use of renewable energy sources in Azerbaijan. 2030. Ministry of Energy of Azerbaijan. URL: https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade (müraciət tarixi: 22.04.2024)
13. Zeynalova L. "Cənub Qaz Dəhlizi"nin 20%-i hidrogenin nəqli üçün istifadə oluna bilər. Trend xəbər agentliyi. 17 iyun, 2021.. URL: https://www.trend.az/business/energy/3441493.html (müraciət tarixi: 30.04.2024)]
14. Алиев Р.А. Водная безопасность в контексте устойчивого управления трансграничными водными ресурсами в Каспийском регионе. Вестник МГИМО-Университета. 16(5).,2023, С. 71–98. DOI: 10.24833/2071-8160-2023-5-92-77-104
15. https://minenergy.gov.az/uploads/Hesabatlar/Hesabat%20NK%202023_son-20.02.2024.pdf
16. https://edgar.jrc.ec.europa.eu/report_2024
17. https://www.stat.gov.az/source/balance_fuel/az/005_4.xls

Паша Аллахверди оглы Махмудов
Азербайджанский Университет Кооперации
докторант

Анализ инвестиций в сфере зеленой энергетики на освобожденных территориях и потенциал их развития

Резюме

Цель исследования – анализ и оценка инвестиций в область зеленой энергии на освобожденных территориях.

Методология исследования – системный подход, сравнительный анализ, группировка статистических фактов.

Практическое ценность исследования – возможность использования в качестве научного ресурса в исследованиях по зеленой энергии на освобожденных территориях.

Результаты исследования – определен инвестиционный потенциал в области зеленой энергии на освобожденных территориях.

Оригинальность и научная новизна исследования – определение направлений использования инвестиционного потенциала в области зеленой энергии на освобожденных территориях и его научное обоснование.

Ключевые слова: энергетическая политика, возобновляемая энергия, углеродные выбросы, Парижское соглашение, экологическая трансформация.

Pasha Allahverdi Makhmudov
Azerbaijan Cooperation University
Doctoral student

Analysis of investments in green energy in the liberated territories and their potential for development

Summary

The purpose of the research is to analyze and evaluate investments in the field of green energy in the liberated territories.

The methodology of the research involves a systematic approach, comparative analysis, and grouping of statistical facts.

The practical significance of the research lies in the possibility of using it as a scientific resource in studies related to green energy in the liberated territories.

The results of the research have identified the investment potential in the field of green energy in the liberated territories.

The originality and scientific novelty of the research consist of determining the directions for utilizing the investment potential in the field of green energy in the liberated territories and scientifically justifying it.

Keywords: energy policy, renewable energy, carbon emissions, paris agreement, environmental transformation.

UOT 330.504

Nahid Nazim oğlu ALMASOV
i.f.d., Azərbaycan Universitetinin
“İqtisadiyyat və idarəetmə” kafedrasının müəllimi
E-mail: nahid.almasov@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.002.039

TƏBİƏT VƏ İQTİSADİYYATIN QARŞILIQLI ƏLAQƏSİ ÇƏRÇİVƏSİNDƏ QARABAĞIN YAŞIL İNKİŞAF İMKANLARI

Xülasə

Bu xüsusda, Azərbaycanın bərpaolunan enerji mənbələrinə keçid planları, karbon emissiyasının azaldılması və ətraf mühitin mühafizəsi istiqamətində atılan addımlar qlobal trendlərə uyğun olaraq ölkənin strateji hədəflərindən birinə çevrilmişdir. İşğaldan azad edilmiş ərazilərin böyük bərpaolunan enerji potensialı bu istiqamətdə yeni imkanlar açaraq, Azərbaycanın yaşıl enerji ixracatçısına çevrilməsinə töhfə verməkdədir. İşğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji sahəsində atılacaq addımlar Azərbaycanın gələcəkdə enerji bazarında daha güclü mövqe tutmasına xidmət edəcəkdir. Bu ərazilərdə qurulacaq yaşıl enerji layihələri təkcə yerli ehtiyacları qarşılamaqla qalmayacaq, həm də bölgənin ekoloji vəziyyətini yaxşılaşdırmağa, yerli əhalinin sosial-iqtisadi vəziyyətini möhkəmləndirməyə yönəlmiş olacaqdır. Bərpaolunan enerji sahəsində atılacaq addımlar ölkənin qeyri-neft sektorunun inkişafına əlavə təkan verəcək və beynəlxalq müstəvidə Azərbaycanı yeni bir enerji gücünə çevirəcəkdir. Bu, həmçinin Azərbaycanın daha güclü xarici ticarət əlaqələri qurmasına və enerjinin təmiz formalarını ixrac etməsinə imkan yaradacaqdır. Nəticədə, bu islahatlar ölkənin həm ekoloji, həm də iqtisadi dayanıqlığını təmin edəcəkdir.

Beləliklə, Azərbaycan iqtisadiyyatı müasir dövrün çağırışlarına cavab verən adaptiv xüsusiyyətlərə malikdir. Milli iqtisadiyyatın davamlı inkişafı, qeyri-neft sektorunun gücləndirilməsi, sosial rifahın artırılması və yaşıl iqtisadiyyatın təşviqi ölkənin strateji məqsədləri çərçivəsində həyata keçirilən siyasətin əsasını təşkil edir. Bu proses milli iqtisadiyyatın daha sabit, dayanıqlı və rəqabətqabiliyyətli bir sistem olaraq inkişafını təmin etməkdədir. Bu yanaşmalar Azərbaycan iqtisadiyyatını qlobal bazarda daha rəqabətqabiliyyətli edərək ölkənin beynəlxalq mövqeyini daha da gücləndirir. Dövlətin qarşıya qoyduğu məqsədlər çərçivəsində ölkə iqtisadiyyatı yalnız daxili inkişafla məhdudlaşmır, eyni zamanda regionda strateji bir oyunçu kimi öz yerini möhkəmləndirir. Qeyri-neft sektorunun inkişafı ilə yanaşı, yüksək texnologiyaların tətbiqi və sosial sahələrin gücləndirilməsi Azərbaycanın gələcəkdə daha dayanıqlı bir iqtisadiyyata sahib olmasına gətirib çıxaracaqdır. Bu isə öz növbəsində, həm sosial rifahı artıracaq, həm də iqtisadiyyatın daha şaxələnmiş və güclü bir strukturda inkişaf etməsini təmin edəcəkdir. Azərbaycanın strateji məqsədlərinə uyğun atılan addımlar ölkəni gələcəkdə daha qüdrətli bir iqtisadiyyat halına gətirəcəkdir. Eyni zamanda, bu inkişaflar Azərbaycanın xarici ticarət əlaqələrini genişləndirməyə, yeni bazarlara daxil olmağa və regional əməkdaşlığı artırmağa imkan verəcəkdir. Üstəlik, iqtisadiyyatın şaxələndirilməsi və sosial sahələrin inkişafı ölkə daxilində yeni iş yerlərinin yaradılmasına, həmçinin, yerli istehsalın artırılmasına şərait yaradacaqdır. Azərbaycanın iqtisadiyyatının müasir çağırışlara uyğun adaptivliyi onun davamlı və uzunmüddətli inkişafını təmin edəcək, xüsusilə də gənc nəsil üçün daha yaxşı iş və təhsil imkanları yaradacaqdır. Gələcəkdə müasir texnologiyalar və innovasiyaların tətbiqi, həmçinin, ekoloji cəhətdən təmiz sənayenin inkişafı ölkənin rəqabət qabiliyyətini daha da artıracaqdır. Beləliklə, Azərbaycan, regional və qlobal iqtisadiyyatın ayrılmaz bir hissəsi olaraq, dünya miqyasında daha böyük təsir gücünə sahib olacaqdır.

ƏDƏBİYYAT

1. Azərtac. Son 20 il ərzində Azərbaycanda ÜDM 4 dəfə artıb. https://azertag.az/xeber/son_20_il_erzinde_azerbaycanda_udm_4_defe_artib-2798719
2. Banker.az. 2018-ci ildə neft-qaz məhsullarının ixracda payı artaraq 91%-i ötüb. https://banker.az/ot%C9%99n-il-%C9%99rzind%C9%99-neft-qaz-m%C9%99hsullarinin-ixracda-payi-artib-r%C9%99qml%C9%99r/
3. Bayramov V.. Azərbaycanda qeyri-neft sektorunun inkişafına prioritet istiqamət kimi diqqət yetirilir, Xalq Qəzeti, http://anl.az/down/meqale/xalqqazeti/2017/iyul/549624.pdf
4. E-qanun.az. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://e-qanun.az/framework/34254
5. Qasımlı V., M.Talıbova, G.Quliyeva, A.Müseyibov, F.Mirzəyev. Rəqəmsal İqtisadiyyat. Bakı, “Azprint”nəşriyyatı, 2023. https://ereforms.gov.az/files/publications/pdf/az/9d03c762a9342224168be0a2ffc4e26a.pdf

6. President.az. İlham Əliyev Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasimdə iştirak edib. https://president.az/az/articles/view/25789
7. Sadıqlı F.. Azərbaycan yoxsulluğa “yox” deyir. Azərbaycan Qəzeti. https://azerbaijan-news.az/az/posts/detail/azerbaycan-yoxsulluga-yox-deyir-1702590394
8. Sfera.az. Azərbaycan iqtisadiyyatında qeyri-neft-qaz sektorunun payı tədricən artır. https://sfera.az/iqtisadiyyat/138757/qeyri-neft-qaz-sektorunun-en-deyerli-saheleri-hansilardir/

Мубариз Мамедгусейн оглы Багиров
д.э.н, профессор
кафедра «Финансы и аудит»
Азербайджанского Государственного
Экономического Университета

Нурлан Ильхам оглы Абдуллазаде
Докторант
Азербайджанского Государственного
Экономического Университета
E-mail: nurlan.abdullazade@yahoo.com

Основные характеристики структуры национальной экономики

Резюме

Цель исследования - Целью исследования является изучение основных характеристик, влияющих на формирование структуры национальной экономики Азербайджана, роли нефтегазового сектора в экономическом развитии и мер, принимаемых для развития ненефтяного сектора, а также анализ влияния устойчивой и адаптивной экономической политики на долгосрочное развитие национальной экономики.

Методология - Исследование основано на анализе факторов, влияющих на формирование структуры национальной экономики, включая природные ресурсы, исторические этапы развития и государственную экономическую политику. Оно также включает сравнительный анализ статистических данных (ВВП, уровень бедности, секторальные доли и т. д.). Для процесса анализа использовались официальные источники и существующие исследования.

Практическая значимость - Исследование направлено на представление рекомендаций по будущей экономической диверсификации, развитию ненефтяного сектора и планированию политики, согласованной с целями устойчивого развития, путем изучения успешной экономической политики и структурных изменений, которые сформировали экономику Азербайджана.

Результаты - Результаты исследования показывают, что, хотя экономика Азербайджана развивалась на основе доходов от нефтегазового сектора, в последние годы растущая роль ненефтяного сектора, экономическая диверсификация и адаптивная экономическая политика, направленная на устойчивое развитие, создали более сбалансированную и устойчивую структуру.

Оригинальность и научная инновация - Это исследование всесторонне анализирует адаптивные структурные особенности экономики Азербайджана за последние десятилетия, развитие ненефтяного сектора, экономическую диверсификацию и последствия политики, направленной на устойчивое развитие. Такой подход дает полное представление о трансформации национальной экономики в ответ на современные вызовы.

Ключевые слова - экономика Азербайджана, ненефтяной сектор, экономическая диверсификация, устойчивое развитие, зеленая энергия.

Mubariz Mamedguseyn Bagirov
doctor of economics, professor
Department of "Finance and Audit"
Azerbaijan State Economic University

Nurlan Ilham Abdullazade
doctoral student
Azerbaijan State Economic University
E-mail: nurlan.abdullazade@yahoo.com

Key Features of the Structure of the National Economy

Summary

The purpose of the study - The aim of the research is to investigate the key features that influence the formation of Azerbaijan's national economy structure, the role of the oil and gas sector in economic development, and the measures taken towards the development of the non-oil sector, as well as to analyze the impact of sustainable and adaptive economic policies on the long-term development of the national economy.

Methodology - The research is based on the analysis of factors affecting the formation of the national economy structure, including natural resources, historical development phases, and government economic policies. It also involves a comparative analysis of statistical data (GDP, poverty levels, sectoral shares, etc.). Official sources and existing studies were used for the analysis process.

Practical significance - The study is aimed at presenting recommendations for future economic diversification, the development of the non-oil sector, and the planning of policies aligned with sustainable development goals by studying successful economic policies and structural changes that have shaped Azerbaijan's economy.

Results - The results of the study show that while Azerbaijan's economy has developed based on revenues from the oil and gas sector, in recent years, the increasing role of the non-oil sector, economic diversification, and adaptive economic policies aimed at sustainable development have created a more balanced and sustainable structure.

Originality and scientific innovation - This research comprehensively analyzes the adaptive structural features of the Azerbaijani economy in the last decades, the development of the non-oil sector, economic diversification, and the effects of policies aimed at sustainable development. This approach provides a thorough view of the transformation of the national economy in response to contemporary challenges.

Keywords - Azerbaijani economy, non-oil sector, economic diversification, sustainable development, green energy.

UOT 338

Nərminə Allahverdi qızı QULİYEVA
İqtisadi Elmi Tədqiqat İnstitutunun dissertantı
narminacabbarova@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.055

MÜASİR İQTİSADİYYATDA İSTEHSALIN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ: YANAŞMALAR VƏ PERSPEKTİVLƏR

Xülasə

Tədqiqatın məqsədi istehsalın təşkili və idarə edilməsi proseslərini təhlil etmək, ixtisaslaşma, kooperasiya, kombinələşmə və konsentrasiya kimi anlayışların müasir istehsal sistemlərindəki rolunu araşdırmaqdır. Həmçinin istehsal proseslərinin inkişafına töhfə verəcək yeni yanaşmalar və modellərin tətbiqi imkanlarını təhlil etməkdir.

Tədqiqatın metodologiyası – Tədqiqatda elmi-nəzəri və analitik metodlardan istifadə edilmişdir. Əsas yanaşma olaraq sistemli təhlil metodu tətbiq edilmiş, istehsalın təşkili və idarə edilməsi ilə bağlı mövcud elmi ədəbiyyat təhlil olunmuşdur. Əlavə olaraq, praktikada mövcud olan istehsal modelləri araşdırılmış və onların müqayisəsi aparılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Tədqiqatın nəticələri istehsal müəssisələrinin idarə edilməsində qərar qəbuletmə prosesinə töhfə verə bilər. Bu tədqiqatdan əldə edilən biliklər sənaye müəssisələrinin daha səmərəli təşkil olunmasına dəstək olmaq üçün istifadə edilə bilər.

Tədqiqatın nəticələrinə əsasən, istehsalın təşkili və idarə edilməsi proseslərində ixtisaslaşma və kooperasiya mexanizmlərinin effektiv tətbiqi resursların səmərəli istifadəsini təmin edir və ümumi məhsuldarlığı artırır. Kombinələşmə və konsentrasiya strategiyalarının düzgün həyata keçirilməsi isə istehsal proseslərinin inteqrasiya səviyyəsini yüksəldərək iqtisadi effektivliyə nail olmağa imkan verir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Bu tədqiqatda istehsalın təşkili və idarə edilməsinin müxtəlif aspektləri yeni yanaşmalarla araşdırılmışdır. Tədqiqat çərçivəsində əldə olunan nəticələr həm elmi nəzəriyyələrə, həm də praktikaya yeni töhfələr verəcək orijinal yanaşmalara əsaslanır.

Açar sözlər: istehsalın təşkili, ixtisaslaşma, kooperasiyalaşma, kombinələşmə, konsentrasiya, idarəetmə.

Giriş

İstehsal iqtisadiyyatda əsas iqtisadi fəaliyyətlərdən biri olub, əmtəə və xidmətlərin insanların istifadəsinə verilməsinə, torpaq və kapital üzərində əməyin tətbiqi ilə dəyərin yaradılmasına, insanların həyat səviyyəsinin inkişafının təmin edilməsinə, məşğulluq və gəlirin artmasına, ölkələrarası mal və xidmətlərin idxal-ixracına, insanların istehsala cəlb edilməsi nəticəsində xüsusi bacarıqlara yiyələnməsinə kömək edir.

İstehsalın təşkili və idarə edilməsi müasir iqtisadiyyatın ən vacib sahələrindən biridir və müəssisələrin səmərəli fəaliyyət göstərməsi üçün mühüm rol oynayır. O, istehsalın effektiv idarə olunması, müəssisənin mənfəətinin artırılması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması və istehsal proseslərinin optimallaşdırılması ilə əlaqədardır. İstehsalın təşkili - istehsalın yaranması və həyata keçirilməsi məqsədilə zəruri şəraitin yaradılması üçün lazım olan fəaliyyət növüdür.

Müasir dövrdə istehsalın təşkili və idarə edilməsində dəyişikliklər və inkişaf nəzərə çarpır. Bu, istehsal sektorunda, insan resurslarının inkişafında, marketinq və reklam sahəsində, texnoloji yeniliklərdə, hazır məhsulun istehlakçıya çatdırıldığı logistika xidmətlərində özünü göstərir. Müəssisə daxilində isə bu, istehsal prosesinin inkişafından və idarəetmənin necə təşkil olunmağından asılıdır.


Məqalənin əsas məqsədi istehsalın təşkilində və idarə edilməsində mövcud yanaşmaların analizi və müasir idarəetmə metodlarının tətbiqinin müəssisələrin uğurlu fəaliyyətinə necə təsir

etdiyini göstərməkdir. Eyni zamanda, istehsal prosesinin təkmilləşdirilməsi üçün əsas amillər və strateji qərarların alınması mövzularında da təhlillər aparılmışdır.

İstehsalın təşkili və istehsal prosesinin idarə edilməsi. İstehsal sistemi - müəyyən edilmiş vaxt çərçivəsində, müəyyən miqdarda məhsulu müvafiq keyfiyyətdə istehsal etməyə qadir olan istehsal elementlərinin məcmusudur. İstehsal sistemi 4 əsas elementə əsaslanır: giriş, resurslar, istehsal prosesi, çıxış. İstehsal müəssisənin əsas fəaliyyəti hesab olunur, digər fəaliyyətlər isə istehsal sisteminin ətrafında formalaşır. İstehsal porsesinin nəticəsi məhsul və xidmətlərin yaradılmasıdır. İstehsal sistemi müəyyən xüsusiyyətlərə malikdir: [14].

- İstehsal sistemi informasiya, material, insan, enerji kimi daxilolmaları faydalı şəkildə məhsul və xidmətlərə çevirir;
- Sistemin fəaliyyətini yaxşılaşdırmaq və ona nəzarət etmək üçün istehsal fəaliyyəti ilə bağlı geridönüşlər yaradır;
- İstehsal mütəşəkkil fəaliyyət olduğu üçün istehsal sisteminin məqsədi vardır;
- İstehsal sistemi maliyyə, marketinq və digər təşkilati sistemlərdən təcrid olunmuş olaraq fəaliyyət göstərmir.

Aşağıdakı sxemdə istehsal prosesinin həyata keçirilməsi ardıcıllığı göstərilmişdir (Şəkil 1).



Şəkil 1. İstehsal prosesi [13].

Yuxarıdakı şəkildən də görüldüyü kimi, istehsal prosesi giriş amillərinin (torpaq, əmək, kapital, idarəetmə) istehsal prosesi zamanı məhsul və xidmətə çevrilməsi prosesidir. Giriş amilləri istehsalın səmərəliliyinə və keyfiyyətinə təsir edir. Çıxış amilləri isə prosesin sonunda meydana gəlir. O, istehsalın məqsədini göstərir. Sonda istehsal olunan məhsul və xidmətlər bazara təqdim olunur. Həmçinin istehsal prosesinin həyata keçirilməsinə xarici mühit amilləri də təsir edir. Tənzimləmə və ölçmə isə istehsal prosesinin effektivliyinin artırılması üçün resursların və proseslərin düzgün idarə edilməsinə kömək edir.

Müəssisə daxilində istehsalının son mərhələsi yəni artıq əsas məhsul buraxılışını həyata keçirən bölmə sex adlanır. Sexlər müəssisənin strukturunu müəyyən edən əsas amillərdən biridir [8].

İstehsal sexləri aşağıdakı qruplara bölünür: [1]

- Əsas
- Köməkçi
- Xidmətedici
- Yan

Əsas sexlərdə müəssisə daxilində hazır məhsul buraxılışı həyata keçirilir. Onların çoxluğu müəssisənin məhsul buraxma potensialını əks etdirir. Köməkçi sexlər əsas məhsulun istehsalına töhfə verir, onları enerji, alətlər və s. ilə təmin edir. Xidmətedici sexlər məhsul istehsalında bilavasitə iştirak etmir, ancaq əsas və köməkçi sexlərin fəaliyyətində köməkçi rol oynayır. Məsələn, məhsulların daşınması, anbar xidməti və s. Yan sexlər isə əsas sexlərin tullantılarının təkrar emalı ilə məşğul olur.

İstehsalın həyata keçirilməsi üçün ən əsas amillərdən biri də iş yerinin olmasıdır. İş yeri istehsal prosesinin həyata keçirilməsi üçün işçi qüvvəsi ilə istehsal vasitələrinin birlikdə müəyyən əməliyyatların həyata keçirildiyi bir məkandır.

Müxtəlif istehsal sahələrinin birləşməsi nəticəsində müəssisədə istehsalın təşkili formalaşır. İstehsalın təşkili insan, əmək və istehsal vasitələrinin qarşılıqlı fəaliyyətidir. İstehsalın təşkili müəyyən qaydalara uyğun olaraq (qanunlar, normativ aktlar və s.) həyata keçirilir. O, əmək məhsuldarlığının artması, müəssisənin səmərəli fəaliyyət göstərməsi, məhsulun keyfiyyətinin yüksəlməsi üçün əsas hesab olunur. İstehsalın təşkili aşağıdakı fəaliyyət növlərini əhatə edir: [2]

- Müəssisənin strukturunun müəyyən edilməsi;
- İstehsalın əsaslandırılması və daim təkmilləşdirilməsi;
- Məhsulun hazırlanmasından istehlakçıya çatdırılmasına qədər bütün istehsal proseslərinin planlaşdırılması və təmin edilməsi;
- İstehsalın bütün komponentlərinin optimal birləşməsinin təmin edilməsi;
- Səmərəli iş şəraitinin yaradılması.

İstehsalın təşkili prosesində istehsal amilləri xammal, kapital və s. effektiv şəkildə əlaqələndirilir. İstehsalın təşkilinin əsasını əmək bölgüsü və ixtisaslaşma təşkil edir. İxtisaslaşma insanların yaxşı bacardıqları sahələr üzrə istehsal prosesinin yerinə yetirilməsidir. Avadanlıqların ixtisaslaşması isə zamana, xammala qənaət etmək və istehsal prosesini sürətləndirmək üçün səmərəli texnologiya və avadanlıqların istifadəsidir.

İstehsalın təşkilinin əsas formaları və mərhələləri. İstehsal prosesinin həyata keçirilməsi zamanı istehsal olunan məhsulun növündən və həcmindən, istifadə olunan xammal və materialların tərkibindən, məhsul istehsalında müəssisənin müəyyən bölməsinin və ya digər müəssisənin iştirak dərəcəsindən asılı olaraq istehsalın təşkili formaları fərqlənir.

İstehsalın təşkilinin əsas formaları aşağıdakılardır: [3, 5, 6]

- İxtisaslaşma
- Kooperasiyalaşma
- Kombinələşmə
- Konsentrasiya

İxtisaslaşma - eyni və ya məhdud çeşidli məhsul istehsalının bir müəssisədə və ya onun struktur bölmələrində cəmləşməsidir. İxtisaslaşma əmək bölgüsünə əsaslanır və 3 növü vardır: Mövzu, detallı (təfərrüatlı), texnoloji və funksional ixtisaslaşma.

- Mövzu üzrə ixtisaslaşma eyni növ hazır məhsulun bir müəssisədə cəmləşməsidir. O, müəssisədə keyfiyyətli və texnoloji cəhətdən bircins məhsulların istehsalını nəzərdə tutur. Buna misal olaraq velosiped, televizor, dəmir-beton, gips və s . göstərmək olar.
- Detallı (təfərrüatlı) ixtisaslaşma - hazır məhsulun ayrı-ayrı hissələrinin, yarımfabrikatların istehsalını nəzərdə tutur.
- Texnoloji ixtisaslaşma istehsalın həyata keçirilməsi üçün müəssisənin ayrı - ayrı bölmələrə (emalatxanalara) ayrılmasıdır.
- Funksional ixtisaslaşma istehsal prosesi zamanı köməkçi və texniki işlərin bir istehsal vahidində birləşməsidir. Bu ixtisaslaşma məhsulun maya dəyərini azaldır, məhsulun keyfiyyətini artırır və istehsal prosesi zamanı vaxt itkisini aradan qaldırır.

İstehsalın ixtisaslaşması əmək məhsuldarlığının artırılması, məhsulun keyfiyyətinin yüksəldilməsi və məhsulun maya dəyərinin aşağı olması üçün əsas amildir. Lakin dar ixtisaslaşma tələbin dəyişməsi nəticəsində maliyyə itkisinə və rəqabətə davamlılığın azalmasına səbəb ola bilər. Ona

görə də hal - hazırda istehsalın ixtisaslaşmasına deyil, şaxələndirilməsinə daha çox üstünlük verilir.

İstehsalın həcmində əsas məhsulların payı, istehsal edilən məhsul qruplarının və növlərinin sayı, ixtisaslaşmış texnikanın sayı, avadanlıqların yerinə yetirdiyi əməliyyatların sayı müəssisənin ixtisaslaşma səviyyəsini göstərən amillərdir.

Kooperasiyalaşma - məhsul istehsalında iştirak edən müəssisələr, sexlər və bölmələr arasında yaranan istehsal əlaqələrini nəzərdə tutur. Kooperasiyalaşma məhsulun istehsalı üçün onun bir bölmədən və ya emal sexindən digərinə göndərilməsini nəzərdə tutur. Müəssisələr arasında bu əməkdaşlıq beynəlxalq, regional və sektoral ola bilər. Əməkdaşlıq səviyyəsini xarakterizə edən əsas göstəricilər əməkdaşlıq yolu ilə alınan məhsul hissələrinin və yarımfabrikatların məhsulun ümumi həcmində payı, kooperativ əlaqə ilə əməkdaşlıq edilən digər müəssisələrə verilən məhsul hissələri və yarımfabrikatların sayı, birgə istehsalda iştirak edən müəssisələrin sayı və s. - dir. Müəssisələr məhsul istehsalı zamanı xammalın təşkili və emalından istehlak məhsulunun istehsalına qədər qapalı texnoloji zəncirləri yaradırlar. Kooperasiyalaşma istehsal gücünün artırılmasına, bütövlükdə müəssisənin fəaliyyətinin yüksəldilməsinə kömək edir.

Kombinələşmə - Müxtəlif növ məhsul istehsalının bir məhsul vahidi daxilində birləşməsini nəzərdə tutur. Məsələn, tikinti materialları istehsalı sənayesində istehsalın kombinələşməsi özünü göstərir. Çünki burada müxtəlif məhsulların tərkibində çoxlu sayda xammal məhsullarından istifadə edilir. Birləşmə texnoloji xüsusiyyətlərə görə sərfəli olur.

Konsentrasiya – İstehsal vasitələri və işçi qüvvəsinin ayrı ayrı müəssisələrdə istehsal sahələrində və ya bölmələrdə birləşməsidir. İstehsal prosesinin belə ayrı ayrı sahələrdə cəmləşməsi eyni tip məhsul istehsalında ümumi texnoloji üsulların olması, iqtisadi səmərəlilik isə məhsul istehsalının artırılması kimi amillərlə müəyyən olunur.

İstehsalın inkişafının 3 mərhələsi vardır: istehsalın layihələndirilməsi, istismarı və təkmilləşdirilməsi.

İstehsalın layihələndirilməsi mərhələsində istehsal elementlərinin məkan üzrə birləşməsi nəzərdən keçirilir. Bura müəssisə və onun istehsal bölmələrinin strukturunun formalaşması, əmək bölgüsü, ixtisaslaşma və kooperasiya nəzərə alınmaqla işçilərin peşə və ixtisas tərkibinin müəyyən edilməsi, ayrı -ayrı istehsal bölmələrinin xammal və materiala olan tələbatı, onların ehtiyatları və istehsal həcmlərinin müəyyən edilməsi daxildir.

İstehsal sistemlərinin istismarı mərhələsinə istehsal elementlərinin vaxtında birləşdirilməsi daxildir. Bura məhsulların istehsalı qaydasının müəyyən edilməsi, əmək obyektlərinin hərəkət standartlarının müəyyən edilməsi, iş yerlərinin xammal və materiallarla təmin edilməsi və s. daxildir.

İstehsal sisteminin təkmilləşdirilməsi dedikdə elmi-texniki tərəqqi nəticəsində texnika və texnologiyanın təkmilləşdirilməsi, istehsal olunan məhsulların strukturunun dəhyişməsi, istifadə olunan xammal və materialların digərləri ilə əvəz edilməsi və s. başa düşülür. [10 s. 5-6]

İstehsal amilləri və istehsal növləri. İstehsal amilləri mal və xidmətlərin istehsalı üçün ehtiyac olunan amillərdir. İstehsal amillərinin formalaşmasına aid müxtəlif nəzəri yanaşmalar vardır. Klassik nəzəriyyənin nümayəndələri istehsal amillərini torpaq, kapital və əmək üzrə qruplaşdırmışdır. Marksizm nəzəriyyənin tərəfdarlarına görə istehsal amilləri maddi və şəxsi amillərə bölünür. Maddi amillər dedikdə istehsal vasitələri, şəxsi amillər dedikdə isə işçi qüvvəsi nəzərdə tutulur. Bu nəzəriyyə istehsal amillərinin qarşılıqlı əlaqəsinə əsaslanır [15].

Marjinalist nəzəriyyənin tərəfdarları istehsal amillərinin müasir tərifini vermişdir. İlk dəfə olaraq ingilis iqtisadçısı Alfred Marşal istehsal amillərini 4 qrupa ayırmışdır [16].

- əmək
- kapital
- torpaq
- sahibkarlıq qabiliyyəti

İstehsal amillərinin səmərəliliyinin artırılması istehsalın artırılmasına, aşağı qiymətlə daha keyfiyyətli mal və xidmətlərin yaradılmasına əsas verir. Son dövrlərdə texnologiyada istehsal amilləri

səmərəliliyin artırılmasına kömək etdiyi üçün əməyi əvəz edə bilir. Məsələn, robot texnologiya istehsalatda məhsuldarlığın artırılmasına, istehsal prosesində səhvlərin minimuma endirilməsinə gətirib çıxartdığı üçün əmək xərclərini azaldır.

İstehsalın növləri müəssisənin istehsalının strukturunu, ixtisaslaşmanı və istehsal prosesində material axınının hərəkətini qabaqcadan müəyyən etməyə imkan verir. İstifadə edilən xammaldan, məhsula olan tələbatdan, uçot və iqtisadi göstəricilərdən, istehsalın təşkilindən, məhsulun növündən asılı olaraq istehsalın 3 növü fərqləndirilir: [12, 7, 9]

Vahid istehsal - Təkrar istehsalı nəzərdə tutulmayan vahid məhsul istehsalını nəzərdə tutur. Daha çox fərdi məhsul istehsalçıları tərəfindən təmin edilir. Buraya şəxsə aid xüsusi hazırlanmış məhsullar aid edilir. Əsas xüsusiyyətləri: daha çox əl əməyindən, universal texnologiyadan, işçilərin yüksək peşəkarlığından istifadə edilməsidir.

Seriyalı istehsal - Dəyişən tələbata uyğun davamlı istehlak mallarının istehsalını nəzərdə tutur. Ən çox istifadə edilən istehsal növüdür. Müəyyən növ homojen məhsulların seriya ilə buraxılması ilə xarakterizə olunur. Partiyanın ölçüsündən asılı olaraq, seriyalı istehsal böyük və kiçik miqyaslı ola bilər. Burada istehsalçı istehlakçının tələbatını bilir və istehsal tələbata uyğun olaraq partiyalarda aparılır. Əsas xüsusiyyətləri: məhsul istehsal edilməzdən əvvəl onun ümumi sayının müəyyən edilməsi, mövsümi məhsul istehsalından asılı olaraq tələbatın böyüklüyü, istehsalın uzun müddət təkrarlanması və istehsalın yarıda dayandırılmasının böyük itkilərə səbəb olması.

Kütləvi istehsal - məhdud çeşiddə məhsulların böyük həcmdə istehsalıdır. Bu istehsal növü az çeşidli məhsulların böyük həcmdə istehsalı prosesində iş yerləri və avadanlıqların dar ixtisaslaşması ilə xarakterizə olunur. Kütləvi istehsalda istehsal olunan məhsullar standart olmalıdır və heç bir yayınma olmamalıdır. O, eyni növ məhsul istehsal edən iri tonajlı sənayelər üçün xarakterikdir. Daha çox avtomobil sənayesi məhsulları aid edilir. Kütləvi istehsalda avtomatlaşdırılmış maşın və avadanlıqların əhəmiyyətli payı vardır. Əsas xüsusiyyətləri: istehsal olunan məhsula uyğun müəssisənin ixtisaslaşması, məhdud sayda məhsul istehsalı və istehsalın həcminin böyük olmasıdır.

İstehsalın idarə edilməsi və idarəetmə nəzəriyyələri. İstehsalın idarə edilməsi müəssisənin səmərəliliyini və mənfəətini artırmaq məqsədilə istehsalın prinsipləri, formaları, metodları və vasitələrinin məcmusudur. İstehsalın idarə edilməsinin təhlili müəyyən elmi yanaşmaların tətbiq olunmasının zəruriliyini qeyd edir. Bu elmi yanaşmalar aşağıdakılardır: [11]

Təkrar istehsal yanaşması – daha aşağı xərclərlə və oxşar məhsullarla müqayisədə daha keyfiyyətli məhsul istehsal etməklə bazarın tələbatını ödəmək üçün məhsul istehsalının davamlı olaraq yenilənməsidir.

Marketinq yanaşması – istehsalın idarə edilməsi zamanı istənilən problemin istehsalçının tələblərinə uyğun olaraq həll edilməsidir.

Sistem yanaşması – burada istənilən sistem bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərin cəmi kimi nəzərdə tutulur.

Situativ yanaşma – bu yanaşmada konkret vəziyyətə uyğun olaraq idarəetmə metodlarının uyğunluğu müəyyən edilir.

Dinamik yanaşma – bu yanaşmada idarəetmə obyekti səbəb – nəticə əlaqələrində, subordinasiyada və dialektik inkişafda nəzərdən keçirilir. Həmçinin keçmişə və gələcəyə dair proqnoz və analizlər aparılır.

İdarəetmə ilə əlaqədar ardıcıl olaraq 3 əsas nəzəriyyə vardır: klassik, neoklassik və müasir idarəetmə nəzəriyyələri [10 s. 38-44].

Klassik nəzəriyyə idarəetmənin ilk nəzəriyyəsidir. Bu nəzəriyyənin əsasını mövcud resurslardan maksimum istifadə etməklə müəssisənin məqsəd və vəzifələrinin həyata keçirilməsi nəzərdə tutulur. Burada təşkilat məqsəd kimi deyil, məqsədə çatmaq üçün bir vasitə kimi seçilir. Klassik idarəetmənin aşağıdakı prinsipləri vardır:

1. Məqsədlərin birliyi prinsipi;
2. Əmək bölgüsü və ixtisaslaşma prinsipi;
3. Nəzarət sahəsi və balans prinsipi;

4. İerarxik quruluş prinsipi;
5. Komandanlığın birliyi prinsipi;
6. Məsuliyyət prinsipi və səlahiyyətlərin verilməsi prinsipi;
7. İstisna və açıqlama prinsipi;
8. Sadəlik və aydınlıq prinsipi;
9. Dəyişkənlik və ya yenidən təşkil prinsipi.

Bu idarəetmə düşüncəsində insanların sosial-psixoloji tərəfləri nəzərə alınmır, onlara maşının bir hissəsi kimi baxılır, insan standartlaşdırılır və bir-birini asanlıqla əvəz edir.

Bu nəzəriyyənin çatışmayan cəhəti ondan ibarətdir ki, burada idarəetmənin formal və hüquqi tərəflərinə diqqət yönəldilir və sosial və psixoloji tərəflər nəzərə alınmır. İnsan reallığı gözardı edilir.

Neoklassik nəzəriyyədə klassik nəzəriyyənin əksi olaraq insan faktoru önə çıxır. Bu nəzəriyyə idarəetmə fəlsəfəsini meydana çıxartmışdır. Neoklassik nəzəriyyə klassik nəzəriyyə üzərində qurulmuş, bəzi saəhələri genişləndirərək inkişaf etdirmişdir. Bu yanaşmanın əsas əhatə dairəsi insan münasibətləri və davranışları, qrupların formalaşması, onların inkişafı və s.dir. İdarəetmə insan münasibətlərinə əsaslanır. Bu nəzəriyyənin çatışmayan cəhəti ondan ibarətdir ki, əsas diqqət insan davranışına yönəldiyi üçün digər sahələrə diqqət yetirilmir və buna görə də səhvlərə yol verilir.

Klassik və neoklassik nəzəriyyədəki çatışmazlıqları aradan qaldırmaq məqsədilə müasir idarəetmə nəzəriyyəsi yaranmışdır. Bu idarəetmə nəzəriyyəsi İkinci Dünya müharibəsindən sonra formalaşmışdır və idarəetməyə müxtəlif ölçülər gətirmişdir. Burada hər bir işə sistem olaraq baxılır və hər bir hissə əlaqəli şəkildə araşdırılır, bir-biri ilə sintez edilir.

Nəticə

Məqalədə istehsalın təşkilinin əsas formaları, istehsal prosesinin idarə edilməsi və bu sahədə tətbiq olunan müxtəlif idarəetmə yanaşmaları təhlil edilmişdir. İstehsalın təşkili və idarə olunması müəssisələrin müvəffəqiyyətli fəaliyyətində həlledici rol oynayır. İxtisaslaşma, kooperasiyalaşma, kombinələşmə və konsentrasiya kimi istehsalın əsas formaları, istehsalın həcmi və keyfiyyətinin artırılması məqsədilə müəssisələr üçün strateji əhəmiyyət kəsb edir. İdarəetmə nəzəriyyələri, o cümlədən klassik, neoklassik və müasir idarəetmə yanaşmaları müəssisələrin effektiv fəaliyyət göstərməsini təmin edən əsas alətlərdən biridir. Bu nəzəriyyələrin tətbiqi, insan faktoru, əmək məhsuldarlığının artırılması və texnologiyaların inkişafı ilə əlaqəli qərarların düzgün şəkildə verilməsinə kömək edir.

Nəticə olaraq, istehsalın təşkilində və idarə edilməsində tətbiq olunan müxtəlif yanaşmalar müəssisələrin uzunmüddətli səmərəliliyini artırır və onların rəqabət qabiliyyətini gücləndirir. İstehsal prosesinin düzgün idarə olunması, həmçinin resursların səmərəli istifadəsi və yeni texnologiyaların tətbiqi bazar tələblərinə uyğun məhsul istehsalını təmin edir. Gələcəkdə bu sahədəki tədqiqatların davam etdirilməsi istehsalın təşkili və idarə edilməsinin daha da təkmilləşdirilməsi üçün vacib olacaqdır.

ƏDƏBİYYAT

1. Алексеева М.М. Планирование деятельности фирмы. - М.: Финансы и статистика, 1996
2. Альманах, Упражление производствам № 2 2022
3. Гирфанова Е.Ю., Кислова В.И. Организация производства учебное пособие нижнекамск 2014 s. 86
4. Генкин Б.М.,Никитина И.А. Управление человеческими ресурсами. М.: Норма, 2013, 464 s.
5. Геврасёва А. П. Дисциплина «Экономика организации (предприятия)» 2015
6. Касперович С. А., Коновальчик Г. О. Организация производства и управление предприятием Минск 2012 s. 344
7. Курочкин А.С. Организация Производства Киев 2001

8. Моисеева Н.К., Анискин Ю.П. Современное предприятие: конкурентоспособность, маркетинг, обновление. - М.: Внешторгиздат, 1993
9. Организация производства Методические указания к практическим занятиям для студентов экономических специальностей всех форм обучения Краматорск ДГМА 2016
10. Степанов И. Г. Организация производства Учебное пособие Новокузнецк 2003 S. 93
11. Фрейдкина Е.М., Лебедева А.В., организация производства товаров и услуг Учебное пособие Санкт-Петербург 2016 s. 101
12. Экономика организации (предприятия) Учебное пособи Екатеринбург Издательство УМЦ УПИ 2018
13. Naci K. Üretim Yönetimi ve Organizasyon https://avys.omu.edu.tr
14. Sarojrani P, Swagatika M. Production and Operation Management (n.d.)
15. Vəliyev T., Babayev Ə., Meybullayev M. İqtisadi nəzəriyyə, dərslik, Bakı 2001 s. 691
16. Xəlilbəyli A. İstehsal fəaliyyəti və əsas istehsal amilləri. s. 7

Нармина Аллахверди гызы Гулиева
Аспирант Экономического Научно-Исследовательского Института.
narminacabbarova@gmail.com

Организация и управление производством в современной экономике: подходы и перспективы

Резюме

Цель исследования является анализ процессов организации и управления производством, а также изучение роли таких понятий, как специализация, кооперация, комбинация и концентрация в современных производственных системах. Кроме того, задача исследования заключается в анализе возможностей применения новых подходов и моделей, которые могут способствовать развитию производственных процессов.

Методология исследования. В исследовании использованы научно-теоретические и аналитические методы. Основным методом является метод системного анализа, в рамках которого проведен анализ существующей научной литературы по организации и управлению производством. Дополнительно были исследованы существующие в практике производственные модели и проведено их сравнение.

Практическое значение исследования. Результаты исследования могут внести вклад в процесс принятия решений при управлении производственными предприятиями. Знания, полученные в рамках данного исследования, могут быть использованы для содействия более эффективной организации промышленных предприятий.

Результаты исследования показывают, что эффективное применение механизмов специализации и кооперации в процессах организации и управления производством обеспечивает эффективное использование ресурсов и повышает общую производительность. Правильная реализация стратегий конгломерации и концентрации способствует повышению уровня интеграции производственных процессов, что позволяет достичь экономической эффективности.

Оригинальность и научная новизна исследования. В данном исследовании различные аспекты организации и управления производством анализируются с использованием новых подходов. Полученные в ходе исследования результаты основываются на оригинальных подходах, которые принесут новые вклад в научные теории и практическую деятельность.

Ключевые слова: Организация производства, специализация, кооперация, комбинирование, концентрация, управление.

Narmina Allakhverdi gızı Guliyeva
PhD candidate at the Economic Scientific Research Institute.
narminacabbarova@gmail.com

Organization and management of production in the modern economy: approaches and perspectives

Summary

The purpose of the research is to analyze the processes of production organization and management, and to investigate the role of concepts such as specialization, cooperation, integration, and concentration in modern production systems. Additionally, it aims to explore the potential application of new approaches and models that can contribute to the development of production processes.

Research methodology. The research utilizes scientific-theoretical and analytical methods. The primary approach applied is the systems analysis method, and existing scientific literature on production organization and management has been analyzed. Additionally, production models existing in practice have been studied, and their comparison has been carried out.

The applied significance of the study. The results of the research can contribute to the decision-making process in the management of production enterprises. The knowledge gained from this research can be used to support the more efficient organization of industrial enterprises.

The results of the study indicate that the effective application of specialization and cooperation mechanisms in the organization and management of production processes ensures the efficient use of resources and increases overall productivity. Furthermore, the proper implementation of integration and concentration strategies facilitates achieving economic efficiency by raising the level of integration in production processes.

Originality and scientific novelty of the research. This research explores various aspects of production organization and management through new approaches. The results obtained within the framework of the study are based on original approaches that will contribute new insights to both scientific theories and practical applications.

Key words: Production organization, specialization, cooperation, integration, concentration, management.

UOT 338

Günay Qnyaz qızı HƏŞİMOVA
doktorant, Bakı Biznes Universiteti
gunay.hesimova07@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.063

AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE SAHƏSİNİN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycanda yüngül sənaye sahəsinin inkişafı istiqamətlərinin tədqiq edilməsidir. Məqalədə yüngül sənaye sahəsinin inkişaf potensialı üzrə problemlər öyrənilmiş və açıqlanmışdır. Yüngül sənayenin modelləşdirilməsi və müasir texnologiyalar bazasında inkişaf etdirilməsi məsələləri araşdırılmışdır. Azərbaycanda yüngül sənayenin vəziyyəti, bu sahədə məhsul istehsalının həcmi və ölkə ÜDM-də xüsusi çəkisi təhlil olunmuşdur. Yüngül sənayenin sürətli inkişafına mane olan amillər müəyyənləşdirilmiş və onların nəzərə alınmasının vacibliyi bildirilmişdir.

Tədqiqatın metodologiyası – məqalədə baxılan problemlərdən yanaşmaqla, yüngül sənaye sahəsinin inkişafının əsas istiqamətlərinə həsr olunmuş iqtisadi ədəbiyyatlardan istinad edilmiş araşdırma metodları kimi - təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti – araşdırma nəticəsində irəli sürülmüş təklif və tövsiyələrdən Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının müasir dövrün tələbləri çərçivəsində təşkili və fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərində istifadə edilməsindən ibarətdir.

Tədqiqatın nəticələri – əsaslandırılmış elmi-metodoloji yanaşmaların ümumiləşdirilməsi, təklif olunan mexanizmlərin tətbiq olunması hesabına Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının sürətləndirilməsi üzrə daha təsirli tədbirlərin görülməsi ilə bağlıdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə baxılmış problemlər üzrə ümumiləşdirilmiş müddəalar və müəllif yanaşmaları orijinallığı ilə fərqlənir. Yüngül sənaye sahəsinin mövcud potensialından çıxış etməklə, bu sahənin müəssisələrinin rəqabət qabiliyyətinin artırılması və innovativ inkişafının təmin edilməsinin vacibliyi əsaslandırılmışdır. Pandemiyanın mənfi təsirinin aradan qaldırılması nəzərə alınmaqla, yüngül sənaye müəssisələrinin investisiya fəaliyyətinin stimullaşdırılması və istehsal proseslərinin intensivləşdirilməsinin vacibliyi verilmişdir.

Açar sözləri: sənaye müəssisəsi, yüngül sənaye, yüngül sənayenin strateji aspektləri, yüngül sənayenin modernləşdirilməsi, yüngül sənayenin səmərəlilik məsələləri, yüngül sənayenin inkişafı istiqamətləri.

Giriş

Hər bir ölkənin iqtisadi inkişafında yüngül sənaye mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir. Bu sənaye sahəsi bir neçə fərqli sənaye sahəsini birləşdirərək ölkənin iqtisadi dayanıqlığına töhfə verir, cəmiyyətin sosial səviyyəsini yüksəldir və vətəndaşların həyat keyfiyyətini artırır. Yüngül sənayenin əsas fəaliyyəti istehlak malları, yarımfabrikatlar və materialların istehsalına yönəlmişdir. Sənaye sahəsi toxuculuq, tekstil, dəri məmulatları, ayaqqabı istehsalı və digər əlaqəli sahələri əhatə edir. Azərbaycanda bu sektor toxuculuq, xalçaçılıq, dəri və göndəri məhsulları, geyim, ayaqqabı və trikotaj istehsalı kimi istiqamətlərdə fəaliyyət göstərir. Bu sahə əsasən yüngül texnologiyalardan istifadə edən kiçik sənaye müəssisələrini birləşdirir və həm xammalın ilkin emalını, həm də hazır məhsul istehsalını həyata keçirir.

Azərbaycanda yüngül sənayenin mövcud vəziyyəti

Yüngül sənaye təkcə istehlak malları istehsalı ilə məhdudlaşmayıb, eyni zamanda, digər sənaye sahələri üçün texniki və xüsusi təyinatlı məhsulların tədarükündə mühüm rol oynayır. Bu sahə müxtəlif sektorlara geyim, ayaqqabı, tibbi avadanlıq, xalça, iplik, tekstil materialları və digər

məhsullar təqdim etməklə ölkə iqtisadiyyatının bir çox sahələrinin fəaliyyətini təmin edir. Yüngül sənayenin məhsulları həm yerli istehlakçılar, həm də müxtəlif sənaye sahələri tərəfindən geniş istifadə olunur. Məsələn, tibbi avadanlıqlar xəstəxanalarda, xalçalar interyer dizaynında, geyimlər isə hüquq-mühafizə orqanlarının və təhlükəsizlik qurumlarının texniki ehtiyaclarını qarşılamaqda mühüm əhəmiyyətə malikdir. [8, https://smb.gov.az]

Bu sənayenin bir sıra özünəməxsus xüsusiyyətləri var. İlk növbədə, xammal mənbələrinə yaxınlıq mühüm rol oynayır, çünki bu, istehsal prosesinin logistika xərclərini azaltmağa və xammalın emalı üçün əlverişli şərait yaratmağa imkan verir. Bundan başqa, istehsal prosesi mərhələli şəkildə həyata keçirilir, yəni xammal emalının müxtəlif mərhələləri müxtəlif müəssisələrdə tamamlanır. Bu, müəssisələrin ixtisaslaşma səviyyəsini artırmaqla istehsal prosesini daha çevik edir. Yüngül sənaye məhsullarının hazır görünüşünə xüsusi diqqət yetirilir, çünki istehlakçıların məhsulun xarici görünüşü ilə bağlı gözləntiləri yüksəkdir. Bununla yanaşı, məhsul çeşidinin tez-tez dəyişməsi və ətraf mühitə minimal təsir göstərməsi bu sənayenin başqa bir üstün cəhətidir. Minimal ekoloji təsir sənaye müəssisələrinin şəhər ərazilərində yerləşdirilməsinə imkan verir və sosial-iqtisadi strukturda daha çox qadın işçi qüvvəsindən istifadə etməklə iş yerlərinin yaradılmasına şərait yaradır.

Lakin Azərbaycanda yüngül sənayenin inkişafı müəyyən problemlərlə qarşılaşır. İlk növbədə, daxili bazarın idxaldan yüksək asılılığı bu sənayenin dayanıqlığına mənfi təsir göstərir. Bu asılılıq, əsasən, xarici məhsulların keyfiyyət və dizayn baxımından üstün olması ilə əlaqədardır ki, bu da yerli məhsulların rəqabət qabiliyyətini azaldır. İkincisi, yerli istehsal müəssisələri texnoloji cəhətdən geri qaldığı üçün xarici məhsullarla rəqabət aparmaqda çətinlik çəkir. Bu, həm avadanlıqların köhnə olması, həm də müasir texnologiyaların tətbiqində gecikmə ilə bağlıdır. Üçüncüsü, xammal bazasının zəifliyi sənayenin inkişafına mane olan əsas problemlərdən biridir. Azərbaycanda yüngül sənayenin əsas xammal mənbələri heyvandarlıq, bitkiçilik və kimya sənayesi ilə əlaqədardır. Lakin bu sahələrdə istehsalın həcminin məhdud olması və ya müasir texnologiyaların tətbiq edilməməsi yüngül sənayenin xammal təminatında problemlərə yol açır. [5, s. 33-34]

Bu problemlərin həlli üçün dövlət səviyyəsində strateji yanaşma tələb olunur. İlk növbədə, idxalı əvəzləyən və daxili tələbatı ödəyən yerli istehsal gücləndirilməlidir. Bu, yerli müəssisələrin müasir texnologiyalarla təmin edilməsini və avadanlıqlarının modernləşdirilməsini tələb edir. Rəqabətədavamlı məhsul istehsal etmək üçün yeni texnologiyaların mənimsənilməsi, ixtisaslı kadrların hazırlanması və innovativ həllərin tətbiqi prioritet olmalıdır. Dövlət, həmçinin, yerli istehsalçılar üçün güzəştli kreditlər təqdim etməklə, onların maliyyə resurslarına çıxışını təmin etməli, elmi-tədqiqat institutları ilə sənaye müəssisələri arasında əməkdaşlığı gücləndirərək, innovativ məhsul və texnologiyaların tətbiqini təşviq etməlidir.

Bundan əlavə, xammal bazasının inkişafı üçün dövlətin kənd təsərrüfatı və kimya sənayesi sahələrinə dəstək proqramları həyata keçirməsi vacibdir. Məsələn, pambıqçılıq və dəri istehsalının təşviqi, yüksək keyfiyyətli tekstil materiallarının emalı üçün yeni istehsal sahələrinin yaradılması və yerli xammaldan istifadənin artırılması təmin olunmalıdır. Eyni zamanda, yüngül sənaye məhsullarının xarici bazarlarda tanıdılması və ixracın artırılması məqsədilə marketinq və informasiya dəstəyi göstərilməlidir. Belə yanaşma, Azərbaycanın yüngül sənayesini daha dayanıqlı və rəqabətədavamlı bir sahəyə çevirə bilər.

Yüngül sənayenin inkişafı üçün əsas məqsədlər arasında daxili bazarın idxaldan asılılığını azaltmaq, yüksək əlavə dəyərə malik texnoloji məhsullar istehsal etmək və sektorda ixtisaslı kadr potensialını gücləndirmək yer alır. Bunları təmin etmək üçün dövlət maliyyə dəstəyi, qrantlar, güzəştli kreditlər və vergi güzəştləri kimi təşviq mexanizmlərini tətbiq etməlidir. Bununla yanaşı, yüngül sənaye müəssisələrinin modernləşdirilməsi və istehsal proseslərinin yenilənməsi üçün regional və dövlət proqramları həyata keçirilməlidir. [2, s. 55-56]

Yüngül sənayenin inkişafı üçün strateji yanaşmaların həyata keçirilməsi ölkənin iqtisadi dayanıqlığı və rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahədə əsas məqsədlər daxili bazarın idxaldan asılılığını azaltmaq, yüksək əlavə dəyər yaradan texnoloji

məhsullar istehsal etmək və sektorda ixtisaslı kadr potensialını gücləndirməkdir. Bu məqsədlərə nail olmaq üçün çoxşaxəli yanaşmaların tətbiqi tələb olunur.

Cədvəl 1.

2013-2023-cü illər üzrə Azərbaycan ÜDM-ində yüngül sənayenin xüsusi çəkisi

İllər	Xüsusi çəki (%)
2013	0.85
2014	0.83
2015	0.81
2016	0.78
2017	0.75
2018	0.72
2019	0.70
2020	0.68
2021	0.67
2022	0.66
2023	0.65

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır

Son 10 ilin məlumatları yüngül sənayenin Azərbaycanın ümumi daxili məhsulunda (ÜDM) xüsusi çəkisinin azalma trendini göstərir. 2013-cü ildə bu göstərici 0.85% olduğu halda, 2023-cü ildə 0.65%-ə düşmüşdür. Bu, təxminən 23.5%-lik bir azalmaya işarə edir və sektorun ölkə iqtisadiyyatındakı rolunun nisbi olaraq zəiflədiyini göstərir. Yüngül sənayenin ÜDM-dəki xüsusi çəkisinin azalması, əsasən, daxili istehsalın inkişafında qarşılaşılan problemlər, idxal məhsullarına yüksək asılılıq və müasir texnologiyaların məhdud tətbiqi ilə əlaqədardır.

2013-2017-ci illər arasında azalma daha sürətli olmuşdur. Bu dövrdə yüngül sənayenin xüsusi çəkisi 0.85%-dən 0.75%-ə qədər azalmışdır. Bu sürətli azalma qlobal iqtisadi təlatümlərin, xammal təminatında problemlərin və yerli istehsalın rəqabət qabiliyyətinin zəif olmasının nəticəsi ola bilər. Həmçinin, bu illər ərzində sektorda innovativ yanaşmaların kifayət qədər tətbiq olunmaması və sənaye müəssisələrinin modernləşdirilməməsi də azalmanı sürətləndirmişdir.

2018-2023-cü illər arasında azalma daha yavaş templə davam etmişdir. Bu dövrdə xüsusi çəki 0.68%-dən 0.65%-ə qədər enmişdir. Azalmanın templərinin yavaşlaması müəyyən uyğunlaşma tədbirlərinin həyata keçirildiyini və sektorun bir qədər dayanıqlıq qazandığını göstərir. Xüsusilə COVID-19 pandemiyası dövründə bəzi yüngül sənaye sahələri, məsələn, geyim və ayaqqabı istehsalı, qoruyucu geyimlərə artan tələbat nəticəsində inkişaf etmişdir. Lakin ümumi mənzərə pandemiyanın sektorun xammal çatışmazlığı və logistika problemləri ilə üzləşməsi səbəbilə mənfi təsirlərini tam aradan qaldıra bilmədiyini göstərir.

Ümumilikdə, yüngül sənayenin ÜDM-dəki xüsusi çəkisinin azalması, sektorun modernləşdirilməsinin və əlavə dəyər yaradan məhsulların istehsalına yönəldilməsinin zəruriliyini ortaya qoyur. Yüksək əlavə dəyərli məhsulların istehsalı, ixracın artırılması və texnoloji yeniliklərin tətbiqi sektorun rəqabət qabiliyyətini artırmaq üçün əsas vasitələr kimi çıxış edə bilər. Bununla yanaşı, dövlətin maliyyə dəstəyi, investisiya təşviqləri və yerli istehsalın təşviqi istiqamətindəki siyasətləri də bu azalmanı dayandırmaq və sektoru daha güclü bir mövqeyə gətirmək üçün mühüm əhəmiyyət kəsb edir. [3, https://az.trend.az/business/3253163.html]

1. Daxili bazarın idxaldan asılılığının azaldılması

Azərbaycanda yüngül sənayenin daxili bazarda mövqeyini gücləndirmək üçün idxal olunan məhsulları əvəz edəcək yüksək keyfiyyətli və rəqabətədavamlı yerli məhsulların istehsalı prioritet olmalıdır. Bu istiqamətdə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- **Yerli istehsalın stimullaşdırılması**

- **Texnologiyaların tətbiqi**
- **Təşviq mexanizmləri**

2. Yüksək əlavə dəyərə malik texnoloji məhsulların istehsalı

Texnoloji inkişaf yüngül sənayenin gələcək rəqabət qabiliyyətinin artırılması üçün əsas şərtdir. Yüksək əlavə dəyərə malik məhsulların istehsalı həm yerli, həm də beynəlxalq bazarda mövqeləri gücləndirə bilər. Bu istiqamətdə aşağıdakı addımlar atılmalıdır:

- **Elmi-tədqiqat və texnologiya transferi**
- **İxrac yönümlü məhsul istehsalı**
- **Müasir istehsal xətlərinin yaradılması**

3. İxtisaslı kadr potensialının gücləndirilməsi

Yüngül sənayenin inkişafında ixtisaslı işçi qüvvəsinin rolu mühüm əhəmiyyətə malikdir. Bu sahədəki problemlərin aradan qaldırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- **Təhsil və təlim proqramları**
- **İxtisasartırma kursları**
- **Beynəlxalq təcrübənin mənimsənilməsi**

4. Regional və dövlət proqramlarının həyata keçirilməsi

Yüngül sənayenin inkişafını dəstəkləmək üçün regional və dövlət səviyyəsində kompleks tədbirlərin görülməsi vacibdir:

- **Regional dəstək proqramları**
- **Dövlət investisiyaları**
- **İnfrastrukturun təkmilləşdirilməsi**

5. İnnovasiyaların təşviqi

Yüngül sənayenin inkişafında innovativ yanaşmalar mühüm rol oynayır. Yeni məhsulların yaradılması və mövcud istehsal proseslərinin optimallaşdırılması üçün aşağıdakı addımlar atılmalıdır:

- **Rəqəmsal həllərin tətbiqi**
- **E-ticarət platformalarının genişləndirilməsi [10,** https://www.articles.edu]

Pandemiyanın təsiri və yeni çağırışlar

COVID-19 pandemiyası yüngül sənayenin bir çox sahəsinə ciddi təsir göstərərək xammal çatışmazlığı, logistika problemləri və istehlak tələbinin azalması kimi bir sıra çətinliklər yaradıb. Qlobal təchizat zəncirində yaranan fasilələr nəticəsində yüngül sənaye müəssisələrinin fəaliyyəti xeyli məhdudlaşıb. Xammalın təchizatı ilə bağlı problemlər istehsal proseslərinin dayanmasına və ya yavaşlamasına səbəb olub. Bu, xüsusilə idxaldan yüksək asılılıq göstərən tekstil və dəri sənayesində daha qabarıq şəkildə müşahidə olunub. Eyni zamanda, nəqliyyat məhdudiyyətləri və artan logistika xərcləri, xammalın emalı və hazır məhsulların çatdırılmasında gecikmələrə gətirib çıxarıb. Bu vəziyyət müəssisələrin fəaliyyətinə və məhsuldarlığına mənfi təsir göstərib. [9, https://www.academia.edu]

Bununla yanaşı, pandemiyanın yaratdığı qeyri-müəyyənliklər istehlakçı davranışlarını da dəyişib. Əhalinin gəlirlərinin azalması və iqtisadi sabitliyin pozulması nəticəsində əsas istehlak məhsullarına tələbat azalıb. Buna baxmayaraq, bəzi sahələr yeni şərtlərə uyğunlaşma nümayiş etdirib. Xüsusilə qoruyucu geyim və tibbi məqsədli xüsusi məhsullara tələbin artması nəticəsində geyim və ayaqqabı istehsalı sahələrində müəyyən irəliləyişlər müşahidə olunub. Bu sahələrdə istehsal həcminin artması müəssisələrin çevik yanaşmaları və bazar tələblərinə uyğunlaşma bacarıqları ilə əlaqəlidir.

Pandemiya yüngül sənayenin modernləşdirilməsi və transformasiyası üçün yeni imkanlar da yaradıb. Xüsusilə yerli istehsalın gücləndirilməsi və texnologiyaların tətbiqi üçün zərurət daha qabarıq şəkildə ortaya çıxıb. Yerli xammal mənbələrindən istifadəni artırmaq və daxili istehsal gücünü genişləndirmək sektorun dayanıqlılığını artırmaq üçün vacib addımlar kimi qiymətləndirilir. Eyni zamanda, istehsal proseslərinin avtomatlaşdırılması və rəqəmsallaşdırılması pandemiyanın ortaya çıxardığı logistika problemlərini azaltmağa kömək edə bilər. [7, https://economy.gov.az/article21404]

Bu çətinliklər və imkanlar fonunda dövlətin dəstəyi sektorda davamlı inkişafı təmin etmək üçün mühüm rol oynayır. Güzəştli kreditlər, dövlət sifarişləri və digər təşviq mexanizmləri vasitəsilə yüngül sənaye müəssisələrinin maliyyə problemləri həll edilməli və onların istehsal potensialı artırılmalıdır. Pandemiya dövründə dövlət tərəfindən həyata keçirilən bu cür tədbirlər sektorun mövcud vəziyyətə uyğunlaşmasına və gələcəkdə daha dayanıqlı inkişafına zəmin yaradır. Eyni zamanda, bu, yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırmağa və beynəlxalq bazarlarda mövqelərini gücləndirməyə kömək edə bilər.

Beləliklə, pandemiyanın təsiri ilə yaranan çətinliklər yüngül sənaye sahəsində modernləşmə və innovasiya üçün yeni çağırışlar yaratmış, dövlət və özəl sektor arasında sıx əməkdaşlıq zərurətini daha da artırmışdır. Bu əməkdaşlıq sektorun müasir tələblərə uyğun transformasiyasını sürətləndirmək üçün mühüm vasitə kimi çıxış edir.

Pandemiya dövründə yüngül sənaye sahələrinə dair statistik məlumatlar təqdim edilmişdir. Bu cədvəl istehsal həcmlərində baş verən dəyişiklikləri və sektoral artım dinamikasını əks etdirir. Göstərilən məlumatların təhlili əsasında aşağıdakı nəticələr və qiymətləndirmələr aparılmışdır.

Cədvəl 2.

Pandemiya və post-pandemiya dövründə Azərbaycan Respublikasında yüngül sənaye məhsulunun ümumi həcmi (mln.manatla)

№	Sektor	2020	2021	2023
1.	Toxuculuq	240.9	369.5	372.3
2.	Geyim	112.8	130.0	125.2
3.	Dəri və dəri məmulatları, ayaqqabı istehsalı	25.8	22.3	24.8

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır

Pandemiya və post-pandemiya dövründə Azərbaycan Respublikasında yüngül sənaye məhsullarının ümumi həcminin təhlili göstərir ki, bu dövrdə müxtəlif sektorlarda fərqli dinamikalar müşahidə olunub.

Toxuculuq sektoru bu dövrdə əhəmiyyətli artım nümayiş etdirib. 2020-ci ildə bu sektorda istehsalın ümumi həcmi 240.9 milyon manat təşkil edirdi, 2021-ci ildə isə bu rəqəm 369.5 milyon manata yüksəlmişdir. 2023-cü ilə qədər isə bu göstərici nisbətən sabit qalaraq 372.3 milyon manata çatmışdır. Bu artım, ehtimal ki, pandemiya dövründə istehsala qoyulan investisiyalar və beynəlxalq tələbin artması ilə əlaqədardır. [4, www.stat.gov.az]

Geyim sektoru isə daha mülayim bir artım trendi nümayiş etdirib. 2020-ci ildə bu sektorun həcmi 112.8 milyon manat təşkil etmişdir. 2021-ci ildə istehsalda artım baş verərək 130.0 milyon manata yüksəlmişdir. Lakin 2023-cü ildə bu göstərici bir qədər azalaraq 125.2 milyon manata enmişdir. Bu dəyişikliklər daxili bazardakı tələbatın dəyişməsi və istehsal xərclərinin təsiri ilə izah edilə bilər.

Dəri və dəri məmulatları, ayaqqabı istehsalı sektoru isə nisbətən sabit, lakin dalğalı bir dinamika nümayiş etdirib. 2020-ci ildə bu sahənin ümumi istehsalı 25.8 milyon manat təşkil etmişdir. Lakin 2021-ci ildə istehsal həcmi azalaraq 22.3 milyon manata düşmüşdür. 2023-cü ildə isə bu sahədə yenidən canlanma müşahidə edilmiş və göstərici 24.8 milyon manata çatmışdır. Bu sektorda baş verən dəyişikliklər pandemiya dövründə xammal təminatında yaranan çətinliklər və istehlakçı davranışındakı dəyişikliklərlə əlaqəli ola bilər. [1, İqtisadiyyat Nazirliyinin illik hesabatları və rəsmi statistik göstəriciləri-2023]

Ümumilikdə, pandemiya dövründə yüngül sənaye məhsullarının istehsalı bəzi sektorlarda nəzərəçarpan artım göstərsə də, digərlərində daha qeyri-sabit bir dinamika müşahidə olunmuşdur. İstehsalın bərpası prosesində toxuculuq sektoru ən yüksək dayanıqlığı nümayiş etdirib, geyim və dəri məhsulları sektoru isə müxtəlif çətinliklərlə üzləşmişdir. Bu vəziyyət həm daxili, həm də xarici bazarda mövcud iqtisadi şərtlərin yüngül sənaye sektoruna təsirini əks etdirir.

Yüngül sənayenin inkişafını sürətləndirmək və sektorun mövcud problemlərini həll etmək üçün

çoxşaxəli islahatların həyata keçirilməsi zəruridir. Aşağıda qeyd olunan tədbirlər sektorun daha dayanıqlı və rəqabətədavamlı olmasını təmin etmək məqsədini daşıyır:

1. Xammal təminatını yaxşılaşdırmaq üçün dövlət dəstəyinin gücləndirilməsi

Yüngül sənayenin əsas problemlərindən biri xammal təminatında yaşanan çatışmazlıqlardır. Bu problemlərin həlli üçün dövlətin kənd təsərrüfatı və kimya sənayesinə dəstək verməsi zəruridir. Xüsusilə pambıqçılıq, ipəkçilik və dəri istehsalının artırılması üçün fermerlərə subsidiyalar təqdim edilməli və bu sahələrdə innovativ texnologiyaların tətbiqi dəstəklənməlidir. Bundan əlavə, xammalın emalı üçün yerli müəssisələrin yaradılması daxili bazarın ehtiyaclarını ödəmək baxımından mühüm əhəmiyyət kəsb edir.

2. Yeni texnologiyaların alınması və tətbiqi üçün kommersiya banklarının vəsaitlərinin cəlb olunması

Yüngül sənayenin modernləşdirilməsi üçün müasir avadanlıqların və texnologiyaların alınması vacibdir. Bunun üçün kommersiya bankları vasitəsilə maliyyə vəsaitlərinin cəlb olunması təşviq edilməlidir. Bankların aşağı faizli kredit proqramları təklif etməsi ilə müəssisələr yeni texnologiyaları mənimsəmək və istehsal proseslərini optimallaşdırmaq imkanı əldə edə bilər. Eyni zamanda, dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində texnologiya transferi proqramları həyata keçirilməlidir.

3. Güzəştli şərtlərlə kredit imkanlarının artırılması və vergi siyasətinin optimallaşdırılması

Yüngül sənaye müəssisələrinin maliyyə dayanıqlığını artırmaq üçün güzəştli kredit imkanları genişləndirilməlidir. Xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi təqdim edilməli və onların fəaliyyətlərini genişləndirmələri üçün daha əlverişli şərait yaradılmalıdır. Eyni zamanda, yerli xammal və komponentlərdən istifadə edən müəssisələr üçün vergi güzəştləri tətbiq olunmalıdır. Bu tədbirlər istehsal xərclərini azaltmaqla yanaşı, yerli məhsulların rəqabət qabiliyyətini də artıracaqdır.

4. Yerli istehsal məhsullarının beynəlxalq bazarlara çıxarılması üçün əlverişli şəraitin yaradılması

Yerli istehsal məhsullarının ixracını artırmaq üçün beynəlxalq bazarlarda tanınma və mövqelərin gücləndirilməsi vacibdir. Bunun üçün dövlət səviyyəsində beynəlxalq sərgilərdə iştirak, xarici bazarların araşdırılması və marketinq strategiyalarının hazırlanması dəstəklənməlidir. Yüngül sənaye məhsullarının ixrac potensialını artırmaq üçün logistika sisteminin təkmilləşdirilməsi və xarici müştərilərlə əlaqələrin qurulması üçün ticarət missiyaları təşkil edilməlidir.

5. Sənaye müəssisələrinin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi

Yüngül sənaye müəssisələrinin effektivliyini artırmaq üçün idarəetmə mexanizmləri müasirləşdirilməlidir. Rəqəmsallaşma və avtomatlaşdırma vasitəsilə istehsal proseslərinin daha çevik və məhsuldar olması təmin edilməlidir. Müasir idarəetmə metodlarının tətbiqi ilə resursların səmərəli istifadəsi və xərclərin optimallaşdırılması mümkün olacaqdır. Bununla yanaşı, müəssisələrdə strateji planlaşdırma və risk idarəetmə sistemləri gücləndirilməlidir.

6. Xarici ölkələrdə fəaliyyət göstərən yüngül sənaye müəssisələri ilə elmi-texniki əməkdaşlığın genişləndirilməsi

Yüngül sənayenin inkişafı üçün beynəlxalq təcrübənin mənimsənilməsi vacibdir. Xarici ölkələrin qabaqcıl müəssisələri ilə əməkdaşlıq edərək, yeni texnologiyaların, məhsul dizaynlarının və istehsal metodlarının öyrənilməsi mümkün olacaqdır. Bu məqsədlə beynəlxalq elmi-tədqiqat institutları ilə əlaqələr qurulmalı və birgə layihələr həyata keçirilməlidir. Bundan əlavə, xaricdə təcrübə keçmiş mütəxəssislərin yerli sənayedə işləməsi üçün xüsusi təşviq proqramları hazırlanmalıdır.

7. Beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli məhsul istehsalına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması [6, s. 45-46]

Yüngül sənayenin inkişafında kadr potensialının artırılması mühüm rol oynayır. İxtisaslı işçi qüvvəsinin hazırlanması üçün peşə təhsili müəssisələrinin, universitetlərin və sənaye müəssisə-

lərinin əməkdaşlığı gücləndirilməlidir. Xüsusi təlim proqramları vasitəsilə texniki biliklərə malik kadrların yetişdirilməsi təmin edilməlidir. Bundan əlavə, mövcud işçi qüvvəsinin bilik və bacarıqlarını artırmaq üçün ixtisas artırma kursları təşkil olunmalıdır. Xarici bazarlara uyğun məhsul istehsalını təmin etmək üçün beynəlxalq standartlar üzrə sertifikatlaşdırma proqramlarına xüsusi diqqət yetirilməlidir.

Nəticə

Azərbaycanda yüngül sənayenin inkişafı ölkənin iqtisadiyyatında mühüm rol oynayır və strateji əhəmiyyət kəsb edir. Bu sektorun gücləndirilməsi təkcə iqtisadiyyatın diversifikasiyasını təmin etmir, həm də idxaldan yüksək asılılığın azaldılmasına, sosial rifahın artırılmasına və regionlarda məşğulluğun təmin edilməsinə mühüm töhfə verir. Yüngül sənayenin inkişafı ölkənin dayanıqlı və müasir iqtisadi sistem qurmaq strategiyasında əhəmiyyətli bir həlqə təşkil edir.

Dövlətin bu sahəyə dair strateji yanaşmaları, xüsusilə yerli istehsalın rəqabət qabiliyyətinin artırılmasına, yüksək əlavə dəyər yaradan məhsulların istehsalına və innovativ texnologiyaların tətbiqinə yönəlməlidir. Yüngül sənayenin modernləşdirilməsi yalnız texnoloji avadanlıqların yenilənməsi ilə məhdudlaşmamalı, həm də sahədə çalışan işçi qüvvəsinin ixtisas səviyyəsinin artırılması və sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması ilə dəstəklənməlidir. İstehsal proseslərinin rəqəmsallaşdırılması və avtomatlaşdırılması məhsuldarlığı artırmaqla yanaşı, yerli və beynəlxalq bazarlarda daha rəqabətqabiliyyətli məhsulların istehsalına imkan yaradacaqdır.

Pandemiya dövründə yüngül sənaye sektorunda bir çox çətinliklər yaşansa da, bu, sektorun mövcud potensialını daha qabarıq şəkildə ortaya çıxarmışdır. Xüsusilə qoruyucu geyimlər və digər tibbi məqsədli məhsullara olan tələbin artması bu sahədə çevik uyğunlaşmanın mümkün olduğunu göstərmişdir. Bununla yanaşı, pandemiyanın yaratdığı qlobal logistika problemləri və tədarük zəncirindəki fasilələr yerli istehsalın əhəmiyyətini bir daha vurğulamışdır.

Yüngül sənayenin gələcək inkişafı üçün dövlətin maliyyə dəstəyi, innovasiyaların təşviqi və ixrac potensialının artırılması əsas hədəflər olmalıdır. İdxal asılılığının azaldılması üçün daxili istehsal gücləndirilməli, yerli xammal mənbələrinin inkişafına xüsusi diqqət yetirilməlidir. Eyni zamanda, beynəlxalq standartlara cavab verən məhsulların istehsalı və ixrac bazarlarında mövqelərin gücləndirilməsi sektorun uzunmüddətli dayanıqlılığını təmin edəcək əsas vasitələrdən biri ola bilər.

Bu baxımdan, yüngül sənayenin inkişafı təkcə iqtisadiyyatın bir sahəsi kimi deyil, həm də ölkənin iqtisadi təhlükəsizliyinin və sosial rifahının artırılması strategiyasının bir hissəsi kimi dəyərləndirilməlidir. Yüksək texnologiyaların tətbiqi, yerli istehsal gücünün artırılması və xarici bazarlara inteqrasiya Azərbaycanın yüngül sənayesini daha dayanıqlı və rəqabətədavamlı bir sektora çevirmək üçün əsas istiqamətlərdir. Beləliklə, bu sahədə həyata keçiriləcək strateji addımlar ölkənin iqtisadi və sosial inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Azərbaycanın makroiqtisadi göstəriciləri. İqtisadiyyat Nazirliyinin illik hesabatları və rəsmi statistik göstəriciləri. 2023.
2. Alizadeh S., Quliyev R. İqtisadi artım və sənaye sektorunun inkişafı: Azərbaycanda yüngül sənaye. *İqtisadi Araşdırmalar Jurnalı*, 12(2), 55-67. 2018.
3. Azərbaycanda pandemiya dövründə sənaye istehsalının həcmi https://az.trend.az/business/3253163.html
4. Dövlət Statistika Komitəsi. "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf göstəriciləri" adlı illik statistik məlumatlar. www.stat.gov.az
5. İsmayılov, R.A., Hacıyev, Z.E. *Qeyri-neft sektorunun inkişafı və iqtisadi diversifikasiya: Azərbaycan təcrübəsi.* Bakı: İqtisadi İnkişaf İnstitutu. *2021.*
6. Quliyev A. Azərbaycanda yüngül sənaye sektorunda KOS-ların investisiya imkanları və perspektivləri. *Azərbaycan İqtisadiyyat Jurnalı*, 12(4), 45-58. 2020.

7. https://economy.gov.az/article21404
8. https://smb.gov.az
9. https://www.academia.edu
10. https://www.articles.edu

Гашимова Гюнай Гняз
Аспирант, Бакинский Университет Бизнеса
Gunay.hesimova07@gmail.com

Направления развития сектора легкой промышленности в Азербайджане

Резюме

Цель исследования: Целью исследования является исследование направлений развития легкой промышленности в Азербайджане. В статье рассматриваются и представляются проблемы, связанные с потенциалом развития легкой промышленности. Также исследуются вопросы моделирования легкой промышленности и ее развитие на основе современных технологий. Анализируются текущее состояние легкой промышленности в Азербай-джане, объем производства в этой отрасли и ее доля в ВВП страны. Выявлены факторы, препятствующие быстрому развитию легкой промышленности, и подчеркивается важность учета этих факторов.

Методология исследования: Методы исследования, использованные в исследовании, включают анализ, синтез и обобщение, основанные на рассмотренных проблемах и сосредоточенные на основных направлениях развития легкой промышленности. Эти методы исследования основаны на экономической литературе, посвященной развитию легкой промышленности.

Практическая значимость исследования: Результаты исследования включают предложения и рекомендации по организации развития легкой промышленности Азербайджана в соответствии с современными требованиями и совершенствованию ее операционных механизмов. Реализация этих предложений будет способствовать повышению эффективности функционирования и конкурентоспособности легкой промышленности.

Результаты исследования: Исследование заключает, что ускорение развития легкой промышленности в Азербайджане может быть достигнуто путем применения научно обоснованных методологических подходов и предложенных механизмов.

Оригинальность и научная новизна исследования: Обобщенные выводы и авторские подходы, представленные в статье, отличаются своей оригинальностью. На основе существующего потенциала легкой промышленности обоснована необходимость повышения конкурентоспособности предприятий в этой отрасли и обеспечения их инновационного развития. Также подчеркивается важность стимулирования инвестиционной активности на предприятиях легкой промышленности и интенсификации производственных процессов с учетом негативных последствий пандемии.

Ключевые слова: промышленное предприятие, легкая промышленность, стратегические аспекты легкой промышленности, модернизация легкой промыш-ленности, вопросы эффективности легкой промышленности, направления развития легкой промышленности.

Hasimova Gunay Qnyaz
PhD Candidate, Baku Business University
Gunay.hesimova07@gmail.com

Directions for the development of the light industry sector in Azerbaijan

Summary

The purpose of the research: is to explore the directions of development of the light industry sector in Azerbaijan. The article examines and presents the problems related to the development potential of the light industry sector. Issues concerning the modeling of light industry and its development based on modern technologies are also investigated. The current state of light industry in Azerbaijan, the volume of production in this sector, and its share in the country’s GDP are analyzed. Factors hindering the rapid development of light industry are identified, and the importance of considering these factors is emphasized.

Methodology of the research: The research methods used in the study include analysis, synthesis, and generalization, based on the problems discussed in the article and focusing on the key directions of the light industry sector’s development. These research methods are drawn from economic literature addressing the development of light industry.

Practical importance of the research: The research results include proposals and recommendations for organizing the development of Azerbaijan’s light industry in accordance with modern requirements and improving its operational mechanisms. The implementation of these proposals will contribute to enhancing the functioning and competitiveness of the light industry.

Research results: The research concludes that the acceleration of light industry development in Azerbaijan can be achieved by applying the scientifically grounded methodological approaches and proposed mechanisms.

Originality and scientific innovation of the research: The generalized conclusions and author’s approaches presented in the article are distinguished by their originality. Based on the existing potential of the light industry, the necessity of improving the competitiveness of enterprises in this sector and ensuring their innovative development is substantiated. The importance of stimulating investment activity in light industry enterprises and intensifying production processes, taking into account the nega-tive effects of the pandemic, is also emphasized.

Keywords: industrial enterprise, light industry, strategic aspects of light industry, modernization of light industry, efficiency issues in light industry, directions of light industry development.

III BÖLMƏ.
AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI

UOT:39.56.31

Səmayə Oqtay qızı BABAYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti, Baş müəllim
nihat-020@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.002.072

AQRAR İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN SAHƏNİN DAYANIQLI İNKİŞAFINA TƏSİRİ

Xülasə

Tədqiqatın məqsədi - Aqrar sahənin tənzimlənməsinin aqrar iqtisadiyyatın dayanıqlı inkişafina təsirini aşkar etməkdən ibarətdir.

Tədqiqatın metodologiyası - Bu tədqiqatda dayanıqlı iqtisadi inkişafa, aqrar iqtisadiyyatın dayanıqlılığına dair iqtisadi ədəbiyyat və aqrar sahənin dövlət tənzimləməsinə aid dövlət sənədləri araşdırılmışdır. Ölkə iqtisadiyyatı və aqrar sahənin inkişaf tendensiyaları təhlil edilmişdir. Həmçinin Azərbaycanda aqrar siyasətin dayanıqlı inkişaf prinsipləri baxımından qiymətləndirilməsi aparılmışdır.Tədqiqat prosesində monoqrafiya, abstrakt-məntiqi, təhlil və qiymətləndirmə üsullarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Cəmiyyətin və iqtisadiyyatın inkişafının müasir tendensiyaları dayanıqlı inkişaf konsepsiyası üzərində cərəyan edir.Məqalədə aqrar sahənin dayanıqlı inkişaf konsepsiyasının reallaşdırılmasında əhəmiyyətindən bəhs olunur. Aqrar sahənin inkişafı isə dövlət dəstəyi nəticəsində daha da dayanıqlı və davamlı şəkil alır.

Tədqiqatın nəticələri - Tədqiqat nəticəsində aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin iqtisadiyyatın davamlı inkişadına təsiri aşkar edilmişdir. Bu məsələnin mahiyyəti Azərbaycan misalında açıqlanmışdır.

Tədqiqatın elmi yeniliyi - Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, dayanıqlı inkişaf Konsepsiyası iqtisadi ədəbiyyatda və elmi işlərdə geniş və hərtərəfli müzakirə edilməsinə baxmayaraq, dayanıqlı inkişafa verilən kontekstdə ilk dəfə baxılır.

Açar sözlər: davamlı inkişaf, kənd təsərrüfatı sektoru, ekoloji davamlılıq, iqtisadi dayanıqlıq, sosial davamlılıq, dövlət tənzimlənməsi.

Giriş

Dayanıqlı inkişaf termini ictimai-siyasi dairələrdə BMT-nin 1992-ci ilin iyununda Rio-de-Janeyroda dövlət və hökumət başçıları səviyyəsində keçirilən Ətraf mühitin problemləri və inkişafına dair Konfransından sonra geniş miqyasda istifadə olunmağa başladı. Bu konfransın nəticəsində “XXI yüzillikdə hərəkətlər proqramı” adlı sənəd qəbul edilmişdir. Bu sənəddə dünya iqtisadiyyatının dayanıqlı inkişafa keçidi strategiyası rəsmi olaraq təqdim edilmişdir. Dayanıqlı inkişaf dedikdə sosial-iqtisadi inkişafın elə bir modeli başa düşülür ki, burada indiki nəslin həyat tələbatları ödənilir və gələcək nəsillər təbii resursların bitməsi və ətraf mühitin deqradasiyası nəticəsində bu imkandan məhrum olmurlar.[3].

XXI əsrdə iqtisadiyyatın aqrar sektoru bir neçə təməl problemlərlə qarşılaşmışdır. Bu problemlər onun dayanıqlı inkişafına mane olur. Bu problemlərin çoxu BMT-nin Dayanıqlı inkişafın məqsədlərində öz əksini tapmışdır. [6]. Dayanıqlı inkişaf müxtəlif adamlar üçün ayrı-ayrı məna verir.

Əvvəllər onu səhvən ekoloji problem kimi başa düşürdülər. Dayanıqlı inkişafın tərifi Ətaf mühit üzrə Ümumdünya Komissiyası (WCED) tərəfindən verilmişdir. Bu tərifə görə dayanıqlı inkişaf elə bir inkişafdır ki, o, hazırkı zamandakı tələbatları gələcək nəsillərin öz tələbatlarının ödənilməsini təhlükə altına atmadan ödəyir. Konsepsiyanın əsasında belə bir iddia durur ki, sosial, iqtisadi və ekoloji məqsədlər inkişaf prosesində bir-birini tamamlamalı və bir-birindən asılı olmalıdırlar.

Dayanıqlı inkişafın üç əsas ölçüsü vardır: iqtisadi artım, sosial bərabərlik və ətraf mühitin mühafizəsi. İqtisadi artımın əsasında elə bir prinsip durur ki, ona uyğun olaraq cəmiyyətin rifahı təbii resurslardan optimal və səmərəli istifadə hesabına maksimallaşdırılmalıdır, kasıblıq isə aradan qaldırılmalıdır. Sosial aspekt insanlar və təbiət arasında münasibətlərə, insanların rifahının yüksəldilməsinə, səhiyyənin və təhsilin baza xidmətlərinin əlçatan olmasına, ərzaq təhlükəsizliyinə və insan hüquqlarının gözlənilməsinə olan tələbatların ödənilməsinə aiddir. Dayanıqlı inkişafın ekoloji aspekti fiziki və bioloji resurs bazasının qorunub saxlanması və yaxşılaşdırılmasına toxunur. Dayanıqlı inkişaf ümumi problem olmasına baxmayaraq, bir çox praktiki cavablar yalnız milli və lokal səviyyədə müəyyən oluna bilər. Ölkələrin qarşısında dayanıqlı inkişaf strategiyalarının işlənib hazırlanması və tədbiqi məsələsi durur. Bütün ölkələr dayanıqlı inkişafı dəstəkləyən səlis və səmərəli qanunlar qəbul etmək və onların yerinə yetirilməsini təmin etmək yolu ilə milli səviyyədə dayanıqlı inkişafa dəstək olmalıdırlar. Dayanıqlı inkişaf strategiyaları milli maraqlarla, prioritet və resurslarla müəyyən ediləcək və məhdudlaşacaqdır. Bəşəriyyətin qarşılaşdığı problemlərin mürəkkəbliyi və dinamizmi ilə bağlı dayanıqlı inkişaf strategiyaları zamanla inkişaf etməli və təkmilləşməlidirlər.

Aqrar sahədə dayanqlı inkişafın müxtəlif aspektləri

Dayanıqlı inkişafda, aclıq və yoxsulluğun aradan qaldırılmasında aqrar sahə həlledici rol oynayır. Aqrar sahənin dayanıqlı inkişafda rastlaşdığı problemlər yalnız maddi baxımdan təminatlı, sosial baxımdan ədalətli və ekoloji baxımdan dayanıqlı olan artım deyil, həm də insanların tələbatlarının ödənilməsi, resursların bölgüsünün və istifadəsinin ədalətliliyi ilə motivləşən bir cəmiyyətin yaradılması üsullarının işlənib hazırlanması ilə də bağlıdır.

Dayanıqlı aqrar sahə iqtisadi, sosial və ekoloji çağırışlara cavab verməlidir. Bu çağırışlar bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Dayanıqlı kənd təsərrüfatının bu xarakteristikalarına paket şəklində baxılmalıdır və onlardan heç biri o biriləri ilə müqayisədə üstünlük təşkil etməməlidir. Dayanıqlı aqrar sahə təbii resurslar bazasını müdafiə etməli, torpaq və suyun deqradasiyasının qarşısını almalı, biomüxtəlifliyi qoruyub saxlamalı, hamının iqtisadi və sosial rifahının yüksəlməsinə zəmin yaratmalı, ərzaq məhsullarının çatdırılmasının təhlükəsizliyini və yüksək keyfiyyətini təmin etməli, aqrar sahədə çalışanları və onların ailələrini həyat vəsaitləri ilə təmin etməli və rifahını yüksəltməlidir.

Aqrar sahənin dayanıqlı inkişafına nail olmanın əsas yollarından biri aqrar siyasət və aqrar sahənin dövlət tərəfindən tənzimlənməsidir. Bunun vasitəsilə kənd təsərrüfatının dayanıqlı inkişafı təmin olunmuş olur. İlk növbədə dayanıqlı inkişafın ekoloji aspektləri az-az, sonra isə sistematik olaraq aqrar siyasətə daxil edilir. Dayanıqlı inkişaf tək ekoloji problemləri deyil, həm də təbii resursların qorunub saxlanmasını, kənd təsərrüfatı məhsullarının keyfiyyətini, kənd icmalarının həyat qabiliyyətini, kənd təsərrüfatı heyvanlarının sağlamlığı və rifahını təmin etməlidir. [8]

Müasir dövrün əsas problemlərindən biri hər yerdə iqlimin dəyişməsidir. Temperaturun yüksəlməsi, əlverişsiz hava şəraiti və quraqlıq, yağarlıq kimi ekstremal hadisələr kənd təsərrüfatı bitkilərinin və heyvanlarının məhsuldarlığına təsir edir. Fermerlər bu dəyişikliklərə yeni üsullar tətbiq edərək və dayanıqlı infrastruktura sərmayə edərək uyğunlaşmağa məcburdurlar [9].

Ümumiyyətlə, dayanıqlı inkişaf konsepsiyasında kənd təsərrüfatının dayanıqlı inkişafına keçid mərkəzi yer tutur. Bu, bəşəriyyəti ərzaqla və bir çox digər zəruri məhsullarla təmin edən aqrar sahənin həyat baxımından vacib funksiyaları ilə izah olunur.

Aqrar sahənin dayanıqlı inkişaf Proqramının başlıca vəzifəsi keyfiyyətli qida məhsulları istehsalının səviyyəsinin yüksəldilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bu məsələni həll etmək üçün dövlətin dəstəyi vacibdir (iqtisadi innovasiyaların, yeni texnologiyaların tətbiqi, əmtəə istehsalının inkişafı, işsizliyin və əhalinin yoxsulluğunun azaldılması, əhalinin gəlirlərinin

artırılması, resursların idarə edilməsi və ətraf mühitin mühafizəsi). Təbii istehsal resurslarından səmərəli istifadə, aqrar sahənin innovativ üsullar əsasında intensiv inkişaf yoluna keçməsi aqrar sahənin inkişafını təmin edər[10].

Aqrar sahənin dayanıqlı inkişafına dair iqtisadi ədəbiyyatda müxtəlif fikirlər vardır. Bəziləri [11] aqrar sahənin dayanıqlı inkişafını innovativ texnologiyaları, təbii resurslardan qənaətli istifadəni və ətraf mühiti mühafizəni uyğunlaşdıran ərazi baxımından diferensiasiya olunmuş, dayanıqlı sistem kimi görür. Bu sistem daxilində kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının dayanıqlığı, bitkilərin xəstəliklərə və ziyanvericilərə qarşı dayanıqlığı, müəssisələrin maliyyə dayanıqlığı, əhalinin gəlirlərinin dayanıqlığı, kənd yerlərinin inkişafının dayanıqlığı, təbii landşaftların dayanıqlığı və s. daxil olan istehsal, iqtisadi, sosial və ekoloji yarımsistemlərdən ibarətdir. Bu dayanıqlılığa enerjiqoruyucu, ekoloji baxımdan təhlükəsiz sistemli texnologiyaların, innovasiya mexanizmlərinin tədbiqi, kənd təsərrüfatı istehsalının bioloji amillərindən istifadəsi ilə nail olunur. Dayanıqlı aqrar sahə kənddə məşğulluq səviyyəsinin yüksəldilməsi, məişət və sosial-mədəni şəraitin yaxşılaşdırılması, kəndin sosial infrastrukturunun inkişaf etdirilməsi, mənzil probleminin həll edilməsinin köməyi ilə daha ixtisaslı əməkdən istifadə etməklə nail olunan əmək məhsuldarlığının artımı hesabına işçilərin gəlir səviyyəsinin yüksəldilməsini nəzərdə tutur. Aqrar sahənin dayanıqlı inkişafının əsas məsələlərindən biri torpağın məhsuldarlığının artırılması, bitkilərin və heyvanların genofondunun qorunub saxlanması, torpaq resurslarının mühafizəsi, təbii sistemlərin çirklənməsi ilə bağlı ekoloji təhlükəsizlikdir. Bundan başqa, kənd təsərrüfatının dayanıqlı inkişafının başlıca vəzifəsi torpaqların təbii məhsuldarlığının və istifadə olunmuş resursların sadə və geniş təkrar istehsalının təmin edilməsidir. Qida məhsullarına olan tələb və təklifin optimal proporsiyaları, sahənin rentabelli olması şərti ilə ərzağa olan alıcı tələbatının tam və fasiləsiz ödənilməsi aqrar sahənin dayanıqlı inkişafının göstəriciləridir. Fikrimizcə təsərrüfatçılığın yeni iqtisadi mexanixmi şəraitində kənd təsərrüfatının dayanıqlı inkişafı yalnız intensiv geniş təkrar istehsal zamanı mümkündür. Rəqabət şəraitində aqrar istehsalın rasional quruluşu; torpağın iqtisadi məhsuldarlığının yüksəldilməsi; bazar konyunkturuna uyğun olaraq intensiv tipli sort olan bitkilərin seçilməsi; intensiv resursqoruyucu texnologiyaların işlənib hazırlanması və tədbiqi; istehsal proseslərinin keyfiyyətli və optimal müddətlərdə təşkili; mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi; təsərrüfatçılıq mexanizminin dəyişdiyi şəraitdə işçilərin əməyinin motivasiyasının və onların həyat keyfiyyətinin yüksəldilməsi və s. intensiv təkrar istehsalın əsas amilləridir.

Bazar şəraitində istehsal münasibətləri əmtəə istehsalçısının mülkiyyət hüquqlarının reallaşdırılmasına əsaslanırlar. Yığım və istehlak arasında düzgün qurulmuş uyğunluq olmadan geniş təkrar istehsal mümkün deyil. Beləliklə, təbii resursların qorunması və rasional istifadəsi, rəqabət qabiliyyətinin artması zamanı aqrar iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi yalnız intensiv geniş təkrar istehsal əsasında mümkündür [12].

Dövlət tənzimlənməsinin aqrar sahənin dayanıqlı inkişafına təsiri

Bazar iqtisadiyyatı şəraitində aqrar sahənin intensiv geniş təkrar istehsalı dövlət dəstəyi olmadan mümkün deyil. Ölkələrdə kənd təsərrüfatı nazirliyi dayanıqlı inkişaf çərçivəsində aqrar siyasət üzrə Proqramlar işləyib hazırlayırlar. Bu, dünya liderlərinin Dayanıqlı inkişafa dair 2002-ci ildə Yohannesburqda baş tutmuş Ümumdünya Sammitində qəbul etdikləri öhdəliklərə cavabın bir hissəsidir. Dayanıqlı inkişafda kənd təsərrüfatı üzrə siyasət dayanılı inkişafın məqsəd və prinsiplərinin kənd təsərrüfatı sektoruna daxil edilməsi prosesinin bir hissəsidir. Bu siyasət dayanıqlı inkişafın üç sütununun:sosial, ətraf mühit və iqtisadi sahənin inteqrasiyası və ahəngdarlığına istiqamətlənir. Üç sütun konsepsiyası dayanıqlılığın üç əsas komponent və ya sütun üzərində dayandığını iddia edir və bu konsepsiyaya görə, tam dayanıqlılığa nail olmaq üçün hər üç komponent üzrə ayrılıqda dayanıqlılıq təmin edilməlidir [4]. Bu konsepsiyanın məqsədi sosial sorumlu iqtisadi inkişafın təmin edilməsi və eyni zamanda gələcək nəsillərin rifahı üçün resurs bazasının və ətraf mühitin mühafizəsi olmalıdır. Siyasət hökumətin, fermerlərin və ətraf mühitin müdafiəçilərinin ümumi məqsədlərini, habelə bütün maraqlı tərəflər üçün dayanıqlı inkişafa nail olmaq üçün bir yerdə işləməyin zəruriliyini qəbul edir . Bu siyasətin uğuru fermerlərə və bütün tərəflərə dəstəyin,

yəni aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin səmərəliliyindən asılı olacaqdır.

Azərbaycan kənd təsərrüfatının dayanıqlı inkişafı sahəsində məqsədyönlü dövlət siyasətini həyata keçirir. Dövlətin bu istiqamətdə aqrar siyasəti və tənzimləmə tədbirləri müvafiq qanunvericilik təşəbbüsləri və dövlət proqramları vasitəsilə reallaşdırılır. Dövlət dəstəyi tədbirləri milli ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi, emal müəssisələrin modernizasiyası, logistik infrastrukturun inkişaf etdirilməsinə, kənd ərazilərinin inkişafına istiqamətlənir [13].

Son illərdə ölkədə kənd təsərrüfaının dayanıqlı inkişafına yönəlmiş dövlət proqramları qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramları, o cümlədən: “Azərbaycan Respublikasında 2012-2020-ci illərdə üzümçülüyün inkişafına dair Dövlət Proqramı”, “Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi”, “Azərbaycan Respublikasında 2017-2022-ci illərdə pambıqçılığın inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında 2018-2025 -ci illərdə ipəkçiliyin inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında 2018-2025-ci illərdə çəltik istehsalının inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında 2018-2027-ci illərdə çay istehsalının inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında 2018-2025-ci illərdə sitrus meyvələrinin yetişdirilməsinə dair Dövlət Proqramı”.

“Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli Fərmanına əsasən, kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, texnikanın və damazlıq heyvanların lizinq vasitəsilə güzəştli satışı mexanizminin təkmilləşdirilməsi, özəl aqrotexniki xidmətlərin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı prinsipi tətbiq edilməklə güzəştlərə yönəldilən büdcə vəsaitindən səmərəli istifadə məqsədilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası” təsdiq edilmişdir. Bu isə öz növbəsində maliyyə vəsaitlərinin kənd təsərrüfatının dayanıqlı inkişafı istiqamətində yönləndirilməsində mənbə rolunu oynamışdır [5].

Bundan başqa, ölkədə aqrar sahənin subsidiyalaşdırılmasının qanunvericilik bazası formalaşmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2019-cu ildə imzaladığı “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Fərmanla subsidiyaların fermerlərə vahid mexanizm vasitəsilə çatdırılması müəyyən olunmuşdur. Fərmana əsasən kənd təsərrüfatında dövlət tərəfindən aşağıdakı güzəştlər tətbiq edilməyə başlanmışdır:

- Ölkə iqtisadiyyatında aqrar sahədə əmtəə istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olmuşlar;
- Kənd təsərrüfatının istehsal infrastrukturunun bərpası və genişləndirilməsinə investisiyaların dövlət tərəfindən maliyyələşdirilməsi. Bu məqsədlə kənd təsərrüfatı məhsullarının istehsalında və emalında istifadə olunan istehsal vasitələrinin ölkəyə gətirilməsinə görə gömrük güzəştləri tətbiq edilir;
- Kənd təsərrüfatı əmtəə istehsalçılarına bitkiçilikdə əkin subsidiyası, məhsul subsidiyası, toxum subsidiyası verilir, heyvandarlıqda heyvan subsidiyası, arı subsidiyası, barama subsidiyası verilir [2];
- Kənd təsərrüfarı istehsalçılarına güzəştli kreditlərin vetilməsi və Sahibkarlığa dəstək Milli Fondunun və kənd təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyinin hesabına verilən güzəştli kreditlər;
- Kənd təsərrüfatı əmtəə istehsalçılarına lizinq şirkəti tərəfindən satılan kənd təsərrüfatı maşınları, texnika və avadanlığın dəyərinin 40 %-i büdcədən ödənilir və onlara lizinq yolu ilə satılır, kənd təsərrüfatı istehsalçılarının istifadə etdikləri yanacağın dəyərinin 50 %-i subsidiyalaşdırılır;
- Aqrar sahənin sığortalanması üzrə hesablanan sığorta haqlarının 50 %-ni dövlət ödəyir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal və emal edilməsi üçün dövlət tərəfindən həyata keçirilən bu güzəşt tədbirləri ərzaq təhlükəsizliyinin təmin olunmasına, iqtisadiyyatın diversifikasiyasına, rəqabətqabiliyyətli və ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsinin möhkəmlənməsinə gətirib çıxarmışdır.

Bu proqramların reallaşdırılması nəticəsində aqrar sahənin inkişafında bir sıra uğurlu nəticələr əldə edilmişdir. Əhalinin qida məhsullarına olan tələbatının ödənilməsində yerli istehsalın xüsusi çəkisi artmışdır, ixraca yönəlmiş kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır, kənd əhalisinin məşğulluq səviyyəsi artmış və regionlarda yoxsulluğun səviyyəsi aşağı salınmışdır.

Azərbaycanda dayanıqlı inkişaf meyillərinin təhlili

Yuxarıda qeyd etdiyimiz kimi, dayanıqlı inkişafın üç əsas ölçüsü vardır: iqtisadi artım, sosial bərabərlik və ətraf mühitin mühafizəsi. İqtisadi artımın əsasında elə bir prinsip durur ki, ona uyğun olaraq cəmiyyətin rifahı təbii resurslardan optimal və səmərəli istifadə hesabına maksimallaşdırılmalıdır, kasıblıq isə aradan qaldırılmalıdır. Sosial aspekt insanlar və təbiət arasında münasibətlərə, insanların rifahının yüksəldilməsinə, səhiyyənin və təhsilin baza xidmətlərinin əlçatan olmasının yaxşılaşdırılmasına, ərzaq təhlükəsizliyinə və insan hüquqlarının gözlənilməsinə olan tələbatların ödənilməsinə aiddir.

Aşağıda bu meyarlar baxımından Azərbaycanda dayanıqlı inkişaf meyilləri təhlil olunmuşdur.

Cədvəl 1.

Azərbaycan Respublikasında 2021-2023-cü illərdə əldə olunmuş iqtisadi inkişaf göstəriciləri

Göstəricilər	2021	2022	2023	2023-cü ilin 2021-ci ilə nisbəti
ÜDM, mln. man, o cümlədən	93203,2	133972,7	123005,5	132
Sənaye	39956,6	68732,6	49759,2	125
Kənd təsərrüfatının ümumi məhsulu, mln. man	5336,8	6179,1	6815,6	128
Orta aylıq nominal əməkhaqqı, manat, o cümlədən	732,1	840,0	933,9	128
Kənd təsərrüfatında çalışanların	456,9	514,8	558,7	122
Əhalinin sayı, min nəfər	10026,1	10063,3	10127,1	101
İşçi qüvvəsinin sayı, min nəfər	5141,6	5194,4	5249,7	102
Məşğul əhalinin sayı, min nəfər	4831,1	4901,1	4963,3	103
İşsizlərin sayı, min nəfər	310,5	293,3	286,4	92
Məşğulluq səviyyəsi, %	93, 9	94,3	94,5	101
İşsizlik səviyyəsi, %	6,1	5,7	5,5	90

Mənbə: https://www.stat.gov.az/source/agriculture/ [14]

Cədvəldən göründüyü kimi, ÜDM həcmi 2023-cü ildə 2021-ci ilə nisbətən 32 faiz artmışdır, o cümlədən kənd təsərrüfatı məhsulunun həcmi 28 faiz artmışdır. Ölkə üzrə muzdla işləyənlərin orta nominal əməkhaqqı 28 faiz, o cümlədən kənd təsərrüfaında çalışanların orta aylıq nominal əməkhaqqı 22 faiz artmışdır. Tədqiqat apardığımız dövrdə məşğulluq səviyyəsi 1 faiz artmış, işsizlik səviyyəsi isə 10 faiz azalmışdır.

Cədvəldən göründüyü kimi, əsas növ ərzaq məhsullarının istehlakı normaya yaxın və ya ondan artıq olmuşdur. Bu, dolayısı da olsa əhalinin rifahının məqbul səviyyədə olmasından xəbər verir.

Cədvəl 2.

Azərbaycanda 2021-2023-cü illərdə əsas ərzaq məhsullarının istehlakı

Göstəricilər	Orta hesabla bütün əhalinin hər nəfəri üçün illik istehlak normaları, kq	Adambaşına əsas növ heyvandarlıq məhsullarının istehlakı, kq		
		2021	2022	2023
Çörək və çörək məhsulları (una çevirməklə)	126,2	126,2	122,50	116,6
Kartof	50,6	84,2	91,3	83,9
Tərəvəz və bostan məhsulları	96,7	176,4	177,8	175,1
Meyvə və giləmeyvə	45,5	83,7	79,9	69,6
Ət və ət məhsulları	31,5	41,2	42,1	43,5
Süd və süd məhsulları (südə çevirməklə)	232,1	253,3	259,3	258,8
Balıq və balıq məhsulları	7,7	7,4	7,6	8,0
Yumurta, ədəd	152	170	179,0	189
Şəkər və qənnadı məmulatları (şəkərə çevirməklə)	17,4	31,1	30,8	29
Bitki yağları, marqarin və digər piylər	9,8	13,5	13,3	12, 3
Kərə yağı	6,7	3,8	4,0	3,9

Mənbə: https://www.stat.gov.az/source/agriculture/[14]

Nəticə

Yuxarıda qeyd etdiyimiz kimi, dayanıqlı inkişaf elə bir sosial-iqtisadi inkişafdır ki, onun nəticəsində indiki nəsillərin həyat səviyyəsi yüksəlir, lakin bu, gələcək nəsillərin yaxşı həyat imkanlarını əlindən almır. Dayanıqlı inkişafda, aclıq və yoxsulluğun aradan qaldırılmasında aqrar sahə həlledici rol oynayır. Aqrar sahənin dayanıqlı inkişafda rastlaşdığı problemlər maddi baxımdan təminatlı, sosial baxımdan ədalətli və ekoloji baxımdan dayanıqlı olan, yalnız artım deyil, insanların tələbatlarının ödənilməsi, resursların bölgüsünün və istifadəsinin ədalətliliyi ilə motivləşən bir cəmiyyətin yaradılması üsullarının işlənib hazırlanmasından ibarətdir.

Dünya iqtisadiyyatının dayanıqlı inkişafının son illərdəki dövrünü əhatə etdiyi və geniş yayılmış kənd təsərrüfatının davamlı və dayanıqlı inkişaf konsepsiyasıdır. İqtisadi təhlükəsizliyin təmin olunmasının ilkin şərtlərindən biri məhz kənd təsərrüfatının dayanıqlılığına nail olmaqla ərzaq təhlükəsizliyini təmin etməkdən ibarətdir. Deyilənlərin əsasında sahənin maliyyə resursları ilə təmin edilməsi mexanizminin formalaşdırılması durur. Mövcud iqtisadi sistemdə aqrar sahənin maliyyə resursları və mənbələri ilə təmin edilməsində dövlət büdcəsi vəsaitlərinin rolu və o vəsaitlərin dayanıqlı inkişaf prinsipləri istiqamətində yönləndirilməsi vacib şərtdir. Bütün bunlarla yanaşı, bu sahənin inkişafı istiqamətində qəbul olunmuş dövlət proqramları, verilmiş güzəştli kreditlər, subsidiyalar və digər göstərilən xidmətlər də xüsusi əhəmiyyət kəsb edir.

Son illərdə Azərbaycan kənd təsərrüfatının dayanıqlı inkişafı sahəsində məqsədyönlü dövlət siyasətini həyata keçirir. Dövlətin bu istiqamətdə aqrar siyasəti və tənzimləmə tədbirləri müvafiq qanunvericilik təşəbbüsləri və dövlət proqramları vasitəsilə reallaşdırılır. Dövlət dəstəyi tədbirləri milli ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi, emal müəssisələrinin modernizasiyası, logistik infrastrukturun inkişaf etdirilməsinə, kənd ərazilərinin inkişafına istiqamətlənir.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.

2. "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmanı, Bakı şəhəri, 27 iyun 2019-cu il № 759
3. Итоги конференции «Рио+20»: новые возможности Архивная копия от 11 октября 2014 на Wayback Machine
4. F.F. Fikrətzadə, P.F.Əliyev.Azərbaycan Respublikasında Aqrar sahənin dayanıqlı inkişaf prinsipləri baxımından tənzimlənməsi, Agricultural Economics (2022), № 3 (41)
5. T.T.Məmmədzadə. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının davamlı inkişafının maliyyələşməsi mexanizmləri, Agricultural Economics, 2022, № 4 (42)\
6. E. Stephens, G. Martin, M. Van Wijk, J. Timsina, V. Snow, Impacts of COVID-19 on agricultural and food systems worldwide and on progress to the sustainable development goals. Agricultural systems, 183, 102873 (2020)
7. R. Birner, T. Daum, C. Pray, Who drives the digital revolution in agriculture? A review of supply-side trends, players and challenges, Applied Economic Perspectives and Policy, 43(4), 1260-1285 (2021)
8. Sustainable Development in the Community Agricultural Policy – The Commission's View Nelly Bandarra Rural Development Directorate (F), European Commission, DG for Agriculture
9. Azadi, S. Moghaddam, S. Burkart, H. Mahmoudi, S. Van Passel, A. Kurban, D. Lopez-Carr, Rethinking resilient agriculture: From climate-smart agriculture to vulnerable-smart agriculture, Journal of Cleaner Production, 319, 128602 (2021)
10. L. Kuhl, Technology transfer and adoption for smallholder climate change adaptation: opportunities and challenges. Climate and Development, 12(4), 353-368 (2020)].
11. M. Sarker, M. Wu, G. Alam, M. Islam, Role of climate smart agriculture in promoting sustainable agriculture: a systematic literature review. International Journal of Agricultural Resources, Governance and Ecology, 15(4), 323-337 (2019)
12. А.И. Колобова, А.С. Кудашкин УСТОЙЧИВОЕ РАЗВИТИЕ АГРАРНОЙ ЭКОНОМИКИ Вестник Алтайского государственного аграрного университета № 9 (95), 2012 1
13. **Осинина, А. Ю.** Аграрная политика азербайджанской республики: основные тенденции и перспективы / А. Ю. Осинина. – DOI 10.33305/189-76. – Текст : непосредственный // АПК: Экономика, управление. – 2018. – № 9. – (Конкурс молодых авторов). – С. 76-84.
14. https://www.stat.gov.az/source/agriculture/

Бабаева Самая Октай
Азербайджанский Государственный
Аграрный Университет, старший преподаватель
nihat-020@mail.ru

The ımpact of state regulatıon of the agrarıan sector on the sustaınable development of the agrarıan economy

Summary

The purpose of the research - It consists of revealing the impact of agricultural regulation on the sustainable development of the agricultural economy.

The methodology of the research - This study examined economic literature on sustainable economic development, the sustainability of the agrarian economy, and state documents related to state regulation of the agrarian sector. The study analyzed the development trends of the country's economy and the agrarian sector. It also assessed agrarian policy in Azerbaijan in terms of sustainable development principles. In the research process were used monograph, abstract-

logical, analysis and evaluation methods .

The practical importance of the research - Modern trends in the development of society and the economy are based on the concept of sustainable development. The article discusses the importance of the agricultural sector in the implementation of the concept of sustainable development. The development of the agricultural sector becomes more sustainable and continuous as a result of state support.

The results of the research - The study revealed the impact of state regulation of the agricultural sector on the sustainable development of the agricultural economy. The essence of this issue was revealed using the example of Azerbaijan.

The scientific novelty of research - The novelty of this study lies in the fact that despite the broad and comprehensive discussion of the concept of sustainable development in economic literature and scientific works, sustainable development in this context is considered for the first time.

Keywords: sustainable development, agricultural sector, environmental sustainability, economic sustainability, social sustainability, government regulation

Samaya Ogtay Babayeva
Azerbaijan State Agrarian University,
Senior Lecturer
nihat-020@mail.ru

Влияние государственного регулирования аграрной отрасли на устойчивое развитие аграрной экономики

Резюме

Цель исследования - Состоит в выявлении влияния государственного регулирования аграрной отраси на устойчивое развитие аграрной экономики

Методология исследования - В этом исследовании была рассмотрена экономическая литература в которой рассматриваются вопросы устойчивого экономического развития, устойчивости аграрной экономики и государственные документы по государственному регулированию аграрного сектора экономики.В исследовании проанализированы тенденции развития экономики страны и аграрной отрасли. А также проведена оценка аграрной политики в Азербайджане с точки зрения устойчивого развития. В процессе исследования использовались монографический, абстрактно-логический, методы анализа и оценки.

Важность исследовательского приложения - Современные тенденции развития общества и экономики базируются на концепции устойчивого развития. В статье рассматривается значение аграрного сектора в реализации концепции устойчивого развития. В результате государственной поддержки развитие аграрного сектора приобретает более стабильную и устойчивую картину.

Результаты исследования - В результате исследования выявлено влияние государственного регулирования аграрной отрасли на устойчивое развитие аграрной экономики. Сущность этого вопроса выявлена на примере Азербайджана.

Научная новизна исследования - Новизна данного исследования состоит в том, что несмотря на широкое и всестороннее обсуждение концепции устойчивого развития в экономической литературе и научных работах устойчивое развитие в данном контексте рассматривается впервые.

Ключевые слова: устойчивое развитие, аграрная отрасль, экологическая устойчивость, экономическая устойчивость, социальная устойчивость, государственное регулирование.

UOT: 338.43, 338.436.3, 339.1

Anar Vidadi oğlu BAYRAMOV
Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı
e-mail: a.v.bayramov@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.080

KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ TƏDARÜK ZƏNCİRİNDƏ RƏQABƏT İNTENSİVLİYİNİN DƏYƏRLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – kənd təsərrüfatı məhsullarının tədarük zəncirində rəqabət intensivliyini dəyərləndirən göstəricilərin sistemli təhlilini və strukturlu təsnifatını aparmaqdır. Məqalə, bu göstəricilər əsasında dəyərləndirmə üçün yeni yanaşma təqdim edir.

Tədqiqatın metodologiyası – Tədqiqat işində müşahidə, müqayisə, statistik təhlil və sistemləşdirmə metodlarından istifadə edilmişdir. Müxtəlif metodoloji yanaşmalar və göstəricilər əsasında kənd təsərrüfatı sahəsində rəqabət intensivliyinin kompleks təsviri aparılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Məqalədə təqdim olunan sistematik yanaşma kənd təsərrüfatı məhsulları bazarında rəqabət şəraitinin dəyərləndirilməsi üzrə siyasətlərin hazırlanmasında və strateji qərarların qəbulunda faydalı ola bilər.

Tədqiqatın nəticələri – Araşdırma nəticəsində rəqabət intensivliyini xarakterizə edən 13 əsas göstərici müəyyənləşdirilmiş və 4 əsas meyar üzrə strukturlaşdırılmışdır. Bu yanaşma kənd təsərrüfatı tədarük zəncirində rəqabət intensivliyinin daha dəqiq qiymətləndirilməsinə imkan yaradır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Kənd təsərrüfatı məhsullarının tədarük zəncirində rəqabət intensivliyini sistematik şəkildə qiymətləndirmək üçün göstərilən göstəricilərin inteqrasiya olunmuş təsnifatı ilk dəfə olaraq təqdim edilmişdir.

Açar sözlər: rəqabət intensivliyi, Herfindahl-Hirschman indeksi, Panzar və Rosse modeli, Buno göstəricisi, təmərküzləşmə, tədarük zənciri.

Giriş

Aqrar sahə iqtisadiyyatın digər sektorları ilə müqayisədə rəqabətin spesifik cəhətləri ilə fərqlənir. Bu spesifik cəhətlər kənd təsərrüfatı məhsulları bazarının struktur xüsusiyyətləri, habelə həmin məhsulların tədarük zəncirinin də çoxpilləli olması ilə şərtlənir.

Bu baxımdan kənd təsərrüfatı tədarük zəncirinin müxtəlif vəsilələri (kənd təsərrüfatı üçün əsas resursların istehsalı və satışı, kənd təsərrüfatı istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və pərakəndə satış) üzrə rəqabət səviyyəsinin və rəqabətin vəziyyətinin qiymətləndirilməsinə müxtəlif metodoloji yanaşmalar irəli sürülür və müvafiq göstəricilər təklif olunur. Eyni zamanda, müxtəlif situasiyalarda əlverişli ölçmə üsullarının tətbiqi üçün qeyd edilən istiqamətdə meyarların, göstəricilərin sistemləşdirilməsi və strukturlaşdırılmasına ehtiyac yaranır.

Məqalədə kənd təsərrüfatı məhsullarının tədarük zəncirində rəqabət intensivliyini səciyyələndirən göstəricilərin sistemli təhlil edilməsi və müvafiq dəyərləndirmələr aparılması məqsədi qarşıya qoyulmuşdur.


Məqalə struktur baxımından 3 bölmədən ibarətdir. Birinci bölmədə rəqabət intensivliyi anlayışı kənd təsərrüfatı tədarük zənciri kontekstində təqdim olunur. İkinci bölmədə rəqabət intensivliyinin dəyərləndirilməsinin əhəmiyyəti açıqlanır. Üçüncü bölmədə isə rərabət intensivliyini səciyyələndirən göstəricilərin məzmunu şərh edilir və göstəricilərin müxtəlif meyarlar üzrə strukturlaşdırılması aparılır.

Kənd təsərrüfatı tədarük zəncirində rəqabət intensivliyi

Rəqabətin intensivliyi bir bazarda fəaliyyət göstərən subyektlərin və ya iştirakçıların bir-birilə nə qədər güclü rəqabət apardığını ifadə edir. Başqa sözlə, rəqabətdə iştirakçıların üzrləşdiyi təzyiqin dərəcəsini ifadə edir [11]. Bu anlayış bazar iqtisadiyyatında mühüm rol oynayır və bazarın

effektivliyini təyin edən əsas amillərdən biridir.

Kənd təsərrüfatı çoxpilləli tədarük zəncirinə malikdir. Tədarük zəncirinin əsas 4 vəsiləsi ayrılır: kənd təsərrüfatı üçün əsas resursların istehsalı və satışı, kənd təsərrüfatı istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və pərakəndə satış.



Qrafik 1. Kənd təsərrüfatı məhsulları üzrə dəyər zəncirinin vertikal vəsilələri

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir

Rəqabət həm tədarük zənciri boyunca (vəsilələr arası), həm də vəsilələr daxilində fəaliyyət göstərən ayrı-ayrı subyektlər arasında gedir. Bütün bunlar rəqabətin təbiətində mürəkkəbliklər yaradır və rəqabətin intensivliyinin dəyərləndirilməsi də xeyli çətinləşir. Ona görə də rəqabətin intensivliyini ölçmək üçün çoxsaylı göstəricilərə ehtiyac yaranır. Eyni zamanda, müxtəlif situasiyalarda fərqli ölçmə üsullarının tətbiqi üçün həmin meyarların, göstəricilərin sistemləşdirilməsi və strukturlaşdırılması ciddi əhəmiyyət kəsb edir.

Rəqabət intensivliyinin ölçülməsi bir neçə baxımdan əhəmiyyətlidir.

1) Rəqabət dərəcəsinin qiymətləndirilməsi bazar iştirakçılarına daha düzgün və optimal strategiya ilə fəaliyyət göstərmək imkanı açır.

2) Dövlət orqanları rəqabət mühitini qiymətləndirməsə, adekvat tədbirlər (tənzimləmə, müdaxilə və s.) görmək çətin olar. Digər tərəfdən, rəqabət şəraitini yaxşılaşdırmaq üçün dövlətin həyata keçirdiyi tədbirlərin effektivliyini qiymətləndirmək üçün də etibarlı ölçmə vasitələrinə ehtiyac yaranır.

3) Rəqabət intensivliyinin dəyərləndirilməsi qanunvericiliyin düzgün tətbiqi üçün vacibdir.

Rəqabət mühitini qiymətləndirmək üçün bir sıra metodologiyalar, yanaşmalar irəli sürülmüşdür. Bunların hər biri konkret situasiyaya uyğun şəkildə seçilib istifadə oluna bilər. Bir çox hallarda birdən çox ölçmə göstəricisi istifadə olunur və göstəricilər sintez olunaraq ümumi nəticə çıxarılır. Bu baxımdan rəqabətin intensivliyini qiymətləndirmək üçün çox müxtəlif göstəriciləri bilməkdə fayda var. [15]

Rəqabəti ölçmək üçün istifadə olunan mexanizmlər kifayət qədər mürəkkəbdir. Bu, rəqabət mühitinin özünün xarakteri ilə bağlıdır. Bu mənada rəqabət intensivliyinin ölçülməsi vasitələrinin düzgün seçilməsi önəmlidir.

Rəqabət intensivliyinin göstəriciləri həm elmi araşdırmaların predmetidir, həm də ölkələrin rəqabət qanunvericiliyində öz əksini tapır.

OECD-nin yanaşmasına görə, rəqabətin intensivliyini qiymətləndirmə zamanı çox sayda göstəricilərə arxalanmaq etibarlılıq baxımından önəmlidir. Çünki hər bir göstərici rəqabətin intensivliyi haqda məhdud məlumat verir, bir yerdə isə daha keyfiyyətli nəticələrə nail olmaq mümkündür. Bu baxımdan bir sıra göstəricilərin kombinasiyasından istifadə etmək lazım gəlir. [7]

Yuxarıda qeyd olunduğu kimi, dəyərləndirmə meyarları və göstəriciləri çoxdur. Müxtəlif mənbələrdə fərqli yanaşmalara rast gəlmək mümkündür.

Fərqli mənbələrdə olan yanaşmaları təhlil edən zaman o nəticəyə gəlirik ki, səmərəli nəticəyə varmaq üçün sistemli yanaşmanın tətbiqinə ehtiyac var. Yəni müxtəlif meyarlar üzrə göstəricilərin

strukturunun araşdırılması və qruplaşdırılması əhəmiyyət kəsb edir.

Bunun üçün əvvəlcə əsas göstəricilərin məzmunun izahı önəmlidir. Daha sonra isə göstəricilərin müxtəlif meyarlar üzrə sistemləşdirilməsinə baxacağıq.

Rəqabətin intensivliyini ölçmək üçün təmərküzləşmə səviyyəsini səciyyələndirən göstəricilər geniş istifadə olunur. Təcrübədə ən çox istifadə olunan təmərküzləşmə göstəricilərinə Təmərküzləşmə Əmsalı (Concentration ratio - CR) və Herfindahl-Hirschman İndeksi (HHİ) aiddir.

Təmərküzləşmə Əmsalı bazar subyektlərinin ölçüsünü müəyyən sahə bazarında pay nisbəti ilə ifadə edir. Sözügedən əmsal müəyyən sayda subyektin əlində cəmləşən bazar payının kəmiyyətini əks etdirir. Bu göstərici bazar payının nə dərəcədə əsas oyunçuların “əlində” cəmləşdiyini göstərir. Təmərküzləşmə əmsalının artması həmin oyunçuların bazar gücünü, sövdələşmə gücünü xeyli artırır. Bundan başqa, onlar miqyasa görə səmərəliliklərini artırırlar (maya dəyəri aşağı düşür və s.), bu da kiçik oyunçuların bazarda rəqabət aparmasını çətinləşdirir.

Rəqabət qanunvericiliyində təmərküzləşmə əmsalı bazar subyektlərinin bazarda hökmran mövqe tutmasının dəyərləndirilməsində meyar kimi istifadə olunur. Belə ki, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə görə 50 faiz və daha çox bazar payına malik olan bir təsərrüfat subyekti hökmran mövqe tutmuş hesab edilir. Bununla yanaşı, ölkəmizin Rəqabət Məcəlləsinə əsasən, müvafiq bazarda hərəkətləri birbaşa və ya dolayı yolla birgə xarakter daşıyan, hər biri 10 faizdən çox bazar payına malik olan 2 (iki) və daha çox təsərrüfat subyekti (ən çox paya malik olanlar əsas götürülməklə) aşağıdakı hallarda birgə hökmran mövqe tutmuş hesab edilirlər:

- iki və ya üç təsərrüfat subyektinin birgə bazar payı 50 faizdən çox olduqda;
- dörd və ya beş təsərrüfat subyektinin birgə bazar payı 70 faizdən çox olduqda. (maddə 15) [10]

Almaniyanın Rəqabət Qanununda (Gesetz gegen Wettbewerbsbeschränkungen - GWB) bazar hökmranlığı və təmərküzləşməyə qarşı ciddi tənzimləmə tədbirləri mövcuddur. Məsələn, bazarda rəqabətə ciddi təsir edən sahiblik və birləşmə halları tənzimlənir. Təmərküzləşmə səviyyəsi GWB-nin 18-ci bölməsində nəzərə alınan əsas göstəricilərdən biridir. [4]

Herfindahl-Hirschman İndeksi (HHİ) isə bazardakı oyunçuların bazar paylarının kvadratlarının cəmini hesablamaqla təmərküzləşməni ortaya çıxarır. Bazar payı 1 bazar subyektinin əlindədirsə, HHİ 10,000 olur (100%-in kvadratı) – Tam təmərküzləşmə, sıfır rəqabət. Dörd subyektin bazar payı müvafiq surətdə 40%, 25%, 20% və 15%-dirsə, bu halda HHİ-nin qiyməti 1600+625+400+225 = 2850 olur. Bazarın ən böyük oyunçularının bazar payları nə qədər kiçik olursa, o zaman HHİ göstəricisi o qədər kiçik olur və əlverişli rəqabət şəraitinin olmasına dəlalət edir. Bazarın tam inhisarlaşması halında HHI maksimum qiymət alaraq 10,000-ə çatır. ABŞ Ədliyyə Departamenti və Federal Ticarət Komissiyasının təlimatlarına uyğun olaraq, HHİ 2500-dən yuxarı olduqda bazar təmərküzləşməsi yüksək qiymətləndirilir. Göstəricinin qiyməti 1500-dən aşağı olan bazarlar “təmərküzləşməmiş” hesab edilir. [14]

Təmərküzləşmənin adekvat dəyərləndirilməsi bazarın xüsusiyyətinin və bu bazardakı bütün subyektlər barədə informasiyaların dəqiq bilinməsini tələb edir.

Bazarda rəqabətliliyin intensivliyini qiymətləndirərkən istifadə olunan göstəricilərdən biri də bazara giriş maneələridir. Bu göstərici bazarın yeni oyunçulara nə dərəcədə açıq olduğunu ifadə edir və subyektlərin bazara girişinin asanlıq dərəcəsini göstərir.

Bazara giriş baryerlərini qiymətləndirmək üçün ən çox istifadə olunan 3 göstərici aşağıdakılardır: 1) Giriş maliyyəti (giriş üçün tələb olunan ilkin xərclər və investisiya); 2) Miqyas effekti – Böyük miqyasda məhsul isthesal edən şirkətlər miqyasdan qazanırlar. Onlarda məhsul vahidinin maya dəyəri müqayisədə aşağı olur. Bu şəraitdə bazara yeni daxil olanlar üçün və daha aşağı həcm istehsal edənlər üçün rəqabət aparmaq xeyli çətin olur; 3) Dövlətin tənzimləmə maneələri. Buraya tələb olunan sertifikasiya, lisenziyalar, dövlətin tələblərinə cavab vermə, maddi-texniki təminat tələbləri və s. daxildir. [15]

Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində bazara yeni iştirakçıların daxil olmasının qarşısını alan inhisarçı və ya rəqabəti məhdudlaşdıran davranışların qadağan edilməsi ilə bağlı

müddəalar yer alır.

Türkiyənin Rəqabət Qanunu bazara girişin məhdudlaşdırılmasını ciddi şəkildə qadağan edir. Məsələn, yeni oyunçuların bazara daxil olmasına mane olan qərarlar və təcrübələr qanunla qadağandır (Maddə 4 - Rəqabəti məhdudlaşdıran razılaşmalar və qərarlar). [18]

Bazara daxil olan və bazardan çıxan subyektlərin mütləq və nisbi kəmiyyətləri rəqabət intensivliyinin dinamik göstəricilərindən biri hesab olunur. Giriş normasını hesablamaq üçün il ərzində bazara daxil olmuş subyektlərin sayını bazarda fəaliyyət göstərən ümumi subyektlərin sayına bölmək lazımdır. Çıxış norması da eyni qaydada hesablanır. Giriş və çıxış normaları ayrılıqda rəqabət intensivliyinin dərəcəsi haqda məlumat vermir. Mütləq bunların səbəblərinə baxmaq və paralel olaraq digər meyarlardan da istifadə etmək zəruridir. Məsələn, bazara giriş norması yüksəkdirsə, ilk baxışda rəqabət intensivliyinin yüksək olması fikri yarana bilər, lakin bu halda bazarda hökmran mövqe tutan subyektlər bazarda qalmaqda davam edirlərsə, yeni daxil olan subyektlər, təbii ki, rəqabətə tab gətirə bilmirlər və bazarı tərk etməli olurlar.

Bazar subyektlərinin orta yaşı. Rəqabət intensivliyinin başqa bir dinamik göstəricisi də bazardakı mövcud subyektlərin orta yaşıdır. Bu göstərici bazardakı subyektlərin orta yaşının ildən-ilə dəyişməsini ifadə edir. Məsələn, bazarda 3 şirkət var: müvafiq olaraq 10, 5, 3 ildir ki fəaliyyət göstərirlər. Bu halda orta yaş 6 ildir. Əgər növbəti il dinamika olmasa (giriş və çıxış olmazsa), orta yaş 7 olacaq və orta yaşın dəyişməsi 1 olacaq. Orta yaşın dəyişmə göstəricisi 1-dən az olarsa, bu o deməkdir ki, bazarda cavan şirkətlərin payı çoxalır. Rəqabətin intensivliyi haqqında vəziyyəti öyrənmək üçün bu göstəricinin digər göstəricilərlə kombinasiyada istifadə olunması məqsədəuyğundur.

Bazar payının dinamikasında dəyişkənlik. Bazar subyektlərinin ildən-ilə bazar paylarının dəyişməsini ölçərək rəqabət intensivliyi haqda fikir əldə etmək mümkündür. Bazar paylarının dəyişkən olması həmin bazarda rəqabətlə bağlı ciddi problemlərin olmamasından xəbər verir. Amma, təbii ki, təkcə bir göstərici ilə rəqabət intensivliyi haqda fikir formalaşdırmaq doğru olmaz.

Mark-up bazar subyektlərinin tətbiq etdiyi ticarət əlavəsinin səviyyəsi ilə müəyyən olunur. Başqa sözlə, bu göstərici bazar subyektlərinin məhsul və ya xidmətin maya dəyərinin üzərinə nə qədər əlavə qoyduğunu ifadə edir. Qiymətin marjinal xərcləri üstələmək dərəcəsi bazar gücünün göstəricisi kimi çıxış edir. Mark-upın dəyişməsi Lerner indeksinin kəmiyyətinin dəyişilməsində öz əksini tapır.

Lerner indeksinin kəmiyyəti aşağıdakı düsturla hesablanır:

$$L= (P-MC)/P$$

Burada, P- məhsul vahidinin qiyməti, MC-marjinal xərclər. Əmsalın qiyməti 0 ilə 1 arasında dəyişir.

Rəqabət kəskinləşdikcə bazar subyektləri daha az ticarət əlavəsi (mark-up) tətbiq etmək məcburiyyətində qalırlar. Bu mənada rəqabət intensivliyinin statik göstəriciləri sırasında mark-up xüsusi əhəmiyyət kəsb edir

Rəqabət intensivliyinin başqa bir statik göstəricisi də bazar subyektlərinin mənfəət səviyyəsidir. Normal halda rəqabət şəraiti kəskinləşdikcə bazar subyektlərinin mənfəət qazanmaq imkanlarına təhdid yaranır. Təbii ki, bazar subyektlərinin yüksək mənfəətlə işləməsi təkcə rəqabət şəraiti ilə əlaqələndirilə bilməz. Subyektin biznes modelinin effektivliyi, əməliyyatların səmərəliliyi kimi amillər də mənfəətliliyə müsbət təsir göstərir. Bununla belə, rəqabət intensivliyinin dəyərləndirilməsində mənfəət də bir meyar kimi əhəmiyyətini saxlayır. İnhisarçıların bazar şərtlərini idarə edərək mənfəətlərini artırmağa çalışdıqları halları tənzimləmək üçün Rusiya rəqabət qanunu (2006-cı ildə qəbul edilmişdir) mənfəət dərəcələrinə nəzarət edir. Qanunun 6-cı maddəsi "müstəsna yüksək qiymətlər" anlayışını təsvir edir və inhisarçının süni qiymət artımını müəyyən edir. [8]

Panzar-Rosse modeli (H-statistika da adlanır) giriş resurslarının (input) qiymətlərinin bazar subyektinin gəlirlərinə ötürülməsini təsbit edir. Zəif ötürülmə qiymətqoymada bazar gücündən istifadəni göstərir. Ötürülmənin daha yüksək qiyməti isə rəqabətin böyük olduğuna işarə edir. H-statistika bazar subyektinin məcmu gəlirinin onun istehsal amillərinin qiymətlərinə görə elastiklik-

lərinin məcmusundan ibarət olur.

Mükəmməl rəqabət şəraitində giriş resurslarının qiymətləri və bazar subyektinin gəliri eyni faizlə artır, H- statistika 1-ə bərabər olur. Xalis inhisar bazarında H-statistika sıfra bərabərdir və ya mənfi qiymət alır. İstehsal amillərinin qiymətlərinin artması müəyyən şərtlərdə (məsələn tələb elastiklikliyi 1-dən böyük olduqda) ümumi gəlirin azalmasına gətirib çıxarır. H-statistika tarazlı inhisarçı rəqabət giriş üçün və ya oliqapoliya sövdələşməsi üçün təhlükə olmadıqda müsbət qiymət almır. İnhisarçı rəqabət şəraitində bazar subyekti üçün H-statistika göstəricisi 0-la 1 arasında dəyişir. [1]

Buno göstəricisi mənfəətin marjinal xərclərə görə elastikliyi kimi hesablanır. Buno göstəricisinin əsas ideyası kəskin rəqabət şəraitində səmərəli fəaliyyətli bazar subyektlərinin fəaliyyət səmərəliliyi aşağı olan subyektlərə nisbətən daha yüksək mənfəət əldə etməsidir. Bununla da yüksək rəqabətli bazarlarda mənfəətin xərclərə görə elastikliyi daha yüksək olur. Göstəricini rəqabətin ölçülməsi meyarı kimi təklif edən Bunonun fikrincə, giriş xərclərinin aşağı salınması və ya digər bazar subyektlərinə təzyiqlərin artırılması ilə bağlı rəqabətin güclənməsi mənfəətin fəaliyyət səmərəliliyi aşağı olan şirkətlərdən daha yüksək səmərliliklə işləyən şirkətlərə axını ilə əlaqədar olur. [3]

Müvafiq yönümlü araşdırmalarda və hesabatların hazırlanması zamanı elastiklik əmsalının kəmiyyəti kimi ekonomertik modeldə mənfəətin marjinal xərclərin dəyişilməsinə görə reqressiya əmsalının qiyməti götürülür.

Qiymət transmissiyası xammal qiymətlərində baş verən dəyişikliyin dəyər zənciri üzrə sonrakı mərhələnin məhsulunun qiymətinə və əksnə son məhsulun qiymətində dəyişikliyin əvvəlki mərhələlər üzrə qiymətlərə ötürülmə dərəcəsini göstərir. Qiymət transmissiyasının aşağı dərəcədə olması adətən bazarda rəqabətliliyin əlaməti kimi qəbul edilir.

Bir sıra hallarda rəqabət intensivliyi ilə bağlı vəziyyət müvafiq subyektlərin arasında keçirilən sorğular nəticəsində formalaşmış rəylərin əsasında qiymətləndirilə bilər. Bununla da intensivlik barədə dolayı da olsa nəticələr çıxarmaq olur.

Təcrübədə qeyd olunan sorğularda adətən aşağıdakı göstəricilər üzrə respondentlərin fikirləri öyrənilir və müvafiq şəkildə təhlil edilir.

- ətrafdakı alış-veriş səviyyəsi;
- digər məhsula keçid (əvəzetmə) səviyyəsi;
- istehlakçı şikayətləri;
- seçim dərəcəsi;
- bazar və ya sektorda məmnunluq və ya etibar səviyyəsi. [15]

Rəqabət intensivliyinin göstəriciləri 4 əsas meyar üzrə strukturlaşdırılır:

1. Rəqabət intensivliyini səciyyələndirmə **xarakterinə** görə

Bu meyara görə **statik** və **dinamik** göstəricilər ayrılır.

Statik göstəricilərə Təmərküzləşmə səviyyəsi, Herfindahl-Hirschman indeksi, Mark-up, Mənfəət, Qiymət transmissiyası, Panzar və Rosse modeli və Bazara giriş maneələri (baryerlər) aid edilir.

Dinamik göstəricilər rəqabətə davamlı dinamik proses kimi dəyərləndirilir. Bu yanaşmada əsas ideya ondan ibarətdir ki, bazar subyektlərinin rəqabət mübarizəsində səmərəliliyi və effektivliyi daha aşağı olan subyektlər zamanla daha güclülərlə əvəz olunmasına gedişini izləməyə imkan açır. Dinamik göstəricilərə Bazara giriş və çıxış göstəriciləri, Bazar subyektlərinin orta yaşı, Bazar payının dinamikasında dəyişkənlik və Buno göstəricisi aid edilir.

2. Rəqabət intensivliyini səciyyələndirən keyfiyyət əlamətinə görə

Bu meyara görə struktur, effektivlik, subyektiv dəyərləndirmə göstəriciləri ayrılır.

Struktur göstəricilərə Təmərküzləşmə səviyyəsi, Herfindahl-Hirschman indeksi, Bazara giriş maneələri (baryerlər), Bazara giriş və çıxış göstəriciləri, Bazar subyektlərinin orta yaşı və Bazar payının dinamikasında dəyişkənlik aid edilir.

Effektivlik göstəricilərinə Mark-up, Mənfəət, Qiymət transmissiyası, Panzar və Rosse modeli

və Buno göstəricisi aiddir.

Subyektiv dəyərləndirmə - sorğu əsasında iqtisadi subyektlərin rəqabət intensivliyinə dair fikirlərindən formalaşır. Buraya daxildir: Bizneslər arasında sorğu əsasında dəyərləndirmə və İstehlakçı sorğuları əsasında dəyərləndirmə.

3. Rəqabət intensivliyini səciyyələndirmə formasına görə

Bu meyar üzrə birbaşa və dolayı göstəricilər ayrılır.

Birbaşa göstəricilərə Mark-up və Bazara giriş maneələri (baryerlər) aiddir.

Dolayı göstəricilərə isə Təmərküzləşmə səviyyəsi, Herfindahl-Hirschman indeksi, Mənfəət, Qiymət transmissiyası, Panzar və Rosse modeli, Buno göstəricisi, Bazara giriş və çıxış göstəriciləri, Bazar subyektlərinin orta yaşı, Bazar payının dinamikasında dəyişkənlik və Sorğular aid edilir.

4. Rəqabət intensivliyinin əhatə dairəsinə görə

Bu meyar üzrə sahə daxilində subyektlərarası və sahələrarası rəqabət intensivliyi göstəriciləri ayrılır. “Sahələrarası” dedikdə kənd təsərrüfatı dəyər zənciri boyunca vəsilələrarası rəqabətdən söhbət gedir. Məsələn, supermarket bazarında (vəsiləsində) təmərküzləşmə olduğu halda bazar oyunçuları (supermarketlər) digər vəsilə iştirakçılarına (kənd təsərrüfatı fermerləri, aqrar emal müəssisələri və s.) qarşı bazar güclərindən və sövdələşmə güclərindən istifadə edə bilirlər.

Sahə daxilində subyektlərarası rəqabət intensivliyinin göstəricilərinə Mark-up, Mənfəət, Buno göstəricisi, Bazara giriş maneələri (baryerlər), Bazara giriş və çıxış göstəriciləri, Bazar subyektlərinin orta yaşı və Bazar payının dinamikasında dəyişkənlik daxildir.

Sahələrarası rəqabət intensivliyinin göstəricilərinə isə Təmərküzləşmə səviyyəsi, Herfindahl-Hirschman indeksi, Qiymət transmissiyası və Panzar və Rosse modeli aiddir.

Aşağıdakı cədvəldə rəqabət intensivliyinin əsas göstəriciləri (13 göstərici) müxtəlif meyarlar üzrə qruplaşdırılmışdır.

Cədvəl 1.

Rəqabət intensivliyi göstəricilərinin sturukturlaşdırılması

	Rəqabət intensivliyini səciyyələndirmə xarakterinə görə		Rəqabət intensivliyini səciyyələndirən keyfiyyət əlamətinə görə			Rəqabət intensivliyini səciyyələndirmə formasına görə		Rəqabət intensivliyinin əhatə dairəsinə görə	
	Statik	Dinamik	Struktur	Effektivlik	Subyektiv dəyərləndirmə	Birbaşa	Dolayı	Subyektlərarası	Sahələrarası
Təmərküzləşmə səviyyəsi	X		X				X		X
Herfindahl-Hirschman indeksi	X		X				X		X
Mark-up	X			X		X		X	
Mənfəət	X			X			X	X	
Qiymət transmissiyası	X			X			X		X
Panzar və Rosse modeli	X			X			X		X
Buno göstəricisi		X		X			X	X	
Bazara giriş maneələri (baryerlər)	X		X			X		X	
Bazara giriş və çıxış göstəriciləri		X	X				X	X	
Bazar subyektlərinin orta yaşı		X	X				X	X	
Bazar payının dinamikasında dəyişkənlik		X	X				X	X	
Bizneslər arasında sorğu					X		X		
İstehlakçı sorğuları					X		X		

(Cədvəl müəllif tərəfindən hazırlanmışdır)

Cədvəldən göründüyü kimi, göstəricilər 4 qrupda ümumiləşdirilmiş müxtəlif meyarlar üzrə təsnifləşdirilmişdir. Məsələn, Buno göstəicisi Statik göstərici olmaqla yanaşı, bazar subyektlərinin effektivliyi (performansı) ilə bağlıdır. Bundan başqa, dolayı göstərici hesab olunur və bazar subyektləri arasındakı rəqabəti dəyərləndirmək üçündür. 13 göstəricinin hər biri eyni məntiqlə təsvir edilmişdir.

Ümumilikdə göstəricilərin çox olmasına baxmayaraq, kənd təsərrüfatı məhsullarının tədarük zəncirində rəqabət intensivliyini dəyərləndirmək üçün ən çox istifadə olunan göstəricilər bunlardır: Təmərküzləşmə səviyyəsi, Herfindahl-Hirschman indeksi, Mark-up, Mənfəət, Sorğular və Qiymət transmissiyası.

Nəticə

Rəqabət şəraitini səciyyələndirmək üçün birinci növbədə onun intensivliyini dəyərləndirmək önəmli rola malikdir. Bu məsələyə müxtəlif tərəflərdən yanaşmağa ehtiyac yaranır.

Rəqabət intensivliyini dəyərləndirmək üçün çox fərqli göstəricilərdən istifadə olunur.

Bu mənada müxtəlif meyarlar üzrə göstəricilərin təsnifatının aparılması, strukturlaşdırılması zəruridir. Rəqabət intensivliyinin dəyərləndirilməsinin mürəkkəb bir proses olduğunu nəzərə aldıqda sistemli yanaşmanın aktuallığı daha da artır.

Kənd təsərrüfatı məhsullarının tədarük zəncirində rəqabət mühitinin ayrıntılı dəyərləndirilməsi üçün sözügedən göstəricilərin kombinə olunmuş formada tətbiqi zəruridir.

Konkret halda istifadə olunan göstəricilərin sayı, habelə konkret məhsul bazarının dəyər zəncirinin arxitekturasından asılı olaraq seçilən rəqabət göstəricilərinin tərkibi fərqli olur. Bununla bağlı olaraq göstəricilərin tərkibinin səmərəli formalaşdırılması önəmli hesab edilməlidir.

ƏDƏBİYYAT

1. Assessing Competition with the Panzar-Rosse Model: The Role of Scale, Costs, and Equilibrium. Jacob A. Bikker,, Sherrill Shaffer, Laura Spierdijk September 2009
2. Boone Indicator By Country https://tradingeconomics.com/country-list/boone-indicator-wb-data.html
3. Boone, J. (2008), "A New Way to Measure Market Competition", The Economic Journal, Vol. 118/531, pp. 1245-1261.
4. Competition Act (Gesetz gegen Wettbewerbsbeschränkungen – GWB). Competition Act in the version published on 26 June 2013 (Bundesgesetzblatt (Federal Law Gazette) I, 2013
5. Competition in Canada from 2000 to 2020: An Economy at a Crossroads https://competition-bureau.canada.ca/how-we-foster-competition/education-and-outreach/competition-canada-2000-2020-economy-crossroads
6. European Central Bank Working Paper Series No 2253 / March 2019
7. Executive Summary of the Hearing on Methodologies to Measure Market Competition Annex to the Summary Record of the 135th meeting of the Competition Committee *11 June 2021*
8. FEDERAL LAW (Russia) NO. 135-FZ OF JULY 26, 2006 ON PROTECTION OF COMPETITION
9. https://www.concurrences.com/en/dictionary/lerner-index
10. https://e-qanun.az/framework/56187
11. https://www.wallstreetmojo.com/competitive-intensity/
12. IAN M. Sheldon (2017) The competitiveness of agricultural product and input markets: a review and synthesis of recent research Journal of Agricultural and Applied Economics, 49, 1 (2017): 1–44)
13. Jan De Loecker, Jan Eeckhout, Gabriel Unger The Rise of Market Power and the Macroeconomic Implications*The Quarterly Journal of Economics*, Volume 135, Issue 2, May 2020, Pages 561–644,https://academic.oup.com/qje/article/135/2/561/5714769

14. https://www.justice.gov/atr/herfindahl-hirschman-index
15. OECD (2021), *Methodologies to measure market competition, OECD Competition Committee Issues Paper,* https://oe.cd/mmmc
16. OECD - Market Concentration Issues paper by the Secretariat 6-8 June 2018
17. Saidova Dildora Nurmatovna, Ashurmetova Nigora Azatbekovna, Dexkanova Shakhlokhon Sagdiyevna, Mustafayev Sarvar Abdirozzokovich: Methods And Criteria For Measuring Competitiveness Of Agricultural Sector-- Palarch’s Journal Of Archaeology Of Egypt/Egyptology 17(6). ISSN 1567-214x
18. THE ACT ON THE PROTECTION OF COMPETITION (Turkey), Act No: 4054, Date of Adoption :7/12/1994

Анар Видади оглы Байрамов
Докторант Центра Аграрных Исследований

Оценка интенсивности конкуренции в цепочке поставок сельскохозяйственной продукции

Резюме

Цель исследования – Цель исследования заключается в систематическом анализе и классификации показателей, используемых для оценки интенсивности конкуренции в цепочке поставок сельскохозяйственной продукции. В статье представлен новый подход, основанный на этих показателях.

Методология – В исследовании использовались методы наблюдения, сравнения, статистического анализа и систематизации. Было проведено комплексное описание интенсивности конкуренции в сельскохозяйственном секторе с использованием различных методологических подходов и показателей.

Практическая значимость – Систематический подход, представленный в статье, может быть полезен для разработки политик и принятия стратегических решений при оценке конкурентной среды на рынках сельскохозяйственной продукции.

Результаты исследования – В результате исследования были определены 13 ключевых показателей, характеризующих интенсивность конкуренции, и структурированы по 4 основным критериям. Такой подход позволяет более точно оценить интенсивность конкуренции в цепочке поставок сельскохозяйственной продукции.

Оригинальность и научная новизна – Интегрированная классификация показателей для систематической оценки интенсивности конкуренции в цепочке поставок сельскохозяйственной продукции представлена впервые.

Ключевые слова: интенсивность конкуренции, индекс Херфиндаля-Хиршмана, модель Панзара и Росса, индекс Буно, концентрация, цепочка поставок.

Anar Vidadi Bayramov
Ph.D student of the Agricultural Research Center

Assessment of the competition intensity in the supply chain of agricultural products

Summary

Purpose of the research – The purpose of the study is to systematically analyze and classify the indicators used to evaluate the intensity of competition in the agricultural supply chain. The article presents a new approach based on these indicators.

Methodology – The study utilized methods such as observation, comparison, statistical

analysis, and systematization. A comprehensive description of competition intensity in the agricultural sector was conducted using various methodological approaches and indicators.

Practical significance – The systematic approach presented in the article can be useful for developing policies and strategic decisions to assess the competitive environment in agricultural product markets.

Results of the research – The study identified 13 key indicators characterizing competition intensity and structured them into 4 main criteria. This approach allows for a more accurate assessment of competition intensity in the agricultural supply chain.

Originality and scientific novelty – The integrated classification of indicators to systematically evaluate competition intensity in the agricultural supply chain is presented for the first time.

Key words: competitive intensity, Herfindahl-Hirschman index, Panzar and Rosse model, Buno's index, concentration, supply chain.

UOT 338

Mübariz Məmmədhüseyn oğlu BAĞIROV
Azərbaycan Dövlət İqtisad Universiteti
“Maliyyə və audit” kafedrası, professor, i.e.d.

Əli Rasim oğlu ABDULLAZADƏ
Azərbaycan Kooperasiya Universiteti
Doktorant
aliabdullayev894@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.089

QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNİN DÜNYA TƏCRÜBƏSİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycanın ərzaq istehsalının dayanıqlı inkişafını analiz etmək və rəqabət qabiliyyətini artırmaq üçün rəqəmsal texnologiyaların və dayanıqlı praktikaların tətbiqi imkanlarını müəyyənləşdirmək.

Tədqiqatın metodologiyası - ərzaq sahəsinin mövcud vəziyyətinin analizi, dayanıqlı inkişaf praktikalarının qiymətləndirilməsi, eləcə də klaster yanaşmasının tətbiqi və rəqəmsallaşma ilə bağlı xarici təcrübənin nümunələrindən istifadə olunmuşdur.

Tədqiqatın praktik əhəmiyyəti - nəticələr ərzaq istehsalı müəssisələri, dövlət orqanları və dayanıqlı inkişaf və innovasiyalar vasitəsilə istehsal proseslərini yaxşılaşdırmağa çalışan tədqiqatçılar üçün faydalı ola bilər.

Tədqiqatın nəticələri - rəqəmsal texnologiyaların və avtonomlaşmanın tətbiqinin xərclərin azaldılmasına, məhsulun keyfiyyətinin artırılmasına və təhlükəsizlik standartlarına riayət olunmasına kömək etdiyi müəyyən edilmişdir. Klaster yanaşması bazar iştirakçıları arasında əməkdaşlığı gücləndirə və davamlılığı artıra bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - bu tədqiqat dayanıqlı inkişaf üçün kompleks yanaşma təqdim edir, rəqəmsallaşmanın əhəmiyyətini vurğulayır və Azərbaycanın regional kontekstini nəzərə alaraq klaster yanaşmasının tətbiqi üçün yeni yollar təklif edir.

Açar sözlər: davamlı inkişaf, ərzaq sənayesi, rəqəmsal texnologiyalar, avtomatlaşdırma, məlumat analitikası.

Giriş

Azərbaycanın iqtisadi artımı üçün ərzaq sənayesində dayanıqlı istehsalın inkişaf etdirilməsi son dərəcə vacibdir. Bu, torpaq, su və enerji kimi təbii resursların ağıllı və balanslı istifadəsini, həmçinin işçilərin və istehlakçıların hüquqlarının qorunmasını əhatə edir. Bu sahədə müəssisələrin müvəffəqiyyəti, bazarda rəqabətqabiliyyətli qalmaq üçün iqtisadi cəhətdən effektiv olma qabiliyyətlərindən də asılıdır.

Azərbaycanda ərzaq sektorunda dayanıqlı inkişaf üçün yaxşı şərait mövcuddur. Birincisi, münbit torpaqların və kifayət qədər su resurslarının olması sayəsində ölkə kənd təsərrüfatını inkişaf etdirə və müxtəlif ərzaq məhsulları istehsal edə bilər. Bundan əlavə, inkişaf etmiş nəqliyyat şəbəkəsi məhsulların effektiv logistikasını və çatdırılmasını təmin edir ki, bu da bu sahə üçün əsasdır. Həmçinin, sağlam və ekoloji cəhətdən təmiz məhsullara olan marağın artması, dayanıqlı müəssisələrin formalaşması üçün əlavə imkanlar yaradır. Bununla belə, mövcud tədqiqatlar göstərir ki, Azərbaycanın ərzaq sahəsindəki istehsalların əksəriyyəti hələ də dayanıqlı inkişaf prinsiplərinə uyğun deyil.

Ərzaq sənayesinin dayanıqlı inkişaf yolları

Rusiyada iri ərzaq istehsalçıları dayanıqlı inkişafın təmin edilməsində bir sıra çətinliklərlə

üzləşirlər. Lakin ekoloji cəhətdən təmiz istehsal texnologiyalarına investisiya qoymaq uzunmüddətli perspektivdə əhəmiyyətli iqtisadi üstünlüklərə gətirib çıxara bilər. Məsələn, enerji qənaət edən sistemlərin tətbiqi və bərpa olunan enerji mənbələrinə keçid elektrik enerjisi və yanacaq xərclərini əhəmiyyətli dərəcədə azalda bilər. Həmçinin, işçilərin hüquqlarına riayət edilməsi kollektivdə münaqişələrin minimallaşmasına və əmək qanunvericiliyinin pozulması risklərinin azalmasına kömək edə bilər.

Azərbaycanda ərzaq şirkətlərinin dayanıqlı inkişafı məsələsi hələ də vacibdir və dayanıqlı istehsal metodlarının tətbiqi uzunmüddətli iqtisadi fayda verə bilər. Bununla belə, əksər müəssisələrin dayanıqlı inkişaf prinsiplərinə uyğunlaşa bilməsi üçün əlavə tədbirlər görülməlidir. Rəqəmsallaşma ərzaq sənayesində dayanıqlığı artırmaqda əhəmiyyətli təsir göstərir. Müasir rəqəmsal texnologiyaların istifadəsi iri şirkətlərə istehsal proseslərini optimallaşdırmağa, su və enerji resurslarına xərcləri azaltmağa, məhsulun keyfiyyətini artırmağa və təhlükəsizlik standartlarına riayət etməyə imkan tanıyır.

Rəqəmsal texnologiyaların tətbiqinə bir nümunə "ağıllı" sensorların istifadəsidir. Bu sensorlar istehsal proseslərini analiz edərək istehsal sahələrində temperatur və rütubət kimi parametrləri izləməyə, habelə hava və suyun vəziyyətini müayinə etməyə imkan tanıyır [7, s.140]. Bu, potensial problemlərin qarşısını almağa və istehsalın effektivliyini artırmağa kömək edir. Temperatur və rütubət kimi kritik parametrlərin avtomatlaşdırılmış monitorinqi, xüsusilə tez xarab olan məhsullarla bağlı saxlanma və emal sahələrində vacibdir. Məsələn, süd sənayesində, soyuducu kameralarında temperaturun dəqiq saxlanılması xammalın və hazır məhsulun çürüməsinin qarşısını alır, itkiləri azaldır və keyfiyyəti təmin edir. Çörəkçilikdə isə xəmirin fermentasiya prosesi zamanı rütubətin monitorinqi məhsulun strukturu və dad keyfiyyətlərinə təsir edir. Həmçinin, "ağıllı" sensorlar hava tərkibini analiz etmək, çirkləndirici maddələri aşkar etmək və işçi heyəti üçün təhlükəsiz iş şəraitini təmin etmək məqsədilə istifadə oluna bilər.

Məlumat analitikasının tətbiqi də qeyd edilməlidir; bu, ehtiyatların idarə edilməsini yaxşılaşdırmağa və istehsal proseslərini optimallaşdırmağa kömək edir ki, bu da resurs istehlakını azaltmağa və tullantıların həcmini minimuma endirməyə səbəb olur. Böyük məlumatların analizi şirkətlərə tələbi proqnozlaşdırmağa, təchizat zəncirlərini optimallaşdırmağa və xərcləri minimallaşdırmağa imkan tanıyır. Məsələn, satış məlumatlarını analiz edərək, bir şirkət müəyyən dövrlərdə hansı məhsullara daha çox tələbat olacağını proqnozlaşdıraraq istehsal həcmini və xammal satınalmalarını müvafiq olaraq planlaya bilər. Bu, məhsul artıqlarının yaranmasını və bununla bağlı itkiləri önləməyə, eləcə də tədarük çatışmazlığı risklərini azaltmağa imkan tanıyır. Məlumat analitikasından istifadə etməklə istehsal proseslərinin optimallaşdırılması avtomatik marşrut planlaması, avadanlığın idarə edilməsi və məhsulun keyfiyyətinin nəzarətini də əhatə edir.

Bundan əlavə, rəqəmsallaşma məhsulun həyat dövrünün analizini həyata keçirməyə imkan tanıyır ki, bu da istehsalın ətraf mühitə təsirini qiymətləndirməyə və təkmilləşdirmə sahələrini aşkar etməyə kömək edir. Həyat dövrünün analizi (LCA) xammalın çıxarılmasından istehsala, daşımadan istifadəyə və utilizasiyaya qədər bütün mərhələlərdə ekoloji təsirin qiymətləndirilməsini əhatə edir. Xüsusi proqram təminatı və verilənlər bazaları kimi rəqəmsal alətlər məlumatların toplanmasını, emalını və analizini asanlaşdıraraq şirkətlərə ən çox problem yaradan sahələri müəyyən etməyə və ətraf mühitə mənfi təsiri azaltmağa yönəlmiş strategiyalar inkişaf etdirməyə imkan tanıyır. Məsələn, LCA analizi müəyyən bir növ qablaşdırmanın istixana qazlarının emissiyasına əhəmiyyətli təsir etdiyini ortaya çıxara bilər. Bu halda, şirkət daha ekoloji cəhətdən təmiz qablaşdırma materiallarına keçməyi və ya daşınma xərclərini azaltmaq üçün logistikanı optimallaşdırmağı qərara ala bilər.

Rəqəmsal texnologiyaların tətbiqi istehsal proseslərinin şəffaflığını artırır və keyfiyyət və təhlükəsizlik standartlarının pozulması risklərini azaldır ki, bu da məhsulların mənşəyi və istehsal metodları ilə maraqlanan istehlakçılar üçün getdikcə daha vacibdir. Rəqəmsal alətlər məhsulun mənşəyi, istifadə olunan inqrediyentlər, istehsal mərhələləri və keyfiyyət sertifikatları haqqında məlumatları istehlakçılara təqdim etməyə imkan tanıyan izləmə və etiketləmə sistemləri kimi

fəaliyyət göstərir. Bu, brendə olan etibarı artırır və istehlakçıların loyallığını təmin edir. Məsələn, qablaşdırmada QR kodlarının istifadəsi istehlakçılara məhsul haqqında, o cümlədən xammalın istehsal edildiyi fermaya və ya keyfiyyət testlərinin aparıldığı laboratoriyaya dair ətraflı məlumat əldə etməyə imkan tanıyır. İstehsal proseslərinin şəffaflığı həmçinin şirkətlərin təhlükəsizlik standartlarına riayət etməsinə və mümkün problemlərə, məsələn, defektlərin aşkar edilməsi hallarında məhsulun geri çağırılmasına tez reaksiya vermələrinə kömək edir.

Biz hesab edirik ki, yerli ərzaq sektoru şirkətləri dayanıqlı istehsal fəaliyyətlərinin inkişafında xarici həmkarlarının təcrübəsini daha fəal mənimsəməlidirlər. Bu kontekstdə, başqa ölkələrdə tətbiq olunan klaster yanaşmasına diqqət yetirməyin məqsədəuyğun olduğunu düşünürük. Klaster, coğrafi olaraq bir-biri ilə əlaqəli şirkətlərin, ixtisaslaşmış təchizatçıların və müvafiq sahələrdə fəaliyyət göstərən təşkilatların mərkəzləşdiyi bir qrupdur ki, bunlar bir-biri ilə rəqabət aparsalar da, həm də əməkdaşlıq edirlər [9,s.152]. Klaster yanaşması müxtəlif bazar iştirakçılarının səylərini bir araya gətirərək bilik mübadiləsi, innovasiyalar və rəqabət qabiliyyətinin artırılmasına kömək edir.

Klasterlərin yaradılması prosesi üç mərhələyə bölünə bilər: hazırlıq, əsas və yekun mərhələ. Birinci mərhələ mobilizasiya, klasterin təşəbbüskarı olan işçi qrupunun formalaşmasını əhatə edir. Bu mərhələdə şərtlər, səbəblər və məhdudiyyətlər araşdırılır və izahedici, təşkilati tədbirlər həyata keçirilir. Birinci mərhələnin nəticəsi məhsul sahələrində rəqabətqabiliyyətli istiqamətlərin öyrənilməsi və bu sahələrdə aqro-sənaye klasterlərinin yaradılması ilə bağlı təkliflər olmalıdır. İşçi qrupu, adətən, biznes, elmi təşkilatlar, dövlət orqanları və cəmiyyətin nümayəndələrindən ibarətdir. Onun vəzifəsi klasterləşmə üçün potensial imkanları müəyyən etmək, bazardakı cari vəziyyəti analiz etmək və inkişafın prioritet istiqamətlərini müəyyən etməkdir. Klasterin potensial iştirakçılarının güclü və zəif tərəflərinin ətraflı analizi, eləcə də risklərin və imkanların qiymətləndirilməsi vacibdir.

İkinci mərhələdə klasterin formalaşması və fəaliyyət göstərməsi üçün lazım olan təşkilati, iqtisadi və hüquqi mexanizmlərlə bağlı məsələlər həll edilir. Bu dövrdə birgə fəaliyyət planı hazırlanır və klasterin idarəetmə orqanları, məsələn, Klaster Şurası və onun işçi qrupları yaradılır. İkinci mərhələ klasterin strategiyasının hazırlanmasını, iştirakçılar arasında qarşılıqlı əlaqə mexanizmlərinin müəyyənləşdirilməsini, idarəetmə sisteminin formalaşmasını və rolların bölüşdürülməsini əhatə edir. Klasterin məqsədlərini, effektivlik göstəricilərini və nəticələrin qiymətləndirilməsi mexanizmlərini müəyyən etmək vacibdir. Həmçinin, klasterin fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın, o cümlədən vergi, maliyyələşdirmə və intellektual mülkiyyətin qorunması ilə bağlı məsələlərin hazırlanması zəruridir. Klaster Şurası, adətən, əsas qərarları qəbul edən rəhbər orqandır. İşçi qrupları yeni məhsulların hazırlanması, məhsulun bazara təqdim edilməsi, işçilərin təhsili və s. kimi konkret məsələləri həll etmək üçün yaradılır. İkinci mərhələnin tamamlanması klasterin fəaliyyətini təşkil edən təşkilati, iqtisadi və normativ-hüquqi aspektləri özündə birləşdirən hazır klaster modelinin əldə edilməsi ilə nəticələnəcək.

Üçüncü mərhələ klasterin xarici mühitlə qarşılıqlı əlaqə mexanizmlərinin yaradılmasını əhatə edir, o cümlədən yerli hakimiyyət orqanları ilə. Bu mərhələdə klasterin nizamnaməsi qəbul edilir və iştirakçılar arasında razılaşmalar imzalanır. Üçüncü mərhələ klasterin dövlət orqanları, elmi təşkilatlar, maliyyə institutları və digər maraqlı tərəflərlə fəal qarşılıqlı əlaqəsini nəzərdə tutur. Yerli hakimiyyət orqanlarının klasterə dəstəyini təmin etmək, o cümlədən güzəştlərin, subsidiyaların və infrastrukturun təqdim edilməsi vacibdir. Həmçinin, klaster layihələrinin maliyyələşdirilməsi və investisiyaların cəlb edilməsi üçün mexanizmlərin müəyyən edilməsi də zəruridir. Başlanğıcda klasterlərin formalaşdırılması tədbirlərini təşkil etmək, informasiya-analitik iş aparmaq, tədqiqatları koordinasiya etmək və müvafiq normativ aktları hazırlamaqdan məsul olan kənd təsərrüfatı nazirliyində ixtisaslaşmış bölmələrin yaradılması məqsədəuyğun olardı. Bu bölmələr klasterlərin fəaliyyətini effektiv şəkildə koordinasiya etmək üçün kifayət qədər resurslara və kompetensiyalara malik olmalıdır.

Klasterlərin formalaşmasında dünya təcrübəsi

Dünya təcrübəsi göstərir ki, ərzaq klasterləri üçün universal model yoxdur. Bu, klasterin daha

mürəkkəb açıq sistem olması ilə əlaqədardır, çünki bu sistem daha mürəkkəb xarici mühitdə fəaliyyət göstərir. Lakin klaster modelləri arasındakı fərqliliklərə baxmayaraq, təşkilati struktur baxımından bəzi tipləri ayırd etmək mümkündür ki, bu da klaster iştirakçıları arasında qarşılıqlı münasibətlərin xarakterini və prinsiplərini müəyyən edir. Məsələn, ixraca yönəlmiş klasterlər və daxili bazara yönəlmiş klasterlər mövcuddur. Məqsəd və vəzifələrdən asılı olaraq, klasterlər iri müəssisə (ankraj klaster), elmi təşkilat və ya müəyyən bir məhsul növü ətrafında təşkil edilə bilər.

Müasir iqtisadi şəraitdə klaster inteqrasiyası perspektivli yanaşmalardan biridir. Bu proses, coğrafi cəhətdən ayrı iqtisadi subyektlər arasında dayanıqlı əlaqələrin yaradılmasını və qarşılıqlı əlaqələrinin dərinləşməsini əhatə edir. Klaster inteqrasiyası məhsulun rəqabət qabiliyyətini artırmağa, eləcə də gələcəkdə istehsal sahəsinin innovativ inkişafını və sabitliyini təmin etməyə kömək edir. Klasterləşmə Yaponiya, Fransa, Almaniya, ABŞ, eləcə də Finlandiya və Skandinaviya ölkələrinin iqtisadiyyatının təxminən 50%-ni əhatə edir. Klasterlərin formalaşdırılmasının əsas istiqaməti sənayedir, ərzaq sektoru isə daha az paya malikdir. Bəzi ölkələrdə ixraca yönəlmiş məhsulları olan klasterlərin yaradılması ilə bağlı müsbət təcrübə artıq mövcuddur. Məsələn, italyan modeli kiçik, orta və iri biznes arasında daha bərabərhüquqlu və çevik əməkdaşlıqla xarakterizə olunan ayaqqabı klasterinin yaradılmasına əsaslanır. Uğurlu ərzaq klasterləri xərclərin azaldılması, məhsulun keyfiyyətinin artırılması, innovasiyaların sürətləndirilməsi və bazarlara çıxışın genişlənməsi kimi əhəmiyyətli üstünlüklər nümayiş etdirir. Məsələn, pendir, şərab, ət məhsulları və digər ərzaq məhsullarının istehsalı üzrə ixtisaslaşmış klasterlər mövcuddur.

Finlandiya klaster prinsiplərinin tətbiqi baxımından uğurlu bir nümunədir. Ölkədə meşə sənayesi, informasiya, metallurgiya, enerji, biznes xidmətləri, səhiyyə, maşınqayırma, ərzaq və tikinti daxil olmaqla doqquz əsas klaster fəaliyyət göstərir.

Danimarkada aqrobiznes və ərzaq sənayesində klaster inkişafına maraqlı bir təcrübə nümayiş etdirilir. Hal-hazırda ölkənin bütün şirkətlərinin 40%-i 29 aparıcı klasterdə iştirak edir ki, bu klasterlər də bütün ixracın yarısından çoxunu təmin edir. Burada aqro-sənaye klasterləri, o cümlədən "süd vertikali" adlandırılan klasterlərin rəqabət qabiliyyətinin artırılmasında əhəmiyyətli rol oynayır. 90-cı illərin əvvəllərində Danimarka əhəmiyyətli dərəcədə ərzaq idxal edirdi, lakin aqro-sənaye klasterlərinin yaradılması ilə o, beynəlxalq bazarlara 60% kənd təsərrüfatı məhsulunu ixrac edən bir ölkəyə çevrildi [8,s.34].

Kaliforniya ABŞ-da ərzaq istehsalında aparıcı ştat halına gəldi. Burada əkinçilik şərab klasteri yaradılmışdır ki, bu da 250-ə yaxın şirkəti əhatə edir: avadanlıq təchizatçılarından kənd təsərrüfatı müəssisələrinə, şərab istehsalçılarına və qablaşdırmaya qədər. Bu klasterin bölgənin kənd təsərrüfatı istehsalındakı payı 14%-dir və o, 60 min dollar ortalama illik gəlirli 1,1 milyon insanı işlə təmin edir. Müstəqil Dövlətlər Birliyinin bəzi ölkələrində, məsələn, Qazaxıstan və Ukraynada da klaster siyasətinə marağın artdığı müşahidə olunur, xüsusən də aqro-sənaye sahəsində, dövlət və regional səviyyələrdə.

Azad bazar şəraitində dövlət müəssisələrin ölçüsünü birbaşa tənzimləyə bilmir, lakin ən effektiv təşkilati quruluş formalarının seçilməsinə təsir göstərə bilər. Lakin sərt rəqabət mühitində yalnız ən güclü şirkətlər uğurla mövcud ola bilir. Belə müəssisələrin əsas vəzifəsi öz imkanlarını genişləndirmək və inkişaf etməkdir. Belarus Respublikası təcrübəsi, müəssisələrin birləşməsinin və inteqrasiya olunmuş strukturların yaradılmasının ərzaq sənayesində, o cümlədən rəqabət qabiliyyətli təşkilatların formalaşmasına kömək etdiyini göstərir [5,s.6].

Müəssisələrin birləşməsi üçün əsas motivlər arasında aşağıdakılar qeyd olunmalıdır: 1) lazım olan resursların əldə edilməsi; 2) sinerji faydalarının əldə edilməsi; 3) miqyas təsirindən irəliləmələr.

Korporativ inteqrasiyanın formalarına gəldikdə, ərzaq sənayesində bir neçə növ holdinq təyin edilir.

Hüquqi holdinqlər. Horizontal holdinqlər eyni istehsal sahələrini əhatə edən şirkətlərin birləşməsidir. Bu cür birliklərin əsas məqsədi tədarük və satış sisteminin təşkilidir. Bu cür holdinqlər məhsulun daxili və xarici bazarlarda təqdim edilməsi üçün brend yaradan satış holdinqləridir.

Vertikal holdinqlər. Vertikal holdinqlər, ya da konsernlər, bir istehsal zəncirində fəaliyyət

göstərən müəssisələri birləşdirir. Bu holdinqlərə ərzaq istehsalı, kənd təsərrüfatı müəssisələri və satışla məşğul olan təşkilatlar daxildir. Məsələn, xammal istehsalçıları, emal edənlər və son məhsulu satan ticarət müəssisələrini birləşdirən aqro-sənaye kompleksləri buna nümunə ola bilər. Xarici təcrübəyə əsaslanan analizlər göstərir ki, tez-tez horizontal və vertikal inteqrasiyanın elementlərini birləşdirən kombinə edilmiş holdinqlər mövcuddur. Bu cür yanaşma, yalnız daha dayanıqlı olmaqla yanaşı, eyni zamanda dəyişikliklərə uyğunlaşma və təşkilati formaların optimallaşdırılmasını təmin edir.

Şaxələndirilmiş holdinqlər. Diversifikasiya edilmiş holdinqlər müxtəlif istehsal sahələrinin bir araya gəlməsidir ki, bunlar fərqli bazarlarda fəaliyyət göstərirlər. Bu cür holdinqlərin yaradılmasının əsas səbəbi yeni satış bazarlarına çıxmaq üçün məhsul və xidmət çeşidini artırmaq istəyidir.

Təşkilatlar holdinq strukturlarını müxtəlif yollarla formalaşdıra bilərlər. Bu, ya müəssisələrin ardıcıl birləşdirilməsi, ya da eyni sahədə fəaliyyət göstərən şirkətlər üzərində nəzarət əldə etməkdən ibarət ola bilər. Həmçinin, yeni şirkətlərin yaradılması və sonra onların qruplara daxil edilməsi mümkündür. Bu yanaşma böyük şirkətləri daha kiçik strukturlara bölməklə, yeni müəssisələrin effektiv işləmədiyi təqdirdə iqtisadi itkiləri minimuma endirməyə kömək edir. Bu, çoxsaylı qız şirkətlərin yaranmasına gətirib çıxarır.

Avtomatlaşdırma ərzaq istehsalında dayanıqlığı artırmaqda mühüm rol oynayır. Bu günə qədər o, ənənəvi konveyer lentləri və etiketləmə maşınlarından çox irəliləyib. Müasir texnologiyalar yalnız məhsulları qablaşdırmağa (bu əvvəllər əl ilə həyata keçirilirdi) deyil, həmçinin məhsulları keyfiyyət tələblərinə uyğun olaraq çeşidləməyə və seçməyə imkan verir. Robot-manipulyatorlar məhsulları hərəkət etdirməkdə yüksək koordinasiyaya malikdir və hər bir məhsul üçün fərdi qablaşdırma təmin edə bilirlər. Bu, dondurulmuş balıqlardan tutmuş ayrı-ayrı peçenyelərə qədər müxtəlif məhsullara aiddir. Belə robotların xüsusiyyəti onların qeyri-adi sürəti, çevikliyi və səhvlərin minimallaşdırılmasıdır ki, mütəxəssislərin qiymətləndirmələrinə görə, bu səhvlər cəmi bir milyonda bir təşkil edir.

Hantop [10] adlı çörək məhsulları istehsalı ilə məşğul olan müəssisədə istehsal edilən Delta robot-manipulyatorunun istifadəsi nümunəsinə nəzər salaq. Piroqlar xüsusi tuneldən keçir, burada kamera onların konveyer lentindəki mövqeyini izləyir və məlumatları elektron sistemə ötürür ki, bu da hər bir məhsulun yerini və meyl bucağını qeydə alır. Daha sonra proqram robotu məlumatlandırır ki, o, vakuum cihazı vasitəsilə piroqu yumşaq şəkildə tutmaq üçün "manipulyator əli" istifadə edir. Sonra robot hərəkət edir və piroqları qablaşdırma üçün yığınlar şəklində diqqətlə yerləşdirir. Əgər o, çox yaxın yerləşmiş piroq qrupuna rast gəlsə, "artıqlıq" olan məhsulları konveyerin üzərində ayrı bir qabda yerləşdirir ki, bu da piroqlar arasındakı məsafə artdıqda istifadə olunsun. Hantop istehsalında konveyer lentinin boyunca yayılmış dörd robot fəaliyyət göstərir [6,s.43]. Beləliklə, əgər bir cihaz bütün piroqları tutmağa yetişmirsə, bunu başqa bir cihaz edə bilər. Ümumi robot komandası dəqiqədə 400-dən çox piroq yığa bilir ki, bu da onların qısa və ya uzun sıralarda, eləcə də fərqli sütun saylarında təşkilini asanlaşdırır.

Belə tipli yığma xətləri yüksək çevikliyə malikdir və kəsilmiş pendir, kolbasa, eləcə də eyni ölçüdə sosiskalar və sardelka istehsalı üçün müxtəlif məhsulların qablaşdırılmasında istifadə oluna bilər. Bundan əlavə, robotlar məhsulun çeşidlənməsində də mühüm rol oynayır. Müasir maşın görmə texnologiyaları zədələnmiş məhsulların dəqiq müəyyənləşdirilməsini və onların keyfiyyətinin yoxlanılmasını təmin edir. Əslində, ərzaq məhsullarının qablaşdırılması bu yüksək sürətli avtomatlaşdırma sistemləri olmadan da həyata keçirilə bilər, lakin robotların əsas üstünlüyü onların sürətli və keyfiyyətli qablaşdırma həyata keçirmək qabiliyyətidir. Məsələn, onlar bütün kolbasa parçalarını qablaşdırmada bərabər məsafə ilə yerləşdirməyə qadirdirlər. Bu xüsusiyyətlər məhsulun rəqabət qabiliyyətini artırmaq və nəticədə biznesin dayanıqlı inkişafı üçün həlledici əhəmiyyət kəsb edir.

Məlumatların axtarılması və analizi sistemlərinin inteqrasiyası istehsalda səmərəli idarəetmə üçün mühüm aspekt halına gəlir. İstehsalat proseslərinin müxtəlif mərhələlərini və avadanlığın

vəziyyətini başa düşmək, məntiqli idarəetmə qərarları qəbul etmək üçün kritik əhəmiyyət kəsb edir ki, bu da risklərin minimallaşdırılmasına, zəif yerlərin aşkar edilməsinə və açılmamış ehtiyatların müəyyən edilməsinə imkan tanıyır. Buna görə də, ərzaq sahəsində müxtəlif sensorlar və monitorinq sistemləri aktiv şəkildə tətbiq edilir ki, bu da istehsal proseslərinin nəzarətini əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Bu sahənin inkişaf perspektivləri qabaqcıl böyük məlumat analizi alətlərinin intensiv istifadəsi ilə ayrılmaz şəkildə bağlıdır. Şirkətlər daxilində rəqəmsal aktivlərin birləşməsi, proqram təminatı və müxtəlif avadanlıqlar arasında mürəkkəb qarşılıqlı əlaqə sistemini təmin edən ağıllı istehsal dövrlərinin formalaşmasına yol açır. Gələcəkdə informasiya platformalarının inteqrasiyası, ərzaq istehsalında xammalın çıxarılması mərhələsindən başlayaraq, dəyər yaradılması dövrünün tam monitorinqini həyata keçirən birləşdirilmiş avtomatlaşdırılmış sistemin yaranmasına gətirib çıxara bilər [4,s.76]. Qida satış yerlərində məlumatların toplanması və analizi etibarlı xammal təchizatçılarını müəyyən etməyə və istehsalın məhsuldarlığını proqnozlaşdırmağa imkan verəcək ki, bu da geniş çeşidli məhsul istehsalının həcmini proqnozlaşdırmağa şərait yaradacaq. Belə bir qarşılıqlı əlaqə, regional inkişafın spesifikasını nəzərə alaraq bazar iştirakçıları arasında sabit münasibətlərin möhkəmlənməsi üçün kritik əhəmiyyət kəsb edir və ərazi yaxınlığı sayəsində əlavə təşkilati üstünlüklərin əldə edilməsinə kömək edir.

Nəticə

Nəticə olaraq, qeyd etmək lazımdır ki, ərzaq sənayesi müasir texnoloji həlləri tətbiq edərək davamlı inkişaf istiqamətində əmin addımlar atır. Bu transformasiyalar iqtisadi səmərəliliyin, sosial məsuliyyətin və ekoloji davamlılığın əhəmiyyətli dərəcədə artmasına səbəb olur. Rəqəmsal alətlərin və avtomatlaşdırılmış sistemlərin tətbiqi istehsal proseslərini optimallaşdırır, enerji resursları və su istehlakını azaldır, məhsulun keyfiyyətini artırır və təhlükəsiz qida məhsulları üçün sərt standartlara uyğunluğu təmin edir.

Bir çox müəssisə artıq alternativ enerji mənbələrinə keçid edir, karbon izini azaltmağa çalışır və ekoloji cəhətdən təmiz qablaşdırma materiallarından aktiv şəkildə istifadə edir. Lakin bu sahədə davamlı inkişaf üzrə ixtisaslaşmış biliklərin çatışmazlığı, qısamüddətli mənfəətə yönəlmə, məhsulun keyfiyyətinin və təhlükəsizliyinin nəzarətində çətinliklər, eləcə də davamlı praktikalara sərmayələrin məhdud olması kimi müəyyən çağırışlar mövcuddur.

Bu problemlərin həlli üçün biznes, dövlət orqanları və cəmiyyət arasında aktiv qarşılıqlı əlaqə tələb olunur. Ərzaq sektorunda davamlı inkişaf ümumi iqtisadi və sosial irəliləyişdə açar rolunu oynayır. Bu istiqamətdə işlərin davam etdirilməsi şirkətlərin rəqabət qabiliyyətini artırmaqla yanaşı, insanların həyat keyfiyyətini yaxşılaşdıracaq və gələcək nəsillər üçün ətraf mühiti qoruyacaq.

ƏDƏBİYYAT

1. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri, Bakı, 2012, səh. 274.
2. Alıyev İ.A. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, 2006, 380 səh. 7.
3. Azərbaycanın iqtisadiyyatı, Nuri O., Süleymanov E., Bakı, 2010, 314 səh.
4. Афанасьева Ю. И., Шурпо А. Н. Возможности цифровизации пищевых предприятий при обеспечении продовольственной безопасности России // Вестник Брянского государственного технического университета. 2019. № 6 (79). С. 77-83
5. Добрияник, С. Д. Стратегическое направление / С. Д. Добрияник // Экономика. Финансы. Управление. – 2019. – № 5. – С. 4–8
6. Коноваленко Л.Ю., Мишуров Н.П., Голубев И.Г., Никитина М.А., Бредихин С.А. Цифровая трансформация пищевой и перерабатывающей промышленности: аналитический обзор. – М.: ФГБНУ «Росинформагротех», 2020. – 80 с
7. Лукашин, А.В. Устойчивое развитие предприятий пищевой промышленности: проблемы и пути решения / А.В. Лукашин // Мир науки и образования. - 2020. - Т. 10. - № 3. - С. 138-142

8. Митенев В. В., Кирик О. Б. Кластер как фактор развития экономики// http://journal.vscc.ac.ru/php/jou/34/art34_06.php
Преимуществом данного метода является отражение уровня зрелости лизингового рынка относительно общей экономики, а недостатком, учитывание специфики национального рынка или уровень инвестиций в оборудование. Этим методом пользуются в глобальных исследованиях, таких как Global Leasing Report от Solifi и World Leasing Yearbook, чтобы сравнивать лизинговые рынки разных стран. Если ссылаться на эти методы, то по одной из них объем рынка лизинга в стране должен составлять 10% от общего объема капитальных вложений в основные средства, по другой - 1-2% ВВП. [8] Согласно этой теории, сегодня объем рынка лизинга в Азербайджане должен составлять около 1-1,5 млрд долларов США".

Согласно данным Государственного комитета статистики Азербайджана, номинальный объем валового внутреннего продукта (ВВП) страны в 2024 году составил 126,3 млрд манатов, что примерно эквивалентно 74,3 млрд долларов США. Сегодня, в 2024 году в Азербайджане практически нет рынка лизинга, и объем портфеля не превышает 50 млн манатов. Давайте вычислим это и найдем долю лизинга в ВВП на 2024 год:

$$\text{Доля лизинга в ВВП} = \frac{50.000.000}{126.300.000{,}000} = 0{,}0004 \text{ или } 0{,}04\%$$

Хотя и отмечалось в Стратегической дорожной карте по производству потребительских товаров на уровне МСП в нашей стране 6 декабря 2016 года указом Президента Азербайджанской Республики Ильхама Алиева, что развитие лизингового рынка позволит довести долю лизинговых операций в ВВП до 2% к 2020 году и 4% - к 2025-му, но по анализирумым данным видно что пока достичь такой отметки в 2025 году никак не удается.

Заключение

Лизинг, как один из ключевых инструментов финансирования активов, играет важную роль в развитии бизнеса и стимулировании экономического роста. Международный опыт показывает, что страны с развитой системой лизинга имеют высокий коэффициент проникновения лизинга в экономику. В контексте Азербайджана развитие лизинга требует комплексного подхода, включающего адаптацию международных стандартов к местным условиям. Основными мерами, которые могут способствовать росту лизингового рынка, являются внедрение обязательных требований по учету лизинговых операций в финансовой отчетности малых и средних предприятий, разработка механизмов государственной поддержки, направленных на субсидирование процентных ставок по лизинговым операциям, упрощение нормативно-правовой базы, регулирующей деятельность лизинговых компаний, создание прозрачных условий для привлечения инвестиций в этот сектор, повышение финансовой грамотности среди предпринимателей, чтобы они могли эффективно использовать лизинговые инструменты для расширения бизнеса. Также хотим дать рекомендации с точки зрения модернизации МСФО при лизинговых операциях для сбалансирования гибкости учета и повышения прозрачности, не создавая чрезмерной нагрузки для МСФО МСП 20:

1. Применение принципов МСФО 16 полного комплекта для МСФО МСП №20 с введением требований отражать аренду на балансе при операционной аренде;
2. Расширение требований к раскрытию обязательств в стандарте МСФО для МСП №20 по операционной аренде для повышения прозрачности;
3. Более строгие требования к изменению договоров аренды – включение механизмов переоценки обязательств при изменении условий договора.

Таким образом, интеграция лучших международных практик с учетом национальных особенностей может стать ключевым фактором успешного развития лизингового рынка в Азербайджане. Применение сбалансированной стратегии позволит повысить прозрачность финансовой отчетности, расширить доступ к лизинговым инструментам и стимулировать рост сектора, способствуя укреплению экономики страны в целом.

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Leaseurope Annual Statistical Reports – Данные по методике "penetration ratio" в Европе. [Официальный сайт Leaseurope] (https://www.leaseurope.org)
2. Global Leasing Report by Solifi – Отчеты о мировом рынке с использованием обоих методов. [Сайт Solifi] (https://www.solifi.com/resources/global-leasing-report)
3. World Leasing Yearbook – Глобальные данные, включая "Leasing/GDP Ratio". [Сайт World Leasing Yearbook] (https://www.world-leasing-yearbook.com)
4. OECD Reports on Leasing – Аналитика об использовании лизинга в инвестициях. [Сайт

OECD] (https://www.oecd.org)
5. International Financial Reporting Standards (IFRS) – [Официальный сайт IFRS] (https://www.ifrs.org)
6. European Investment Bank Reports on Leasing – [Сайт EIB] (https:://www.eib.org)
7. The Role of Leasing in SME Financing – ResearchGate.
8. Global Economic Outlook on Leasing Markets – McKinsey & Company.
9. Analysis of Leasing Development in Emerging Markets – World Bank Reports.
10. Digitalization in Leasing – PwC Analysis.

Elçin Rövşən oğlu Babayev
doktorant,
Azərbaycan Dövlət İqtisad Universiteti,
Baş mühasib,
Bakı Biznes Universiteti,
Bakı, Azərbaycan,
E-mail: elcinbabayevbbu@gmail.com

Kiçik və orta müəssisələr üçün Beynəlxalq Maliyyə Hesabatları Standartları 16 və Beynəlxalq Maliyyə Hesabatları Standartları 20-nin müqayisəli təhlili yolu ilə Azərbaycanda lizinqin inkişaf perspektivləri

Xülasə

Tədqiqatın məqsədi – kiçik və orta müəssisələrdə tətbiq olunan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) 16 və MHBS KOS 20 tələblərinin müqayisəli öyrənilməsi əsasında Azərbaycanda lizinq bazarının inkişaf perspektivlərini təhlil etməkdir. Araşdırmada lizinq uçotu yanaşmalarının əsas fərqləri, onların şirkətlərin maliyyə göstəricilərinə təsiri və lizinq təcrübəsinin təkmilləşdirilməsi üçün beynəlxalq təcrübənin uyğunlaşdırılması imkanları araşdırılır.

Tədqiqatın metodologiyası – Tədqiqat beynəlxalq təcrübədə lizinq uçotu üzrə MHBS 16 və MHBS KOS 20 standartlarının müqayisəli təhlili əsasında aparılmışdır. Standartların müəssisələrin maliyyə hesabatlarına təsirini qiymətləndirmək üçün iqtisadi və statistik metodlardan istifadə olunmuş, lizinq sahəsində qlobal tendensiyaları araşdırmaq üçün analitik yanaşma tətbiq edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Təklif olunan tövsiyələr maliyyə hesabatlarının şəffaflığını artırmağa, lizinqin ölkənin iqtisadi inkişafında rolunu gücləndirməyə və investisiyaların cəlb olunması üçün əlverişli şərait yaratmağa kömək edə bilər.

Tədqiqatın nəticələri – Tədqiqat göstərdi ki, MHBS 16-nın tətbiqi maliyyə hesabatlarının şəffaflığını və etibarlılığını artırır, lakin kiçik və orta müəssisələr üçün mühasibat yükünü artırır. Buna qarşı olaraq, MHBS 20 daha çevik yanaşmalar təklif edir ki, bu da uçot prosesini sadələşdirsə də, maliyyə öhdəliklərinin tam əks olunmamasına səbəb ola bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Tədqiqat, MHBS-nin Azərbaycanın şərtlərinə tətbiq edilmə imkanlarını araşdırmaq baxımından aktual və unikal xarakter daşıyır. Araşdırmada lizinq əməliyyatlarının uçotunun təkmilləşdirilməsi üzrə praktik tövsiyələr irəli sürülmüş və onların kiçik və orta müəssisələrin maliyyə göstəricilərinə təsiri perspektivləri araşdırılmışdır.

Açar sözlər: Lizinq, lizinq uçotu, maliyyə hesabatları, BMHS 16, BMHS 20, kiçik və orta biznes, beynəlxalq uçot standartları, Azərbaycanda lizinqin inkişafı.

Babayev Elchin Rovshan,
doctoral student UNEC,
Chief accountant,
Baku Business University,
Baku, Azerbaijan
E-mail: elcinbabayevbbu@gmail.com

Prospects for the development of leasing in Azerbaijan through a comparative analysis of International Financial Reporting Standards 16 and International Financial Reporting Standards 20 for small and medium-sized enterprises

Summary

The purpose of the research: The objective of this study is to analyze the prospects for the development of the leasing market in Azerbaijan based on a comparative study of the requirements of International Financial Reporting Standards (IFRS) 16 and 20, applied to small and medium-sized enterprises (SMEs). The study examines the key differences in approaches to lease accounting, their impact on the financial performance of companies, and the potential adaptation of international experience to improve leasing practices in the country.

Methodology of the research: The study is based on a comparative analysis of regulatory accounting standards for leases in international practice. Economic and statistical methods are used to assess the impact of the standards on corporate financial reporting, as well as an analytical approach to studying global trends in leasing.

Practical importance of the research: The proposed recommendations can contribute to increasing financial reporting transparency, strengthening the role of leasing in the country's economic development, and creating favorable conditions for attracting investments.

Research results: The study found that the implementation of IFRS 16 requirements leads to increased transparency and reliability of financial reporting but increases the accounting burden for small and medium-sized businesses. In contrast, IFRS 20 offers more flexible approaches that, while simplifying accounting, may result in insufficient reflection of financial liabilities.

Originality and scientific innovation of the research: The study is relevant and unique in the context of analyzing the possibilities of applying international lease accounting standards to Azerbaijan's conditions. The paper proposes practical recommendations for improving lease accounting procedures and examines the prospects for their impact on the financial performance of small and medium-sized enterprises.

Keywords: Leasing, lease accounting, financial reporting, IFRS 16, IFRS 20, small and medium-sized enterprises, international accounting standards, leasing development in Azerbaijan.

V BÖLMƏ.
İSTEHLAKÇILARIN DAVRANIŞ XÜSUSİYYƏTLƏRİ MARKETİNQ, İNFORMASİYA TEXNOLOGİYALARI

UOT 330.65.01

Fikrət Vəli oğlu QULİYEV
i.e.d., dosent,
Azərbaycan Kooperasiya Universitetinin
Tədris işləri üzrə prorektoru
Email: fikratguliyevv@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.0156

AZƏRBAYCAN İSTEHLAKÇILARININ DAVRANIŞ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – İstehlakçıların davranış xüsusiyyətlərinin öyrənilməsi və bu xüsusiyyətlər əsasında marketinq kompleksinin istehlakçı tələbinə uyğunlaşdırılması məsələlərinin həllinə aydınlıq gətirilməsidir.

Tədqiqatın metodologiyası – Tədqiqat zamanı kompleks, sistem və inteqrasiyalaşdırılmış yanaşmalardan, iqtisadi-statistik təhlildən, müqayisə və müşahidə metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Tədqiqatda əksini tapmış təklif və tövsiyələrdən istehlak məhsulları istehsal edilən müəssisə və təsərrüfatlarda istifadə edilməsi onların istehlakçıların davranışlarını daha dərindən başa düşmələrinə və bu əsasda həmin müəssisə və təsərrüfatların istehlakçılarla səmərəli əlaqələr formalaşdırmasına imkan verə bilər.

Tədqiqatın nəticələri. İstehlakçı davranışının tədqiqi əsasında istehlak məhsulları istehsal edən müəssisə və təsərrüfatların marketinq fəaliyyətinin təkmilləşdirilməsinə dair verilmiş təklif və tövsiyələrdən ibarətdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – İlk dəfə olaraq, Azərbaycan istehlakçılarının davranış xüsusiyyətlərinin aşkara çıxarılması və bu əsasda yerli müəssisələrin istehlakçı tələbinə uyğunlaşması probleminin həllinə dair verilmiş təkliflərdir.

Açar sözlər: istehlakçı davranışı, məhsul seçimi, marketinq amilləri, istehlak cəmiyyəti, marketinq tədqiqatları.

Giriş

Bazar münasibətləri əsasında inkişafa keçiddən sonra ölkəmizin istehlakçılarının davranışı əhəmiyyətli dəyişikliyə uğramışdır. Əslində sözügedən sistemə keçid istehlakçıların seçim imkanlarını genişləndirmiş, eyni zamanda seçim azadlıqlarını təmin etmişdir. Bu vəziyyətdən fərqli olaraq, inzibati amirlik sistemində yaşadığımız dövrdə istehlakçıların məhsul seçimi baxımından imkanları çox məhdud olmuş və onlar çox az sayda məhsullar sırasından lazım bildikləri məhsulları əldə etmək məcburiyyətində qalmışlar. Əksər hallarda istehlakçılara təklif edilən yerli məhsullar xarici dövlətlərdən ölkəmizin bazarına daxil olmuş məhsullarla müqayisədə istehlakçıların zövqünü oxşamamış və bu səbəbdən də istehlakçılar xarici əmtəələrə üstünlük vermiş və çox çətinliklə də olsa, lazım olan hallarda həmin əmtəələrin axtarışına xeyli vaxt sərf etmişlər. Hazırkı dövr isə əvvəlki dövrdən köklü surətdə fərqlənir, belə ki, indiki şəraitdə istehlakçılar demək olar ki, məhsulların axtarışına az səy göstərməklə həmin məhsulları əldə edə bilir. Bu, əvvəlki dövrlə müqayisədə məhsulların alınmasına sərf olunan vaxtı qısaltmağa imkan yaratmışdır. Sözügedən vəziyyətin yaranmasına Azərbaycanın istehlak bazarına təklif edilən məhsulların tədricən

çoxalması səbəb olmuşdur. Əgər inzibati amirlik dövründə Azərbaycan istehlakçısı bir neçə ticarət markası haqqında məlumatlı idisə, hazırda istehlakçıların yaddaşında qalan və doğurduğu assosiasiya ilə fərqlənən markaların sayı olduqca çoxdur. Belə bir dövrdə istehlakçıların müəssisəyə və onun istehsal edib bazara təklif etdiyi məhsula sadiqliyini yaratmaq elə də asan məsələ deyil. Bu məsələnin həllinə nail olunması istehlakçıların davranış xüsusiyyətlərinin öyrənilməsini, həmin xüsusiyyətlər nəzərə alınmaqla məhsulların (xidmətlərin) istehsal edilib bazara təklif edilməsini və istehlakçılarla faydalı əlaqələrin qurulmasını tələb edir.

Azərbaycan istehlakçılarının istehlak xərclərinin təhlili

İstehlakçı davranışına dair ədəbiyyatlarla tanışlıq göstərir ki, inzibati amirlik dövründə yaşamış (1980-ci illər) istehlakçı orta hesabla beş brendə dair məlumatlı idisə, 1990-cı illərdə onların sayı yüzlərlə olmuşdur. Bu, istehlakçıların seçim imkanlarının (bu imkanlar nominal seçim imkanları kimi xarakterizə oluna bilər) həddindən ziyadə çoxalmasına, həm də istehlakçıların seçim etmək baxımından informasiyalarla həddindən ziyadə yüklənməsinə gətirib çıxarmışdır.

Lakin onu da qeyd etmək lazımdır ki, 1990-cı illərdən sonra müəyyən müddət ərzində ölkəmizin istehlakçılarının məhsul seçmək üçün real imkanları elə də geniş olmamışdır. Belə ki, həmin dövrdə istehlakçıların gəlirlilik səviyyəsinin çox aşağı olması onların istehlak bazarında fizioloji tələbatlarını ödəmək üçün diqqətlərini ərzaq məhsullarının seçilməsinə yönəltmələrinə gətirib çıxarmışdır. Həmin dövrlərdə orta statistik azərbaycanlının istehlak xərclərinin, hətta bir sıra hallarda 70%-dən çoxu ərzaq məhsullarının əldə edilməsinə yönəldilmiş, qalan xərclər isə qeyri-ərzaq məhsullarının alınmasına və xidmətlərdən faydalanmağa sərf edilmişdir.

Dövlət Statistika Komitəsinin 2023-cü il üzrə son məlumatlarına görə Azərbaycanda ev təsərrüfatlarının istehlak xərclərinin 43,9%-i ərzaq məhsullarının alınmasına, qalan xərclər isə qeyri-ərzaq məhsulların və xidmətlərdən faydalanmağa sərf edilir. Göründüyü kimi, ölkəmizin əhalisinin hələ də ərzaq məhsullarının əldə edilməsinə çəkdikləri xərclər Avropa ölkələrində və bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə müvafiq göstərici ilə müqayisədə kifayət qədər yüksəkdir. Burada onu da qeyd etmək yerinə yüşər ki, sözügedən ölkələrdə orta statistik vətəndaşın istehlak xərclərində ərzaq məhsullarının əldə edilməsinə çəkilən xərclərin payı 10-15%-i aşmır.

Azərbaycan istehlakçılarının davranış xüsusiyyətlərində fərqlər müşahidə edilir və bu, həm də istehlakçıların əldə etdikləri gəlirlərin fərqli səviyyədə olması ilə şərtlənir. Lakin gəlirlilik səviyyəsinin fərqlənməsi ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması baxımından təhlükəli həddi keçmir. Belə ki, DSK-nın 2023-cü il üzrə məlumatlarına görə ölkə əhalisinin 10 % ən varlı təbəqəsinin orta gəlirinin 10 % ən az gəlirli təbəqəsinin orta gəlirinə nisbəti 3,9 dəfə təşkil etmişdir ki, bu da iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından yol verilə bilən hədlər daxilindədir.

Azərbaycan əhalisinin gəlirlərinin dinamikası və əhalinin 2023-cü il üzrə gəlir desilləri üzrə gəlirlərinə dair məlumatlar aşağıdakı cədvəlin məlumatları ilə xarakterizə edilir (**1 və 2-ci cədvəllər**).

Əhalinin 2023-cü ildə istehlak xərclərinin desilləri üzrə (1, 5 və 10-cu desil) istehlak xərcləri və onun strukturu aşağıdakı cədvəllərdə əks etdirilmişdir (3-cü və 4-cü cədvəllər).

Cədvəlin məlumatlarından göründüyü kimi, 2023 - cü ildə əhalinin 10 % ən varlı təbəqəsinin istehlak xərclərinin məbləği ən kasıb əhali təbəqəsinin istehlak xərcindən 3,1 dəfə çox olmuşdur. Həmin desil qrupuna daxil olan insanların qida məhsullarının alınmasına çəkdikləri xərclərin nisbəti isə 1,9 dəfə təşkil etmişdir. Birinci desil qrupuna daxil olan əhali qida məhsullarının əldə edilməsinə cəmi istehlak xərclərinin 51,8 %-ni sərf etdikləri halda, 10 - cu desil qrupunda həmin göstərici 31,0 % təşkil etmişdir.

Cədvəl 1

Ölkə üzrə əhalinin gəlirləri, ayda adambaşına manatla

	Ölkə üzrə cəmi						
	2017	2018	2019	2020	2021	2022	2023
Gəlirlər-cəmi	268,4	276,0	292,6	291,4	300,6	327,6	343,2
O cümlədən							
Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər	89,5	92,4	99,3	104,1	108,4	124,1	129,4
Özünüməşğulluqdan gəlirlər	104,5	106,2	107,1	98,0	101,0	107,7	113,2
Ondan kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər	35,9	36,0	36,4	34,6	34,1	35,0	36,8
Mülkiyyətdən gəlirlər-cəmi	2,4	2,5	2,5	1,7	1,1	1,2	1,2
Ondan əmlakın icarəyə verilməsindən gəlirlər	1,8	1,9	1,9	1,2	0,8	0,8	0,8
Alınmış cari transfertlər	41,8	44,3	49,3	57,8	60,8	63,0	67,1
pensiyalar	35,9	37,7	41,4	48,3	51,7	53,0	56,5
müavinət, təqaüd və digər ödənişlər	5,1	6,0	7,5	9,2	8,8	9,5	10,0
natura şəklində daxilolmaların pul ifadəsində dəyəri	0,8	0,6	0,4	0,3	0,3	0,5	0,6
Digər gəlirlər	30,2	30,6	34,4	29,8	29,3	31,6	32,3
Ölkə daxilində digər ailələrdən alınan vəsaitlər	23,1	23,5	27,1	24,0	24,1	26,0	26,6
Ölkə xaricindən alınan vəsitlər	7,1	7,1	7,3	5,8	5,2	5,6	5,7

Mənbə: cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 2

Gəlir desilləri üzrə gəlirlər
Ayda adambaşına, manatla

	Gəlir desilləri		
	1-ci desil	**5-ci desil**	**10 - cu desil**
Gəlirlər- cəmi	190,4	309,2	735,8
O cümlədən			
Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər	61,1	112,7	306,6
Özünüməşğulluqdan gəlirlər	83,1	103,6	203,7
ondan kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər	17,7	28,4	88,6
Mülkiyyətdən gəlirlər-cəmi	0,0	0,8	6,0
ondan əmlakın icarəyə verilməsindən gəlirlər	0,0	0,6	3,5
Alınmış cari transfertlər	36,0	65,2	147,0
pensiyalar	30,2	53,7	127,7
müavinət, təqaüd və digər sosial ödənişlər	5,5	10,8	18,4
natura şəklində daxilolmaların pul ifadəsində dəyəri	0,3	0,7	0,9
Digər gəlirlər	10,2	26,8	72,5
ölkə daxilində digər ailələrdən alınan gəlirlər	9,7	24,0	55,1
ölkə xaricindən alınan gəlirlər	0,5	2,8	17,4

Mənbə: cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 3

İstehlak xərclərinin desilləri üzrə istehlak xərcləri Ayda adambaşına, manatla

	İstehlak xərclərinin desilləri		
	1-ci desil	**5-ci desil**	**10-cu desil**
İstehlak xərcləri, cəmi	222,3	324,9	696,4
o cümlədən			
qida məhsullarına	115,1	151,8	215,7
Ondan alkoqollu içkilərə	1,0	1,7	3,5
tütün məmulatlarına	4,4	6,0	9,5
paltara və ayaqqabıya	15,0	19,1	44,8
su, işıq, qaz və digər yanacaq növlərinə	13,8	22,5	74,6
ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa	10,7	24,4	62,9
səhiyyə xidmətlərinə	9,7	16,2	48,9
nəqliyyat ximətlərinə	14,6	9,7	57,9
rabitə xidmətlərinə	7,3	10,0	23,9
istirahət və mədəniyyət xidmətlərinə	5,4	11,7	44,2
təhsil xərclərinə	1,8	5,5	12,2
mehmanxana, kafe və restoran xidmətlərinə	13,8	21,1	59,9
digər mal və xidmətlərə	10,7	16,9	41,9

Mənbə: cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 4

İstehlak xərclərinin desilləri üzrə istehlak xərclərinin tərkibi, faizlə

	İstehlak xərclərinin desilləri		
	1-ci desil	**5-ci desil**	**10-cu desil**
İstehlak xərcləri, cəmi	100,0	100,0	100,0
o cümlədən			
qida məhsullarına	51,8	46,7	31,0
Ondan alkoqollu içkilərə	0,4	0,5	0,5
tütün məmulatlarına	2,0	1,9	1,4
paltara və ayaqqabıya	6,7	5,9	6,4
su, işıq, qaz və digər yanacaq növlərinə	6,2	6,9	10,7
ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa	4,8	7,5	9,0
səhiyyə xidmətlərinə	4,4	5,0	7,0
nəqliyyat ximətlərinə	6,6	6,1	8,3
rabitə xidmətlərinə	3,3	3,1	3,4
istirahət və mədəniyyət xidmətlərinə	2,4	3,6	6,4
təhsil xərclərinə	0,8	1,7	1,7
mehmanxana, kafe və restoran xidmətlərinə	6,2	6,4	8,6
digər mal və xidmətlərə	4,8	5,2	6,1

Mənbə: cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir

Məlumatların təhlilindən göründüyü kimi, hətta ən varlı təbəqənin istehlak xərclərinin tərkibində də ərzaq məhsullarının əldə edilməsinə çəkilən xərclərin payı da yüksək olaraq qalır. Bu, ölkəmizin əhalisinin böyük əksəriyyətinin gəlirlilik səviyyəsinin yüksək olmamasının göstəricisidir.

Azərbaycan istehlakçılarının davranışında müşahidə edilən meyillər və xarakterik xüsusiyyətlər

Azərbaycan istehlakçılarının tipologiyası hələlik tam aparılmasa da, onu qeyd edə bilərik ki, sözügedən tipologiyanın yekunlaşmasında ənənəçilər (ənənəviliyə riayət eməklə davranış nümayiş

etdirənlər) cəmi istehlakçıların tərkibində böyük paya malik olacaqlar. Bu, xüsusilə özünü ərzaq məhsullarında daha qabarıq göstərəcək. İndi də demək olar ki, vəziyyət eynidir. Belə ki, məsələn, Azərbaycan əhalsinin tərkibində donuz ətindən hazırlanan ət və ət məhsullarını istehlak edənlərin payı çox cüzidir və bunlar ölkədə yaşayan xristianlardır. Ona görə də son illər ölkədə istehsal edilən ətin strukturunda dönuz ətinin payı daha da azalmış və bu göstərici heç bir faizi də keçmir. Ərzaq məhsulları istehlakçılarının tərkibində ənənəçilərin (tradisionalistlərin) payının çox yüksək olması ölkədə yeni ticarət markasının – “Halal” ticarət markasının yaradılmasına gətirib çıxarmışdır. Hazırda ölkəmizin ərzaq bazarının ət və ət məhsulları seqmentində “Halal” ticarət markası ilə markalanmış çoxsaylı məhsullara (kolbasalar, sosislər, süd məhsulları və s.) rast gəlmək mümkündür. Bu məhsulların seçimi zamanı istehlakçılar, demək olar ki, çətinliklə qarşılaşmır və onlar sözügedən markadan olan məhsullara üstünlük verməklə çoxsaylı rəqib məhsullar sırasından öz seçimlərini edirlər.


Ölkəmizin qeyri-ərzaq məhsulları istehlakçıları sırasında (xüsusilə, geyim məmulatları istehlakçıları arasında) ənənəviçiliyə riayət etməklə davranış nümayiş etdirənlər daha azdır. Bu sahədə ölkəmizdə lokal istehlakla qlobal istehlakın inteqrasiyası müşahidə edilir, daha doğrusu, ölkəmizin bir çox istehlakçıları dünya ölkələrinin əksəriyyətində istehlak edilən geyim məmulatlarına üstünlük verirlər. Bunlara cins şalvarları, krossovkaları, baş geyimlərini və s. aid etmək olar. Bu sahədə də ölkəmizdə ənənəviçiliyin dirçəldilməsi üzrə məqsədyönlü tədbirlər işlənib hazırlanır və reallaşdırılır. Belə ki, məsələn, azərbaycanlı qadınların və qızların baş örtüyü kimi istifadə etdikləri kəlağayının istehsalına və istehlakına yönəldilmiş təbliğat və təşviqat tədbirlərinə tez-tez müxtəlif kütləvi informasiya vasitələrində rast gəlmək mümkündür. Bu sahədə türkdillli dövlətlər birliyinə daxil olan ölkələrdən Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda vəziyyət daha yaxşıdır. Bu ölkənin qadınları və qızları ənənəviçiliyə riayət etməklə milli geyimlərini yaşadır, bu geyimləri öz ölkələrində istehsal edir və geyim məmulatları üzrə xarici dövlətlərdən asılılığı azaltmağa çalışırlar.

Ölkəmizdə milli geyim istehsalı üçün xammal bazasının kifayət qədər yaxşı inkişaf etməsinə baxmayaraq, bu sahədə xarici dövlətlərdən çox asılılıq var. Məsələn, sözügedən sahənin inkişafına imkan verəcək səviyyədə yun və pambıq istehsal edilməsinə baxmayaraq, yerli xammaldan istifadə edilməklə ölkəmizin istehlakçılarına təklif edilən milli geyim nümunələrinə az hallarda rast gəlinir. Bu sahədə problemlər aradan qaldırılmalı, ənənələr yaşadılmalı, yerli istehlakçıların istəyinə və zövqünə uyğun geyim məmulatları istehsal edilib onlara təklif edilməlidir. Bu zaman, əlbəttə, yerli müəssisələrdə yeni idarəetmə metodu kimi marketinq idarəetmə tətbiq edilməlidir.

Azərbaycan istehlakçılarının məhsul seçiminə dair təcrübələrinin çoxalması onların konkret ticarət markalarına və həmin markaları təklif edən mağazalara sadiqliyinin formalaşmasına gətirib çıxarmışdır. Çoxsaylı marketinq müşahidələrinə əsasən deyə bilərik ki, hazırda ölkəmizin istehlakçılarının ən çox sadiqlik nümayiş etdirdikləri ticarət markaları qardaş Türkiyə dövlətinin istehsalçılarına məxsus olan markalardır. Ölkəmizin istehlakçıları həm məhsulun tərkibi və keyfiyyəti, həm də məhsulu müşayiət edən xidmətlər (gücləndirilmiş məhsullar) baxımından Türkiyədə istehsal edilən məhsullara daha çox üstünlük verirlər. Bu, Türkiyə istehsalçılarının marketinq praktikasında, demək olar ki, aldatmanın olmaması ilə əlaqədardır. Qardaş Pakistandan ölkəmizə daxil olan geyim məmulatları da bu məhsullar sırasındadır və həmin məhsullar da öz təbiiliyi və qiymətlərinin münasibliyi ilə istehlakçıların tələbatlarına cavab verir.

Ölkəmizin istehlakçılarının böyük əksəriyyəti üçün qiymət alışların həlledici elementi olaraq qalır. Bu, müxtəlif əhali təbəqələrinin gəlirlilik səviyyəsinin çox da yüksək olmaması ilə əlaqədardır. Məhz bunun nəticəsidir ki, ev təsərrüfatlarının istehlak xərclərinin 40 %-dən çoxu ərzaq məhsullarının əldə edilməsinə sərf edilir. 2023-cü ildə əhalinin istehlak xərclərinin tərkibinə dair daha dolğun təsəvvürü aşağıdakı diaqramdan əldə etmək olar (diaqram 1).

Diaqram 1. 2023-cü ildə Azərbaycan əhalsinin istehlak xərclərinin strukturu



Azərbaycan istehlakçılarının istehlak məhsullarının reklamına inamları elə də yüksək deyil. Belə ki, bir sıra hallarda istehlak məhsullarının reklamlarında gedən informasiyaların gerçəkliyi məhsulların əldə edilməsi və istehlakı prosesində təsdiq olunmur. Bu, istehlakçıların marketinqdə məhsula tələbin formalaşdırılması vasitəsi kimi reklamlara inamının və etibarının zəifləməsinə gətirib çıxarır. Lakin marketinqin kommunikasiya kompleksinin başqa elementi kimi istehlakçılar satışın stimullaşdırılmasından daha çox yararlanmağa çalışırlar. Belə ki, istehlakçıların bir çoxu iri ticarət mərkəzlərində həftəsonu tətbiq edilən stimullaşdırma kampaniyalarından (qiymət endirimləri, hədiyyəli satış və s.) faydalanmaq üçün həmin sözügedən mərkəzlərə üz tutur və əvvəlki günlərlə müqayisədə daha çox alış-veriş edirlər.

Yuxarıda sadalananlar (məhsul, qiymət, reklam və satışın stimullaşdırılması) üzrə istehlakçıların davranış xüsusiyyətləri marketinq kompleksinin elementləri üzrə müşahidə edilən xüsusiyyətlərdir. Aparılan təhlildən göründüyü kimi, bu elementlərə ölkəmizin istehlakçılarının istehlak bazarında reaksiyaları fərqlidir. Belə ki, məsələn, qeyd edildiyi kimi, istehlakçılar reklam elanlarında gedən informasiyalara az inanır, qiymət dəyişmələrinə həssaslıqla reaksiya verir və stimullaşdırma tədbirlərindən isə daha çox faydalanmağa çalışırlar. Marketinq kompleksinin elementlərinin istehlakçıların tələblərinə uyğunlaşdırılması üçün həmin elementlər üzrə marketinq tədqiqatlarının aparılması çox vacibdir. “Nəzərə almaq lazımdır ki, marketinq fəaliyyətinin ayrı-ayrı “alətlərindən”-marketinq kompleksinin elementlərindən istifadə olunmasının səmərəliliyinin qiymətləndirilməsi nəinki istehlakçıların fikirlərinin və münasibətlərinin öyrənilməsi əsasında, eyni zamanda sadalanan məsələlərə dair sərbəst marketinq tədqiqatlarının həyata keçirilməsi yolu ilə mümkündür. Bunun üçün isə marketinq kompleksinin elementləri üzrə ayrıca marketinq tədqiqatlarının aparılması tələb olunur” [6, 221].

Ümumiyyətlə götürüldükdə, istehlak məhsullarının istehsalı ilə məşğul olunan müəssisə və təsərrüfatların da bütövlükdə bazar fəaliyyətinin uğuru həmin müəssisə və təsərrüfatlar tərəfindən marketinq tədqiqatlarının aparılmasından asılıdır. “Müəssisə və təsərrüfatların bazar fəaliyyətinə dair səmərəli strategiyaların işlənib hazırlanması onların məhsullarını təklif etdiyi bazarın marketinq tədqiqindən alınan informasiyalar əsasında mümkündür. Bu informasiyalar əsasında müəssisə və təsərrüfatlar özlərinin bazarla bağlılıqlarını təmin etməyə və bazarın tələblərinə uyğunlaşmağa müvəffəq olurlar”[2, s.86-87].

Müasir Azərbaycan cəmiyyəti Qərb ölkələrindəki cəmiyyətlər kimi hələ tam strukturlaşmayıb. Belə vəziyyət Azərbaycan istehlakçılarının hərtərəfli surətdə işlənib hazırlanmış tipologiyasını müəyyənləşdirməyə imkan vermir. Bu sahədə geniş və əhatəli fikri sosioloqlar deyə bilər, ona görə də, onlar tərəfindən qeyd edilən problemin həlli ilə zəruri tədqiqatların aparılmasına ehtiyac var. İndiki şəraitdə sosioloqlar tərəfindən Azərbaycan cəmiyyətində hansı siniflərin və təbəqələrin

olmasının müəyyənləşdirilməsi onların davranış xüsusiyyətlərinin aşkara çıxarılmasına və daha dərindən öyrənilməsinə, hər bir təbəqənin və yaxud sinifin nümayəndələrinin ehtiyac və tələbatlarının daha dolğun ödənilməsi üzrə marketinq tədbirlərinin işlənib hazırlanmasına imkan verə bilər. Çünki bu təbəqələr və yaxud siniflər cəmiyyətin nisbətən sabit qatları olmaqla, müəyyən qədər stabil davranışları (eyni təbəqə və yaxud sinif daxilində olan insanların davranış xüsusiyyətləri birbirinə çox yaxın olur) ilə seçilirlər ki, bu da onlara yönəlik marketinq tədbirlərinin işlənib hazırlanmasına zəmin yaradır.

Ölkəmizdən fərqli olaraq, qonşu ölkələrdən Rusiyada cəmiyyətin strukturlaşması məsələlərinin aydınlaşdırılmasına dair tədqiqatlar aparılır. Hələ 1990-cı ilin sonuna olan məlumata görə, bu ölkənin əhalisinin tərkibinin gəlirliliyi baxımından beş qrupa bölündüyünə dair məlumatlar dərc edilmişdir. Həmin dövrə olan məlumata görə əhalinin 0,5%-i elit qrupuna, 6-7%-i yüksək təbəqəyə, 21%-i orta təbəqəyə, 65%-i baza təbəqəyə və nəhayət 7%-i isə aşağı təbəqəyə daxil edilmişdir [17].

Ölkəmizin istehlakçılarının davranışı ailənin təsirinə daha çox məruz qalır. Bu, ölkəmizin istehlakçılarının davranışının mühüm xüsusiyyətlərindən biri kimi qəbul edilməlidir. Bir sıra məhsulların alışına dair qərarların qəbul edilməsi bütün ailə üzvlərinin fikirləri əsas götürülməklə qəbul edilir. Belə ki, məsələn, ailə üçün minik avtomobilinin, mebelin və bahalı məişət avadanlıqlarının əldə edilməsi, xarici ölkələrə turist kimi səfərlər və s. demək olar ki, ailənin bütün üzvlərinin qərarlarına əsasən öz həllini tapır. Bu zaman, əlbəttə, ailə üzvlərinin məhsulların alışına dair qərar qəbuluna təsiri imkanları fərqli olur, belə ki, məsələn, mebelin, məişət avadanlıqlarının və s. kimi məhsulların əldə edilməsində qadınların rolu daha böyük olur.

Azərbaycan əhalisinin ən böyük mədəni dəyərlərindən olan qonaqpərvərlik kimi dəyərin yaşadılması və bununla əlaqədar olan ailələrdə qonaq otaqlarının məhsulla dəstləşdirilməsi, daha doğrusu, lazımi məhsulların (xalılar, mebel və s.) alınması tələb olunur. Sözügedən məhsulların alınmasında ailədə qadınların rolu həlledici əhəmiyyətə malikdir. Bununla yanaşı, həm də onu qeyd etmək lazımdır ki, son illər dünyanın bir çox ölkələrində özünü göstərən hal kimi Azərbaycan ailələrində də məhsulların alınması baxımından rolların müəyyən dəyişikliyi özünü göstərir və bu, bir sıra məhsulların alınmasına dair qərar qəbuluna təsirsiz ötüşmür. Belə ki, son illər ölkəmizdə işləyən qadınların sayının artması evin kişisinin bəzi məhsulların (məsələn, ərzaq məhsullarının və s.) alınmasında rolunun artmasına gətirib çıxarmışdır.

Son dövrlər karyera qurmaq üçün Azərbaycan qadın və qızlarının istəkləri daha da güclənmişdir. Bu vəziyyət onların minik avtomobillərinə, müasir kompyuterlərə və onların proqram təminatına, İnternet xidmətlərindən faydalanmağa, evə hazır qidaların çatdırılmasına və s. kimi məhsullara tələbatlarının artımına gətirib çıxarmışdır. Bununla əlaqədar, evdə bəzi xidmətlərin görülməsi (məsələn, təmizlik işi, uşaqların qayğısına qalmaq və s.) haqqı ödənilməklə ailə və yaxud ev təsərrüfatı tərəfindən cəlb edilən işçilərə həvalə edilmişdir. Azərbaycan ailələrində müşahidə edilən bu vəziyyət bazara müvafiq məhsulların və xidmətlərin təklifi baxımından marketoloqlara dəyərli informasiyalar verir. Bu informasiyalara əsaslanılmaqla, müəssisələr tərəfindən istehlakçıların tələbatlarına daha çox uyğun olan məhsul və xidmətlərin istehsalına dair düzgün qərar qəbul etmək və beləliklə də, müəssisələrin potensial imkanlarını (marketinq potensialını) istehlakçıların tələblərinə uyğunlaşdırmaq mümkündür. Bunun üçün müəssisələr tərəfindən Azərbaycan istehlakçılarının davranışı, bu davranışa xas olan xüsusiyyətlər marketinq tədqiqatları vasitəsilə müntəzəm surətdə öyrənilməli və marketinqin müasir istehlak cəmiyyətinin formalaşdırılmasında rolu (marketinq istehlak cəmiyyətinin formalaşdırılmasında arxitektor rolunu oynayır) düzgün nəzərə alınmalıdır.

Nəticə

Bazar iqtisadiyyatına keçiddən sonra Azərbaycan istehlakçılarının davranışında əhəmiyyətli dəyişikliklər baş verib. Əvvəlki dövrlərlə müqayisədə hazırda istehlakçıların seçim imkanları ge-

nişlənib, onlar məhsulların seçilməsi və onların alınmasına dair daha çox təcrübə qazanıblar. Aparılan tədqiqatlar göstərir ki, ölkəmizin istehlakçılarının ərzaq məhsullarının alınması və istehlakında ənənəviçilik saxlanılır, qeyri-ərzaq məhsullarının, xüsusilə, geyim məmulatlarının alınmasında lokal və qlobal istehlakın inteqrasiyası özünü göstərir. Bu sahədə də ənənəviçiliyin dirçəldilməsi daxili bazarın yerli istehsal hesabına daha yüksək səviyyədə təmin olunmasına imkan verə bilər. İstehlakçıların marketinq amillərindən reklamlara inam və etibarları elə də yüksək deyil və bu, məhsulların reklamında gedən informasiyaların həmin məhsulların bir çoxunun istehlakından sonra istehlakçıların məmnunluğunun lazımi səviyyədə təmin olunmaması şəklində özünü göstərir. Yerli istehlakçılar məhsulların qiymət səviyyələrinə daha çox həssaslıq nümayiş etdirirlər və bu, onların gəlirlilik səviyyəsinin aşağı olmasından irəli gəlir. Eyni zamanda istehlakçılar pərakəndə ticarət müəssisələri tərəfindən satışın stimullaşdırılması tədbirlərinə yüksək reaksiyaları ilə seçilirlər ki, bu da istehlakçıların gəlirliliyinin aşağı olması ilə şərtlənir.

Azərbaycan istehlakçılarının davranış xüsusiyyətlərinin əhali təbəqələri üzrə dərindən öyrənilməsi cəmiyyətin strukturlaşmasına aydınlıq gətirilməsini tələb edir. Bu sahədə əhatəli tədqiqatlar olmadığına görə, istehlakçı davranışının dərindən öyrənilməsində çətinliklər müşahidə edilir. Sözügedən sahədə tədqiqatların aparılması istehlakçı davranışının daha hərtərəfli öyrənilməsinə və bu tədqiqatdan alınan informasiyalar əsasında müasir istehlak cəmiyyətinin formalaşdırılmasına imkan verə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Ev təsərrüfatları tədqiqatının yekunları, Bakı-2024
2. Quliyev, F.V. İstehlak bazarının marketinq tədqiqinin əsas istiqamətləri. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri" mövzusunda Beynəlxalq Elmi-Praktiki Konfransın materialları, Bakı 1-2 iyun, 2018-ci il, s. 86-90.
3. Quliyev, F.V. Marketinqin idarə edilməsi. Dərs vəsaiti. Azərbaycan Kooperasiya Universiteti, "Kooperasiya" nəşriyyatı, Bakı-2018, 279 s.
4. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 19 sentyabr. 1995-ci il.
5. Filip Kotler, Qari Armstronq. Marketinqin əsasları, 17-ci nəşr, TEAS Press Nəşriyyat evi, Bakı - 2021.
6. Xeyirxəbərov İ.M. Marketinq tədqiqatları. Dərs vəsaiti,AzDİU, 2015, 363 s.
7. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu, 3 oktyabr 1997-ci il.
8. Алешина, И.В. Поведение потребителей: учебное пособие / И. В. Алешина. – М.: ФАИР-ПРЕСС, 2006. – 525 с.
9. Блэкуел, Р. Поведение потребителей / Р. Блэкуел, М. Миниард, Д. Энджел; пер. с англ.- 10-е изд. – СПб.: Питер, 2007. – 943.
10. Девид, А. Аакер. Бизнес-стратегия: от изучения рыночной среды до выработки беспроигрышных решений / Девид А. Аакер. – Москва, «Эксмо», 2007, 464 с.
11. Денисова, Е. С. Поведение потребителей / Е. С. Денисова. – М.: Моск. Финансово-пром. Акад., 2005. -111 с.
12. Драганчук, Л. С. Поведение потребителей [Электронный ресурс]: учебное пособие / Л. С. Драганчук. – М.: ИНФРА-М, 2011. 192 с. – (Высшее образование).
13. Власова, Н. Роман с клиентом. Привлечение, ухаживание и удержание / Н. Власова. – М.: Эксмо-Пресс, 2008.
14. Гилберт Черчилль, Том Браун. Маркетинговые исследования. 5-ое издание / Пер. с англ. Г.Л.Багиева. – СПб.: Питер, 2010, 700 с.
15. Иган, Джон. Маркетинг взаимоотношений. Анализ маркетинговых стратегий на основе

взаимоотношений / Джон Иган. – М.: ЮНИТИ-ДАНА, 2008. – 375.
16. Ильин, В. И. Поведение потребителей: учебное пособие / В. И. Ильин. – СПб.: Питер, 2000. – 223 с.
17. Кормина, О. И. Моделирование поведения потребителей / О. И. Кормина. – ФГБОУ ВО «Тольяттинский Государственный Университет», 2018, 181 с.
18. Ястремская, П. В. Поведение потребителей / П. В. Ястремская. – Минск: БГТУ, 2011. - 133 с.

Фикрет Вели оглы Гулиев
д.э.н., доцент,
проректор по учебной работе
Азербайджанского Университета Кооперации
Email: fikratguliyevv@gmail.com

Особенности поведения потребителей Азербайджана

Резюме

Цель исследования. Целью исследования является изучение особенностей поведения потребителей и определение направлений адаптации маркетингового комплекса к потребительскому спросу на основе этих особенностей.

Методология исследования. В ходе исследования использовались комплексный, системный и интегрированный подходы, а также методы экономико-статистического анализа, сравнения и наблюдения.

Практическая значимость исследования. Предложенные в исследовании рекомендации могут быть использованы предприятиями и хозяйствующими субъектами, занимающимися производством потребительских товаров, для более глубокого понимания поведения потребителей и, на этой основе, для формирования эффективных связей с целевыми аудиториями.

Результаты исследования. В результате анализа поведения потребителей были выработаны предложения и рекомендации по совершенствованию маркетинговой деятельности предприятий, производящих потребительские товары.

Научная новизна и оригинальность исследования. Впервые выявлены особенности поведения азербайджанских потребителей и предложены подходы к адаптации деятельности местных предприятий к требованиям потребительского спроса, что составляет научную новизну и оригинальность работы.

Ключевые слова: поведение потребителей, выбор продукта, маркетинговые факторы, потребительское общество, маркетинговые исследования.

Guliyev Fikrat Vali
Doctor of Economic Sciences, associate professor
Vice-Rector for Academic Affairs,
Azerbaijan Cooperation University
Email: fikratguliyevv@gmail.com

Behavioral characteristics of Azerbaijani consumers

Summary

Purpose of the study. The aim of this study is to examine the behavioral characteristics of consumers and to clarify the ways of adapting the marketing mix to consumer demand based on these characteristics.

Methodology. The study employs a comprehensive, systematic, and integrated approach, along with economic-statistical analysis, comparison, and observation methods.

Practical implications. The recommendations provided in this research can be applied by enterprises and economic entities engaged in the production of consumer goods to better understand consumer behavior and to establish more effective relationships with target audiences.

Research findings. Based on the study of consumer behavior, a set of proposals and recommendations were developed to improve the marketing activities of enterprises producing consumer goods.

Originality and scientific novelty. For the first time, the behavioral characteristics of Azerbaijani consumers have been identified, and suggestions have been made to help local enterprises align with consumer demand. This constitutes the study’s originality and scientific contribution.

Keywords: consumer behavior, product choice, marketing factors, consumer society, marketing research.

UOT: 330.35

Mehriban Hamiz qızı DƏRZİYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti,
“İqtisadi və texnoloji elmlər” kafedrası, magistrant,
mehriban.memmedzade08@mail.ru

Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA
i.e.d., ADİU, “İqtisadi və texnoloji elmlər” kafedrası,
allahverdiyeva_muslumat@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.002.0166

ŞİRKƏTLƏRİN MARKETİNQ KOMMUNİKASİYALARININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – şirkətin marketinq kommunikasiyaları xüsusiyyətlərinin ortaya çıxarılmasıdır. Bu məqsədlə bir neçə vəzifə müəyyən edilmişdir ki,bunlara marketinq kommunikasiyalarının mahiyyətini, anlayışının özünün açıqlanmasını, marketinq kommunikasiyalarının tarixini öyrənmək, müasir marketinq kommunikasiyalarının əsas növlərinin aşkarlanmasını aid edə bilərik

Tədqiqatın metodologiyası - Qarşıya qoyulmuş məqsədə çatmaq, eləcə də problemlərin həlli üçün bir çox nəzəri və təcrübi metodlardan istifadə edilmişdir, bu metodlar qarşılıqlı olaraq birbirini tamamlayır. Marketinq əsasında MKS təkmilləşdirilməsi sisteminin nəzəri-metodoloji əsaslandırılmasında aşağıdakı metodlardan istifadə edilmişdir: tarixi-retrospektiv və monoqrafik təhlil (marketinq kommunikasiya anlayışının açılmasında), müqayisəli təhlil (marketinq kommunikasiyalarının anlaşılması məqsədi ilə elmi ədəbiyyatlarda müəlliflərin mövqeyinin diferensiallaşmasında), məntiqi və sistem təhlili (marketinq münasibətləri əsasında marketinq kommunikasiyaları sistem modelinin formalaşmasında).

Tədqiqatın tətbiqi əhəmiyyəti - Bir çox inkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi, bazar iqtisadiyyatı inkişaf etmiş marketinq institutu olmadan effektiv fəaliyyət göstərə bilməz. Başqa sözlə desək, marketinq - bazarın daxili elementi, onun inkişafının vacib aləti hesab edilir. Odur ki, yerinə yetirilən tədqiqat işinin praktik əhəmiyyəti müəssisələrin uğurlu marketinq kommunikasiya sisteminin qurulması üçün lazım olan müəyyən təklif və tövsiyələrin verilməsindən ibarətdir.

Tədqiqatın nəticələri - İnnovasiyalı mühitdə marketinq idarəetməsinin rolunun aşkarlanması və bunun Azərbaycan bazarı üçün nə qədər əhəmiyyətli oldugunun əsaslandırılmasıdır. Şirkət misalında marketinqin daxili və xarici yaxşılaşdırılması tədbirləri əsasında əsas tövsiyələrin formalaşması və marketinq kommunikasiyalarının əsas istiqamətlərinin xarakteristikasının öyrənilməsindən ibarətdir.

Açar sözlər: kommunikasiya, reklam, stimullaşma, İMOK, MKS.

Giriş

Bir şirkət təkcə sadəcə olaraq əmtəəyə sahib olmaq, onun qiymətini müəyyən etmək və məqsədli auditoriya üçün əlçatanlıq təmin etməklə öz işini bitmiş hesab etməməlidir. Bununla yanaşı, şirkət müştərilərlə kommunikasiya qurmağı bacarmalıdır və onun köməyi ilə müəssisə mal dövriyyəsini və gəlirini yüksəltməyi bacarmalıdır.

Marketinq kommunikasiyaları şirkətin fəaliyyətinin bütün aspektlərində, istər xarici, istər daxili mühitdə makro və mikro əhatəsində dərindən nüfuz edir. Marketinq kommunikasiyaları istənilən şirkətin fəaliyyətində prioritet istiqamətdir, onlar şirkətin xeyirxah imicinin formalaşmasında, alıcı loyallığının artmasında, bazarda əmtəənin düzgün mövqeləşməsində, məqsədli seqment üçün marketinq məlumatının lazımi qaydada formalaşmasında əhəmiyyətli rol oynayır.

Öz növbəsində bazar iqtisadiyyatı şəraitində ənənəvi marketinqdən münasibət marketinqinə keçid marketinq kommunikasiyalarının da dəyişməsinə səbəb olmuşdur. Amma ölkə praktikası bu prosesin başa çatmadığını göstərir. Öz növbəsində marketinq kommunikasiyaları bütün marketinq kompleksi elementlərilə sıx əlaqədədir, çünki iqtisadi və kommunikativ effektivliyi artırmaq üçün kompleks yanaşma vacibdir. İqtisadi ədəbiyyatlarda marketinq kommunikasiyalarının səmərəliliyinin qiymətləndirilməsi üçün çoxsaylı yanaşmalar var, amma bu yanaşmalar əlaqəsizdir, dağınıqdır və hansısa sistem platformanı əks etdirmir.

Bu metodikaların çatışmazlıqları, yəni bahalıq, yüksək vaxt itkisi, dəyişkənliyə operativ cavab vermənin mürəkkəbliyi və s. bütün bunlar göstərir ki, marketinq münasibətləri əsasında marketinq kommunikasiyası sisteminin təkmilləşməsi üzrə metodikanın hazırlanması vacibdir.

Marketinq kommunikasiyalarının növləri, mahiyyəti. Müasir dövrdə, mühüm sosial-iqtisadi dəyişikliklər dövründə kommunikasiya siyasəti şirkətlərin səmərəlilik və rəqabət qabiliyyəti səviyyəsinə təsir edən mühüm göstəriciyə çevrilmişdir. Bu sahədə xarici tədqiqatçılar öz fəaliyyət sahələrində aparıcı müəssisələrin kommunikasiya siyasətinin yüksək inkişaf səviyyəsinə malik olmasını qəbul etmişlər. Yerli alimlərimiz bu fikri nəzərə alaraq xarici metodoloji diaqnostika təcrübəsinin tətbiqi və uyğunlaşdırılması üçün müəyyən tədbirlər görürlər. Rabitə siyasətini təhlil etmək və qiymətləndirmək bacarığı şirkətin fəaliyyətinin səmərəliliyini artırmağa yönəlmiş idarəetmə qərarlarının qəbul edilməsinə kömək edir. Çox vaxt idarəetmənin müxtəlif səviyyələrində rəhbərlik kifayət qədər və ya yanlış məlumat, aktiv kadr axını, işgüzar tərəfdaşların, xidmət istehlakçılarının qarşılıqlı əlaqəsinə vicdansız münasibət və qanunvericilikdə vaxtaşırı dəyişikliklər olduqda idarəetmə qərarı hazırlamaqla qarşılaşır. Nəticədə idarəetmə qərarlarında düşünülməmiş səhvlər ola bilər.

Risk və qeyri-müəyyənlik arasındakı əlaqə birbaşa mütənasibdir, bir göstərici nə qədər yüksəkdirsə, digəri də o qədər yüksəkdir. Onların təbiəti həm subyektiv, həm də obyektiv ola bilər. [3, s. 32] Hər şeydən əvvəl “kommunikasiya” və “marketinq kommunikasiyası” anlayışlarına bu terminlər və ümumi anlaşma haqqında bir təəssürat yaratmaq üçün fərqləndirmə vermək lazımdır. Kommunikasiya latıncadan tərcümədə məlumat, xəbər kimi tərcümə edilir. Bu termin adı altında psixologiyada, filosofiya və marketinqdə məlumat, informasiya mübadiləsi başa düşülür. İnformasiya mübadiləsini müxtəlif üsullarla həyata keçirmək olar: frontal, verbal və qeyri-verbal formada.

İstehlakçılara məlumatların verilməsi ilə marketinq mütəxəssisi onların marağına səbəb olur. Daha davamlı inanclar malı almaq istəyini stimullaşdırır və zəncirin sonunda bu, mübadilə şəklində hərəkətlərə gətirib çıxarır. [2, s. 243] Planlaşmış marketinq kommunikasiyalarını çox əhatəli saxlamaq vacibdir, çünki onları izləmək, təsir etmək mümkündür. Planlaşmış marketinq kommunikasiyaları məqsədyönlü hazırlanır, daha doğrusu, onların konkret məqsədi var. Planlaşdırılmış marketinq kommunikasiyalarına daha əhatəli baxaq [6, s.198].

F.Kotler reklamı konkret müştəri tərəfindən ödənilən mal, xidmət və ya ideyanın irəlilədilməsi və şəxsən olmayaraq təqdimatının istənilən forması kimi müəyyən edir.

Bundan başqa reklam verənlər təkcə ticarət edən kommersiya firmaları deyil, eləcə də mədəniyyət, təhsil, ictimai müəssisələrdə məlumat üçün ictimaiyyətə müraciət edirlər.

Yuxarıda verilən təyinat əsasında arzuedilən auditoriyanın əhatə edilməsi, reklamın yayım tezliyi, auditoriayaya təsir dərəcəsi problemləri tərtib edilir. Eləcə də reklamın müvəqqəti və coğrafi prinsipləri, onun yerləşdirilməsi və media vasitələri müəyyən edilir.

Satışın stimullaşmasında əsas məsələ məqsədi müəyyən etməkdir və bu məqsədə uyğun olaraq satışın stimullaşmasının alətləri seçilir və proqram hazırlanır.Satışın stimullaşmasının məqsədi mal irəlilədilməsi üzrə daha geniş məqsədlərdən irəli gəlir, belə məqsədlərə yeni müştərilərin cəlb edilməsi, rəqib şirkətin mallarının alıcılarının iri partiya mal alışının stimullaşdırılması və s. misal göstərmək olar. [15, s. 245]

Satışın stimullaşdırılması üçün bir çox üsullardan istifadə edilir: kuponlar, ödənişsiz nümunələr, müəyyən şərtlər üzrə satışlar və sair. Ticarətin stimullaşmasına qiymətlərin aşağı salınması,

reklam və nümayiş endirilməsi də daxildir. Sərgi və konferensiyalar, xüsusi reklam elanları ticarət heyəti və işgüzar partnyorların stimullaşması üçün təyin edilmişdir.

Satış və marketinqin təşviqi - müxtəlif istifadə vasitələrini sürətləndirmək üçün nəzərdə tutulmuş stimullaşdırıcı maddələr və/yaxud bazar reaksiyasını gücləndirmək. Satışın təşviqi alətləri istehsalçılar, distribyutorlar, pərakəndə satıcılar, ticarət assosiasiyaları və qeyri-kommersiya təşkilatları da daxil olmaqla əksər təşkilatlar tərəfindən istifadə olunur. İstehlakçı satışının təşviqi məhsulun son istehlakçıları arasında həyata keçirilir. [16, s.102] Satış təşviqi fəaliyyətlərinin sürətli böyüməsi, xüsusilə istehlak bazarlarında bir neçə amilə təsir etdi. Beləliklə, bu gün yüksək səviyyəli rəhbərlik təşviqi effektiv satış vasitələrindən biri kimi qəbul etməyə daha çox hazırdır.

Satışın təşviqi reklamla birlikdə istifadə edildikdə daha təsirli olur. Tədqiqatların birində aşkar edilmişdir ki, satış nöqtələrində şirkətin televiziya reklamı ilə əlaqəli olaraq, oxşar risklərlə müqayisədə satış həcmində 15% artım təmin etdi, stimullaşma paralel olaraq televiziya reklamı ilə əlaqələndirildikdə daha uğurlu nəticə əldə edilir, tək televiziya reklamı və ya təkcə kuponların paylanması ilə müşayiət olunan reklam isə o nəticəni vermir. [5, s.210]

Hər şeydən əvvəl satışın stimullaşması, malın satılması və ya həvəsləndirilməsinə yönələn müəyyən qısa vaxtda istifadə olunan qıcıqlandırıcı üsullardan istifadə edilir.

Satışın stimullaşdırılmasının çoxlu üsulları var. Ən çox rast gəlinənlərə baxaq.

– Birbaşa endirimlər – ildönümü, bayramlar, mövsümi tədbirlər, yeni əmtəə buraxılışı və sair kimi səbəblər göstərməklə yeni qiymətin elan edilməsi, endirim % nisbətində, endirim pul ifadəsində göstərilməklə və s.;

– Qiymət həvəsləndirilməsi müəyyən qısa vaxt kəsiyində tətbiq edilən qiymət endirimidir.

– Xüsusi qiymətlər kiçik mal partiyalarına təklif olunur, səmərəli olaraq ucuz mallara səmərəli formada dəyişdirilə bilir;

– Aktiv təklif – müsabiqələr, oyunlar və lotereyalar alıcının aktiv iştirakını təmin edir.

Bazarın aktiv inkişafı ilə əlaqədar satışın stimullaşmasının yeni metodları ortaya çıxır.

Birbaşa marketinq. Alıcılarla kommunikasiya üçün birbaşa əlaqə sistemindən istifadə edilir, məsələn, birbaşa poçt göndərişləri, kataloqla iş marketinqi, konferensiyalar, telemarketinq, internet marketinq və s.

Hər şeydən öncə birbaşa marketinq alıcılarla əlaqə qurmaq üçün, onun tələbatını öyrənmək üçün, yeni müştərilər haqqında məlumat toplamaq üçün potensial müştərilərdən sifariş axınının yaradılması üçün istifadə edilir.

Şəxsi satış – satıcının alıcı ilə birbaşa əlaqəsidir. Şəxsi satış zamanı alıcı ilə satıcı arasında canlı əlaqə qurulur, bu əlaqə zamanı satıcı məhsulun müsbət və mənfi xüsusiyyətləri haqqında, onun üstünlükləri, çatışmazlıqları haqqında alıcıya məlumat verilir.

Satıcı müştəri ilə müxtəlif qarşılıqlı əlaqələr (formal əlaqələrdən dostluq əlaqələrinə kimi) qura bilər. Yaxşı halda bu münasibətlər uzunmüddətli müqavilələrə çevrilir. Şəxsi satış üçün ssenaridən istifadə edilir. Əvvəlcə satıcı potensial müştəri ilə tanış olur, müqavilə bağlayır. Sonra müştərinin tələbatı aşkarlanır və xidmət göstərilir.

Şəxsi satışın əsas xüsusiyyətləri hər müştəriyə şəxsi yanaşmanın olmasıdır. Xərclər bir əlaqə hesabı ilə çoxdur, alıcının cavab reaksiyası var, məhsul haqqında informasiyaların böyük həcminin ötürülməsinin mümkünlüyüdür. Əsas çatışmazlıq xərclərinin çox olmasıdır.[11,s.14]

İctimaiyyətlə əlaqələr. Ən çox istifadə olunan marketinq kommunikasiya elementi olaraq ictimaiyyət və təşkilatlar arasında məlumat axınının idarə olunmasıdır. Mahiyyət planlaşmış PK məlumatları əsasında ictimaiyyətin fikrinin dəyişdirilməsidir. İctimaiyyətin fikrinin müəssisə, mal, ideya və s. istiqamətində müsbət dəyişdirilməsi və qorunub saxlanmasıdır.[12.s.24]

Sponsorluq – Müəssisəyə maliyyə dəstəyi göstərilməsidir, yəni müəssisəyə, şirkətə müəssisənin müəyyən bir fəaliyyətini reallaşdırmaq imkanını əks etdirən layihənin dəstəklənməsidir.

Artıq marketinq kommunikasiyalarının əsas alətlərini saydıq və qısaca xarakterizə etdik, bu alətlər müəssisəyə qarşıya qoyduqları məqsədə çatmaq üçün çox qısa müddət alıcıya maksimal təsiri ilə xarakterizə olunur.

İnteqrasiya edilmiş marketinq kommunikasiyaları. İnteqrasiya edilmiş marketinq kommunikasiya elementləri bir neçə səbəbdən vacibdir:

1. Ənənəvi qərarlar öz aktuallığını və səmərəliliyini itirdi, çünki, çox sayda reklam məlumatları ortaya çıxdı. Bununla əlaqədar olaraq yeni kommunikasiya vasitələrinin axtarışına və əldə olan vasitələrin yaxşılaşdırılmasına ehtiyac yarandı.

2. Yeni kommunikasiya kanalları ortaya çıxdı ki, əvvəlcə bunları marketinq kommunikasiya sistemində nəzərə almırdılar.

3. Auditoriyanın daralması. Əvvəlki yanaşma bazarın seqmentləşməsi və məqsədli auditoriyanın ehtiyacının müəyyən edilməsi altında məhsul və ya xidmət istehsal etmək, bazarı seqmentləşdirmək vacibdir.

4. Alıcılar üçün malın təyinatı o qədər vacib deyil, nəinki o özündə daşıyır. Məsələn, saat təkcə vaxtı bilmək üçün deyil, həm də satış göstəricisidir. Bununla əlaqədar olaraq şirkət üçün belə detalları qeyd etmək vacib oldu və reklam məlumatının mahiyyəti dəyişdi.

5. Yeni bir vəzifə ortaya çıxdı, təkcə yeni auditoriyanı cəlb etmək yox, eyni zamanda köhnəni saxlamaq lazımdır. Sadiq (loyal) müştəri daha çox xeyir gətirir.

6. Bazarın qloballaşması. Qlobal bazarda fəaliyyət göstərən firmalar bir fakta diqqət etmək məcburiyyətində qaldılar ki, istehlakçıların marketinq kommunikasiyaları qəbul etmələrində milli fərqlər əsas rol oynayır.

Marketinq kommunikasiyalarına həsr edilmiş elmi araşdırmalar əsasən 1990-cı ildə başladı. Bunun əsasını isə Don Şule Stenli Taunsendin və Pol Smit qoymuşdur. F.Kotler hesab edir ki, inteqrasiya olunmuş marketinq kommunikasiyaları – marketinq kommunikasiyaların planlaşdırılması konsepsiyası onun ayrı-ayrı istiqamətlərinin (reklam, satışın stimullaşdırılması, şəxsi satış, PK və s.) rolunun genişləndirilməsinin vacibliyində və bütün ayrı-ayrı müraciətlərdə əks mənalı vasitələrinin kommunikasiya proqramının təsirinin maksimallaşması və ardıcıllığın, dəqiqliyin təminatı olan optimal vəhdətin tapılmasıdır. [7, s.196]

Mütləq bütün mərhələlərin bir-birini tamamlaması vacibdir. Marketinq kommunikasiya sisteminin kompleksini yaratmaq üçün əsas olan 8 mərhələni keçmək lazımdır.

Ən vacib addım – məqsədli auditoriyanın düzgün müəyyən edilməsinin vacibliyidir [10,s.306]. Əgər şirkət məqsədli auditoriyanı düzgün müəyyən etmirsə bu ona baha başa gələcək, çünki məlumat məqsədli auditoriyaya çatmayacaq və müvafiq olaraq o öz məqsədli auditoriyasına satılacaq mallar haqqında heç bir məlumat çatdıra bilməyəcək. Eləcə də bir çox şirkətlər seqmentləşdirmə ilə məşğul olmurlar və öz məlumatlarını bütün müştərilərə eyni formada çatdırmağa çalışırlar. Bu da potensial alıcıların diqqətini cəlb etməyə bilər. Müvafiq olaraq bu da pulun və vaxtın boş itkisinə səbəb olur.

Qeyd etməl lazımdır ki, şirkətin konkret bir satış bazarına istiqamətlənməsi vacibdir. Ona görə ki, hətta ən böyük şirkətlər belə bütün bazarlarda irəliləyə və işləyə bilmirlər. Şirkət müəyyən bir auditoriya, onun konkret marketinq proqramına maraqlı olan auditoriyada uğurlu olurlar.

İkinci mərhələ marketinq kommunikasiya sisteminin məqsədinin qoyulmasıdır.

Üçüncü mərhələ büdcənin müəyyən edilməsidir. Bu mərhələ marketoloqlar üçün ən çətin mərhələ hesab edilir, amma bu mərhələ birbaşa sahədən, satış planından və şirkətin ayırdığı reklam büdcəsindən asılıdır. Dördüncü mərhələnin həyata keçirilməsi zamanı şirkət əmtəənin və ya xidmətin irəlilədilməsi vasitələrini, yəni reklam, satışın stimullaşması PK, şəxsi satış və birbaşa marketinq olmaqla marketinq kommunikasiyalarından birini seçir. Daha effektiv metod bir neçə reklam kanallarından istifadə etmək olar. [19]

Beşinci mərhələdə auditoriya üçün məlumatın mahiyyətini müəyyən etmək vacibdir. Bu etap şəxsi və qeyri-şəxsidir. Kommunikasiyanın şəxsi kanallarına sərgi, mətbuat konfransı, seminar-təqdimat və sair daxildir. Qeyri-şəxsi kommunikasiya KİV hesab olunur. Birbaşa kanalın seçilməsi müraciətin formasından, büdcədən və məqsədli auditoriyanın xüsusiyyətindən asılıdır.

Altıncı mərhələ zamanı auditoriya üçün verilən müraciətin mahiyyətini müəyyən etmək lazımdır. Bu mərhələ vacib mərhələlərdən biridir, əgər bu mərhələdə düzgün, inandırıcı olmayan

müraciətdən istifadə edilməsi bütün marketinq stretagiyasını məhv edə bilər, şirkət bankrot ola bilər. Yeddinci mərhələdə məhsul mala çevrilir, yəni realizasiya baş verir. Sonuncu mərhələ şirkətin əldə etdiyi nəticələrin təhlilidir. Bu mərhələdə marketinq tədqiqatı aparılır, respondentlərdən onların reklam müraciətini xatırladıqları, bu müraciətin onların xoşuna gəlib-gəlməməsi, brend seçiminə necə təsir etməsi, respondentlərin reklam olunan məhsulu alıb-almadıqları soruşulur.

Yekun olaraq qeyd etmək lazımdır ki, inteqrasiya olunmuş marketinq kommunikasiyaları əhəmiyyətli dərəcədə şirkətin həyatını asanlaşdıra və lazımlı göstəriciləri yüksəldə bilər, belə ki, bütün kommunikasiya kanalları ümumi məqsədli eyni müraciətdən gedir.

Şirkətin idarə edilməsində marketinq komunikasiyalarının səmərəliliyinin müəyyən edilməsi metodları. Müasir dövrdə marketinq şirkət üçün idarəetmə qərarlarının hazırlanması və qəbulu üçün əsas rol oynayır. Marketinq anlayışına müəyyən bir təyinat vermək kifayət qədər çətindir. Çünki o özündə bir sıra fəaliyyətləri əks etdirir ki, onlar məhsulun irəlilədilməsinin başa çatması üçün vacibdir. Bunlara bazarın öyrənilməsi və proseslərin təhlili, planlaşması və effektiv marketinq kompaniyaları üçün vacib olan savadlı qərarların qəbulu inkişaf situasiyalarının variantlarının hazırlanmasıdır.

Müasir dünyada marketinq çox mürəkkəb anlayış hesab olunur. Marketinqin əsas məqsədi alıcı tələbatlarının ödənilməsi hesabına şirkətin gəlir əldə etməsidir. Marketoloqların qarşısında alıcıların ehtiyaclarının öyrənilməsi, onların dərdlərinin, problemlərinin aşkara çıxarılması əsas vəzifə kimi durur. Габинская О.С. hesab edir ki, marketinqin əsas vəzifəsi alıcının tələbatının ödənilməsi və bunun hesabına gəlir əldə edilməsi, həm də daha yaxşı şərtlərlə, qarşılıqlı xeyir əldə etməklə alıcılar və satıcılar, istehsalçılar və istehlakçılar arasında bazar razılığının əldə edilməsidir. [6, s. 217]

Marketinq kommunikasiyalarının idarə edilməsi kifayət qədər mürəkkəb bir işdir. Praktikaya görə marketinq kommunikasiyalarının effektivliyinin qiymətləndirilməsi üçün mövcud olan metodları mükəmməl hesab etmək olmaz, ümumiyyətlə bunu təyin etmək üçün vahid bir metod yoxdur. Şirkətlərdə marketinq kommunikasiyalarının qısa müddətdə və ya uzunmüddətli bir dövrdə birbaşa və dolayı təsir edən müxtəlif metodlardan istifadə edirlər. Bəzi dəyişikliklər ölçüyə gələn sürətli dəyişiklik yaradır. Bəzən şirkət tərəfindən istifadə edilən marketinq alətləri gecikmiş effekt yaradır ki, onu izləmək çətin olur, çünki onu digər fəaliyyətlərdən izolə etmək imkanı olmur və həm də onların təsirinin nə vaxt baş verməsi haqqında dəqiq anlayış yoxdur.


Müasir reallıqda əksər şirkətlər öz fəaliyyətlərini onlayn həyata keçirdiklərindən hansı alətin daha çox təsir etdiyini müşahidə etmək mümkün deyil.

Praktikada İOMK istifadəsi zamanı kompleks tədbirlər görülür və onların hansının daha effektiv olmasını müəyyən etmək çətin olur. Şirkətdə problem ortaya çıxır, yəni İOMK tətbiq etməyə dəyirmi? Nəticədə hansı marketinq kommunikasiya elementinin məqsədli auditoriyaya daha çox təsir etməsini müəyyən etmək olmur, İOMK isə uzunmüddətli perspektivdə səmərəlidir.

Marketinq kommunikasiyalarının effektivliyinin iki növünü fərqləndirirlər:

– kommunikativ;

– iqtisadi (Şəkil 1).



Şəkil 1. Marketinq kommunikasiyalarının səmərəliliyinin növləri [14]

Cədvəl 1

Marketinq kommunikasiyalarının effektivliyinin qiymətləndirmə üsulları [15]

Qiymətləndirmə metodları	Metodların xüsusiyyətləri
Birbaşa	*Birbaşa test:* – şirkətə baş çəkənlər; – alıcılar; – eskpertlər, əməkdaşlar; – təsadüfi adamlar.
Dolayı	*Sorğu metodu:* – telefonla zəng edənlər; – faks göndərənlər, alıcılar, başçəkənlər; *Müqayisə metodu:* – reklamda etaplarda kəskin fərqlərin müqayisəsi; – reklamın həcmi ilə yeni müştərilərin müqayisəsi; – reklam xərclərinin müqayisəsi; – satış həcmi ilə reklam; – reklamın həcminin müqayisəsi

Sorğu metodu şirkətə baş çəkənlər, şirkətin alıcıları, telefonla zəng edənlər, sosial şəbəkədə qeydiyyatdan keçənlər arasında sorğu zamanı istifadə edilir.

Reklam effektivliyi (E_R) müəyyən vaxt kəsiyində alıcılarla əlaqənin sayına görə müəyyən edilir:

$$E_{R(t)} = N_{KR}(t) – N_k(R)$$

N_{KR} – reklamdan sonra alıcılarla kontraktların sayı;

N_k – əlaqəliliyi;

t – vaxt, reklamın effektivliyinin qiymətləndirilməsi dövrü kimi başa düşülür.

Reklamın effektivliyi reklamın həcminə proporsional olaraq artır, amma sonra artım olmur.

Reklamın effektivliyinin müqayisəsi üçün d(t) parametrindən istifadə edilir. d(t) – isə aşağıdakı kimi müəyyən edilir:

$$d(t) = З_p(t)/З$$

Burada З – reklam xərcləridir.

İtkilərdən qaçmaq üçün reklamda fikir dəyişdirmək, mövsümilik faktoruna diqqət etmək, onu saxlamaq vacibdir.

Kommunikativ effektivliyi artırmaq üçün iki mərhələdə işləmək lazımdır:

– ilkin (test öncəsi) və yekun (post test).

İlkin mərhələnin nəticəsi üzrə alınan göstəricidən marketinq kommunikasiya proqramı üçün uyğun olanları istifadə edir. Proqramın həyata keçirilməsindən sonra tanınmaq, yadda qalmaq, mal alışını başa çatdırmaq və s. göstəricilər hesablanır və bundan sonra yekun mərhələnin köməyi ilə tədqiqat yekunlaşdırılır.

Parametrlərin köməyi ilə marketinq kommunikasiyalarının effektivliyi müəyyən edilir. Mal irəlilədilməsinin yüksəldilməsi dərəcəsi, alıcıların əlavə olaraq tələbatlarının cəlb edilməsi; loyallığın əldə edilməsi, imic, reputasiya, kreativlik, yeni texnologiyalar keyfiyyət və sair hesabına əlavə gəlirin hesablanmasıdır. Effektivliyin hesablanması gəlirlilik, satış həcmi, rentabellik, mədaxil və s. kimi iqtisadi göstəricilərlə xarakterizə olunur. Marketinq kommunikasiyalarının effektivliyinin hesablanmasının 4 metodu var.

1. Eksperiment nəticələrinin təhlili. Bu metodu həyata keçirmək üçün eksperiment keçirmək lazımdır. Məsələn: Nəzarət istehlak bazarında mal və yer xidmət üzrə reklam buraxılır, oxşar sınaq bazarı tapılır ki, orada reklam verilmir. Əgər nisbətən nəzarət və sınaq bazarını müqayisə etmək olarsa, o zaman sınaq bazarındakı istənilən satış həcmi dəyişikliyi reklam fəaliyyətinin nəticəsi kimi qiymətləndirmək olar.

2. Müqayisəli təhlil metodu marketinq tədbirlərinin elastiklik göstəricisinin hesablanmasında

istifadə olunur, bu zaman əlavə marketinq xərclərinin hər faizinə görə satış həcminin dəyişməsi ölçülür.

$$E_p = \frac{Satış\ həcminin\ dəyişməsi\ faizi}{Marketinq\ tədbirlərinin\ elastikliyi} \\ Marketinq\ xərclərinin\ dəyişməsi\ faizi$$

3. Rentabellik göstəricilərinin tətbiq edilməsi, yəni xərclərə görə alınan gəlirin nisbəti. Rentabellik aşağıdakı kimi hesablanır:

$$R = \frac{P \cdot 100}{C}$$

R – Brendin irəlilədilməsində rentabellik %,

P – gəlir (irəlilədilən brendin satışından əldə edilmiş)

C – xərclər.

Marketinq kommunikasiyalarının mal dövriyyəsinə hansı səviyyədə təsir etdiyini öyrənmək üçün mühasibat və operativ uçot göstəriciləri təhlil edilməlidir. Eləcə də nəzərə almaq lazımdır ki, mal satışı həcminə malın keyfiyyəti, qablaşması, qiyməti, xüsusiyyətləri, müştəriyə xidmət səviyyəsi, ticarət nöqtəsinin yerləşməsi, satışda anoloji məhsulların olması və s. təsir edir. Əlavə mal dövriyyəsini bu düsturla hesablayırlar:

$$T_{əd} = \frac{T_c \times P \cdot D}{100}$$

$T_{əd}$ – marketinq kommunikasiyalarının təsiri ilə yaranan əlavə mal dövriyyəsi

T_c – marketinq tədbirləri keçirilən dövrdə orta günlük mal dövriyyəsinin artımı %

D – kommunikasiya və kommunikasiya sonrası dövrdə uçotunun aparıldığı günlərin mal dövriyyəsi.

Malların irəlilədilməsinin gəlirliliyini öyrənmək üçün iki şirkətin eyni bir zaman kəsiyində mal dövriyyəsini müqayisə etmək lazımdır. Bu şirkətlərin həmin periodda birinə marketinq kommunikasiyaları tətbiq olunacaq, digərinə isə yox.

Əgər marketinq kommunikasiyaları tətbiq edilməyən şirkətdə artım olarsa bu artımın səbəbi digər amillər olacaqdır. Əsas diqqət marketinqdə reklamın effektivliyinə verilir, çünki reklam alıcılara daha çox təsir edir.

İqtisadi effektivlik hər şeydən öncə kommunikativ təsirdən asılıdır. Satışın həcmi marketinq kommunikasiyalarının alıcıya hansı səviyyədə psixoloji təsirindən asılıdır. Satışın həcm və reklam həcminin aktivliyi, marketinq kommunikasiyalarının həcmi heç də həmişə sıx əlaqədə olmurlar (korrelyasiya), belə ki, satış həcminin dəyişməsinə rəqiblərin fəaliyyəti, moda, ölkədəki iqtisadi vəziyyət və s. təsir edir. Marketinq kommunikasiyalarından daha yüksək səmərəlilik təmin etmək üçün müştəriləri, bazardakı situasiyanı, ölkədəki kənarlaşma təmayüllərini izləmək lazımdır.

Nəticə

Beləliklə, səmərəliliyin qiymətləndirilməsinə kompleks yanaşma olmalıdır, marketinq kommunikasiyasının ayrıca elementləri mümkün qədər qiymətləndirilməlidir. İOMK kompleksinin effektivliyi qiymətləndirilərkən iqtisadi və kommunikativ effektliyə birlikdə baxmaq lazımdır, çünki bu vəhdət daha vacib detallara diqqət verməyə məcbur edir.

ƏDƏBİYYAT

1. Aşurov A.S.(2018) Marketinqin kommunikasiya sistemi. Dərslik.” İqtisad Universiteti” nəşriyyatı. Bakı.
2. Акулич И.Л.(2014). Маркетинг: Учебник/ – 3-е изд. – Мн.: Выш. шк., – стр. 242-250
3. Багиева В. Л. (2015).Предвидение маркетинговых технологий. Интерактивный маркетинг, системно-рефлексивный маркетинг. Сравнительный анализ. Управление компетенцией. Измерение и оценка значений: Санкт-Петербург, 286 смр.
4. Борисов А.А., (2019) Стратегии управления коммуникационной политики предприятия при использовании инструментов интернет-маркетинга // Вестник Алтайской академии

экономики и права. – 2019. – № 4-1. – С. 30-35; URL: https://vaael.ru/ru/article/view?id=401 (дата обращения: 13.11.2024)
5. Борушко Н. В. (2012)Маркетинговые коммуникации : курс лекций для студентов специальностей 1-26 02 03 «Маркетинг», 1-26 02 02 «Менеджмент (по направлениям)» / . – Минск : БГТУ, – 307 с.
6. Габинская О.С.(2020)Маркетинговые коммуникации: учеб. пособие для студ. уч реждений высш. проф. образования / О. С. Габинская, Н. В. Дми триева. — М. : Издательский центр «Академия». — 240 с.
7. Kotler F.və digərləri(2017) “Marketinq:ilk addım”, 7-ci nəşr, Bakı
8. Kotler F. (2018)Marketinq menecment. Ekspress-kurs, 2-ci nəşr/Rus dilindən tərcümə/”İqtisad Universiteti” nəşriyyatı, Bakı.
9. Lamben J.J.(.2018) Strateji marketinq. Ekspress kurs, 2-ci nəşr /Rus dilindən tərcümə/”İqtisad Universiteti” nəşriyyatı, Bakı.
10. Маслова Е.В.(2011), Управление персоналом предприятия. Новосибирск: Москва , инфра - м, 312 с .
11. Мироседи С. А.(2016) “Коммуникативная политика как фактор эффективной реструктуризации маркетинговой деятельности предприятия” Международный научный журнал «символ науки» №5/2016 issn 2410-700x,s.15
12. Məhərrəmov R. (2002)İctimaiyyətlə əlaqələr işi. Bakı,-s.29
13. Казущик А.А.(2008)Основы маркетинга: учеб. пособие /А.А. Казущик. — Минск: Беларусь,— стр. 136-147. https://buklib.net/books/
14. Кудасова Е.В. (2017) «Белорусский Государственный Экономический Университет» Минск (Беларусь) Коммуникационная политика - главная составляющая успеха современной туристической организации. http://edoc.bseu.by:8080/bitstream/edoc/90038/1/Kudasova_E._V..pdf
15. Жильцова .О. Н. и др.(2017)Маркетинговые коммуникации : учебник и практикум для академического бакалавриата /; под общей редакцией О. Н. Жильцовой.-Москва : Издательство Юрайт, - 458 с.
16. Sadıxov E. (2012)Məhsulların satışının həvəsləndirilməsi və reklam.Bakı, 195s.
17. “Reklam haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı.2015
18. https://sendpulse.com/ru/support/glossary/
19. https://www.kaznu.kz/content/files/pages/
20. https://libeldoc.bsuir.by/bitstream
21. https://studfile.net/preview/9054637/

Дарзиевой Мехрибан Хамиз
АГЭУ,
кафедры «Экономические и технологические науки» аспирант,
mehriban.memmedzade08@mail.ru

Аллахвердиева Муслимат Аллахверди
д.э.н., АГЭУ, кафедры «Экономические и технологические науки»
allahverdiyeva_muslunat@mail.ru

Направления совершенствования маркетинговых коммуникаций компаний

Резюме

Цель исследования - Целью исследования является раскрытие особенностей маркетинговых коммуникаций компании. Для этого определены некоторые задачи, к которым

относятся сущность маркетинговых коммуникаций, раскрытие самого понятия, изучение. история маркетинговых коммуникаций и выявление основных видов современных маркетинговых коммуникаций.

Методология исследования. Для достижения поставленной цели, а также для решения задач было использовано множество теоретических и экспериментальных методов, эти методы взаимно дополняют друг друга. При теоретико-методологическом обосновании системы совершенствования МКС на основе маркетинга использовались следующие методы: историко-ретроспективный и монографический анализ (раскрытие понятия маркетинговой коммуникации), сравнительный анализ (дифференциация позиций авторов в научной литературе с целью понимание маркетинговых коммуникаций), логический и системный анализ (при формировании системной модели использовался маркетинг, основанный на коммуникациях маркетинговых отношений).

Прикладная значимость исследования: Как видно из опыта многих развитых стран, рыночная экономика не может эффективно функционировать без развитого института маркетинга. Иными словами, маркетинг рассматривается как внутренний элемент рынка, важный инструмент его развития. Поэтому практическая значимость проведенного исследования заключается в предоставлении определенных предложений и рекомендаций, необходимых для создания успешной системы маркетинговых коммуникаций предприятий.

Результатами исследования являются раскрытие роли маркетингового менеджмента в инновационной среде и обоснование его важности для азербайджанского рынка. На примере компании он заключается в формировании основных рекомендаций на основе внутренних и внешних мероприятий по совершенствованию маркетинга и изучении особенностей основных направлений маркетинговых коммуникаций.

Ключевые слова: коммуникация, реклама, стимулирование, ИМОК, МКС.

Darziyeva Mehriban Hamiz
Azerbaijan State Economic University,
“Economic and Technological Sciences”
Department, Master's student,
mehriban.memmedzade08@mail.ru

Allahverdiyeva Muslumat Allahverdi
Doctor of economic sciences, UNEC,
“Economic and Technological Sciences” Department,
allahverdiyeva_muslunat@mail.ru

Dırections of improving marketing communications of companies

Summary

The purpose of the study - The purpose of the study is to reveal the characteristics of the company's marketing communications. For this purpose, a number of tasks have been identified, including the essence of marketing communications, the disclosure of the concept itself, studying the history of marketing communications, and identifying the main types of modern marketing communications.

Research methodology - To achieve the set goal, as well as to solve problems, many theoretical and experimental methods were used, these methods complement each other. The following methods were used in the theoretical and methodological substantiation of the marketing-based MKS improvement system: historical-retrospective and monographic analysis (in opening the concept of marketing communication), comparative analysis (in differentiating the positions of authors in scientific literature for the purpose of understanding marketing communications),

logical and system analysis (in forming a marketing communications system model based on marketing relations).

Applied significance of the research - As can be seen from the experience of many developed countries, a market economy cannot function effectively without a developed marketing institution. In other words, marketing is considered an internal element of the market, an important tool for its development. Therefore, the practical significance of the research work carried out consists in providing certain proposals and recommendations necessary for the establishment of a successful marketing communication system of enterprises.

Results of the research - Revealing the role of marketing management in an innovative environment and substantiating how important it is for the Azerbaijani market.

Keywords: communication, advertising, stimulation, IMOK, MKS.

UOT: 004.056**; JEL:** L86; O33

Simarə Ramazan qızı ƏHMƏDOVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəşilik Akademiyası, magistr
simareehmedova533@gmail.com

Pərviz Əhməd oğlu QURBANOV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəşilik Akademiyası
“Dövlət idarəçiliyində informasiya texnologiyaları”
kafedrasının dosenti
İqdisad üzrə fəlsəfə doktoru
E-mail: parviz.gurban@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.0176

İNFORMASİYA MÜDAFİƏSİ TEXNOLOGİYASI

Xülasə

Tədqiqatın məqsədi – informasiya müdafiəsi texnologiyalarının (IMT) inkişaf perspektivlərini araşdırmaq, mövcud problemləri müəyyənləşdirmək və süni intellekt (AI), maşın öyrənməsi (MÖ) və blokçeyn texnologiyalarının kibertəhlükəsizlik sahəsində potensial tətbiqlərini qiymətləndirməkdir.

Tədqiqatın metodologiyası – Tədqiqatda analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda, IMT sahəsindəki mövcud elmi ədəbiyyatlar və praktik tədqiqatlar araşdırılaraq müqayisəli təhlillər aparılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqatın nəticələri informasiya təhlükəsizliyi sahəsində fəaliyyət göstərən mütəxəssislər, dövlət qurumları və özəl şirkətlər üçün faydalı ola bilər. Xüsusilə, süni intellekt və maşın öyrənməsi əsaslı təhlükəsizlik tədbirlərinin tətbiqi ilə bağlı yeni yanaşmalar təqdim edilir.

Tədqiqatın nəticələri – Araşdırmanın nəticələrinə əsasən, mövcud IMT metodları bəzi kibertəhlükələrə qarşı qeyri-kafi qala bilər. Süni intellekt və maşın öyrənməsi əsaslı sistemlərin təhlükəsizlik sahəsində effektivliyi göstərilmiş və blokçeyn texnologiyasının informasiya təhlükəsizliyi üçün potensial istifadəsi təhlil edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqat IMT sahəsində süni intellekt və blokçeyn texnologiyalarının gələcək tətbiq perspektivlərini sistemli şəkildə araşdıran məqalələrdən biridir. Yeni texnologiyaların kibertəhlükəsizliyə inteqrasiyası və onların effektivliyi ilə bağlı elmi əsaslandırmalar təqdim edilmişdir.

Açar sözlər: İnformasiya müdafiəsi texnologiyası, kibertəhlükəsizlik, məlumat sızıntıları, süni intellekt, kvant şifrələmə, texnoloji irəliləyişlər, potensial təhlükələr.

Giriş

Müasir dövrdə informasiya təhlükəsizliyi hər bir təşkilatın və müəssisənin fəaliyyətinin ayrılmaz hissəsinə çevrilmişdir. İnformasiyanın qorunması müəssisələr üçün təkcə texniki deyil, eyni zamanda hüquqi, maliyyə və təşkilati aspektləri əhatə edən vacib bir sahədir. Məlumat sızıntıları, kibertəhlükələr və digər risklər təşkilatların etibarlılığına, maliyyə göstəricilərinə və iş proseslərinin davamlılığına ciddi təsir edə bilər. Bu baxımdan, informasiya müdafiəsi müəssisələrin uğurlu və dayanıqlı fəaliyyət göstərməsi üçün vacib elementlərdən biridir.

İlk növbədə, informasiya təhlükəsizliyinin əsas istiqamətlərindən biri məlumatların təhlükəsizliyi və qorunmasıdır. Müasir texnologiyaların inkişafı və internetin geniş yayılması nəticəsində məlumatların icazəsiz əldə edilməsi və oğurlanması riski əhəmiyyətli dərəcədə artmışdır. İnformasiya müdafiəsi bu məlumatların gizliliyini qorumaq üçün mühüm rol oynayır. Şəxsi məlumatların

qorunması isə xüsusi qanunvericilik çərçivəsində tənzimlənir. Məsələn, GDPR kimi beynəlxalq tənzimləmələr istifadəçilərin şəxsi məlumatlarının təhlükəsiz saxlanılmasını və icazəsiz istifadəsinin qarşısının alınmasını tələb edir [7].


Digər mühüm aspekt müəssisələrin etibarlılığı və reputasiyasıdır. Güclü informasiya təhlükəsizliyi siyasəti tətbiq edən təşkilatlar müştərilər və tərəfdaşlar arasında etibarlılığını artırır. Məlumatların qorunmasına dair ciddi tədbirlər gördükləri bilinərsə, bu, şirkətə olan inamı yüksəldir və müştəri bazasının genişlənməsinə kömək edir [7]. Əksinə, məlumat sızıntıları və kibertəhlükələr təşkilatların nüfuzuna ciddi zərər vura bilər. Bu səbəbdən təhlükəsizlik tədbirlərinin düzgün planlaşdırılması və tətbiqi reputasiya risklərinin azalmasına töhfə verir.

İnformasiya təhlükəsizliyi həmçinin maliyyə və hüquqi risklərin idarə edilməsində mühüm rol oynayır. Kibertəhlükəsizlik hadisələri müəssisələr üçün böyük maliyyə itkilərinə səbəb ola bilər. Məlumat itkisi, sistemlərin fəaliyyətinin dayanması və bərpa işləri ciddi xərclər tələb edir. Güclü təhlükəsizlik tədbirləri bu kimi maliyyə zərərlərinin qarşısını almağa kömək edir [7]. Bundan əlavə, təhlükəsizlik pozuntuları hüquqi məsuliyyət yarada bilər. Təşkilatlar informasiya təhlükəsizliyi standartlarına əməl etmədikdə, hüquqi tənzimləyicilər tərəfindən cəzalandırıla bilərlər. Hüquqi təhlükələrin qarşısını almaq üçün təhlükəsizlik tələblərinə tam əməl olunmalı və beynəlxalq standartlara uyğun strategiyalar hazırlanmalıdır.

İş mühitində informasiya təhlükəsizliyi həm də iş proseslərinin davamlılığı və əməyin məhsuldarlığı üçün vacibdir. Məlumatların qorunması müəssisənin fəaliyyətinin fasiləsiz davam etməsinə imkan yaradır. Güclü təhlükəsizlik tədbirləri məlumat itkisi, kiberhücumlar və sistem xətalarının qarşısını almaqla iş proseslərinin sabitliyini təmin edir. Eyni zamanda, işçilərin təhlükəsiz mühitdə çalışması onların məhsuldarlığını artırır və daha rahat işləmələrinə şərait yaradır [7]. Müasir texnologiyaların inkişafı ilə texnoloji invaziyalara qarşı mübarizə də vacib məsələyə çevrilmişdir. Süni intellekt və kvant kompüterləri kimi yeni texnologiyalar kibertəhlükəsizlik sahəsinə ciddi təsir göstərir. Bu texnologiyalar mövcud təhlükəsizlik sistemlərinin sınaqdan keçirilməsinə və yeni təhlükəsizlik standartlarının yaradılmasına ehtiyac yaradır. İnformasiyanın qorunmasını təmin etmək üçün intensiv təhlükəsizlik tədbirləri bu yeni risklərə qarşı tətbiq edilməlidir.Bununla yanaşı, informasiya təhlükəsizliyində məlumatların idarə edilməsi və paylaşılması da mühüm əhəmiyyət daşıyır. Effektiv idarəetmə sistemləri müəssisələrin müştərilər və tərəfdaşlarla daha təhlükəsiz əlaqə saxlamasına kömək edir. Təşkilatlar öz məlumatlarını yalnız səlahiyyətli şəxslərlə paylaşmalı və icazəsiz girişlərin qarşısını almaq üçün ciddi təhlükəsizlik protokollarını tətbiq etməlidirlər.İnformasiya təhlükəsizliyinin təmin edilməsində kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması vacib rol oynayır. Bu istiqamətdə təşkilatlar daxilində təhlükəsizlik təlimləri və maarifləndirmə proqramları həyata keçirilməlidir. İşçilərin kibertəhlükələr və təhlükəsizlik tədbirləri haqqında məlumatlandırılması onların daha diqqətli olmasına və potensial təhlükələrə qarşı daha hazırlıqlı olmasına şərait yaradır. Bundan əlavə, təhlükəsizlik sahəsində beynəlxalq və yerli standartların tətbiqi təşkilat daxilində təhlükəsizlik mədəniyyətinin möhkəmlənməsinə kömək edir. Bütün bu amillər nəzərə alındıqda, informasiya müdafiəsi müasir dövrdə müəssisələrin uğurla fəaliyyət göstərməsi üçün əvəzolunmaz elementdir. Bu sahədə güclü və etibarlı təhlükəsizlik tədbirlərinin tətbiqi həm texniki, həm də təşkilati aspektlərdə uzunmüddətli faydalar təmin edir. Məlumatların qorunması strategiyalarının davamlı olaraq yenilənməsi və təkmilləşdirilməsi informasiya təhlükəsizliyi sahəsində səmərəli nəticələr əldə etməyə imkan yaradır. Güclü informasiya təhlükəsizliyi tədbirləri yalnız məlumatların qorunmasını deyil, həm də müəssisələrin gələcək uğurunu və dayanıqlılığını təmin edir.

İnformasiya təhlükəsizliyində çətinliklər və təhlükələr

Müasir dövrdə informasiya təhlükəsizliyinin təmin edilməsi getdikcə daha mürəkkəb və çətin bir prosesə çevrilir. Texnologiyaların inkişafı ilə yanaşı, kibertəhlükələr və məlumat sızmalarının miqyası da artır. Yeni hücum üsulları və zəifliklər ortaya çıxır və bu vəziyyət təşkilatları daha effektiv təhlükəsizlik strategiyaları tətbiq etməyə məcbur edir. İnformasiya təhlükəsizliyində mövcud olan əsas çətinliklər və təhlükələr müxtəlif aspektlərdən təhlil edilə bilər.



Şəkil 1. İnformasiya təhlükəsizliyi

İlk növbədə, kibertəhlükələr informasiya təhlükəsizliyinin ən geniş yayılmış problemlərindən biridir. Kibertəhlükələr əsasən sistemlərə və məlumat bazalarına hücum edərək, onları zədələmək və ya məhv etmək məqsədi güdür. Bu təhlükələrin ən çox rast gəlinən növlərindən biri zərərli proqramlardır (malware). Bunlara viruslar, Troya atları və kəlbətinlər (worms) daxildir. Bu cür proqram təminatları istifadəçilərin məlumatlarını oğurlaya, sistemləri sıradan çıxara və ya şifrələyə bilər. Fidyə hücumları (ransomware) isə məlumatların şifrələnərək istifadəçidən fidyə tələb edilməsi yolu ilə həyata keçirilir. Məsələn, WannaCry və CryptoLocker kimi fidyə proqramları ciddi təhlükələr yaradır [6].

Bundan əlavə, kibertəhlükəsizlik hücumları da geniş yayılmış təhdidlər sırasındadır. Məsələn, phishing hücumları saxta mesajlar vasitəsilə istifadəçiləri aldadaraq onların məxfi məlumatlarını ələ keçirməyə çalışır. Daha hədəfli və spesifik hücumlar olan spear-phishing metodları isə xüsusi olaraq müəyyən şəxslərə və təşkilatlara qarşı yönəldilir. DDoS (Distributed Denial of Service) hücumları isə sistemləri və şəbəkələri həddindən artıq yükləyərək onların fəaliyyətini dayandırmağa çalışır. Xüsusilə zero-day hücumları, yəni hələ aşkar edilməmiş və ya düzəldilməmiş təhlükəsizlik zəifliklərini hədəf alan hücumlar, ən təsirli və təhlükəli metodlardan biri hesab edilir [9].

Məlumat sızmaları da informasiya təhlükəsizliyinin əsas problemlərindən biridir. Bu, məxfi məlumatların icazəsiz şəxslər tərəfindən əldə olunması ilə bağlıdır və müxtəlif səbəblərlə baş verə bilər. Sosial mühəndislik üsulları insanların aldanaraq öz məxfi məlumatlarını açıqlaması ilə nəticələnir. Bu üsullar arasında phishing və pretexting (saxta pretekst vasitəsilə məlumat əldə edilməsi) geniş yayılıb. Digər mühüm təhlükə insider riskləridir. Şirkət daxilində çalışan şəxslər bəzən qəsdən və ya bilmədən məlumatların sızmasına səbəb ola bilirlər. Bu, işçilər, partnyorlar və ya digər əlaqəli şəxslər tərəfindən həyata keçirilə bilər [2].

Məlumat sızmalarına səbəb olan digər amil isə texnoloji zəifliklərdir. Köhnəlmiş və ya düzgün qorunmayan proqram təminatları və sistemlər bu cür sızıntılara gətirib çıxara bilər. Proqramların vaxtında yenilənməməsi və ya lazımi təhlükəsizlik tədbirlərinin görülməməsi kiberhücumçular üçün asan hədəf yaradır.

İnformasiya təhlükəsizliyində əhəmiyyətli rol oynayan digər amil isə infrastruktur zəifliklərdir. Buraya şəbəkə və fiziki təhlükəsizliklə bağlı problemlər daxildir. Şəbəkə hücumları, sistemlərdəki

zəifliklərdən istifadə edərək məlumatların ötürülməsinə müdaxilə etməyi hədəfləyir. Fiziki təhlükəsizlik problemləri isə server otaqlarına və ya digər kritik məlumat mərkəzlərinə icazəsiz girişin olması nəticəsində meydana çıxır. Sistemlərin təhlükəsiz saxlanmaması və fiziki girişlərin kifayət qədər nəzarət altında olmaması ciddi risklər yarada bilər.

Digər bir vacib məsələ isə məlumatın qorunması və idarə edilməsi problemləridir. Müəyyən təşkilatlarda məlumat idarəetmə siyasətinin olmaması və ya düzgün tətbiq edilməməsi ciddi təhlükəsizlik boşluqları yaradır. Qanunvericilik və tənzimləmə uyğunluğunun pozulması da məlumat təhlükəsizliyi üçün əsas problemlərdən biridir. Məsələn, GDPR və digər regional qanunlar məlumatların qorunmasına dair ciddi tələblər müəyyən edir. Bu qanunlara əməl edilmədiyi təqdirdə, təşkilatlar ciddi hüquqi və maliyyə cəzalarına məruz qala bilərlər [9].

İnformasiya təhlükəsizliyi sahəsində qarşıya çıxan yeni və mürəkkəb təhlükələrdən biri də yüksək texnoloji təhlükələrdir. Süni intellekt və maşın öyrənmə texnologiyaları kibertəhlükəsizlikdə yeni imkanlar yaratsa da, eyni zamanda kiberhücumçular üçün də yeni metodlar təqdim edir. Məsələn, süni intellektlə daha inkişaf etmiş phishing hücumları həyata keçirmək mümkündür. Bununla yanaşı, kvant kompüterlərinin inkişafı mövcud şifrələmə metodlarını köhnəldə bilər. Kvant texnologiyalarının gücü sayəsində bugünkü şifrələmə sistemlərinin bir çoxu gələcəkdə təhlükəsizliyini itirə bilər [5].

İnformasiya təhlükəsizliyində digər bir mühüm məsələ isə zəif proqram təminatı və tətbiqlərdir. Köhnəlmiş və ya kifayət qədər qorunmayan proqram təminatları məlumatların oğurlanmasına və sistemlərin sıradan çıxmasına səbəb ola bilər. Müasir dövrdə təşkilatlar üçün informasiya təhlükəsizliyinin təmin olunması yalnız texniki tədbirlərdən ibarət deyil, eyni zamanda sistemlərin daim yenilənməsini və optimallaşdırılmasını da tələb edir.

Bütün bu çətinliklər və təhlükələr nəzərə alınaraq, informasiya təhlükəsizliyi sahəsində müasir və innovativ tədbirlərin tətbiq edilməsi vacibdir. Təhlükəsizlik strategiyaları təkcə texnoloji deyil, həm də insan faktorunu nəzərə alaraq hazırlanmalıdır. Bunun üçün mütəmadi olaraq işçilər üçün təhlükəsizlik təlimləri keçirilməli, təhlükəsizlik protokolları gücləndirilməli və ən müasir texnologiyalar tətbiq edilməlidir. Ancaq bu halda kibertəhlükələrə qarşı effektiv müdafiə tədbirləri həyata keçirmək mümkün olacaqdır [8].



Şəkil 2. Kiber təhlükələr

İnformasiya müdafiəsi sahəsində əsas amillər

İnformasiya təhlükəsizliyinin ən vacib aspektlərindən biri məlumatların qorunmasını təmin etmək üçün istifadə edilən şifrələmə metodlarıdır. Şifrələmə, məlumatları yalnız səlahiyyətli şəxslər tərəfindən oxuna bilən hala gətirmək üçün istifadə edilən texnologiyadır. Müasir dövrdə informasiya təhlükəsizliyinin təmin olunması üçün müxtəlif şifrələmə metodlarından istifadə

olunur. Bu metodlar müxtəlif tətbiq sahələrinə uyğun olaraq fərqlənir və bir neçə əsas kateqoriyaya bölünür.

Simmetrik Şifrələmə

Simmetrik şifrələmə metodları şifrələmə və deşifrələmə üçün eyni açardan istifadə edir. Bu metod yüksək sürətli işləmə imkanına malikdir və böyük həcmli məlumatların qorunması üçün istifadə edilir. Ən geniş yayılmış simmetrik şifrələmə alqoritmlərindən biri AES (Advanced Encryption Standard) hesab olunur.

AES-in əsas xüsusiyyətləri onun 128, 192 və 256 bitlik açar uzunluqlarını dəstəkləməsi və yüksək təhlükəsizlik səviyyəsi təmin etməsidir. Bu şifrələmə metodu sürətli işləmə qabiliyyətinə və geniş istifadə sahəsinə malikdir. Eyni zamanda, ABŞ Milli Standartlar və Texnologiyalar İnstitutu (NIST) tərəfindən təsdiqlənmişdir və maliyyə, dövlət və texnoloji sektorlar da daxil olmaqla bir çox sahədə tətbiq edilir [1].

Simmetrik şifrələmə metodlarından biri də 3DES (Triple Data Encryption Standard) alqoritmidir. 3DES klassik DES (Data Encryption Standard) metodunun üçqat tətbiq olunmuş versiyasıdır və bu səbəbdən daha güclü təhlükəsizlik təmin edir. Lakin, AES ilə müqayisədə 3DES daha aşağı performansa malikdir, çünki məlumatlar üç dəfə şifrələnir və bu da daha çox hesablama gücü tələb edir. Buna görə bəzi müasir tətbiqlərdə 3DES artıq köhnəlmiş hesab olunur [1].

Asimmetrik Şifrələmə

Asimmetrik şifrələmə metodlarında məlumatların şifrələnməsi və deşifrələnməsi üçün iki fərqli açar istifadə olunur: ictimai açar (public key) və gizli açar (private key). Bu metodun əsas üstünlüyü odur ki, şifrələmə üçün istifadə edilən açar məlumatın deşifrələnməsi üçün istifadə edilmir. Asimmetrik şifrələmə xüsusilə məlumat mübadiləsi və rəqəmsal imzalar üçün geniş istifadə olunur.

Ən populyar asimmetrik şifrələmə metodlarından biri RSA (Rivest-Shamir-Adleman) alqoritmidir. RSA böyük ədədlərin faktorizasiyası prinsipi üzərində qurulmuşdur və bu, onun yüksək təhlükəsizlik səviyyəsini təmin edir. RSA metodu geniş istifadə olunsa da, uzun açar uzunluqları tələb etdiyinə görə bəzi tətbiqlərdə yavaş işləyə bilər [1].

Asimmetrik şifrələmənin başqa bir effektiv növü ECC (Elliptic Curve Cryptography) texnologiyasıdır. ECC eliptik əyrilər üzərində işləyən bir şifrələmə metodudur və daha qısa açarlardan istifadə etməklə RSA ilə müqayisədə daha güclü təhlükəsizlik təmin edə bilər. ECC-nin əsas üstünlüklərindən biri mobil və resurs məhdudiyyəti olan sistemlər üçün daha effektiv olmasıdır [1].

Hash Funksiyaları

Hash funksiyaları məlumatların sabit uzunluqda xülasəsini yaratmaq üçün istifadə olunur. Hash alqoritmləri əsasən məlumatların bütövlüyünü qorumaq və dəyişdirilmədiyini təsdiqləmək üçün tətbiq edilir.

Müasir hash alqoritmlərindən biri SHA-256 (Secure Hash Algorithm 256-bit) texnologiyasıdır. SHA-256 məlumatların 256-bitlik xülasəsini yaradır və yüksək təhlükəsizlik təmin edir. Bu alqoritm, xüsusilə blokçeyn texnologiyasında və rəqəmsal sertifikatların yaradılmasında geniş istifadə edilir [4].

Daha yeni və inkişaf etmiş hash funksiyası SHA-3 (Secure Hash Algorithm 3) isə SHA-2 alqoritminin davamı olaraq FIPS PUB 202 standartı ilə təsdiqlənmişdir. SHA-3 müasir təhlükəsizlik tələblərinə uyğunlaşdırılmış yeni nəsil hash funksiyasıdır və əlavə təhlükəsizlik xüsusiyyətləri təqdim edir [4].

Hibrid Şifrələmə

Hibrid şifrələmə metodları simmetrik və asimmetrik şifrələmə metodlarının kombinasiyasına əsaslanır. Bu yanaşma məlumat mübadiləsini daha sürətli və təhlükəsiz etmək üçün istifadə edilir.

Müasir internet təhlükəsizliyində TLS/SSL (Transport Layer Security / Secure Sockets Layer) protokolları hibrid şifrələmənin ən çox istifadə olunan nümunələrindən biridir. TLS və SSL veb brauzerlər və serverlər arasında təhlükəsiz əlaqəni təmin etmək üçün istifadə edilir. Bu protokollar

simmetrik, asimmetrik və hash metodlarını birləşdirərək məlumatların qorunmasını təmin edir [3].

Nəticə

İnformasiya təhlükəsizliyinin əsas təminatçılarından biri şifrələmə metodlarının effektiv istifadəsidir. Müasir dövrdə simmetrik şifrələmə (AES, 3DES), asimmetrik şifrələmə (RSA, ECC), hash funksiyaları (SHA-256, SHA-3) və hibrid şifrələmə metodları (TLS/SSL) kimi texnologiyalar geniş şəkildə tətbiq olunur. Hər bir metodun özünəməxsus üstünlükləri və çatışmazlıqları vardır.


Simmetrik şifrələmə yüksək sürət və güclü təhlükəsizlik təmin etsə də, açarların təhlükəsiz idarə edilməsi problemi yaradır.

Asimmetrik şifrələmə daha yüksək təhlükəsizlik təqdim etsə də, performans baxımından daha çox resurs tələb edir.

Hash funksiyaları məlumatların bütövlüyünü qorumaq üçün istifadə olunur, lakin məlumatların məxfiliyini təmin etmir.

Hibrid şifrələmə metodları, xüsusilə TLS/SSL texnologiyaları, müxtəlif şifrələmə metodlarını birləşdirərək internet üzərindən məlumat mübadiləsini təhlükəsiz şəkildə həyata keçirməyə imkan yaradır.

Günümüzdə kibertəhlükələr və informasiya sızmaları artdıqca, şifrələmə metodları da inkişaf etdirilməli və daim yenilənməlidir. Bu texnologiyaların tətbiqi məlumat təhlükəsizliyini artırmaq, kibertəhlükələrin qarşısını almaq və məxfi informasiyanı qorumaq üçün vacib addımlardan biridir. Hər bir təşkilat və fərdi istifadəçi məlumatlarının təhlükəsizliyini qorumaq üçün ən müasir şifrələmə texnologiyalarından istifadə etməli və təhlükəsizlik siyasətlərini daim yeniləməlidir.



İnformasiya təhlükəsizliyi müasir dövrdə müəssisələrin və fərdi istifadəçilərin məlumatlarının qorunmasında kritik rol oynayır. Kibertəhlükələr, o cümlədən zərərli proqramlar, fidya hücumları və zero-day hücumları, məlumatların təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Məlumat sızmaları, sosial mühəndislik, insider təhlükələr və texnoloji zəifliklər məlumatların icazəsiz şəxslər tərəfindən əldə olunmasına səbəb olur. Müasir şifrələmə metodları, simmetrik (AES, 3DES) və asimmetrik (RSA, ECC) texnologiyalarla məlumatların qorunmasını təmin edir. Şifrələmə metodlarının effektivliyi məlumatların məxfiliyini və bütövlüyünü qoruyur, lakin hər metodun öz müsbət və mənfi tərəfləri vardır. Simmetrik şifrələmə sürətli və güclü təhlükəsizlik təmin etsə də, açar idarəetmə problemləri yarada bilər. Asimmetrik şifrələmə isə daha uzunmüddətli təhlükəsizlik təmin edir, amma daha yüksək hesablama gücü tələb edir. Hash funksiyaları məlumatların bütövlüyünü təsdiqləyir, lakin məlumatların gizliliyini təmin etmir. Hibrid şifrələmə metodları, məsələn, TLS/SSL, müxtəlif təhlükəsizlik texnologiyalarını birləşdirərək geniş miqyaslı mühafizə təmin edir. Təhlükəsizlik tədbirləri daim yenilənməli və inkişaf etdirilməlidir, çünki kibertəhlükələr və texnologiyalar sürətlə dəyişir. İnsider təhlükələr və texnoloji zəifliklər, müvafiq təhlükəsizlik tədbirləri olmadan ciddi risklər yarada bilər. Eyni zamanda, hüquqi və tənzimləyici tələblərə

uyğunluq məlumatların qorunması üçün əsasdır. Məlumatların qorunması yalnız texnologiya ilə deyil, həm də insan faktoruyla bağlıdır. Təhlükəsizlik mədəniyyətinin formalaşdırılması, müntəzəm təlimlər və təhlükəsizlik siyasətləri müvəffəqiyyətli məlumat qorunması üçün vacibdir. Müasir təhlükəsizlik texnologiyalarının effektivliyi məlumatların qorunmasını daha təhlükəsiz və etibarlı edir. Yenilikçi şifrələmə metodlarının tətbiqi məlumatların mühafizəsini daha da gücləndirir. Təhlükəsizlik sahəsindəki inkişaflar, həmçinin yeni risklər və çətinliklər ilə mübarizəyə kömək edir. Məlumat təhlükəsizliyini təmin etmək həm fərdi istifadəçilər, həm də müəssisələr üçün davamlı bir prosesdir.

ƏDƏBİYYAT

1. https://www.cryptomathic.com/news-events/blog/symmetric-key-encryption-why-where-and-how-its-used-in-banking
2. National Institute of Standards and Technology (NIST). (2022). Framework for Improving Critical Infrastructure Cybersecurity. NIST. https://www.nist.gov/cyberframework
3. Əliquliyev R.M., İmamverdiyev Y.N.. Kriptoqrafiyanın əsasları, Bakı 2006, səh 71-72.
4. Uma Dixit.Cryptography — Security in E-Banking. IOSR Journal of Business and Management (IOSR-JBM).
5. Gartner, Inc. (2023). Hype Cycle for Cybersecurity, 2023. Gartner
6. https://www.linkedin.com/advice/3/how-can-you-secure-financial-transactions#how-does-cryptography-secure-financial-transactions
7. Chen, T., & Liu, J. (2018). Cybersecurity and Privacy: A Survey on Recent Advances and Emerging Challenges. İn: Proceedings of the IEEE International Conference on Computer Communications, 1-8. IEEE.
8. https://www.devglan.com/online-tools/text-encryption-decryption
9. https://openvpn.net/solutions/industries/finance/

Симара Рамазан Ахмедова
simareehmedova533@gmail.com

Пярвиз Ахмед Курбанов
Доцент кафедры «Информационные технологии в государственном управлении»
Академия государственного управления при Президенте Азербайджанской Республики
Доктор философии по экономике
E-mail: parviz.gurban@gmail.com

Технология защиты информации

Резюме

Цель исследования:Цель данного исследования – изучить перспективы развития технологий защиты информации (ТЗИ), определить существующие проблемы и оценить потенциальные применения искусственного интеллекта (ИИ), машинного обучения (МО) и технологии блокчейн в области кибербезопасности.

Методология исследования:В исследовании использованы методы анализа, синтеза, сравнения и обобщения. Кроме того, был проведен сравнительный анализ существующей научной литературы и практических исследований в области ТЗИ.

Практическая значимость исследования:Результаты данного исследования могут быть полезны специалистам в области информационной безопасности, государственным учреждениям и частным компаниям. В частности, представлены новые подходы к

внедрению мер безопасности на основе ИИ и МО.

Результаты исследования:Результаты исследования показывают, что существующие методы ТЗИ могут оказаться недостаточными против некоторых киберугроз. Продемонстрирована эффективность систем на основе ИИ и МО в сфере кибербезопасности, а также проанализировано потенциальное использование технологии блокчейн для защиты информации.

Оригинальность и научная новизна исследования:Данное исследование является одним из немногих системных анализов, изучающих перспективы применения ИИ и блокчейн-технологий в сфере ТЗИ. Представлены научные обоснования интеграции новых технологий в кибербезопасность и их эффективности.

Ключевые слова: Технологии защиты информации, кибербезопасность, утечки данных, искусственный интеллект, квантовое шифрование, технологические достижения, потенциальные угрозы.

Simara Ramazan Ahmadova
simareehmedova533@gmail.com

Pərviz Ahmad Qurbanov
Associate Professor at the Department of "
Information Technologies in Public Administration"
Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
Doctor of Philosophy in Economic
E-mail: parviz.gurban@gmail.com

Information Protection Technolog

Summary

Research Objective: The aim of this research is to explore the development prospects of information protection technologies (IPT), identify existing challenges, and evaluate the potential applications of artificial intelligence (AI), machine learning (ML), and blockchain technologies in the field of cybersecurity.

Research Methodology: The study employs analysis, synthesis, comparison, and generalization methods. Additionally, existing scientific literature and practical studies in the field of IPT have been examined to conduct comparative analyses.

Practical Significance of the Research:The findings of this research may be beneficial for specialists in information security, government agencies, and private companies. In particular, new approaches to the implementation of AI- and ML-based security measures are introduced.

Цель исследования является анализ основных характеристик, современных тенденций и стратегических приоритетов внешнеэкономических связей Азербайджана в целях усиления глобальной экономической интеграции и устойчивого развития страны.

Методология работы заключалась в анализе сущности и приоритетов внешнеэкономических связей Азербайджана посредством статистической оценки торговых и инвестиционных потоков и сравнительного анализа моделей международного экономического сотрудничества.

Прикладная важность исследования заключается в том, что оно позволит прояснить и продемонстрировать, как укрепление внешнеэкономических связей Азербайджана на основе национальных приоритетов может способствовать устойчивому экономическому росту, диверсификации экспорта и повышению международной конкурентоспособности.

Результаты исследования подтвердили, что внешнеэкономические связи Азербайджана все больше формируются под влиянием приоритетов диверсификации, стратегического регионального партнерства и экспортно-ориентированных стратегий, что способствует усилению интеграции страны в мировую экономику и повышению ее долгосрочной экономической конкурентоспособности.

Оригинальность исследований и научная инновация исследования заключается в его всестороннем анализе меняющихся основ внешнеэкономической политики Азербайджана и акценте на стратегической ориентации на ненефтяные секторы и региональную экономическую интеграцию как ключевые факторы устойчивой национальной конкурентоспособности.

Ключевые слова: экономические связи Азербайджана, интеграция, национальные приоритеты, международное сотрудничество, глобальный, стратегическая ориентация.

Ummuhabiba Mammadtaghi Galandarova
Ph.D, associated professor, BSU

The essence of Azerbaijan's foreign economic relations and its priorities

Summary

The purpose of the study is to analyze the fundamental characteristics, current trends, and strategic priorities of Azerbaijan's foreign economic relations in order to strengthen the country's global economic integration and sustainable development.

Methodology of the work consisted of analyzing the essence and priorities of Azerbaijan's foreign economic relations through statistical assessment of trade and investment flows and comparative analysis of international economic cooperation models.

The applied importance of the research is that it will clarify and demonstrate how strengthening Azerbaijan's foreign economic relations based on national priorities can contribute to sustainable economic growth, export diversification, and enhanced international competitiveness.

Research findings confirmed that Azerbaijan's foreign economic relations are increasingly shaped by diversification priorities, strategic regional partnerships, and export-oriented strategies, strengthening the country's integration into the global economy and strengthening its long-term economic competitiveness.

Research originality and scientific innovation of the study lies in its comprehensive analysis of Azerbaijan's evolving foreign economic policy framework and its emphasis on strategic orientation to non-oil sectors and regional economic integration as key factors for sustainable national competitiveness.

Keywords: Azerbaijan's economic relations, integration, national priorities, international cooperation, global, strategic orientation

UOT 330.656

Murad Rahim oğlu MƏMMƏDOV
Lənkəran Dövlət Universiteti, müəllim
muradmemmedov817@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.002.0200

AZƏRBAYCANIN NƏQLİYYAT – LOGİSTİKA POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – Logistikanın milli iqtisadiyyatın bütün istiqamətləri üzrə inkişafında, əlavə dəyərin və bununla da ölkənin ÜDM-nin artırılmasında mühüm rolunu tədqiq etməkdir.

Tədqiqatın metodologiyası – Tədqiqat işində təhlil, sintez və ümumiləşdirmə kimi iqtisadi metodlardan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Ölkəmizdə kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi perspektivlərini hədəf seçən logistika, qlobal inteqrasiya və dünyanın ən qabaqcıl təcrübələrinə əsaslanaraq tranzit ticarətindən ən yüksək gəlir əldə etmək məqsədi ilə əlavə dəyər yaradan xidmətləri təmin edir.

Tədqiqatın nəticələri – Qeyri-neft sektorunun inkişafı üzrə prioritet sahələrdən biri kimi logistika iqtisadiyyatın bütün digər sektorlarının üzvi əlaqələndirilməsində mühüm faktor kimi çıxış edərək bu sektorların inkişaf etdirilməsində təkanverici rol oynayır. Azərbaycan məhz nəqliyyat dəhlizləri (Şimal-Cənub, Şərq-Qərb) hesabına qlobal dəyər zəncirində ölkənin mövqeyini möhkəmlədə bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Bazar münasibətləri sisteminin mürəkkəbliyi, özünün dinamikliyi ilə seçilən bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin hər dəfə dəyişən iqtisadi vəziyyətdən çıxış yolları axtarması və bu tip problemləri həll etməsi məhz iqtisadiyyatın logistləşdirilməsinə zəruriyyət yaradır.

Açar sözlər: logistika, əlavə dəyər zənciri, yüklərin daşınması logistikası, tranzit yüklər, tranzit daşımalar.

Giriş

Son 10 ildə Azərbaycan Respublikası dünyada iqtisadi artım tempinə görə qabaqcıl ölkələr sırasında qərarlaşmışdır. Uğurla həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlər əmtəə və xidmətlər bazarının infrastrukturunun modernləşdirilməsinə, qeyri-neft sektorunun inkişafına, dövlətin balansında olan aktivlərin artmasına, ÜDM-in həcmini üstələyə bilən səviyyədə strateji valyuta ehtiyatlarının yaradılmasına səbəb olmuşdur. 2014-cü ildən başlayaraq, dünya bazarlarında neftin qiymətinin kəskin azalması (iqtisadi əhəmiyyətinə baxmayaraq, neft-qaz sektoru əvvəlki il ərzində ümumi məşğulluğun bir faizindən artıq olmayıb) və ticarət tərəfdaşı ölkələrdə müşahidə olunan iqtisadi böhran nəticəsində ölkəmizdə iqtisadi artım sürəti bir qədər səngimiş, son dövrlərdə maliyyə-bank sektorunda baş verən iqtisadi proseslər fonunda, ölkədə milli iqtisadi inkişafı təmin edən bu və ya digər iqtisadi platformalara, yeni iqtisadi yanaşmalara böyük ehtiyac yaranmışdır.

Dayanıqlı və davamlı iqtisadi inkişafı təmin edə bilən aparıcı sahələrə üstünlük verilməsi, ticarət və emal sahələrinin, özəl sahibkarlığın, yüksək texnologiyalara əsaslanan və böyük həcmdə dəyər yaradan sektorların inkişaf etdirilməsinə diqqətin yönəldilməsi xüsusi ilə böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi Milli iqtisadiyyatın struktur baxımdan yenilənməsi, biznes mühitinin yaxşılaşdırılması, ortamüddətli xərc strategiyası çərçivəsində yeni siyasətin həyata keçirilməsi, maliyyə-bank sektorunun yaxşılaşdırılması və monetar siyasətin təkmilləşdirilməsi, eləcə də xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Milli

iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart 1897 saylı Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyi, inklüzivliyi və sosial rifahın daha da yaxşılaşdırılması, real və maliyyə sektoru arasında tarazlığın təmin edilməsini strateji hədəf kimi müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi rəqabətli, şaxələndirilmiş, inklüziv, dayanıqlı iqtisadiyyatın qurulması təşəbbüslərinin tərkib hissəsi kimi hazırlanmışdır. Bu xəritə logistika və ticarət sahəsində iqtisadi inkişaf üzrə Azərbaycan Respublikasının 2025-ci ilədək və ondan sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektivlərini müəyyənləşdirir.

Strateji Yol Xəritəsinə əsasən əhəmiyyətli ticarət marşrutları üzrə Çin-Avropa, Mərkəzi Asiya-Avropa, Mərkəzi Asiya-Qara Dəniz, İran-Rusiya, İran-Qara Dəniz, Rusiya Hindistan ticarət əlaqələrinin inkişafı üçün Ələt limanının istifadəyə verilməsi ticarətin həcminin artmasına və Azərbaycanın vacib regional logistika mərkəzinə çevrilməsinə şərait yaratmışdır.

Təbiidir ki, ölkəmizin coğrafi mövqeyi, yəni Avropa ilə Asiyanı birləşdirən ən qısa nəqliyyat marşrutlarının qovşağında yerləşməsi logistikanın yaratdığı üstünlüklərdən istifadə etməklə nəqliyyat sektorunun inkişafı üçün geniş imkanlar yaradır. Coğrafi baxımdan Azərbaycan ümumi əhalisi 300 milyon nəfərdən çox olan və ÜDM-i 3 trilyon ABŞ dollarına çatan üç iri dövlətin - İran, Rusiya və Türkiyənin əhatəsində yerləşir. Daha geniş miqyasda ölkəmiz cəmi ÜDM-i 30 trilyon ABŞ dollarına çatan Avropa Birliyi, Çin və Körfəz ölkələri bazarlarının yaratdığı mərkəzdə durur. Məsələn, Azərbaycanla dünyada iqtisadi cəhətdən inkişaf etmiş Çin arasında yalnız Qazaxıstan; Azərbaycanla Körfəz ölkələri arasında İran və Avropa Birliyinə daxil olan ölkələr arasında yalnız Gürcüstan yerləşir. Bu isə onu deməyə əsas verir ki, istər qısa, istərsə də iri radiuslu dairədə ölkəmizin böyük bazarlara çıxış imkanları genişdir.

İqtisadi cəhətdən dünyada ikinci hesab edilən Çini iqtisadi regionlarla birləşdirəcək Böyük İpək Yolu marşrutunun, eyni zamanda Avropa, Rusiya, İran, Hindistan və Mərkəzi Asiyanı birləşdirəcək Şimal-Cənub dəhlizinin də bir xətti Azərbaycan ərazisindən keçir. Aydındır ki, ölkənin coğrafi mövqeyinin verdiyi potensial üstünlüklər ölkə ərazisindən keçən tranzit yüklərinin həcmini artırmaqla marşrut boyu istehsal və nəqliyyat-logistika xidmətləri üçün imkan yaradır. Nəzərə almaq lazımdır ki, təkcə tranzit ölkəsi deyil, həmçinin öz ərazisindən keçən logistik yüklər üzərində əlavə dəyər yaratmaq imkanına malik olan Azərbaycan məhz nəqliyyat dəhlizləri (Şimal-Cənub, Şərq-Qərb) hesabına qlobal dəyər zəncirində ölkənin mövqeyini möhkəmlədə bilər. Təbiidir ki, bu amil ölkənin logistik aktivliyinin daim inkişaf etdirilməsi, onun regional və beynəlxalq ticarətdə rolunun artmasına təkan verir.

Nəzəri və praktiki elm sahəsi hesab edilən logistikanın yaratdığı üstünlüklərdən ölkə iqtisadiyyatında istifadə etmək üçün hər şeydən əvvəl logistikadan istifadəni şərtləndirən amillərin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin hər dəfə dəyişən iqtisadi vəziyyətdən çıxış yolları axtarmaları məhz iqtisadiyyatın logistikləşdirilməsinə zəruriyyət yaradır. Təkcə onu qeyd etmək lazımdır ki, 2022-ci ildə dünya üzrə logistikanın yaratdığı ümumi dəyər Dünya Bankı tərəfindən müxtəlif altsektorlar üzrə 2,8 trilyon dollar həcmində qiymətləndirilmişdir [2]. Ümumi yanaşma kontekstindən istifadə etməklə iqtisadiyyatın logistləşdirilməsinin obyektiv zəruriliyi əsasən aşağıdakı amillərə görə müəyyənləşir:

- istehsal strategiyasında və məhsul yeridilişi sistemində əhəmiyyətli dəyişikliklərlə müşahidə olunan satıcı bazarından alıcı bazarına keçid;
- bölüşdürmə proseslərinin keyfiyyətinə tələbatın artması ilə bağlı satış problemlərinin çətinləşməsi;

- ölkədaxili və dünya təsərrüfat əlaqələrinin yenilənməsi mübadilə sferasında tədavül xərclərinin artmasına gətirib çıxardığından, təsərrüfat subyektlərinin əsas diqqəti bazar fəaliyyətinin optimallaşdırılması üçün yeni formaların axtarılıb tapılması və bu sferada xərclərin azaldılması;

- **müasir şəraitdə ağırlıq mərkəzinin** məhsul və xidmətlərin istehsalı sferasından bölgü və mübadilə sferasına keçməsi (nəzərə alınmalıdır ki, material axınlarının ilkin xammal mənbəyindən son istehlakçıya qədər ümumi vaxtının 93%-i məhsulların müxtəlif bölgü və satış kanallarında saxlanılmasına, 2%-i xüsusi istehsala, 5%-i məhsulların nəql edilməsinə sərf edilir);

- orta təbəqənin güclənməsi hesabına ölkələrarası əmtəə ticarəti dövriyyəsi həcminin artması. Son 20 il ərzində açıq bazarlara və liberal ticarətə əsaslanan iqtisadi inkişaf modelinin baza kimi götürüldüyünü nəzərə alsaq, görərik ki, əmtəə ticarəti dövriyyəsinin artım tempi qlobal ÜDM-in artım tempini sürətlə üstələyir. Dünya Bankının milli iqtisadiyyata dair məlumatlarına, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının hesablamalarına görə, məhsul və xidmət ixracının qlobal ÜDM-də xüsusi çəkisi 1975-ci ildə 16,5%; 1995-ci ildə 22% (5,5% artım) və 2022-ci ildə isə 32,7% (3.2 % artım) təşkil etmişdir;

- sektorlar və təsərrüfat subyektləri səviyyəsində coğrafi seqmentləşdirmənin aparılması, beynəlxalq əməliyyatların genişləndirilməsi. Bu, ilk növbədə yeni və inkişaf etməkdə olan bazarların yaratdığı imkanlardan faydalanmaq üçün fəaliyyətin yeni coğrafi məkanlara transformasiyasını nəzərdə tutur;

- diqqəti əsas sahəyə yönəltməklə aralıq və bəzi hazır məhsulların kənardan tədarük edilməsi təcrübəsindən yararlanmaqla minimum xərclərə əsaslanan istehsal əməliyyatlarının genişləndirilməsi;

- qlobal dəyər zəncirinin yaradılmasında İKT-nin, nəqliyyat sisteminin texniki imkanlarından və yeni maliyyələşmə alətlərinin üstünlüklərindən istifadə edilməsi və s.

Qeyd edilən amillərin hər biri logistik baxımdan geniş tədqiqat tələb edir. Lakin, Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsindən irəli gələn strateji hədəflərə çatmaq üçün ilk növbədə respublikamızda logistik infrastrukturun mövcud vəziyyətini analitik qiymətləndirmək lazım gəlir. Bunun üçün ilk növbədə istər ölkədaxili, istərsə də beynəlxalq yükdaşımalarda müstəsna rola malik nəqliyyat parkının cari vəziyyəti, eləcə də idxal və ixrac yukdaşımaların strukturu təhlil olunmalıdır.

Nəqliyyat-logistika xidməti ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini müəyyən edən əsas faktorlardan biridir. ÜDM-də nəqliyyatın payının yüksək olması (4,5%), nəqliyyat üzrə daşımalara təqdim olunan yüklərin konfiqurasiyası ilə birbaşa əlaqədardır.

Beynəlxalq Ticarət Mərkəzinin apardığı hesablamalara əsasən ümumi xidmət ixracatında yükdaşıma xidmətlərinin payında ölkəmizdə son illərdə təxminən 10% artım olduğu halda, oxşar ölkələrdə (Qazaxıstan, İran, Rusiya, Bolqarıstan, Türkiyə, Rumıniya, Gürcüstan nəzərdə tutulur) bu rəqəm 8-52% arasında dəyişir. Bu daşımalarda idxal və ixrac əməliyyatlarının miqdarı böyük, yüklərin son təyinat məntəqəsinə çatdırılmadan əvvəl aralıq məntəqəyə daşınması ilə bağlı tranzit yükdaşımaların miqdarı isə nisbətən azdır.

Logistik sistem daxilində səmərəli nəqliyyat növünün seçilməsi və müqayisəli qiymətləndirmənin aparılması. Hər bir nəqliyyat növünün faktiki texniki-istismar və iqtisadi göstəriciləri nəzərə alınmaqla onu qeyd edə bilərik ki, dəmiryol və dəniz nəqliyyatı ilə yükdaşımalarda tranzit daşımalarının xüsusi çəkisi müvafiq olaraq 23% və 59% təşkil etmişdir. Tranzit yükdaşımalara cəlb edilən məhsullar əsasən kənd təsərrüfatı və emal edilmiş neft məhsulları, kömür və koks, mineral məhsullar, xam neft şəklində olan maye yüklərdən ibarətdir (*cədvəl 1*). Müqayisə üçün qeyd etmək lazımdır ki, həmin dövrdə Gürcüstanda dəmiryolu ilə daşınan yüklərin 71%-ni tranzit yüklər təşkil etmişdir [4].

Cədvəl 1

Azərbaycan Respublikasının nəqliyyat sisteminin texniki-istismar və iqtisadi göstəriciləri

Nəqliyyatın növü	Daşınan yüklər, km/ton	Bir ton yükün orta daşınma məsafəsi, km	Yük dövriyyəsi, mlyn. t/km	Yükdaşımalara çəkilən xərclər, min/manat	Yükdaşımalardan əldə olunan gəlirlər, min/manat	Nəqliyyata yönəldilmiş investisiyalar, mlyn/manat	Ümumi yük dövriyyəsində xüsusi çəkisi, %-lə
Dəmir yolu	21.8	338.2	7.4	1.990.4	236.3	416.2	7.9
Avtomobil	128.6	112.9	14.5	415.7	1.020.030	358.2	15.51
Dəniz	9.9	415.1	4.2	119.1	102.339	142.6	4.4
Hava	125.0	3.9	481.0	770.3	837.820	82.2	0.5
Cəmi	285.3	870.1	544.9				

Cədvəldə göründüyü kimi, qeyd edilən nəqliyyat növlərini xarakterizə edən hər bir göstəricinin dəyər formasında ifadə olunmamasına baxmayaraq, göstəricilər üzrə təhlilin aparılması idarəetmə qərarlarının qəbulu zamanı bütün müsbət və mənfi aspektlərin nəzərə alınmasını tələb edir. Məlumatların müqayisəsi material axınlarını idarə edən logistik menecerlərə bazar rəqabətinin olduğu mühitdə texniki və iqtisadi amilləri nəzərə alaraq müəyyən nəqliyyat növü üçün məhsul yeridilişi kanallarının seçilməsi problemini operativ həlletmə imkanı yaradır. Əlbəttə, bu cür problemlərin həlli təsərrüfat subyektlərinə imkan verir ki, onlar hər bir maddə üzrə logistik xərc itkilərini azaldaraq qənaət əldə etsinlər (cədvəl 2).

Cədvəl 2.

Logistik xərclər üzrə məsrəflərin strukturu, %-lə

Xərc maddələri	Minimal həd	Maksimal həd	Orta həd
Məhsulların daşınması	22.7	64.5	54.0
Ehtiyatların saxlanması	27.0	70.7	37.5
Yükləmə-boşaltma işləri	4.4	17.1	8.5

Şübhəsiz ki, təsərrüfat rəhbərləri və menecerlər yük tarifləri ilə yanaşı, eyni zamanda məhsul daşınmalarına çəkilən bütün məsrəflərin də uçota alınmasını həmişə diqqət mərkəzində saxlamalıdırlar, çünki ekspert qiymətləndirmələrinə görə, logistik metodların tətbiqi ehtiyatların səviyyəsinin 30-50%, nəqletmə müddətinin isə 25-45% azaldılmasına imkan verir.

Nəzəri baxımdan Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb dəhlizindən istifadə etməklə əldə edə biləcəyi əlavə ticarətin həcmi quru və maye yük, konteyner daşımaları ilə birlikdə 230 milyon tondur [1]. Ən gəlirli marşrutların əksəriyyətinə rəqabətin güclü olduğu Çinlə ticarət daxildir ki, Azərbaycanın da bir ölkə kimi bu marşrutda iştirakı logistik yük dövriyyəsinin artırılması baxımından böyük əhəmiyyət kəsb edir (*cədvəl 3*).

Cədvəl 3

Quru və maye yük, konteyner daşımalarının həcmi (milyon ton)

	Çindən Avropaya	Avropadan Çinə	Çindən Qara dəniz və Şimalı Afrikaya	Qara dəniz və Şimalı Afrikadan Çinə	Cəmi
Konteynerlər	52.0	30.0	9.0	9.0	100
Quru yük	8.0	10.0	8.0	30.0	56.0
Maye yük	35.0	0.1	6.0	1.0	42.0

Bütün bunlar onu deməyə əsas verir ki, güclü cəhətlərinə və mövcud imkanlara əsaslanaraq Azərbaycanın perspektiv dövrdə logistika sahəsində başlıca hədəfi başqa ölkələrlə tərəfdaşlıq

münasibətlərini gücləndirməklə səmərəli fəaliyyət göstərən regional əhəmiyyətli logistik mərkəzə çevrilməkdən ibarətdir.

Mühüm regional əhəmiyyətli logistik qovşağa çevrilmək Əsas nəqliyyat dəhlizlərinin üstünlüklərindən yararlanmaq üçün logistik yüklərin nəqletmə müddətinin nəzərə alınması olduqca əhəmiyyətlidir, çünki məhsulların nəql edilməsinə sərf edilən vaxt müddəti nə qədər böyük olarsa, bütün bərabər şərtlər daxilində məhsulların mübadilə sferasında qalması müddəti artır, daha doğrusu, maddi istehsala cəlb edilməsi üçün gözləmə vaxtı uzanır. Məsafənin eyni zamanda daşınan məhsul miqdarının artması yolda olan və ya nəql edilməsini gözləyən məhsul partiyasının həcminin artmasına, nəqletmə sürətinin artması isə bu kəmiyyətin azalmasına səbəb olur. *(cədvəl4).*

Cədvəl 4.

Vaqon, konteyner və kiçik göndərmələr üçün normativ nəqletmə müddəti, km

Yüklərin daşınma məsafəsi, km	Vaqon göndərmələri üçün normativ nəqletmə müddəti, km /gün	Konteyner və kiçik gönlərmələr üçün normativ nəqletmə müddəti, km /gün
100-ə qədər	110	-
200-599	160	75
600-999	240	100
1000-1999	310	140
2000-2999	330	180
3000-4999	380	230
5000-6999	400	270
7000 və daha artıq	420	300

Məlumatlara əsasən qeyd edə bilərik ki, ən az nəqletmə müddətinə gün ərzində böyük sürətlə 550-660 km məsafə qət edən yüklər, bundan bir qədər az marşrut (550 km/gün), sonra vaqon (420 km/gün) və nəhayət, kiçik məhsul göndərmələr (330 km/gün) malikdir. Məhsul göndərmələrin ton/gün hesabı ilə uçota alınması göstərir ki, ölkəmizdə dəmiryol nəqliyyatında orta nəqletmə müddəti 2022-ci ildə 230 km/gün və ya 9,6 km/saat təşkil etmişdir. Daha doğrusu, nəqletmənin kommersiya sürəti mövcud 10 km/saatı keçməmişdir. Bu isə öz növbəsində vaqonların dövriyyə müddətinin mövcud strukturu ilə izah edilir: dövriyyə vaxtının təqribən 31%-i vaqonların yüklənməsi və boşaldılmasına, 21% marşrut üzrə hərəkətlərə, vaxtın qalan 48%-i isə vaqonların hərəkət yolu boyu dəmiryol qovşaqlarında, stansiyalarındakı dayanacaqlarda qalmasına sərf edilir [5].

Daşınan tranzit yüklərinin Azərbaycanda qalma müddəti 106-118 saat (5gün) təşkil edir ki, bunun da dəmiryol vaqonları üzrə 6-8 saatı, konteynerlər üzrə isə 9-11 saatı limanda yükləmə-boşaltma əməliyyatlarına sərf edilir. Deməli, təchizat zəncirində tarazlaşdırılmış inkişafın daha çox səmərə verməsi üçün infrastruktur və xidmətlər bərabər şəkildə inkişaf etdirilməlidir. Təbiidir ki, infrastruktura həddindən çox diqqətin yönəldilməsi logistik xidmətlərin təminatı sahəsində çatışmazlıqların təşəkkül tapmasına səbəb olmaqla, iqtisadi inkişafa maneələr yarada bilər.

Deməli, milli iqtisadi inkişafın logistik təminatı üçün strateji baxımdan aşağıda göstərilənlərin reallaşdırılmasını məqsədəuyğun hesab edirik:

- respublikanın müxtəlif yerlərində regional əhəmiyyətli logistik mərkəzlərin üstünlükləri müəyyən edilməli və yaradılmalıdır. Dövlətin nəzarəti ilə təchizat zəncirinə daxil olan komponentlərin, o cümlədən gömrük və birbaşa xarici investisiyalar bazasının formalaşması logistik sistemlərin yaradılması və inkişafına bilavasitə təsir edir. İldə iki min tona yaxın yükləri aşırma gücünə qadir olan logistik mərkəzlər gün ərzində eyni zamanda 3 gəmi, 150-ə yaxın vaqon və 100 avtomaşın qəbul edib, yükaşırma işləri apara bilir;

- əlavə dəyər imkanları qiymətləndirilərək ölkənin cəlbediciliyi artırılmalıdır. Azərbaycanda 228 sayda nəqliyyat-logistika xidməti ilə məşğul olan müəssisələr fəaliyyət göstərir ki, onlardan biri də “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-dir. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”

QSC-nin Xəzərdə fəaliyyət göstərən gəmiləri ilə bərabər Qara və Aralıq dənizlərində istismar olunan 10 ədəd yük gəmilərində də nəqliyyat-logistika xidmətlərinin zəif olması limanlarda körpü gözləmə, yük gözləmə, sənədləşmə gözləmə və s. işlərdə səmərəsiz vaxt itkisinin artımı ilə nəticələnmişdir;

- "miqyas effektinin" yaradılması və qiymətlərin azaldılması baxımından logistik əməliyyatlar təkmilləşdirilməli, nəqliyyat vasitələrinin yükgötürmə qabiliyyətini artırmaq məqsədi ilə multimodal nəqliyyat əməliyyatları prioritetlik kəsb etməlidir;

- Şərq-Qərb (bu dəhliz üzrə Azərbaycanın payı kiçik olsa da, yük dövriyyəsi 2022-ci ildə 200 milyon tondan artıq olmuşdur) və Şimal-Cənub (Rusiya-İran, İran-Qara dəniz) nəqliyyat dəhlizində Azərbaycanın rəqabətqabiliyyətliliyini təmin etmək üçün idxal-ixrac əməliyyatlarına və tranzit yüklərinin daşınmasına sərf olunan vaxt və xərclər optimallaşdırılmalıdır;

- dəniz ticarətinin (Azərbaycan gəmiləri Volqa-Don kanalından başqa, Volqa-Baltik və Baltik-Ağ dəniz kanalları vasitəsi ilə dünya okeanlarına çıxış imkanları əldə edə bilir. Bu baxımdan, Azərbaycanın su nəqliyyatında Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Bakı Dəniz Ticarət limanı xüsusi rol oynayır) imkanlarından yararlanmaq və qovşaqların rəqabətqabiliyyətliliyini artırmaq məqsədi ilə, liman işlərinin təşkili ən qabaqcıl təcrübəyə uyğunlaşdırılmalıdır. Aparılan hesablamalar göstərir ki, Bakı Liman kompleksinin tikintisi tamamlandıqdan sonra ümumi illik yük daşımalarının həcmi 25 milyon ton və 1 milyon TEU (20 futluq konteynerlər) təşkil edəcəkdir [3];

- liman ərazilərində sənaye klasterlərinin yaradılması yolu ilə sinergetik effektivliyə nail olmağa imkan verən limanlararası əlaqələr (məsələn, Benç- markaya çevrilmiş dünyanın iri dəniz limanları: Səbəl Əli, Hamburq, Sinqapur, Antverpen, Rotterdam, Monreal) möhkəmləndirilməlidir;

- ölkə ərazisində daha çox tranzit daşımalarının həyata keçirilməsi məqsədi ilə oxa düşən kütlə parametrləri üzrə hədəflər artırılmalı və nəqliyyat vasitələrinin çəkisi ilə bağlı normativ tələblər yüngülləşdirilməlidir. Türkiyə-Gürcüstan-Rusiya-Qazaxıstan marşrutu üzrə yük maşınları 44 ton yük götürə bildiyi halda, Azərbaycanda yüklər üçün tətbiq edilən 38 ton məhdudiyyətinə görə maşınlar Türkiyə-Gürcüstan-Azərbaycan-Qazaxıstan marşrutu üzrə 38 ton yük daşıya bilər.

- Azərbaycanla müqayisə edilə bilən ölkələrin əksəriyyətində hava və dəmiryolları, eləcə də limanlar da daxil olmaqla logistik komponentlər üzrə liberallaşdırma proseslərinə start verildiyindən, logistika sahəsində özəl sektorun iştirak səviyyəsi yüksəldilməlidir. Nəzərə almaq lazımdır ki, səmərəsiz vaxt itkisi Azərbaycan limanlarında Qazaxıstan limanı ilə müqayisədə17,24 saat, Rusiya limanları ilə müqayisədə 84,83 saat, İran limanları ilə müqayisədə isə 31,04 saat artmışdır.

Nəticə

Qeyri-neft sektorunun inkişafı üzrə prioritet sahələrdən biri kimi logistika iqtisadiyyatın bütün digər sektorlarının üzvi əlaqələndirilməsində mühüm faktor kimi çıxış edərək bu sektorların inkişaf etdirilməsində təkanverici rol oynayır. İqtisadi artım və ÜDM-in yüksəldilməsi istiqamətində logistika sektorunun gücləndirilməsinin labüdlüyü və mövcud potensialı nəzərə alınaraq, bu sahədə mühüm hədəflərə nail olmaq qarşıda məqsəd kimi durur.

Bu baxımdan, ölkənin strateji mövqeyindən səmərəli istifadə edilməklə tranzit yüklər ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb edilməli, logistik mərkəzlər yaradılmalı, yeni biznes, məşğulluq və əlavə dəyər imkanları qiymətləndirilərək ölkənin cəlbediciliyi artırılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri
2. Beynəlxalq Ticarət Mərkəzinin məlumatları
3. Beynəlxalq Nəqliyyat Forumu və müstəqil ekspertlərin hesablamaları
4. Gürcüstan Dəmiryollarının hesabatı
5. GHS, malların ticarətinə dair BMT-nin məlumat bazası (2022-ci il üzrə məlumatlar)

Мурад Рагим оглу Мамедов
Ленкоранский Государственный Университет, учитель
muradmemmedov817@mail.ru

Оценивание транспортно-логистического оценивания Азербайджана

Резюме

Цель исследования. Исследовать важную роль логистики в развития национальный экономику во всех направлениях, в увеличении добавленной стоимости, а также валового внутреннего продукта страны.

Методология исследования. Во время исследования были использованы такие методы как анализ, синтез и обобщения.

Польза применения исследования. На основе глобальной интеграции и самых передовых практик мира логистика, выбравшая перспективы повышения показателей количества и качества в нашей стране, как цель, для получения самой высокой прибыль от транзитного бизнеса обеспечивает услуги, образования добавленную стоимость.

Результаты исследования. Логистика, как один из приоритетных отраслей по развитию не нефтяного сектора, выступая как основной фактор в органической координации всех других секторов экономики, играет толковую роль в развитии этих секторов. Азербайджан в цепочке глобальное стоимости именно за счёт транспортных коридоров (Северно-Южный, Восточно-Западный) может укрепить позицию страны.

Оригинальность и научная инновация исследования. Сложность системы торговых отношений, поиски хозяйственных субъектов путей из постоянно меняющейся экономического положения в условиях торговой экономики, отличающейся своей динамичностью и решение таких типов проблем именно образует необходимость логистикации экономики.

Ключевые слова. логистика, цепочка добавленной стоимости, логистика перевозки груза, транзитные грузы, транзитные перевозки.

Murad Rahim oglu MAMMADOV
Lankaran State University, teacher
muradmemmedov817@mail.ru

Assessment of Azerbaijan's Transport and Logistics Potential

Summary

Aim of the Research. The aim of the research is to investigate the critical role of logistics in the development of all sectors of the national economy, in the creation of added value, and consequently in increasing the country's GDP.

Methodology of the Research. Economic methods such as analysis, synthesis, and generalization are used in this study.

Practical Significance of the Research. In our country, logistics, which aims to improve quantitative and qualitative indicators, provides value-added services with the goal of achieving the highest revenue from transit trade, based on global integration and the world's most advanced practices.

Findings of the Research.As one of the priority areas for the development of the non-oil sector, logistics acts as an important factor in the coordination of all other sectors of the economy and plays a stimulating role in the development of these sectors. Azerbaijan can strengthen its position in the global value chain precisely through its transport corridors (North-South, East-West).

Originality and Scientific Novelty of the Research. The complexity of the market economy system, characterized by its dynamism, necessitates that economic entities continually look for ways to adapt to ever-changing economic conditions. Addressing these types of issues creates a need for the logistics optimization of the economy.

***Keywords**: logistics, added value chain, freight logistics, transit cargo, transit transportation.*

UOT: 338.47:656.02; JEL: L90; O14; R40

Cəmilə Elçin qızı QULİYEVA
Azərbaycan Kooperasiya Universitetinin dissertantı,
E-mail: calalzadecamila@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.002.0208

NƏQLİYYAT-LOGİSTİKANIN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMLƏRİNİN TƏNZİMLƏNMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsinin tədqiqindən ibarətdir.

Tədqiqatın metodologiyası – baxımından analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmə metodlarından istifadəyə yer verilmişdir. Bunlarla yanaşı, nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmlərinin tənzimlənməsi üzrə tədqiqatların nəticələrinə istinadlar olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti – nöqteyi-nəzərindən qeyd edə bilərik ki, nəqliyyat-logistikanın mexanizmlərinin hazırlanması müəyyən fayda verə bilər.

Tədqiqatın nəticələri – yeni şəraitdə məqalədə verilmiş təkliflərdən nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsində istifadə edilməsi mümkündür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – baxımından, ilk növbədə qlobal çağırışlar şəraitində Azərbaycanda nəqliyyat-logistikanın mexanizmlərinin yeni tələblərə uyğunlaşdırılmasının konseptual əsasları və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Eyni zamanda, nəqliyyat-logistikanın maksimum təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmış, bunlarla bağlı tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, nəqliyyat-logistika sistemi, nəqliyyat, logistika, nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmləri, nəqliyyat-logistikanın müasir problemləri.

Giriş

Nəqliyyat-logistika xidmətlərinə tələbatın artdığı bir şəraitdə bu xidmətləri göstərən subyektlərin fəaliyyətinin əlaqələndirilməsi, tənzimlənməsi, nəzarəti, problemlərin aradan qaldırılması və təşviqi kimi məsələlər ortaya çıxmışdır. Bu da həmin subyektlərin fəaliyyətinin təşkilati-iqtisadi mexanizminin dövlət səviyyəsində tənzimlənməsi üçün zəruri vasitələrin olmasını və onun daimi əsasda təkmilləşdirilməsini tələb edir. Təşkilati-iqtisadi mexanizm normativ-hüquqi sənədlər, təşkilati struktur, həvəsləndirici motivlər, metodlar, tədbirlərdir. Təşkilati-iqtisadi mexanizm nə qədər yaxşı və düzgün təşkil olunarsa, müəssisə, sahə, region və ölkə bir o qədər yaxşı nəticələr əldə edər. Çünki, təşkilati-iqtisadi mexanizm rəqabət qabiliyyətini yüksəldir, əhalinin istehlakını tam ödəyir, daha çox gəlir əldə edir. Nəqliyyat-logistika sisteminin düzgün təşkili və xidmətlərin ölkənin ÜDM-də xüsusi çəkisinin artırılması bu sahədəki təşkilati-iqtisadi mexanizmdən xeyli dərəcədə asılıdır. Odur ki, nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsini zəruri hesab edirik.

Nəqliyyat-logistika sistemi mövcud resurs məhdudiyyətləri daxilində məqbul səviyyədə etibarlılıq və xidmətlərin keyfiyyəti ilə maksimum iqtisadi effekt əldə etməyə imkan verən bir sistemdir [1, s. 8]. Sistemin bütün göstəricilərinin effektiv və idarə olunan artımı hesabına inkişafı mümkündür. Hazırda iqtisadi sistemlərin tədqiqində və onların strukturlaşdırılmasında aktual sahələrdən biri də nəqliyyat və logistika altsistemlərinin qurulmasıdır. Onların çərçivəsində təsərrüfat subyektlərinin əmtəələrin satıcıdan istehlakçıya çatdırılmasının proqnozlaşdırılması, planlaşdırılması, nəzarəti və reallaşdırılması ilə bağlı qarşılıqlı əlaqəsi üçün xüsusi idarəetmə funksiyaları yerinə yetirilir. Nəqliyyat-logistika sisteminin dayanıqlı fəaliyyəti, ilk öncə, nəqliyyat-logistika infrastrukturunun sürətli inkişafı, malların çatdırılması üçün yeni səmərəli sxemlər olmadan bütün istehlakçılar üçün nəqliyyat xidmətlərinin əlçatanlığına zəmanət vermək mümkün deyil.

Nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmlərinin araşdırılması

Nəqliyyat-logistika sistemi çox parametrli obyektdir və nəqliyyat və logistika funksiyalarını yerinə yetirən (nəqliyyat sahəsində dövlət nəzarəti orqanları, müstəqil müəssisələr - təchizat zəncirinin üzvləri) və müxtəlif mülkiyyət hüquqları altında nəqliyyat və logistika infrastrukturuna sahib olan subyektləri əhatə edir [9, s.32]. Nəqliyyat-logistika sisteminin inkişafı təkcə ölkə iqtisadiyyatının, habelə qlobal nəqliyyat-logistika sisteminin inkişafında strateji zəruri şərtdir, investisiya qoyuluşu və iqtisadi artım konsepsiyasıdır. Effektiv nəqliyyat-logistika sisteminin yaradılması ölkə iqtisadiyyatının cəlbediciliyini və rəqabət qabiliyyətini artırmaq, yeniliyin təkamülünü təşviq etmək qabiliyyətinə malikdir [8, s.150]. Dünya iqtisadiyyatının postindustrial inkişaf mərhələsinə keçidi nəqliyyat-logistika sistemləri qarşısında yeni vəzifələr qoyur. Xidmətlərin sürət, qiymət, sabitlik kimi keyfiyyət amilləri ön plana çıxır ki, onlar milli nəqliyyat sistemlərinin rəqabət qabiliyyətinin səviyyəsini müəyyən edir. Dünya təcrübəsində yükdaşıma və çatdırılma istiqamətləri üzrə daşıma prosesinin ixtisaslaşmasının dərinləşməsi müşahidə olunur. Nəqliyyat kompleksinin elementləri və logistika infrastrukturu qarşılıqlı əlaqədə nəqliyyat-logistika sistemini təşkil edir.

Nəqliyyat-logistika sistemlərinin vəzifələrindən biri də nəqliyyat logistikasının subyektləri arasında əlaqələrin formalaşdırılmasıdır. Nəqliyyat-logistika sisteminin fəaliyyəti maksimum iqtisadi effekt əldə etmək üçün malların paylanması əməliyyatları üçün xərclərin yenidən qruplaşdırılmasını təmin edir. Axınların hərəkəti ilə bağlı logistik fəaliyyətlər üçün xərclər adətən iki qrupa bölünür: 1 İstehsal sferasında yaranan məsrəflər. 2. Dövriyyə sferasında xərclər. Nəqliyyat-logistika sistemində ikinci qrupun xərcləri idarə olunur; onlar əmələ gəlmə yeri, hərəkət mərhələləri, hərəkət əməliyyatları və geri qaytarılma müddəti ilə daha ətraflı müzakirə edilir. Şirkət səviyyəsində logistikanın tətbiqi malların dəyərini azaltmağa və dövriyyə müddətini qısaltmağa imkan verir. Makro səviyyədə logistikanın tətbiqi dövriyyə sferasında (nəqliyyat, anbarlar) əks olunur – ehtiyatlar, nəqliyyat xərcləri, yük əməliyyatlarının sayı azalır. Logistika, daşınma xərclərini mütləq azaldaraq, malların təyinat yerlərinə vaxtında çatdırılmasını təmin etmək məqsədilə sxem tapmaq üçün optimallaşdırıcı vasitədir. Daşımanın rasionallaşdırılması problemləri texniki, qiymət, hüquqi, təşkilati və digər aspektlərə malikdir. Daşımanın optimal təşkili daha az investisiya tələb edir və hətta yük daşımalarının planlaşdırılması mərhələsində müxtəlif nəqliyyat növlərinin işində uyğunsuzluq problemlərini aradan qaldırır. Vurğulamaq lazımdır ki, bazar iqtisadiyyatı şəraitində konkret işin cəlbediciliyi son nəticədə maliyyə faydaları ilə müəyyən edilir.

Logistikadan istifadənin ən vacib məqsədlərindən biri ölkə daxilində və digər ölkələr üzrə bütün nəqliyyat növləri ilə malların çatdırılması üçün optimal sxemlərin hazırlanması və təşkili yolu ilə kommersiya faydaları əldə etməkdir. Logistika zənciri malların istehlakçılara çatdırılması prosesində, o cümlədən düzgün nəqliyyat, idarəetmə, yükləmə-boşaltma əməliyyatları da daxil olmaqla, maddi və maliyyə axınlarının hərəkət ardıcıllığıdır. Logistika zəncirinə yüklərin hərəkət marşrutu və yerli logistik əməliyyatları və ya funksiyaları yerinə yetirən əlaqələr daxildir. Logistika zəncirinin həlqələri nəqliyyat müəssisələri, iri nəqliyyat korporasiyalarının bölmələri və ya nəqliyyat agentləri, o cümlədən xaricdəkilər, öz hərəkət vaqonlarına sahib olan əməliyyat şirkətləri, gömrük brokerləri, terminallar, dəniz və çay limanları, xarici logistika mərkəzləridir. Beləliklə, tam logistika zənciri, axınların göndəricidən malların alıcısına keçdiyi sifarişli əlaqələr toplusudur. Çatdırılma prosesini təchizat zənciri kimi nəzərdən keçirmək istehsal, daşınma və paylama ilə bağlı prosesləri mürəkkəb makroiqtisadi sistemə inteqrasiya edir. Bu yanaşma müəyyən inteqrasiyanı və fəaliyyət çərçivəsində əldə edilən fərdi təsirlərin cəmindən fərqli nəticə əldə etmək imkanını təmin edir [13, s.77].

Qeyd edək ki, sosial-iqtisadi sistemin ümumi infrastrukturunun bir hissəsi kimi nəqliyyat-logistika sisteminin fəaliyyəti aşağıdakılara yönəldilmişdir: sinergik (sərnişinlərin və yüklərin daşınması və digər xidmətlərin həcminin keyfiyyətcə artımından ibarət) və multiplikativ (artım əlaqəli sənaye və alt sektorlarda yeni iş yerləri) artım hesabına nəqliyyat-logistika sisteminin elementləri arasında tərəfdaşlıq qarşılıqlı əlaqəsi əsasında ölkənin inkişafına töhfə vermək; ölkənin

sosial-iqtisadi sisteminin sənaye və yarımsahələrinin, digər təsərrüfat subyektlərinin nəqliyyat-logistika sistemləri tərəfindən göstərilən xidmətlərə artan tələbatını tam və vaxtında ödəmək; ölkənin inkişafını təmin edən mühüm amil kimi çıxış edən əhalinin məkan və əmək mobilliyi proseslərinin stimullaşdırılmasına köməklik göstərmək; iqtisadi, mədəni və turizm əhəmiyyətli obyekt kimi regionun cəlbediciliyinin artmasına kömək etmək; milli və beynəlxalq bazarlarda malların (əlavə dəyəri texniki avadanlıqların səmərəli istifadəsi ilə stimullaşdırılan) və texniki avadanlıqla göstərilən xidmətlərin rəqabət qabiliyyətinin artımını təmin etmək. Nəqliyyat-logistika sisteminin inkişafı, ölkənin sosial-iqtisadi sisteminin inkişafı üzrə ümumi strategiyanın tərkib hissəsi kimi, əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına və iqtisadi artımının təşviqinə yönəlmişdir [7, s.60].

Bunlarla yanaşı, bir-biri ilə əlaqəli vəzifələrin həlli əsasında nəqliyyat-logistika sisteminin fəaliyyəti və inkişafı üçün yuxarıda göstərilən prioritet istiqamətlərə nail olmaq məqsədəuyğundur ki, həmin vəzifələrə daxildir: yollarda yükü azaltmaq üçün mövcud avtomobil yollarının və qovşaqların ötürücülük qabiliyyətinin artırılması və yenilərinin tikintisi; ölkənin sosial-iqtisadi sisteminin inkişafı maraqlarına uyğun olaraq yol sisteminin, terminal və anbar təsərrüfatının, yükdaşımalara gömrük dəstəyi sisteminin balanslaşdırılmış inkişafı; dövlət, regional və özəl mənbələrdən alınan, o cümlədən dövlət-özəl əməkdaşlıq mexanizmlərindən istifadə etməklə texniki avadanlıqların alınması üçün maliyyə vəsaitlərindən məqsədyönlü istifadənin təmin edilməsi; texniki avadanlığın səmərəli işləməsini təmin edən müasir innovativ texnologiyalardan istifadə.

Beləliklə, nəqliyyat-logistika sisteminin üstünlüklərini nəzərə alaraq, onun təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi əsas şərtlərdəndir.

Yeni şəraitdə nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri

Məlumdur ki, nəqliyyat-logistika sisteminin təşkilati-qtisadi mexanizmi material axınlarının hərəkəti prosesinin bütün iştirakçılarının iqtisadi maraqlarının əlaqələndirilməsinə əsaslanır. Qarşılıqlı fəaliyyətin əsas prinsipləri istehlakçı tələbatının tam ödənilməsi, bərabər iqtisadi səmərə və maddi axınların hərəkətinin yekun nəticələrinə görə maddi məsuliyyətdir. Nəqliyyat-logistika sisteminin mürəkkəb iqtisadi və təşkilati mexanizm olduğunu nəzərə alsaq, deyə bilərik ki, belə bir mexanizmin formalaşması proqram-məqsədli, sistemli və proses yanaşmasına əsaslanmalıdır. Nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmi dinamik inkişaf edən xarici mühitdə ümumi faydaları artırmaq və riskləri azaltmaq üçün inteqrasiya olunmuş təchizat zəncirinin logistik qarşılıqlı fəaliyyətinə yönəldilməlidir. Nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmi müxtəlif səviyyələrdə nəzərdən keçirilə bilər. Təklif olunan mexanizmi təcrübədə tətbiq etmək lazımdır. Beləliklə, nəqliyyat-logistika sisteminin səmərəliliyinin artırılmasının təşkilati-iqtisadi mexanizmi bir neçə xüsusiyyətə malikdir: subyektlər arasında iqtisadi prosesin başlanmasına vasitəçilik edir; səviyyəsindən asılı olmayaraq, ümumi əsasa malikdir və onun elementləri bu əsasda qurulur və fəaliyyət göstərir; tənzimlənən sistem hesab olunur və mexanizmin işləməsi üçün ona tənzimləyici qurum lazımdır [10, s.132].

Qeyd edək ki, tənzimləyici subyekti dəyişmədən, müəssisələrin, logistik mərkəzlərin, vergi, gömrük münasibətlərini tənzimləyən qarşılıqlı həvəsləndirmə və nəzarəti özündə cəmləşdirən mexanizmi təkmilləşdirmək lazımdır. Nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizminin inkişafının əsas istiqamətlərinə daxildir: 1. Yüklərin daşınması prosesini bütün ərazilərdə təmin edən nəqliyyat-logistika vasitəçilərinin (daşıyıcılar, gömrük, anbarlar, hakimiyyət orqanları, banklar, ərazi və sahəvi nəqliyyat-logistika mərkəzləri və s.) fəaliyyətində mal göndərəndən alıcıya qədər bütün logistika zənciri boyunca yüksək keyfiyyətli münasibətlərin təmin edilməsi. 2. Multimodal daşıma zəruri olduqda müxtəlif nəqliyyat növləri ilə müəssisələrin əlaqələndirilmiş işinin təmin edilməsi. 3. Yükdaşımaların optimallaşdırılması. 4. Ölkənin nəqliyyat-logistika infrastrukturunun inkişafı strategiyasını və taktikasını müəyyənləşdirmək məqsədilə logistika xidmətləri bazarının təhlili və proqnozlaşdırılması üzrə işlərin görülməsi. 5. Bütün bazar iştirakçıları arasında vahid elektron sənəd dövriyyəsi sisteminin tətbiqi. 6. Bütün yük marşrutu boyunca məlumat və analitik

dəstəyin təmin edilməsi. 7. Yükün emalının tələb olunan sürətinin təmin edilməsi. 8. Məqsədi nəqliyyat-logistika axınlarının idarəetmə sisteminin unifikasiyası olan yerli nəqliyyat-logistika mərkəzləri ilə xarici ölkələrdə analoji strukturlarla strateji əməkdaşlığın təmin edilməsi. 9. Müştərilərə mallarını satmaqda köməklik göstərmək məqsədilə regionun və ölkənin ticarət mərkəzləri (əmtəə birjaları, hərraclar, topdansatış ticarət şirkətləri) ilə əməkdaşlığın təmin edilməsi.

Nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi üçün onun hər bir elementinin ayrı-ayrılıqda təkmilləşdirilməsi zəruri şərtdir. Nəqliyyat-logistika sisteminin təşkilati mexanizminin səmərəli fəaliyyəti onun idarəetmə sisteminin təşkilindən xeyli dərəcədə asılıdır. Ölkənin nəqliyyat-logistika sisteminin idarə edilməsinin daha da təkmilləşdirilməsi digər elmi problemlərin həllini tələb edir. Xüsusilə, nəqliyyat-logistika sisteminin idarə edilməsi prinsipləri sisteminin formalaşdırılması elmi problemi ortaya çıxır. İdarəetmə - idarə edən subyektin idarə olunan obyektə onun səmərəli fəaliyyətini və inkişafını təmin etmək üçün təsir prosesi kimi müəyyən edilir. Mürəkkəb iqtisadi sistemlərin səmərəliliyinin idarə edilməsi bu cür sistemlərin fəaliyyətinin səmərəliliyi ilə üzvi əlaqəyə malikdir. Nəqliyyat-logistika sisteminin idarəetmə mexanizmi müəyyən prinsiplərə əsaslanır. Ölkənin sosial-iqtisadi sisteminin ümumi infrastrukturunun tərkib hissəsi kimi nəqliyyat-logistika sisteminin inkişafının idarə edilməsi prinsiplərini hazırlamaq olar ki, bunların da ən əsasları ola bilər: idarəetmə qərarlarının hazırlanmasının ölkənin sosial-iqtisadi və şəhərsalma inkişafının prioritetləri əsasında reallaşdırılması; idarəetmə qərarlarının malların və sərnişin axınının sürətləndirilməsinə yönəldilməsi; nəqliyyat əlçatanlığının yaxşılaşdırılması, əlavə dəyər yaradılması, ölkənin ümumi infrastrukturunun tərkib hissəsi kimi nəqliyyat-logistika kompleksin istismarının etibarlılığının və səmərəliliyinin artırılması; ölkənin sosial-iqtisadi sisteminin ümumi infrastrukturunun tərkib hissəsi kimi nəqliyyat infrastrukturunun inkişafına yönəlmiş dövlətin, biznesin və əhalinin səy və resurslarının birləşdirilməsi və hərəkətlərin əlaqələndirilməsi əsasında idarəetmə qərarlarının hazırlanması və reallaşdırılması; bu sistemin istismarı sferasında müxtəlif texniki vasitələrin və digər təsərrüfat subyektlərinin qarşılıqlı fəaliyyətində itkilərin minimuma endirilməsinə diqqət yetirilməsi; bütün resurslardan maksimum qənaət və səmərəli istifadə etməklə və ətraf mühitə təsir edən mənfi amilləri azaltmaqla nəqliyyat-logistika sektoruna daxil olan müəssisə və təşkilatların modernləşdirilməsi və inkişafı proseslərinin stimullaşdırılması; idarəetmə qərarlarının nəqliyyat-logistika sisteminin inkişafının məcmu effektinə və ölkənin sosial-iqtisadi sisteminin müvafiq inkişafına yönəldilməsi; nəqliyyat-logistika sisteminə daxil olan obyektlərin modernləşdirilməsi üzrə planların və layihələrin monitorinqi və zəruri hallarda onlara dəyişikliklərin edilməsi və s.

Ümumiyyətlə, ölkədə müxtəlif fəaliyyət sahələrini əhatə edən logistika-logistika sisteminin düzgün idarə edilməsi iqtisadi artımın əldə edilməsi üçün ən mühüm amildir. Müasir bazar şəraitində malların hərəkətinin logistik idarəçiliyinin təkmilləşdirilməsi prosesi obyektiv olaraq malların daşınması ilə məşğul olan təşkilatların inteqrasiyasının artmasına gətirib çıxarır. Təchizat zəncirinin səmərəliliyi malların hərəkətində iştirak edənlərin iqtisadi münasibətlərinin təşkilati rəsmiləşdirilməsi səviyyəsi ilə müəyyən edildiyi halda, malların hərəkətinin bütün sisteminin tənzimlənməsinə ehtiyac var. Beləliklə, əmtəə və xidmət axınının səmərəli idarə edilməsi zərurəti qlobal iqtisadiyyatda nəqliyyat-logistika sistemlərinin iqtisadi əhəmiyyətinin artmasına səbəb olmuşdur. Nəqliyyat-logistika sisteminin təşkilati mexanizminin təkmilləşdirilməsi onun yerləşdiyi yerin seçilməsi meyarlarına uyğun olmalıdır. Həmin meyarlara daxildir: qovşaqda kifayət qədər potensial ehtiyatların olması; mühəndis şəbəkələrinin və nəqliyyat kommunikasiyalarının tutumunun olması; əsas yollara və dəniz limanlarına maksimum yaxınlıq; şəhər aqlomerasiyasına maksimum yaxınlıq; dəmir yolu infrastrukturunun potensial ehtiyatlarının mövcudluğu; bitişik ərazidə texniki-iqtisadi inkişaf zonalarının, sənaye parklarının, azad iqtisadi zonaların təşkili imkanları; nəqliyyat-logistika mərkəzlərinin işçiləri üçün yaşayış sahəsinin təşkili imkanları [11, s.237].

Müasir iqtisadiyyat köklü dəyişikliklərə məruz qalır ki, bu da əvvəlki fəaliyyət formalarının səmərəliliyinin azalmasına səbəb olur. Nəqliyyat-logistika sistemi bütövlükdə iqtisadiyyatın tərkib hissəsi olmaqla həm də idarəetmə ideologiyasının transformasiyasını yaşayır ki, bu da nəqliyyat-

logistika fəaliyyətinin təşkilati formalarında özünü göstərir. Nəqliyyat-logistika funksiyalarının reallaşdırılması vəzifələri onun biznesin təşkili şərtlərinə daim uyğunlaşdırılmasını tələb edir. Biznesin inkişafı aydın makroiqtisadi tendensiyalar fonunda baş verir, onun ümumi istiqaməti fəaliyyət miqyasının artması, mühəndislik və texnologiyada fövqəladə dəyişikliklərlə bağlıdır. Nəqliyyat-logistika sistemi biliyin intensiv artmasına, iqtisadiyyatın virtuallaşmasına, əmək, kapital, informasiya kimi istehsal, amillərinin yüksək dərəcədə mobilliyinə, habelə elmi və innovativ fəaliyyətin istehsal proseslərinə təsirinin güclənməsinə gətirib çıxarır. Nəqliyyat-logistika sisteminin iqtisadi mexanizmi təkmilləşdirilməsinə gəlincə, bu, ilk öncə, büdcə gəlirlərinin artırılması, maliyyə-kredit mexanizminin işinin yaxşılaşdırılması ilə bağlıdır. Büdcələrin formalaşmasında nəqliyyat-logistika sistemlərinin rolu böyükdür. Məlumdur ki, nəqliyyat-logistika sisteminin inkişafı iki əsas komponent olmadan mümkün deyil. Birincisi, dövlətin diqqətinin artırılması, nəqliyyat-logistika layihələri çərçivəsində beynəlxalq əməkdaşlıq platformalarının yaradılması və biznesin, xüsusən də iri layihələrin aktivləşdirilməsi. İkincisi, nəqliyyat-logistika sisteminin texnoloji cəhətdən yenidən təchiz edilməsidir [6, s.3307]. Bütün bunlar maliyyə resursları olmadan mümkün deyil. Odur ki, nəqliyyat-logistika sisteminin maliyyə təminatının təkmilləşdirilməsi zəruridir. Nəqliyyat-logistika sistemləri yaradılarkən gömrük və fiskal orqanları, yükdaşıyan şirkətlər və logistik prosesləri təmin edən digər iştirakçılarla təşkilati və informasiya qarşılıqlı fəaliyyətinə xüsusi diqqət yetirilməlidir. Beləliklə, əgər nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmi düzgün təşkil olunarsa və daim təkmilləşdirilərsə, bu, istənilən ölkənin, o cümlədən Azərbaycanın iqtisadiyyatının inkişafına təkan verə bilər.

Azərbaycanın nəqliyyat-logistika sistemi strateji önəmliliyi və üstün xüsusiyyətləri diqqət mərkəzindədir. Belə ki, ölkəmizdə nəqliyyat kompleksinin əksər növlərinin səmərəli şəkildə təşkili və logistik mərkəzlərin yaradılması baxımından əlverişli şərait yaradılmışdır. Aydındır ki, Azərbaycanda strateji yol xəritələri çərçivəsində iqtisadiyyatın gücləndirilməsi və milli iqtisadiyyatın perspektivli sahələri üzrə strateji hədəflər müəyyən edilib. Bu baxımdan, Azərbaycanın qlobal çağırışlara uyğun iqtisadi inkişaf modelinin formalaşdırılmasını, ölkəmizin nəqliyyat tranzitivliyi və bir çox beynəlxalq əhəmiyyətli nəqliyyat marşrutlarının kəsişməsində yerləşməsi faktını nəzərə almaq lazımdır [3, s.128-129]. Azərbaycan beynəlxalq müqavilələrdə nəqliyyat-logistika sahəsində aşağıdakı üstünlükləri təmin edir: digər nəqliyyat dəhlizləri ilə müqayisədə yükdaşımaların məsafəsinin qısa olması; ticarət dövriyyəsinin artması; iqtisadiyyata maliyyə qoyuluşlarının sürətləndirilməsi; nəqliyyatda səmərəliliyin təmin edilməsi; nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və onun təkmilləşdirilməsi üçün investisiya layihələrinin daim realaşdırılması; nəqliyyat-logitik daşımaların rəqabət qabiliyyətinin təmin edilməsi; daşınan yüklərin həcminin artırılması imkanlarının təhlili və s. [5, s.45].

Nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinə nəqliyyat-logistika xidmətləri bazarının inkişafı kömək edə bilər. Odur ki, həmin bazarın dövlət tənzimlənməsi zəruri şərtdir. Ölkədə yük axınlarının daşınması və anbar emalı üzrə ənənəvi xidmətlər seqmentində nəqliyyat və logistika xidmətləri bazarı əsasən çoxlu sayda kiçik və orta biznes subyektləri ilə təmsil olunur [12, s.126]. Nəqliyyat-logistika xidmətləri bazarının dövlət tənzimlənməsi həm uzun, həm də qısa müddətdə əlaqəli nəqliyyat növlərinin fəaliyyətinə təsir göstərən iqtisadi və inzibati üsulların məcmusunu əhatə edi. Bunlarla yanaşı, hesab edirik ki, yaxın perspektivdə Azərbaycan üzərindən qlobal nəqliyyat dəhlizlərinin rolu əhəmiyyətli səviyyədə artacaqdır. Bu proseslər Zəngəzur qlobal nəqliyayt dəhlizinin açılmasından sonra maksimum intensivləşəcəkdir [2, s. 13]. Eyni zamanda, bu layihə əsasında yaradılacaq müasir texnologiyalar əsaslı və rəqəmsal nəqliyyat-logistika infrastrukturu regionun beynəlxalq inteqrasiyasına əhəmiyyətli səviyyədə müsbət təsir göstərəcəkdir [4, s. 18].

Nəticə

Beləliklə, nəqliyyat-logistika sistemlərinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi problemlərini həll edilərkən dövlət tənzimləmə sisteminin qurulması prinsiplərinə riayət etmək

lazımdır, o cümlədən:

- nəqliyyat-logistika sisteminin formalaşdırılmasının və onun idarə edilməsinin səmərəliliyinin artırılmasının iqtisadi məqsədəuyğunluğu;
- bütün növ nəqliyyat növlərinə dövlət nəzarəti orqanları tərəfindən daimi monitorinqin aparılması imkanı;
- dövlət və ixtisaslaşmış nəqliyyat-logistika mərkəzləri arasında münasibətlərin pariteti.

Bunlarla bərabər, nəqliyyat-logistika sisteminin tənzimlənməsinin əsas məqsədlərinə növbətililəri aid etmişik:

- nəqliyyat-logistika xidmətləri bazarının tənzimlənməsi;
- nəqliyyat prosesinin və logistika infrastrukturunun ekoloji və iqtisadi təhlükəsizliyinin təmin edilməsi;
- nəqliyyat və liman infrastrukturunda xərclərin tənzimlənməsi;
- nəqliyyatda, regionlarda və bütövlükdə ölkədə iqtisadi inkişafın stimullaşdırılması.

Nəticə olaraq hesab edirik ki, nəqliyyat-logistika sisteminin güclü tərəflərindən biri nəqliyyat xidmətlərinin yüksək səviyyəsi hesab olunur ki, bu da nəqliyyat strukturlarının aktiv işləməsi ilə deyil, daha çox yüklərin daşınması, satışı və çatdırılması kompleksinin reallaşdırılması ilə xarakterizə olunur. İqtisadi inkişaf üçün nəqliyyat-logistika sisteminin əhəmiyyəti, ilk öncə, inteqrasiya amili ilə bağlıdır ki, bu da son nəticədə əmtəə axınlarının strukturlaşdırılması yolu ilə milli iqtisadiyyatın səmərəli və sürətli inkişafına təkan verir. Ölkəmizdə nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmini təkmilləşdirməklə bu sistemin fəaliyyətinin səmərəliliyini artırmaq, nəticədə xarici ticarətdə rəqabət qabiliyyətinə və büdcə daxilolmalarının həcminin artımına nail olmaq mümkündür və s.

ƏDƏBİYYAT

1. Əliyev, Ş.T. Azərbaycanda nəqliyyat sektorunun müasir vəziyyəti və inkişaf potensialı // Elmi əsərlər jurnalı, AMEA İqtisadiyyat İnstitutu, 2018, №2. – S.5-11. http://economics.com.az/images/fotos/elmi_eserler_pdf/2018_2/1%20Aliyev%20Sh.pdf.
2. Əliyev, Ş.T. Yaxın və uzaq perspektivdə Zəngəzur Qlobal Nəqliyyat Dəhlizinin strateji aspektləri // “Qərbi Kaspi Universitetinin Elmi Xəbərləri”, Bakı, 2023, №03. - S.9-16. https://journal.wcu.edu.az/uploads/files/2023-3-ictimai-2%20Aliyev%20Shafa.pdf.
3. Hüseynova, M.S. Azərbaycanda iqtisadi islahatlar şəraitində nəqliyyat-logistika sisteminin səmərəlilik məsələləri. Geostrategiya jurnalı, – yanvar - fevral 2020. № 01 (55), – s.128-132.
4. Алиев, Ш.Т., Панахалиева, М.О., Солтанов, С. Роль Зангезурского коридора в усилении логистическо-транспортной инфраструктуры в регионе / I International Scientific and Practical Conference Recent Advances in Global Science held in Vilnus, Lithuania and for publishing as cientific article, August16-18, 2022. – с. 15-20.
5. Амиров, И.Б. Перспективы развития транспортно-логистических связей Азербайджана / И.Б. Амиров, Б.А. Оруджалиева, З.М. Касимова // Логистические системы в глобальной экономике. – 2021. № 11, – с. 44-51.
6. Вечкинзова, Е.А. Современные тенденции и перспективы развития транспортно-логистического комплекса Казахстана // Экономика, предпринимательство и право. – 2020. – Том 10. № 12, – с. 3297-3308.
7. Дорошкевич, Д.В. Формирование механизма стратегического управления развитием региональной транспортно-логистической системы / Д.В. Дорошкевич // Карельский научный журнал. – 2014. № 3(8), – с. 59-61.
8. Егорова, Л.Э. Транспортно-логистическая система региона: основные направления / Л.Э. Егорова // Логистические системы в глобальной экономике. – 2021. № 11, – с. 149-150.
9. Люханова, С.В. Качество функционирования транспортно-логистической системы / С.В. Люханова // Маркетинг и логистика. – 2023. № 1(45), – с. 30-42.

10. Орзукулова, З. Организационно-экономические механизмы повышения эффективности транспортно-логистических услуг. /Актуальные проблемы социально-гуманитарных наук / – 2023. 3(S/4), – s.126–133.
11. Резер, А.В. Транспортно-логистическая система как фактор повышения эффективности транспортного производства / А.В. Резер // Транспортное дело России. – 2015. № 6, – с. 236-239.
12. Савин, Г.В. Рынок транспортно-логистических услуг: его исследование и поиск стимуляторов роста / Г.В. Савин, И.С. Фунтусов, В.В. Кириллова // Креативный менеджмент. – 2016. № 3, – с. 126-130.
13. Хайтбаев, В.А. Совершенствование транспортно-логистической инфраструктуры как направление социально-экономического развития территорий / В.А. Хайтбаев, К.А. Климашин // Вестник СамГУПС. – 2019. № 3(45), – с. 69-78.

Гулиева Джамиля Эльчин кызы
Диссертант Азербайджанского Университета Кооперации,
AZ1124, Азербайджанская Республика,
г.Баку, улица Н.Нариманова 93
E-mail: calalzadecamila@gmail.com

Регулирование и совершенствование организационно-экономических механизмов транспорта и логистики

Резюме

Цель исследования – является изучение регулирования и совершенствования организационно-экономических механизмов транспорта и логистики.

Методологически исследование – предусматривало использование методов анализа, синтеза, сравнительного анализа и обобщения, а также ссылалось на результаты исследований по регулированию организационно-экономических механизмов транспорта и логистики.

С точки зрения прикладной значимости исследования можно отметить, что развитие транспортно-логистических механизмов может дать определенные преимущества.

Результаты исследования – в новых условиях предложения, приведенные в статье, могут быть использованы для совершенствования организационно-экономических механизмов транспорта и логистики.

С точки зрения оригинальности и научной новизны исследования, прежде всего, определены концептуальные основы и направления действий по адаптации транспортно-логистических механизмов в Азербайджане к новым требованиям в условиях глобальных вызовов. При этом обоснована важность максимального совершенствования транспортно-логистических механизмов, разработаны рекомендации и внесены предложения по этому поводу.

Ключевые слова: Азербайджан, транспортно-логистическая система, транспорт, логистика, организационно-экономические механизмы транспортно-логистической системы, современные проблемы транспортно-логистической системы.

Guliyeva Jamila Elchin
Dissertant of Azerbaijan Cooperation University,
AZ1124, Azerbaijan Republic, Baku, N.Narimanov street 93
E-mail: calalzadecamila@gmail.com

Regulation and improvement of organizational and economic mechanisms of transport and logistics

Summary

The purpose of the research is to study the regulation and improvement of organizational and economic mechanisms of transport and logistics.

In terms of methodology of the study, the use of analysis, synthesis, comparative analysis and generalization methods was included. Along with these, references were made to the results of studies on the regulation of organizational and economic mechanisms of transport and logistics.

From the point of view of the applied significance of the research, we can note that the development of transport and logistics mechanisms can provide certain benefits.

The results of the research – in the new conditions, the proposals given in the article can be used to improve the organizational and economic mechanisms of transport and logistics.

In terms of originality and scientific novelty of the research, first of all, the conceptual foundations and directions of action for adapting transport and logistics mechanisms in Azerbaijan to new requirements in the context of global challenges have been determined. At the same time, the importance of maximum improvement of transport and logistics has been substantiated, recommendations have been developed and proposals have been made in this regard.

Keywords: Azerbaijan, transport-logistics system, transport, logistics, organizational-economic mechanisms of transport-logistics, modern problems of transport-logistics.

UOT 338

Kubra Muxtar qızı QULUZADƏ
magistr
Q.kubra91@gmail.com

Firuzə Nəcəf qızı ƏLİYEVA
Azərbaycan Kooperasiya Universiteti
“Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi” kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru
https://doi.org/10.30546/4.71.73001.2025.002.0216

BƏLƏDİYYƏLƏRİN FƏALİYYƏTİNİN NORMATİV ƏSASLARI VƏ BƏLƏDİYYƏ ORQANLARININ TƏŞKİLİ QAYDALARI

Xülasə

Tədqiqatın məqsədi – bələdiyyələrin nəzəri məsələlərini araşdırmaq, inkişaf mərhələlərini müəyyənləşdirilmək, bələdiyyələrin fəaliyyətinin normativ əsaslarını araşdırmaq və qiymətləndirməkdir.

Tədqiqatın metodologiyası – Tədqiqat işində mövzunun daha səmərəli araşdırılması məqsədi ilə təhlil və ümumiləşdirilmə metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Tədqiqat işində aparılan araşdırmalardan istifadə edərək, bələdiyyələrin fəaliyyətinin normativ əsaslarını və yerli özünüidarəetmə təcrübəsinin tətbiqi perspektivlərini müəyyənləşdirmək olar.

Tədqiqatın nəticələri göstərir ki, yerli özünüidarəetmənin əsas prinsipləri bələdiyyə fəaliyyətinin normativ əsaslarının müəyyənləşdirilməsi və bələdiyyə orqanlarının təşkilində normativ-hüquqi əsasların düzgün tətbiqinin qiymətləndirilməsidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Yerli özünüidarəetmənin respublikamızda fəal regional siyasətin formalaşması və inkişafında, yoxsulluğun azaldılması və iqtisadi inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malik olduğu məqalədə əsaslandırılmışdır.

Açar sözlər: bələdiyyə, özünüidarəetmə, hüquqi, müqayisə, fəaliyyət, səlahiyyət.

Giriş

Bildiyimiz kimi, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra onun ən uğurlu addımlarından biri də 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul etdiyi Azərbaycan Respublikasının Konstitusiyası olmuşdur. Konstitusiyanın IV bölməsində yerli özünüidarəetmə, bələdiyyələr, bələdiyyələrin işinin təşkili, səlahiyyətləri, bələdiyyənin qərarları və bələdiyyənin müstəqilliyinin təminatı öz əksini tapmışdır.

Məqalədə yerli özünüidarəetmənin nəzəri və hüquqi əsasları, yerli özünüidarəetmə sistemləri, yerli özünüidarəetmənin funksiya, vəzifə və səlahiyyətləri, maliyyə əsasları və ölkəmizdə yerli özünüidarəetmənin əsasları işıqlandırılmışdır Bildiyimiz kimi, son illər Azərbaycanda sosial, siyasi və iqtisadi sahədə olduğu kimi, idarəetmə sistemində uğurlu islahatlar aparılmış və yerli özünüidarəetmə qurumları olan bələdiyyələr yaradılmışdır.

Azərbaycan Respublikası Konstitusiyası, bələdiyyələrlə bağlı ölkə qanunlarında Avropa Xartiyasının müddəalarına əsaslanaraq Azərbaycan yerli özünüidarəetmə sisteminə xas olan ümumi prinsiplər müəyyənləşdirilmişdir ki, bu prinsiplər aşağıdakılardır.

1. Yerli əhəmiyyətli məsələlərin əhali tərəfindən müstəqil həll olunması;
2. Cəmiyyətin və dövlətin idarəetmə sistemində yerli özünüidarəetmənin təşkilati baxımdan əlahiddəliyi;
3. Yerli özünüidarəetmənin maddi və maliyyə resurslarının onun səlahiyyətlərinə uyğunluğu;
4. Yerli özünüidarəetmə orqanlarının və vəzifəli şəxslərin əhali qarşısında cavabdehliyi;

5. Yerli özünüidarəetmənin həyata keçirilmə formalarının müxtəlifliyi;
6. İnsan və vətəndaş hüquq və azadlıqlarına əməl olunması;
7. Yerli özünüidarəetmənin təşkili və fəaliyyətində qanunçuluq;
8. Yerli özünüidarəetmənin fəaliyyətində aşkarlıq;
9. Yerli özünüidarəetmənin fəaliyyətində kollegiallıq və vahid rəhbərlik;
10. Yerli özünüidarəetmənin dövlət zəmanətləri [1, səhfə 103].

Bələdiyyələrin normativ-hüquqi aktları

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında qanunların ierarxiyası pilləsində birinci yeri tutur. Belə ki, o, dövlətin ən ali normativ-hüquqi aktı sayılır və Azərbaycan Respublikası Konstitusiyasının müddəaları ilkin, təsisedici xarakter daşıyır. Belə ki, bu müddəaların həyata keçmə mexanizmi Azərbaycan Respublikasının qanunverici orqanları tərəfindən qəbul edilən digər normativ-hüquqi aktlarda öz əksini tapır. Yerli özünüidarə elə bir qeyri-dövlət sistemidir ki, bu sistem qanun çərçivəsində onlara yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək imkanı verir. Hər bir fəaliyyətin normativ əsasları olduğu kimi, bələdiyyə orqanlarının da fəaliyyətinin normativ əsasları mövcuddur. Bu orqanların fəaliyyətini nizama salan normativ-hüquqi aktlar aşağıdakılardan ibarətdir: - Azərbaycan Respublikasının Konstitusiyası; - "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu; - Azərbaycan Respublikasının Seçki Məcəlləsi; - "Bələdiyyələrin ərazilər və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanunu; - "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu; - "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikasının Qanunu; - "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu; - "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu; - "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu; - "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu; - "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının Qanunu; - "Yerli vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasında bələdiyyə orqanlarının fəaliyyətinin hüquqi əsaslarından ən mühüm yeri Azərbaycan Respublikasının Konstitusiyası tutur. Bu baxımdan da bələdiyyələrin fəaliyyətini nizama salan digər normativ-hüquqi aktlar Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir. Bu normativ-hüquqi aktlardan biri «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının Qanunudur. Bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun bu qanunla və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir. Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir. Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyə şurasının qərarına əsasən bələdiyyənin sədri təyin edir. Bələdiyyənin sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur. Ehtiyac olduqda bələdiyyə, bələdiyyə sədrinin müavinləri (bələdiyyə üzvləri) seçilir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə sədrinin üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvlərinin yarıdan çoxunun səsini topladıqda seçilmiş hesab olunur. Bələdiyyənin sədri əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır. Bələdiyyə sədrinin müavini bələdiyyə sədrinin ona aid etdiyi məsələləri həll edir, bələdiyyə sədri olmadıqda onun səlahiyyətlərini həyata keçirir.

Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Seçkilər günü 18 yaşı tamam olan və yaşı 18-dən yuxarı olan Azərbaycan Respublikasının vətəndaşlarının bələdiyyələrə üzv seçmək hüququ vardır. Seçkilər günü 21 yaşı tamam olan və yaşı 21-dən yuxarı olan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər. Bələdiyyələrə seçkiləri Azərbaycan Respublikasının Prezidenti təyin edir. Seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

Fərmanı rəsmi dərc edilir. Bələdiyyələrə seçkilər üzrə səsvermə bazar günü keçirilir. Bələdiyyələrin səlahiyyətlərinin qurtarmasına ən geci 120 gün qalmış yeni seçkilər təyin edilir. Bələdiyyələrə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı tədbirlər Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Azərbaycan Respublikası dövlət büdcəsi və bələdiyyə büdcəsinin vəsaitlərindən, bu qanunda nəzərdə tutulmuş istisnalardan başqa, bələdiyyə üzvlüyünə namizədlər göstərilməsini təmin etmək və onlar barəsində təşviqat aparmaq üçün istifadə oluna bilməz.

Bələdiyyələrin statusu haqqında Qanun

Bələdiyyələrin statusu haqqında qanunvericiliyə görə, yerli özünüidarəetmə orqanları dövlət hakimiyyət orqanları sisteminə daxil deyildir. Bu prinsip nəzərdə tutur ki, bələdiyyələr daha ümumi qanunvericilik müddəalarını pozmadan öz daxili inzibati strukturlarını özləri elə müəyyən etsinlər ki, bu, yerli tələbatlara cavab versin və səmərəli idarəetməni təmin etsin.

Bələdiyyələr qanunvericiliklə onlara verilmiş ayrı-ayrı dövlət səlahiyyətlərini reallaşdırmaqla, həmçinin dövlət hakimiyyət orqanlarının qəbul etdiyi qərarları həyata keçirməklə, qanuna uyğun olaraq yerli səviyyədə dövlət orqanlarının vəzifə və funksialarının həyata keçirilməsinə yardım göstərməklə dövlət hakimiyyət orqanları ilə qarşılıqlı münasibətlərdə olurlar.

Yerli özünüidarəetmə konstitusiyaya və qanunlara uyğun olaraq həyata keçirilir.

Yerli idarəetmə 21-ci əsrdə demokratiyanı təcəssüm etdirən ən mühüm qurumlar hesab olunurlar. Yerli idarəetmələrin demokratik dəyərlərə əsalanması onların xidmət göstərən idarəetmə qurumlarına çevrilməsini zəruri edən ən mühüm amildir [2, səh. 9].

Özünüidarə ərazi birliyinin, təşkilatın və ya kollektivin işlərinin onların üzvləri tərəfindən müstəqil olaraq seçkili orqan vasitəsilə və ya bilavasitə (yığıncaq, referendum və sairin köməyi ilə) ifadə edilməsidir. Özünüidarənin əsas əlamətləri aşağıdakılardır: - hakimiyyətin əhaliyə, yaxud müvafiq ərazinin seçicilərinə, ictimai təşkilatın, kollektivin üzvlərinə məxsus olması; daxili həyati məsələlərin həllində müstəqillik, kənardan təyin edilən orqanların olması. Yerli özünüidarə yerlərdə dövlət idarəçiliyi növlərindən biri olmuşdur. Bu zaman inzibati ərazi vahidinin əhalinin yerli işləri dövlətin müəyyən etdiyi hüquqlar hüdudunda müstəqil olaraq idarə edir (seçkili orqan vasitəsilə, yaxud bilavasitə). İlk dəfə özünüidarəetmə sistemi Qərbi Avropada burjua inqilabları nəticəsində tətbiq edilmişdir. Yerli özünüidarəetmə orqanlarının hüquqlarının genişləndirilməsi müasir kapitalist dövlətlərində ümumdemokratik tələblər sırasında durur. Azərbaycan Respublikasının Konstitusiyasının 143-cü maddəsində bələdiyyələrin işinin təşkili öz əksini tapmışdır. Həmin maddədə deyilir: Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirir. Bələdiyyənin iclaslarını bələdiyyənin sədri çağırır. Ümumiyyətlə, bələdiyyə haqqında danışarkən birinci növbədə bələdiyyənin nə olduğunu bilmək daha da məqsədəuyğun olardı. Bələdiyyə vətəndaşlara yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst həll etmək imkanı verən yerli özünüidarə formasıdır. Hər bir bələdiyyə müstəqildir və özünün əmlakına, büdcəsinə və seçkili orqanlarına malikdir. Bələdiyyələr sosial, iqtisadi, ekoloji və digər yerli əhəmiyyətli məsələlərin həlli ilə məşğul olurlar. Bələdiyyələrin sanitariya müəssisələrinin təşkili, adamların peşələri üzrə təmin olunmasına kömək göstərilməsi və sair bu kimi müxtəlif proqramlar qəbul edib həyata keçirən səlahiyyətləri vardır. Bələdiyyə seçki yolu ilə təşkil olunan bələdiyyə şuraları vasitəsi ilə idarə edilir. bələdiyyə şuraları bələdiyyə əhalisinin sayından asılı olaraq 5-dən 19-dək üzvdən ibarət olur. Bələdiyyə şuraları bələdiyyələrə aid qərarlar qəbul edir. Bələdiyyələrin qərarları Konstitusiyanın 145-ci maddəsində göstərilmişdir. Bu qərarlar aşağıdakılardan ibarətdir: - bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir; - bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir; - yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Bələdiyyələrin öz səlahiyyəti daxilində qəbul etdiyi qərarlar bələdiyyə ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən icra olunmalıdır. Bələdiyyələrin qərarları onları qəbul etmiş orqanlar tərəfindən ləğv oluna və ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər. Bələdiyyə üzvləri seçildikdən və bələdiyyə nizamnaməsi qeydiyyata alındıqdan sonra siz yerli özünüidarənin həyata keçirilməsində müxtəlif üsullarla

iştirak edə bilərsiniz: - yerli referendumda iştirak; - vətəndaşların yığıncaqlarında iştirak; - bələdiyyə əhalisinin ehtiyacları barəsində bələdiyyə üzvlərini məlumatlandırmaq; - yerli məsələlərlə bağlı yerli komitələrin assosiasiyaların, xeyriyyə təşkilatlarının işinə cəlb olunmaq.

«Bələdiyyədən şikayət hüququ». Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliklərindən) qanunla müəyyənləşdirilmiş qaydada məhkəməyə şikayət verilə bilər. Bələdiyyə üzvlərinin aşağıdakı vəzifələri vardır: - vətəndaşların ehtiyaclarını öyrənmək üçün onlarla ünsiyyətdə olmaq; - əhalinin ehtiyaclarını müzakirə etmək üçün ayda azı bir dəfə yığıncaq keçirmək; - hansı ehtiyacın ilk növbədə təmin olunacağını səs çoxluğu ilə qərara almaq; - 6 ayda bir dəfədən az olmayaraq seçicilərə hesabat vermək.

Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərlə, bərabər münasibətlərlə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, fərmanlara, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

Bələdiyyələrin nizamnaməsi

Bələdiyyənin nizamnaməsi bələdiyyənin iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilir. Bələdiyyə nizamnaməsi Azərbaycan Respublikasının qanunu ilə müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatına alınmalıdır. Bələdiyyə nizamnamələrinin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları bələdiyyələrin təşəkkülü və inkişafı üçün zəruri hüquqi, təşkilati və maddi – maliyyə şəraiti yaradır və yerli özünüidarə hüququnu həyata keçirməkdə əhaliyə kömək göstərir.

Yerli özünüidarəetmə orqanları və onların vəzifəli şəxsləri sosial tədbirlərin maliyyələşdirilməsi, sosial infrastrukturun fəaliyyətinin təşkili, işçilərə büdcədən əməkhaqqının verilməsi, ərazidə yaşayan əmək qabiliyyəti olmayan vətəndaşlara pensiya və müavinətlərin verilməsi və nəhayət, əhatə olunan mühitin ekologiyaya məruz qalması və digər bu kimi hallarda (xalq qarşısında öz etimadlarını doğrultmadıqda, mövcud Nizamnamənin şərtlərinə əməl etmədikdə) ciddi məsuliyyət daşıyırlar [4, səh 112].

Bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun bu Qanunla və bələdiyyənin nizamnaməsi ilə müyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir.

Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata kecirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bələdiyyənin nizamnaməsi ilə müyyən edilir.

Azərbaycanda həyata keçirilən əks – mərkəzləşdirilmə siyasətinin əsas məqsədi dövlət idarəetməsi əsaslarının demokratikləşdirilməsindən, ölkənin sosial - iqtisadi inkişafının həm cari, həm də perspektiv məsələlərinin həllinə uyğun səviyyədə dövlətin öz funksiyalarının səmərəli şəkildə yerinə yetirilməsinə şərait yaratmaqdan və real inkişaf etdirilməsindən ibarətdir. Yerli özünüidarəetmə sisteminin formalaşdırılması prosesi ölkədə demokratiyanın inkişafı kimi qiymətləndirilməlidir. Bələdiyyələr qanunvericiliklə onlara verilmiş ayrı-ayrı dövlət səlahiyyətlərini reallaşdırmaqla, qanuna uyğun olaraq dövlət hakimiyyət orqanlarının qəbul etdiyi qərarları həyata keçirməklə, dövlət orqanlarının vəzifə və funksiyalarının həyata keçirilməsinə yardım göstərməklə hakimiyyət orqanları ilə qarşılıqlı münasibətlərdə olurlar. Yerli özünüidarəetmə sistemində qanunçuluğa əməl olunması ilə bərabər dövlət yerli özünüidarəetməyə zəmanət verir.

Yerli özünüidarəetmə orqanlarına və vəzifəli şəxslərin fəaliyyətində qanunçuluga əməl olunması dövlət orqanı Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi tərəfindən həyata keçirilir. Bələdiyyələrin təşkili və fəaliyyətində qanunçuluğa əməl olunmasına bələdiyyənin nümayəndəli orqanı tərəfindən nəzarət edilir.

Yerli əhəmiyyətli, əhalinin maraqlarına əsaslanaraq tarixi və digər yerli ənənələri nəzarə almaqla Qanun yerli özünüidarəni xalqın öz səlahiyyətlərini həyata keçirməsinin, qanunla müəyyən edilmiş hədlər daxilində birbaşa və yerli özünüidarəetmə orqanları vasitəsi ilə müstəqil və məsuliyyəti ilə həllini təmin edən bir forma kimi müəyyən edir.

Bu tərif Avropa Yerli özünüidarəetmə Xartiyasının müddəalarına uyğundur, ona görə yerli özünüidarə yerli özünüidarəetmə orqanlarının qanun çərçivəsində və öz məsuliyyətləri altında tənzimləmə və idarəetmə hüququ və real qabiliyyətidir.

Avropa Şurası (AŞ) hüquqlarının reallaşmasına kömək edən və demokratik təsislatların müdafiəsi ilə məşğul olan hökumətlərarası siyasi təşkilat kimii 1949-cu ilin may ayında yaradılmışdır. Hal-hazırda bu təşkilat 47 ölkəni, o cümlədən, Cənubi Qafqaz respublikalarını özündə bilrəşdirir. AŞ-nın fəaliyyətinin əsas istiqamətlərindən birini demokratik institutların vacib elementi olan yerli özünüidarənin prinsip və ideyalarının inkişafı təşkil edir [3, səh. 48].

Bələdiyyə hakimiyyətinin və ya yerli özünüidarəetmənin dövlətdə yerinin iki əsas aspekti var: bir tərəfdən yerli özünüidarə yerli səviyyədə həyat təminatı sisteminin inzibati təşkili formasıdır və bu şəkildə dövlət hakimiyyəti ilə oxşardır, digər tərəfdən dövlət orqanları arasında səlahiyyətlərin federal bölgüsünə bənzəyir, lakin yerli özünüidarənin müstəqilliyinə görə bu belə deyil.

Dövlət hakimiyyəti ilə yerli özünüidarəetmə arasında münasibətlərin müxtəlif modelləri həm də dövlət və yerli hakimiyyət orqanları arasında iqtisadi qarşılıqlı əlaqənin müxtəlif növləri ilə xarakterizə olunur. Yerli özünüidarə ilə dövlət arasında bu formada münasibətlər, bir qayda olaraq, tərəflərin bərabərliyi prinsipinə əsaslanır. Lakin onların bunu yalnız dövlətin onlar üçün müəyyən etdiyi hədlər daxilində idarəetmə hüququ vardır. Dövlət orqanları büdcə sahəsində yerli özünüidarəyə ciddi nəzarət edir. İqtisadi sahədə verilmiş səlahiyyətlərin yerinə yetirilməsinə görə məsuliyyət müəyyən edilib. Dövlət iqtisadi sahədə yerli əhəmiyyətli məsələlərin həllinə müdaxilə etmək hüququnu təmin etmişdir. Yerli özünüidarəetmə orqanlarının bələdiyyə daxilində fəaliyyətinin və onların yerli səviyyədə səlahiyyətlərinin həyata keçirilməsi bələdiyyə idarəçiliyində dövlət hakimiyyətinə yaxınlığını müəyyən edir.

Bələdiyyə mülkiyyəti yerli özünüidarənin iqtisadi bazasının elementlərindən biri kimi yerli özünüidarəetmə orqanlarının sosial funksiyalarını yerinə yetirmək üçün resurs bazasını təşkil edir.

Bu gün yerli özünüidarənin rolu təkcə yerli səviyyədə deyil, həm də qlobal səviyyədə tanınır.

Yerli özünüidarə, xarici mənbələrin sübut etdiyi kimi, ayrı-ayrılıqda nəzərdən keçirilə bilməz, yalnız bütün dövlət sisteminin bir hissəsidir. Yerli özünüidarəetmə orqanları dövlətin və bütövlükdə cəmiyyətin mənafeyinə toxunan siyasi məsələləri həll edə bilmirlər, çünki onlar bələdiyyələrin və onların tərkib hissəsi olan inzibati-ərazi qurumlarının yerli problemlərinin həlli ilə bağlı deyildir. Bir çox ölkələrin təcrübəsi göstərir ki, inkişaf prosesinin inistitusional dəstəyinin və bələdiyyə mülkiyyətindən səmərəli istifadənin ən səmərəli variantlarından biri bu obyektlərin maliyyələşdirilməsinə və konsensus əsasında idarə olunmasına özəl kapitalın cəlb olunmasıdır.

Yerli özünüidarəetmənin müxtəlif formaları, yerli idarəetmənin təşkilində dövlət idarəetməsi və yerli özünüidarəetmə orqanlarının birləşməsi, müəyyən bir ölkənin tarixi, coğrafi və demoqrafik xüsusiyyətləri, siyasi rejimi və hüquqi sistemi ilə müəyyən edilir.

Bələdiyyə tərəfindən müəyyən vətəndaşlar kateqoriyasına yerli sosial müdafiə proqramları əsasında dövlət sosial təminatlar müəyyən edir.

Xarici ölkələrin təcrübəsi göstərir ki, bələdiyyələrin hüdudlarının dəyişdirilməsi, onların ləğvi, birləşməsi məsələləri maraqlı bələdiyyələrin və əhalinin rəyi nəzərə alınmaqla qanunvericiliklə həll edilməlidir.

İnkişaf etmiş ölkələrdə yerli özünüidarə demokratik quruluşun və vətəndaşların idarə sisteminə cəlb olunmasının ilkin göstəricisi sayılır.

İnkişaf etmiş dünya ölkələrinin yerli özünüidarənin müasir prinsipləri aşagıdakılardır:

- Qərarlarının sərbəst qəbul olunması;
- Təşkilati xüsusiyyətlər;
- Nümayəndəli demokratiyaya və vətəndaşların birbaşa iradə azadlığına qovuşması;

- Yerli özünüidarənin üst-üstə düşən maliyyə və maddi resurslarının olması.

Yerli özünüidarəetmənin nəzəri və hüquqi əsasları respublikamızda fəal regional siyasətin formalaşması və inkişafında, vətəndaşların hüquqlarının mühafizə və təminatında mühüm rol oynayır.

Bələdiyyələrin sosial, ekoloji mühiti daha ətraflı inkişaf etdirmək üçün inkişaf proqramlarının hazırlanması məqsədəuyğun olardı. Bələdiyyələrin yerli ekoloji proqramlarında məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsidir. Həmin proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaşıllaşdırılması və abadlaşdırılması, məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi, emalı və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görülməsi, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər. Bələdiyyələr dövlətin ekoloji proqramları ilə yerli ekoloji proqramların əlaqələndirilməsinə, müəyyən hallarda birgə tədbirlərin həyata keçirilməsinə yardım göstərirlər.

Dövlət və yerli özünüidarəetmə orqanları arasındakı münasibətlərin ikinci forması maliyyə - iqtisadi münasibətlərdir. Əgər təşkilati - hüquqi münasibətlər dövlət və yerli özünüidarəetmə orqanları arasında əlaqələrin ümumi strukturunu və ya sistemini yaradırsa, maliyyə - iqtisadi münasibətlər bu sistemin fəaliyyətinin maddi təminatçısı funksiyasını həyata keçirir. Hansı formal statusa və hansı səlhiyyətlərə malik olmasına baxmayaraq, əgər yerli hakimiyyət kifayət qədər maddi – maliyyə resurslarına malik deyilsə, real olaraq müstəqil idarəetmə hakimiyyətinə çevrilə bilməz [3, səh. 267].

Ölkədə gedən dinamik inkişaf, iqtisadiyyatın intensiv modernləşməsi ictimai şüurun daha da demorkatikləşməsinə təkan vermişdir. Son illər ərzində həyata keçirilmiş genişmiqyaslı və ardıcıl iqtisadi islahatlar əhalinin rifah halını yüksəltmiş, insanları daha sərbəst etmiş, onlarda cəmiyyətin bərabərhüquqlu üzvü olması hissini formalaşdırmış və möhkəmləndirmişdir. Bələdiyyələr də bu proseslərin böyük əksəriyyətinin bilavasitə iştirakçısı kimi Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması və demokratik prinsiplərin tətbiqi işinə öz paylarını vermişlər və bu iş davam etməkdədir [5, səh. 155].

Son dövrlərdə bələdiyyələrin inkişafı ölkə başçısı cənab İlham Əliyevin diqqətində olmuş, onların səlahiyyətlərinin artırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Yerli özünüidarə sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dövlət tərəfindən diqqətlə yanaşılmış, yeni normativ-hüquqi aktlar qəbul edilərək mövcud təcrübənin yaxşılaşdırılmasına xüsusi önəm verilmişdir. Son illər regionların və muxtar respublikanın sosial-iqtisadi inkişafına dair, eləcə də ayrı-ayrı sahələrlə bağlı qəbul edilmiş Dövlət Proqramlarında bələdiyyələr üçün müəyyən edilmiş istiqamətlər onların daha yaxşı səfərbər olmasına, yerli əhəmiyyətli məsələlərin həllində, abadlıqquruculuq işlərində fəallıq göstərməsinə, işgüzarlıq meyillərinin artmasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikasında yerli özünüidarəetmə institutunun yaradılması və onlara verilən imtiyazlar da dövlətin öz xalqının rahat yaşayışını təmin etmək məqsədinə xidmət edir. Bu məqsədlə muxtar respublikamızda yerli özünüidarəetməni həyata keçirən bələdiyyə fəaliyyətinin inkişafına xüsusi qayğı ilə yanaşılır.

Nəticə

Azərbaycan yerli özünüidarəetmə orqanları inkişaf etmiş xarici ölkələrin yerli özünüidarəetmə sisteminin təcrubəsindən istifadə etməli, Azərbaycan bələdiyyəsinin inkişaf tendensiyalarını yüksəltməlidir.

Bələdiyyələrin öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlar təşkilati-hüquqi formasından asılı olmayaraq, bələdiyyənin ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən icra edilməlidir.

O, Azərbaycan Respublikasının Konstitusiyası ilə və bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının qanununun səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil olaraq həll edir. Yerli əhəmiyyətli məsələlər Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilən məsələlərdir. Yerli sosial müdafiə proqramları bələdiyyə tərəfindən müəyyən edilən vətəndaşlar koteqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatları müəyyən etməklə həmin təminatlar mütəmadi və birdəfəlik ola bilər.

Respublikamızda fəal regional siyasətin formalaşması və inkişafında və yoxsulluğun azadılması və iqtisadı inkişafın təmin edilməsində, vətəndaşların hüquqlarının mühafizəsi və təminatında, işsizliyin azaldılması, həyat səviyyəsinin yüksəlməsi və sosial problemlərin həllində rayon və şəhər bələdiyyələri mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Bələdiyyələr haqqında sənədlər toplusu, “Qanun”. Bakı, 2008
2. Səbuhi Yusifov, Vüqar İsamayılov, Azər Hüseyn. Yerli özünüidarəetmə, Bakı, 2016
3. İbrahimov İ.A. “Bələdiyyə idarəçiliyinin beynalxalq təcrübəsi”. Bakı, 2014
4. Aqil Əliyev, Əbülfəz Qasımov, Vidadi Zeynalov, Zakir Cəfərov, Bələdiyyələrə elmi-metodiki kömək, Bakı, 2002, səh. 112
5. İbrahimov İ.A. “Bələdiyyələrin kadr problemləri və onların həlli yolları”. “Dövlət idarəçiliyi”, 2010, N 4, s.154-158

Кубра Мухтар кызы Гулузаде,
Магистрант
Q.kubra91@gmail.com

Фируза Наджаф кызы Алиева,
Доктор Философии по экономическим наукам
Азербайджанский Университет Кооперации
доцент кафедры «Организация бизнеса, государственного и муниципального управления»

Нормативные основы деятельности муниципальных образований и правила организации муниципальных органов

Резюме

Цель исследования изучить теоретические вопросы деятельности муниципальных образований, определить этапы развития, изучить и оценить нормативные основы деятельности муниципальных образований.

Методология исследования. В исследовательской работе использовались методы анализа и обобщения с целью более эффективного исследования темы.

Прикладная значимость исследования. Используя проведенные в ходе исследовательской работы исследования, можно определить нормативные основы деятельности муниципальных образований и перспективы применения практики местного самоуправления.

Результаты исследования. Исследование показывает, что основными принципами местного самоуправления являются определение нормативных основ муниципальной деятельности и оценка правильного применения нормативно-правовых основ при организации муниципальных органов.

Оригинальность и научная новизна исследования. В статье обосновано, что местное самоуправление имеет важное значение в формировании и развитии активной региональной политики в нашей республике, в избавлении от бедности и обеспечении экономического развития.

Ключевые слова: муниципалитет, самоуправление, право, сравнение, действие, власть.

Kubra Guluzade,
Master's student
O.kubra91@gmail.com

Firuza Najaf Aliyeva
Azerbaijan Cooperation University
Associate Professor of the Department of "Business Organization, State and Municipal Administration" PhD in Economics

Normative bases of activities of municipalities and rules of organization of municipal bodies

Summary

The purpose of the study is to investigate the theoretical issues of municipalities, to determine the stages of development, to investigate and evaluate the normative bases of the activities of municipalities.

Methodology of the research In the research work, the methods of analysis and generalization were used for the purpose of more effective investigation of the topic.

Application importance of the research Using the research carried out in the research work, it is possible to determine the normative bases of the activity of municipalities and the perspectives of the application of the practice of local self-governance.

Results of the research The research shows that the main principles of local self-government are the determination of the normative bases of municipal activity and the evaluation of the correct application of the normative legal bases in the organization of municipal bodies.

Originality and scientific novelty of the research. The article substantiates the fact that local self-government is of great importance in the formation and development of an active regional policy in our republic, in the elimination of poverty and in ensuring economic development.

Key words: municipality, self-government, legal, comparison, action, authority.

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Kooperasiya Universitetinin “Kooperasiya” elmi-praktitki jurnalında çap olunmaq üçün məqalə təqdim olunarkən aşağıdakı şərtlər nəzərə alınmalıdır.

- *Məqalələr üç dildə - Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə, digər iki dildə xülasəsi bu şəkildə verilməlidir.*
  Tədqiqatın məqsədi –
  Tədqiqatın metodologiyası –
  Tədqiqatın tətbiqi əhəmiyyəti –
  Tədqiqatın nəticələri –
  Tədqiqatın orijinallığı və elmi yeniliyi –
  Açar sözlər – ən azı 5 söz yazılmalıdır.
- *Xülasələrdə həmçinin, UOT indeksi, müəllifinin adı, soyadı, atasının adı, elmi dərəcəsi, işlədiyi təşkilatın adı, vəzifəsi, mail adresi hər üç dildə dəqiq göstərilməlidir (hər biri açıq şəkildə qeyd olunmalıdır).*
- *Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl kodlaşdırma üsulu ilə göstərilməlidir.*
- *Məqalədə 2 yarımbaşlığın verilməsi mütləqdir.*
- *Məqalələrin mətnləri 1 intervalla, Times New Roman - 12 ölçülü şriftlərlə, 8-10 səhifə olmalıdır.*
- *Məqalənin elektron və çap olunmuş variantı ayrıca faylda təqdim edilməlidir.*

Bu tələblərə cavab verməyən məqalələr çap edilməyəcəkdir.

QEYD: Bu şərtlər müəyyənləşdirilərkən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərə verdiyi tələblər əsas götürülmüşdür.

Çapa imzalanmışdır: 12.06.2025
Format: 60x84, 1/8
Fiziki çap vərəqi: 28,75
Tirajı: 300 nüsxə

Jurnal Azərbaycan Kooperasiya Universitetinin
nəşriyyat-mətbəə şöbəsində yığılıb səhifələnmiş
və çap edilmişdir.
Ünvan: AZ1106, Bakı şəhəri, Nərimanov rayonu,
Nəcəf Nərimanov küçəsi 93.